“Kooperasiya” elmi-praktiki jurnal

Научно-практический журнал “Кооперация”

Scientific-practical journal “Cooperation”

Jurnal 2005-ci ilin yanvar ayından çıxır.
№ 1 (76)-2025

TƏSİSÇİ: AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİ

Redaksiya heyəti:

i.e.d., prof. Eldar QULİYEV **(baş redaktor)**
i.e.d., prof., Əməkdar elm xadimi, Bəyalı ATAŞOV
(baş redaktorun müavini)
i.e.n., dos. Samirə MƏMMƏDOVA **(məsul redaktor)**
i.e.d., prof. AMEA-nın həqiqi üzvü Ziyad SƏMƏDZADƏ
i.e.d., prof. AMEA-nın müxbir üzvü Əli NURİYEV
i.e.d., prof. Eldar İBRAHİMOV
i.e.d., prof. Vüsal QASIMLI
i.e.d., prof. Zahid MƏMMƏDOV
i.e.d., prof. Rəsul BALAYEV
i.e.d., prof. Aygün QULİYEVA
i.e.d., prof. İslam İBRAHİMOV
i.e.d., prof. Şəfa ƏLİYEV
i.e.d. Murad Tağıyev
f.e.d. Müslüm Nəzərli
i.e.d., dos. Rəsmiyyə ABDULLAYEVA
i.e.d., dos. Möhübbət HÜSEYNOV
i.e.n., dos. Tahir ŞÜKÜROV
i.e.d., prof. Müslüm İbrahimov
(Almaniya Federativ Respublikası)
i.e.d., prof. Aleksandr Tkaç
(Rusiya Federasiyası)
Dr. Mustafa Emek
(Türkiyə Cümhuriyyəti)

Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 15 mart 2005-ci il tarixdə №1250 ilə qeydə alınmış, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 6 iyul 2012-ci il tarixli (protokol №10-R) qərarı ilə İqtisadiyyat elmləri üzrə “Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərin siyahısı”na daxil edilmişdir.

2023-cü ilin 4-cü nömrəsindən başlayaraq jurnala Rəqəmsal Obyekt İdentifikatoru (DOİ) verilmişdir.

Redaksiyanın ünvanı:
AZ1106, Bakı şəhəri, Nərimanov rayonu, Nəcəf Nərimanov küçəsi 93.
tel: 562-25-43, 562-74-24, faks: (+99412) 5614134
e.mail: aku1964@mail.ru
info@aku.edu.az
web: www.aku.edu.az

Materiallarımızdan istifadə olunarkən jurnala istinad etmək vacibdir.
Tirajı 300 ədəd

Texniki redaktor: Əhməd ZİYƏDDİNOĞLU
Kompüter və dizayn: Hacı İSMAYILOV

MÜNDƏRİCAT

I BÖLMƏ.
İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ BƏRPA İŞLƏRİ, EKOLOJİ YENİDƏNQURMA

Vilayət İ. İSMAYILOV
İşğaldan azad edilmiş ərazilərdə abidələrin bərpası, qorunub saxlanılması və səmərəli istifadə prioritetləri 5
https://doi.org/10.30546/4.71.73001.2025.001.05

Vasif Balaxan oğlu HƏZİYEV
Qarabağda yaşıl innovasiyaların tətbiqi ilə ekoloji sistemin yenidən qurulması 18
https://doi.org/10.30546/4.71.73001.2025.001.18

II BÖLMƏ.
AZƏRBAYCANIN BANK SİSTEMİ, MALİYYƏ-KREDİT VƏ MÜHASİBAT UÇOTU PROBLEMLƏRİ

Ülvi Məhdut oğlu YAQUBOV
Azərbaycan bank sistemində aktivlərdən istifadənin qiymətləndirilməsi 26
https://doi.org/10.30546/4.71.73001.2025.001.026

Mehrab Mehdi oğlu KƏRİMLİ
Bank sistemində kapital strukturunun maliyyə nəticələrinə təsiri 32
https://doi.org/10.30546/4.71.73001.2025.001.032

Samir Fərman oğlu GÜLƏHMƏDZADƏ
Azərbaycanın bank təcrübəsində strateji planlaşdırmanın tətbiqinin və onun auditinin müasir vəziyyəti 40
https://doi.org/10.30546/4.71.73001.2025.001.040

Nicat Həmzə oğlu MURADOV
Aqrar sektorda maliyyə-kredit problemləri və onların həlli yolları 47
https://doi.org/10.30546/4.71.73001.2025.001.047

Mürvət Sahib oğlu ƏKBƏROV, Zəhra İsa qızı SƏMƏDOVA
İxrac potensialının artırılması üçün gömrük-tarif tənzimləmələrindən istifadə 55
https://doi.org/10.30546/4.71.73001.2025.001.055

Rauf Əflatun oğlu NURİYEV
Kommersiya banklarında daxili auditin metodikasının təkmilləşdirilməsi 62
https://doi.org/10.30546/4.71.73001.2025.001.062

Türkan Azər qızı AZƏRİ
Mühasibatlıq təlimatları: sənədləşmələr və auditoriya standartları 70
https://doi.org/10.30546/4.71.73001.2025.001.070

III BÖLMƏ.
İSTEHLAK MALLARI BAZARI, MARKETİNQ

Tahir Şükür oğlu ŞÜKÜROV, Aytən Akif qızı ŞÜKÜROVA
İstehlak malları bazarının xüsusiyyətləri və marketinq tədqiqi.....79
https://doi.org/10.30546/4.71.73001.2025.001.079

Elşən Rövşən oğlu CƏBRAYILZADƏ, Müslümat Allahverdi qızı ALLAHVERDİYEVA
Firmanın imicinin formalaşmasında ictimaiyyətlə əlaqələrin rolu.....87
https://doi.org/10.30546/4.71.73001.2025.001.087

IV BÖLMƏ.
MENECER ƏMƏYİ, BEYNƏLXALQ BİZNES VƏ BİZNES MÜHİTİNİN MÜASİR PROBLEMLƏRİ

Yasəmən Əli qızı ƏLİYEVA
Müasir dövrdə menecer əməyinin təşkilinin əsas istiqamətləri.....96
https://doi.org/10.30546/4.71.73001.2025.001.096

Murad Şahrza oğlu ƏLİYEV
Beynəlxalq biznesin tənzimlənməsi problemləri.....103
https://doi.org/10.30546/4.71.73001.2025.001.0103

Həmid Kamran oğlu ŞİRİNOV
Biznes mühitinin müasir problemləri və onların müəyyən edilməsi.....111
https://doi.org/10.30546/4.71.73001.2025.001.0111

Murad Nizaməddin oğlu ƏLİYEV
Aqrobiznesin iqtisadi mahiyyəti və onun öyrənilməsinə yanaşmalar.....119
https://doi.org/10.30546/4.71.73001.2025.001.0119

V BÖLMƏ.
AQRAR-ƏRZAQ KOMPLEKSİNİN İNKİŞAFI

Nizami Cəlal oğlu QAFAROV
Azərbaycanda yaşıl kənd təsərrüfatının zəruriliyi və onun ilkin şərtləri.....126
https://doi.org/10.30546/4.71.73001.2025.001.0126

Vilayət Abbas oğlu ƏLİYEV
Balıq konservlərinin zülal və lipid fraksiyalarının tədqiqatı.....137
https://doi.org/10.30546/4.71.73001.2025.001.0137

Gülər Telman qızı MƏMMƏDOVA, Elsevər FƏRZƏLİYEV
Narın insan orqanizminə sonsuz faydaları, qidalılıq dəyəri.....144
https://doi.org/10.30546/4.71.73001.2025.001.0144

VI BÖLMƏ.
RƏQƏMSALLAŞMA, İQTİSADİ İNKİŞAF, SAHİBKARLIQ FƏALİYYƏTİ

Teyyub Qəni oğlu ƏLİYEV, Şəms Teyyub qızı ƏLİYEVA
Rəqəmsal iqtisadiyyat: üstünlüklər, təhlükələr, risklər və təsir amilləri 152
https://doi.org/10.30546/4.71.73001.2025.001.0152

Ramil Teyyub oğlu ƏLİYEV, Sevda Faiq qızı MAHMUDOVA
Emal sənayesində fərdi sahibkarlıq fəaliyyətinin mövcud vəziyyəti 161
https://doi.org/10.30546/4.71.73001.2025.001.0161

Lalə Raqif qızı QULİYEVA
Biznes subyektlərinin rəqəmsallaşması: beynəlxalq təcrübə və rəqəmsal transformasiya strategiyalarının təhlili.....171
https://doi.org/10.30546/4.71.73001.2025.001.0171

Səmirə Şəmsəddin qızı QULİYEVA
Azərbaycanın iqtisadi inkişaf modeli: yeniləşmə yönümlülüyü problemi 178
https://doi.org/10.30546/4.71.73001.2025.001.0178

İsmayılşah Ələddin oğlu İSMAYILOV
İnkişaf potensialının ölkənin turizm sektorunun rəqabətqabiliyyətliliyinə təsiri 184
https://doi.org/10.30546/4.71.73001.2025.001.0184

Samirə Yaşar qızı MƏMMƏDOVA
Azərbaycanda infrastruktur inkişafının urbanizasiyaya və regional əlaqələrə təsirinin qiymətləndirilməsi.....193
https://doi.org/10.30546/4.71.73001.2025.001.0193

Nicat Surxay oğlu OCAQLI
Dünya təcrübəsində iqtisadi inkişaf proseslərinin optimallaşdırılması üsulları 201
https://doi.org/10.30546/4.71.73001.2025.001.0201

VII BÖLMƏ.
SOSİAL MÜNASİBƏTLƏT, SOSİAL PSİXOLOGİYA

Emin Əli oğlu ƏLİRZAYEV
Sosial inkişafın sosial müdafiə aspektində nəzəri-konseptual məsələlərinə Azərbaycan Respublikası prizmasından baxış.....209
https://doi.org/10.30546/4.71.73001.2025.001.0209

Elmar Afis oğlu HÜSEYNOV
Sosial psixologiyada psixoterapiyanın müxtəlif istiqamət və texnikalarının mövcudluğu 219
https://doi.org/10.30546/4.71.73001.2025.001.0219

Vəfa Zahid qızı İSGƏNDƏROVA
Data jurnalistika kontentinin hazırlanmasında kreativ yanaşmalar.....226
https://doi.org/10.30546/4.71.73001.2025.001.0226

I BÖLMƏ.
İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ BƏRPA İŞLƏRİ, EKOLOJİ YENİDƏNQURMA

UOT 33.332

Vilayət İ. İSMAYILOV
i.e.d., professor, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,
ismaylov1953@mail.ru
Orcid: 0000-0003-0892-0365
https://doi.org/10.30546/4.71.73001.2025.001.05

İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ ABİDƏLƏRİN BƏRPASI, QORUNUB SAXLANILMASI VƏ SƏMƏRƏLİ İSTİFADƏ PRİORİTETLƏRİ

Xülasə

Tədqiqatın məqsədi: Məqalədə müasir dövlətlərin praktikasında mədəni irsin qorunmasının əsas metod və modelləri müzakirə olunur, qanunvericiliyin xüsusiyyətləri və ictimai təşkilatların rolu müəyyənləşdirilir. Məqsəd Azərbaycanın işğaldan azad edilmiş ərazilərindəki tarixi, mədəni və dini abidələrin bərpası, qorunub saxlanılması və səmərəli istifadə prioritetlərinin aşkar edilməsi və təkliflərin verilməsidir.

Tədqiqatın metodologiyası: Tədqiqat işində müqayisəli təhlil, sintez və nəzəri mülahizələr metodlarından istifadə edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti: Mədəni irsin qorunması işində beynəlxalq əməkdaşlığın təşkilinin əhəmiyyətinə və bu sahədə beynəlxalq qanunvericiliyin əhəmiyyətinə xüsusi diqqət yetirilməsinin vacibliyi vurğulanır. İşğaldan azad edilmiş ərazilərdə tarixi, mədəni və dini abidələrin bərpa edilməsi, qorunub saxlanılması və onların gələcək nəsillərə ötürülməsi vacibdir. Bu məqsədlə dövlətin bütün zəruri işləri planlı şəkildə həyata keçirməklə xarici mütəxəssisləri dəvət etməsi vacibdir.

Tədqiqatın nəticəsi: Dünya təcrübəsi göstərir ki, müharibə və s. dağıdıcı proseslər nəticəsində ziyan dəymiş obyektlərin bərpası və qorunub saxlanması dövlətlər tərəfindən həyata keçirilir. Bu ərazilərdə ziyan dəymiş abidələrin bərpası, qorunması vacib şərtlərdəndir. Bu məqsədlə Azərbaycan da qeyd edilən istiqamətdə işləri planlı həyata keçirərək xarici ölkələrin təcrübəsindən səmərəli istifadədən yararlanmalıdır.

Tədqiqatın orijinallığı və elmi yeniliyi: Azərbaycanın işğaldan azad edilmiş ərazilərində tarixi, mədəni və dini abidələrin bərpası və qorunub saxlanmasında xarici mütəxəssislərin dəvət edilərək bu istiqamətdə işlərdə iştirakının məqsədəuyğunluğu qeyd edilir. Dünya Mədəni İrsin qorunması sahəsində əməkdaşlığın maddi praktik nəticələr verdiyi, o cümlədən dövlətlərin bu sahədə fəaliyyətinin yaxşılaşdırılması üçün təcrübə, aktual problemlər, elmi inkişaf və texnologiyalar mübadiləsi və s. imkanlardan düzgün yararlanmasının məqsədəuyğun olduğu göstərilir.

Açar sözlər*: *mədəniyyət, beynəlxalq mədəni əməkdaşlıq, mədəni irs, mədəni irsin qorunması, xarici təcrübə.

Giriş

İnsan həyatında, cəmiyyətdə, ətraf mühitdə qlobal dəyişikliklər, sosial-iqtisadi sahədə köklü dəyişikliklər, antropogen, ekoloji, texnogen xarakterli yeni təhdidlərin meydana çıxması ilə əlaqəli müasir şəraitdə Dünya Mədəni İrsi obyektlərinin qorunması mövzusu bu gün də aktualdır. Dünya Mədəni İrsinin bərpası və qorunub saxlanması probleminin hazırda ən vacib mövzulardan biri

olduğunu çox sayda elmi nəşr və konfranslar, geniş ictimai müzakirələrin olması, habelə Dünya Mədəni İrsinin qorunması üçün ictimai hərəkatların formalaşdırılması, beynəlxalq səviyyədə yeni normativ sənədlərin qəbul edilməsi sübut edir.

Dünya Mədəni İrs abidələri bir sıra vacib sosial funksiyaları yerinə yetirir. Onlar əhalinin ümumi mədəniyyətinin daha yüksək səviyyəyə qaldırılmasına kömək edir, böyük tərbiyəvi, maarifləndirici əhəmiyyətə malikdirlər. Mədəni İrs müasir elmin, mədəniyyətin, təhsilin qurulduğu, dövlətlər və xalqlar arasında mədəni mübadilənin həyata keçirildiyi millətin mənəvi sərvəti ilə müqayisə edilə bilər.

Bir çox tarix və mədəniyyət abidələri ölkələrinin bir növ simvoluna, həmçinin vizit kartına çevrilir: məsələn, insanların əksəriyyəti piramidaları Misirlə, Böyük Çin Səddini isə səma İmperiyası ilə əlaqələndirir. Xarici siyasət markası sahəsində tanınmış mütəxəssis Simon Anholtun fikrincə, mədəni irs hər bir ölkənin irsinin qlobal qavrayışını göstərir və onun müasir mədəniyyət səviyyəsinin qiymətləndirilməsini əhatə edir [2].

İkinci Dünya müharibəsi Avropanın bir çox ölkələrində şəhərlərin və kəndlərin simasını, orada yerləşən mədəni tarixi abidələrin görünüşünü əbədi olaraq dəyişdirdi. Müharibəyə cəlb edilmiş ərazilərdə baş vermiş dağıdıcı hadisələr nəticəsində müharıbə başa çatdıqdan sonra bir neçə on illər ərzində mədəni tarixi abidələrin bərpasını və tikintisini öz üslubu saxlanılmaq şərti ilə həyata keçirən mütəxəssislərin əsas vəzifəsi bu işlərin keyfiyyətlə icra edilməsindən ibarət idi [7]. Əgər həmin ölkələrdə avtomobil yolları, körpülər, dəmir yolları, müxtəlif məqsədli müəssisələr yenidən tikilə və bərpa edilə bilərdisə, mədəni tarixi abidələrin bərpası mütəxəssislər üçün olduqca çətin vəzifə idi. Nəticədə obyektlərin hətta qalıqları çox parçalanmış və dominantlıq əlamətləri tamamilə itirilmiş, yenilənməsi və keçmiş görünüşün qaytarılması üçün heç bir əsas qalmamışdır. Bütün bunlar itkisi bütövlükdə bəşəriyyət və xüsusən də hər bir xalq üçün faciəli olacaq güclü bir mədəniyyət təbəqəsidir. Məhz bu səbəbdən, məsələn, Varşava və Drezdendə olduğu kimi, mədəni dəyərlər "atəş xəttində" birinci oldu [5] və müharibədən sonrakı Kalininqradda olduğu kimi ideoloji müharibənin təsirinə məruz qaldı [9].

Müharibədən sonrakı ilk illərdə, bu istiqamətdə metodik ədəbiyyat olmadığı üçün mədəni tarixi abidə və obyektlərin bərpasının ümumi prinsipləri təcrübəli aparıcı mütəxəssislər tərəfindən tərtib edilmişdir. Bundan əlavə, qalmış son təbəqələrin çıxarılması imkanları da müəyyənləşdirildi, yəni formaların bəzi ierarxiyası təyin edildi [3, s .74-79]. Əlbəttə ki, bu, ən ümumi, nəzəri prinsipdir. Hər bir obyektin tədqiqi və bərpası prosesində xüsusi bir metodika hazırlanır. Bunlara da bir sıra amillər təsir göstərir: abidənin tikinti tarixi, saxlanılması, sonrakı elementlərin təhlükəsizliyi, elementlərinin miqdarı və keyfiyyəti, əvvəlki formalarla uyğunluğu, bərpaçı və rəyçinin şəxsiyyəti, bacarığı (istedadı) və s.

Mövcud ədəbiyyatlara istinad

Bəllidir ki, elmi bərpa metodologiyasında məhz abidənin tarixi aspekti prioritet hesab olunur [6, s.15-42]. Nəhayət, unudulmamalıdır ki, Böyük Vətən müharibəsi illərində tarixi abidələrin bir çox elementləri və konstruksiyaları (örtüklər, dekorasiya) məhv edilmiş və ya zədələnmişdir və onların yenidən qurulması hər halda mübahisəli olardı və onlar özləri artıq orijinal hesab edilmirlər. Bu elmin bütün aspektləri arasında-tədqiqat, dizayn və tikinti dövrləri arasında harmoniya əldə edildi, hətta bəzi hallarda abidənin elementləri arasında tarixi və bədii aspektlər qorunub saxlanıldı. Məsələn, Rusiyanın Novqorod mütəxəssislərinin bir neçə nümunəvi işini xatırlayaq. Böyük Vətən müharibəsi illərində ciddi ziyan çəkmiş Kojevnikidəki Pyotr və Paul kilsəsi (L.M. Şulyak, G.M.Ştender, 1955-1958-ci illər) XVI və XVIII əsrlərdə yenidən qurulmuş və bərpa zamanı öz görünüşünü qoruyub saxlamışdır. Son illərin bərpası, bir qayda olaraq, Moskva və ya Sankt-Peterburq mütəxəssisləri tərəfindən həyata keçirilir və burada görülən böyük işlər İver monastır kompleksi, Kremldəki Lordlar Palatasıdır. Bu işlər bir sıra iddialar və ya suallar doğurur: müəyyən hərəkətlər və əməliyyatlar necə əsaslandırılmışdır, onlara ehtiyac nədir. Bərpa işləri üzrə hesabat olmadıqda (və bu tez-tez olur) işin metodologiyasını başa düşmək demək, olar ki, mümkün deyildir. Bu vəziyyətdə, XXI əsrin bərpası və ya, daha doğrusu, “bərpa” nəticəsində abidənin

həqiqiliyinin (tam bütövlüyünün) azaldılması məsələsini qaldırmaq olar [5, s. 1-3].

Fikrimizcə, faktlar və verilən nümunələr göstərir ki, XX əsrdə bərpa tədbirləri prosesində abidələrin həqiqiliyi, bir qayda olaraq, artmışdır, lakin cari əsrdə əks tendensiya müşahidə olunur. Təcili olaraq mədəni tarixi abidələrin bərpası qaydaya salınmalıdır, əks halda son ixtisaslı mütəxəssislər də bu sahədən uzaqlaşacaq, elmi bərpa nəzəriyyəsi və metodologiyasını sıfırdan yenidən yaratmalı olacaqlar.

Y.Q.Bobrov qeyd edir ki, müasir nəzəri tədqiqatların aparıcı istiqamətlərindən biri konservasiya və bərpa fəaliyyətində hər hansı bir şərh və subyektivliyin qarşısını alacaq bu cür reqlamentlərin axtarışı hesab edilir. Həqiqətən, bu cür fikirlər - istənilən əsəri və ya mədəniyyət abidəsini daha geniş mənada bərpa özbaşınalığından qorumağa və onların həqiqiliyini saxlamağa xidmət edir. Bu məqsəd təbii olaraq barışıq nöqtəsidir, birmənalı həll yollarının mümkünlüyü illüziyasını yaradan bir növ konsensusdur [3, s.31-39].

L. Farelli bu istiqamətdə apardığı tədqiqatlarında müasir CAPR texnologiyaları, həmçinin memarlıq modelləri və planları yaratmaq üçün illüstrasiyalardan ictifadə edilməsinin mümkünlüyünü qeyd edir [4].

Memarlıq abidələrinin tam bərpası nəzəri cəhətdən onun formaları, ölçüsü, təbiətdən çıxarılan xarici toxumanın təbiəti-abidənin özü, əsli-yeni formanın etibarlılığını müəyyənləşdirən və istirahətin əsas meyarı olan mübahisəsiz məlumatlar olduqda mümkündür. Lakin Bobrov düzəliş edir ki, yalnız "sənəd orijinal olmalıdır, onun surəti isə yalnız etibarlı ola bilər", yəni "yenidən yaradılmış… forma yalnız etibarlı şəkildə bərpa edilə bilər, lakin orijinal deyil" [3, s.123]. Orijinallığın dəyəri xarici mütəxəssislər tərəfindən də qəbul edilir. Beləliklə, hələ XIX əsrdə C. Reskin iddia edirdi ki, "memarlığın əsas üstünlüklərindən biri onun tarixi məzmunudur və sonuncu qismən üslubların davamlılığından asılı olduğundan, texnologiyanın inkişafı şəraitində də əvvəlki dövrlərin materiallarına və prinsiplərinə əsaslanan formaları mümkün qədər uzun müddət qorumaq istəyində qalacaq"dır [8, s. 92].

Material və metodlar

1972-ci ildə UNESCO "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" Konvensiyanı qəbul etmiş və 1975-ci ildə qüvvəyə minmişdir. Bu Konvensiya mədəni irs obyektlərinin qorunması məsələsində əsas əhəmiyyət kəsb edir. Konvensiyanın şərtlərində müasir şəraitdə mədəni irsin yalnız ənənəvi məhv formalarından deyil, həm də cəmiyyətin müasir sosial-iqtisadi quruluşu ilə əlaqəli qorunmasının vacibliyi vurğulanır ki, bu da mədəniyyət əsərlərinin qorunması üçün təhlükə yarada bilər. 2016-cı ilin oktyabr ayına qədər Konvensiya 193 iştirakçı ölkə tərəfindən ratifikasiya olunmuşdur [13].

Bundan əlavə, bu istiqamətdə xüsusi əhəmiyyət kəsb edən bir sıra digər sənədləri də qeyd etmək olar. Məsələn, abidələrin və görməli yerlərin qorunması və bərpası üzrə Venesiya Xartiyasında (1964) abidənin "sənət əsəri və tarixin şahidi" kimi qorunmasının əsas prinsipləri müəyyən edilmiş, tarixi abidənin dəqiq tərifi UNESKO-nun "tarixi ansamblların qorunması və müasir rolu haqqında" (1976) tövsiyəsində tarixi və ənənəvi ansambllar müəyyən edilir. Tarixi şəhərlərin qorunması üzrə beynəlxalq Xartiya (1987) şəhərlərin memarlıq irsinin şəhərləşmə prosesləri nəticəsində deqradasiya, dağılma və məhv təhdidlərindən qorunması prinsipini elan edir. Abidələrin və tarixi yerlərin mühafizəsi üzrə Beynəlxalq Şura (ICOMOS) "Valletta prinsipləri" (2011) adlı bir sənəd qəbul etmiş, bu sənəddə Şəhər mədəni və tarixi irsinin şəhərləşmə proseslərindən qorunmasının zəruriliyi ifadə edilmişdir. Qeyd edək ki, 1979-cu ildə ICOMOS, Icomos Vəqfinin qurucusu Piero Gazzola mükafatını təsis etdi, bu mükafat tarix və mədəniyyət abidələrinin qorunmasına verdiyi görkəmli töhfələrə görə hər üç ildən bir verilir.

Qeyd edək ki, hər il mütəmadi olaraq Dünya İrs Komitəsinin sessiyaları keçirilir. Bu sessiyalarda dünya ölkələrində yerləşən və onlar tərəfindən siyahısı bu təşkilata göndərilən mədəni və təbii irs obyektlərinə "Dünya İrs Obyekti Statusu" verilməsi məsələlərinə baxılır. Bu statusa uyğun gələn obyektlərə "Dünya İrs Obyekti Statusu" verilir. Bu status verilmiş obyektlərin (təbii irs obyektləri) bir sıra mühüm üstünlükləri vardır ki, bunlara da aşağıdakılar aid edilir:

- unikal təbii komplekslərin qorunub saxlanılmasına və bütövlüyünə əlavə təminatın verilməsi;
- ərazilərin və onları idarə edən müəssisələrin nüfuzunun artırılması;
- siyahıya daxil edilmiş obyektlərin populyarlaşmasına və təbiətdən istifadənin alternativ növlərinin, ilk növbədə ekoloji turizmin inkişafına imkanların yaradılması;
- dünya mədəni və təbii irs obyektlərini dəstəkləmək üçün ilk növbədə, Dünya İrs Fondu hesabına maliyyə vəsaitlərinin cəlb edilməsi prioritetinin təmin edilməsi;
- təbii obyektlərin mühafizəsinin vəziyyətinə monitorinq və nəzarətin təşkilinə imkanın yaradılması.

2007 -ci ildə Omanda ərəb oriksinin rezervatı (ağ oriks üzərində davam edən ovlanma və qoruq ərazilərinin azalması ilə əlaqədar), 2009-cu ildə Almaniyada Drezdensen Elba Vadisi (mədəni landşaftın mühafizə zonasında avtomobil körpüsünün tikintisi ilə əlaqədar) UNESCO-nun Ümumdünya İrs siyahısından çıxarılmışdır.

Beynəlxalq münasibətlərdə Dünya Mədəni İrsi, şübhəsiz ki, müxtəlif ölkələrin mədəniyyətlərinin bütün bəşər sivilizasiyası üçün dəyərinin tanınması amili olmaqla əməkdaşlığın inkişafı üçün xidmət edir. Mədəni İrs dünyada sabitliyin qarantı kimi də qəbul edilə bilər. Mədəni İrsin bərpası və qorunub saxlanması bu gün beynəlxalq normativ-hüquqi praktikada, dünya tarixi və mədəniyyət abidələrinin qorunması və populyarlaşdırılmasına yönəldilmiş müxtəlif tədbirlərin həyata keçirilməsində öz təsdiqini tapır. Beynəlxalq təcrübə özünün praktik tətbiqini dövlət səviyyəsində də tapır. Berlin Kahlfeldt Architekten bürosunun memarı Sergey Ageev tarixi, mədəni və dini memarlıq abidələri ilə bərpa işləri aparıldıqda köhnənin köhnə kimi saxlanılmasını qeyd edərək göstərir: “Müharibə zamanı dağıdılmış abidələrin bərpası ümumi qaydalardan istisna hesab olunur, çünki binanın vahid görünüşü hələ də insanların şüurunda yaşayır. Müharibədən sonrakı dövrdə Almaniyada bərpa tez-tez konservasiya ilə məhdudlaşırdısa və xarabalıqların bir növ müharibə xatirələrinə çevrilməsi ilə birləşdirilirdisə, Sovet İttifaqında diqqət əvvəlki formada, yəni bütöv bir bərpa şəklində yenidən qurulmağa yönəldildi. Bu, yalnız adi deyil, həm də unikal elementlərin çoxalmasını, itirilmiş sənət nümunələrinin canlanmasını tələb edirdi. Bununla birlikdə, bərpaçıların aparılan işlərdə maksimum etibarlılıq istəyini qeyd etmək lazımdır” [21].

Hazırda tarix və mədəniyyət abidələrinin qorunması əksər dövlətlərin fəaliyyətinin prioritet istiqamətlərindən biridir. Tarix və mədəniyyət abidələri əvəzolunmaz, həqiqi ümumbəşəri əhəmiyyətə malikdir. Mədəni İrs obyektlərinin itirilməsi əvəzolunmazdır. Məhz buna görə də dövlət orqanları ilə yanaşı, abidələrin bərpası və qorunub saxlamasında ictimai təşkilatlar, fondlar və ictimaiyyət də fəal iştirak edir. Yalnız dövlət orqanları ilə ictimai təşkilatlar, hərəkatlar arasında qurulmuş dialoq, habelə vətəndaşların fəal iştirakı Mədəni İrs abidələrinin bərpası və qorunub saxlanması probleminin səmərəli həlli üçün faydalı ola bilər.

Təəssüf ki, Mədəni İrs abidələrinə təhdidlərin sayı daim artır, bu da onları qorumaq üçün təsirli tədbirlər axtarmağa məcbur edir. Qloballaşma, yeni texnologiyalar, həyatın bir çox sahələrində tərəqqi ilə əlaqəli inkişaf qaçılmazdır. Çox vaxt abidələrin dağıdılması insan amili ilə əlaqələndirilir. Antropogen xarakterli əsas təhdidlərə vandalizm, aktiv kommersiya tikintisi, bərpaya elmi və peşəkar yanaşmanın olmaması, abidələrdən düzgün istifadə edilməməsi və s. daxildir.

Beynəlxalq əməkdaşlıq bu sahədə ümumbəşəri meyarları formalaşdırmağa, inkişaf etmiş dövlətlərin təcrübəsinə tətbiq etməyə, inkişaf etməkdə olan ölkələrə kömək etməyə imkan verir. Tarix və mədəniyyət abidələrinin qorunması sahəsində bu cür əməkdaşlıq hər bir dövlətin gücləndirməyə və inkişaf etdirməyə çalışdığı beynəlxalq mədəni mübadilənin bir hissəsidir. Mədəni irsin qorunması sahəsində əməkdaşlıq maddi praktik nəticələr verir: dövlətlər bu sahədə fəaliyyətin yaxşılaşdırılması üçün təcrübə, aktual problemlər, elmi inkişaf və texnologiyalar mübadiləsi imkanı əldə edirlər. Dünya əhəmiyyətli obyektlərin bərpası və qorunması üçün xarici tərəfdaşlardan maliyyə yardımının göstərilməsi faktı da eyni dərəcədə vacibdir.

Müzakirə

Dövlətlərin fəaliyyətində mədəni irs abidələrinin qorunması təcrübəsi maraqlıdır. Bir çox ölkələr unikal metodlar toplamışlar və mədəni irs sahəsində təhlükəsizlik fəaliyyətinin öz modellərinə malikdirlər. Abidələrin sayına görə dünya liderlərindən biri olan və dünya irsinin təxminən 40% -

nə sahib olan İtaliya Mədəni İrsin Qorunmasına mədəni siyasətdə prioritet yerlərdən birinə malikdir. Belə ki, İtaliya ərazisindəki abidələrin sayına görə UNESCO -nun Dünya İrsi siyahısına başçılıq edir və 46 Dünya Mədəni İrsi obyektinin sahibidir. İtaliyada dövlət tərəfindən qorunan 500 mindən çox memarlıq abidəsi vardır. Bundan əlavə, 25 min tarixi mərkəz, 95 min kilsə, 40 min qala, 1900 Arxeoloji Park, 4500 muzey yerləşir. Onların saxlanması üçün dövlət xərcləri ümumi daxili məhsulun 0,5% -ni təşkil edir və onun həcmi 2,2 milyard Avrodur.

İtaliya dünya ölkələri sırasında ilk dövlətlərdən biri kimi, Milli Mədəni İrsin Qorunması konsepsiyasını inkişaf etdirməyə başladı: "Bədii və yaradıcı maraq doğuran obyektlərin qorunması haqqında" ilk Qanun 1 iyun 1939-cu ildə qəbul edildi. Mədəni İrsin Qorunması İtaliya Konstitusiyası ilə təmin edilir: 9-cu maddədə deyilir ki, Respublika mədəniyyətin və elmi tədqiqatların inkişafına kömək etməli və ölkənin tarixi və mədəni irsinə qayğı göstərməlidir.

Ölkənin mədəni irsinin qorunması məsələləri digər nazirliklərin, məsələn, 1950-ci ildən bəri İtaliyada tikinti-bərpa işləri aparan İctimai İşlər Nazirliyinin fəaliyyətində öz əksini tapmışdır.

Turizm Nazirliyi mədəni irs məsələlərinə böyük diqqət yetirir. Qeyd edək ki, İtaliya ənənəvi olaraq iqtisadiyyatın ən vacib istiqaməti və ölkənin sabitliyi amili baxımından giriş turizmi üzrə liderlərdən biridir. İtaliya Turizm Nazirliyi müxtəlif auditoriya üçün nəzərdə tutulmuş və ölkənin dünyada çoxşaxəli imicinin formalaşmasına töhfə verən turizm və mədəni marşrutların inkişafına böyük diqqət yetirir.

İtaliyada mədəni irs abidələrinin qorunmasında ictimai təşkilatlar mühüm rol oynayır. Buna misal olaraq 1955-ci ildə Mədəni irsin qorunmasına kömək məqsədi ilə yaradılan "Italia Nostra" ("Bizim İtaliya") təşkilatını göstərmək olar.Təşkilat mədəni irsin qorunması sahəsində yeni həllər və qanunvericilik aktlarının tətbiqi və inkişafına kömək edir və ölkə daxilində 200-dən çox filiala malikdir. Üzvləri memarlıq abidələrinin vəziyyətini izləyir, araşdırır, təhrif cəhdlərinin qarşısını alır, abidələrin əhali arasında əhəmiyyətini populyarlaşdırır. Təşkilatın vəsaiti əsasən üzvlük haqları və könüllü ianələrdən ibarətdir. Qeyd etmək lazımdır ki, dövlət 90-cı illərin ortalarında özəl sektorun mədəni sərvətin maliyyələşdirilməsi prosesinə cəlb edilməsinə yönəlmiş siyasət yürütməyə başladı [16].

İtaliyada özəl investisiyaların istifadəsi və cəlb edilməsi geniş tətbiq olunur.

Bu gün İtaliyanın milli sərvətinin təxminən 60% -i özəl mülkiyyətdədir və Dövlət vergi Bəyannaməsindən aşağıdakı xərclərin çıxılmasını nəzərdə tutan özəl investisiyaları stimullaşdırmaq üçün kifayət qədər hüquqi imkanlara malikdir: Daşınmaz və ya daşınan mədəni sərvətlərin bərpası və ya dəstəklənməsi, dövlətə və ya ictimai təşkilatlara, fondlara və ya birliklərə mədəni sərvətlərin alınması və ya bərpası, sərgilərin təşkili, elmi tədqiqatların aparılması üçün xərclər və s.

Son vaxtlar İtaliya mədəni sponsorluğun fəal inkişafını yaşayır. Bu gün əsas sponsorlar banklar, müəssisələr və sığorta şirkətləridir. Məsələn, 2011-ci ildə Romadakı Navona meydanında Mavrar fantanının zədələnməsindən sonra bu abidənin bərpasına kömək etmək üçün bir müsabiqə elan edildi. Müsabiqənin qalibi, fantanın bərpası üçün artıq görülən işlərə əlavə subsidiya olaraq 5 min avro təklif edən Müqəddəs Taxt-Tacda akkreditə olunmuş Beliz dövlətinin səfiri Alfred D ' anjerio oldu.

Mədəni irsin qorunması sahəsində İtaliya kifayət qədər geniş bir orqan sisteminə malikdir, eyni zamanda ictimai təşkilatların və fondların rolu böyükdür və bu işi əlbəttə ki, səmərəli edir. Mədəni irs abidələrinin qorunması ilə bağlı məsələlərin qanunvericiliklə təsbit edilməsi və ölkə Konstitusiyasına daxil edilməsi vacibdir [17].

Fransa eyni zamanda mədəni irsin öyrənilməsi və qorunması məsələlərini dövlət məsuliyyəti sahəsinə daxil edən ölkələrdən biri hesab edilir. Ölkədə həyata keçirilən mədəni irsin qorunması üzrə bütün fəaliyyətlər XX əsrdə irs sahəsində qəbul edilmiş müxtəlif qanunların çoxsaylı normativ aktlarını və mətnlərini özündə cəmləşdirən irs Məcəlləsinə (code du patrimoine) əsaslanır. Bunlardan ən qədimi 31 dekabr 1913-cü il tarixli "Tarixi abidələr haqqında" Qanundur ki, bu da tarixi abidənin tərifini formalaşdırır və onlara status vermək prinsiplərini müəyyənləşdirir. Bu statusdan asılı olaraq obyektin qorunması həyata keçirilir: mədəni irs obyektlərinin Reyestrinə daxil edilmiş

obyektlər üçün daha sərt nəzarət və səlahiyyətlilərə daha əhəmiyyətli dəstək verilir [19].

N.M.Bogolyubovun fikrincə, Fransanın mədəni irsin qorunmasında fəaliyyətinin fərqli bir xüsusiyyəti, kodlaşdırılmış normaların mövcudluğunu nəzərdə tutan qanunvericilik sisteminin xüsusi qurulmasıdır ki, bu da onların praktikada həyata keçirilməsinə əhəmiyyətli dərəcədə təsir göstərir, bütün sistemin fəaliyyətinin aydınlığına və aydınlığına kömək edir [18].

Böyük Britaniya təbii və mədəni irsin qorunması məsələlərinə orijinal yanaşma təklif edir. 1894-cü ildə burada ən qədim ictimai xeyriyyə təşkilatı “National Trast” (“Milli qəyyumluq”) yarandı. “National Trast” Viktoriya xeyriyyəçiləri - miss Octavia Hill, Sir Robert Hunter və Canon Hardvick Ronsley-in təşəbbüsü ilə Birləşmiş Krallığın milli-mədəni və təbii irsini qorumaq və təbliğ etmək üçün yaradılmışdır.

Təşkilat fərdi və korporativ üzvlüyü əhatə edir. Dövlət də əmlakını “National Trast”a etibar edir. Qeyd edək ki, təşkilata tamhüquqlu üzvlük yalnız britaniyalılar və Birləşmiş Krallıq ərazisində yaşayan şəxslər üçün mümkündür. İctimai bir təşkilat olaraq, “National Trast”, fəaliyyətini İngiltərədəki mövcud qanunvericiliklə əlaqələndirməlidir. Təşkilatın tabeliyində olan əmlak və obyektlərin satışı yalnız parlamentin razılığı ilə mümkündür.

100 ildən artıq tarixi ərzində “National Trast” mədəni irsin qorunması və özəl və korporativ üzvlərlə qarşılıqlı əlaqə üçün kifayət qədər maraqlı bir mexanizm hazırlamışdır. Hər hansı bir mədəni irs sahibi əmlakını tamamilə və ya qismən təhvil verə, bağışlaya, sata və ya idarə etmək üçün “National Trast”a etibar edə bilər. İdarəetmə və mülkiyyət şərtləri bütün tərəflər üçün kifayət qədər çevik və qarşılıqlı faydalı ola bilər.

Şübhəsiz ki, “National Trast”, 100 ildən çoxdur ki, İngiltərənin mədəni və təbii irsini uğurla qoruyan, iş prinsiplərini daim inkişaf etdirən və genişləndirən təsirli bir xeyriyyə təşkilatının nümunəsidir [20].

Rusiya Federasiyası Mədəniyyət Nazirliyinin “Mədəni dəyərlər-müharibə qurbanları” İnternet layihəsinin məlumatlarına görə, Böyük Vətən müharibəsi illərində Rusiya Federasiyasında 160-dan çox muzey zərər görmüşdür. Rusiyanın itirdiyi mədəni dəyərlərin dəqiq sayı hələ müəyyənləşdirilməyib. Hazırda siyahıda muzey əşyaları, Nadir Kitablar və əlyazmalar da daxil olmaqla 1 milyon 177 min 291 vahid saxlama materialı vardır ki, onların da tədricən bərpa edilməsinə dövlətin kifayət qədər maliyyə vəsaiti sərf etməsinə ehtiyac duyulur [22].

Əhalisinin əksəriyyəti müsəlman olan (96% müsəlman, 4% digər millətlərdən (xristian, yəhudi, bəhai, krişnaçı və s.) Azərbaycan ərazisində Yəhudi və Xristian dinlərinin yayıldığı ölkədir. Tarixçi və din alimlərinin tədqiqatlarına əsasən tarix boyu mehribancasına birlikdə yaşayan müxtəlif millətlərin sərbəst yaşadıqları Azərbaycanın müxtəlif regionlarında kilsələrin, sinaqoqların, dini məscidlərin və atəşpərəst məbədlərinin yerləşdiyini qeyd etmək olar.

Müstəqilliyin ilk illərindən Sovetlər dönəmində bərpa edilməyən, getdikcə dağılan bu abidələrin bərpasına dövlət tərəfindən qayğı göstərilərək vəsait ayrılmağa başlanıldı. Həmin dövrdən tarixi, mədəni və dini abidələrin bərpası, yenidən qurulması və qorunub saxlanılması Azərbaycan dövlərinin din siyasətinin tərkib hissəsinə çevrildi. Bu görülən işlərin siyahısında Təzəpir məscidi, Mir Mövsüm ağa ziyarətgahı, Bibiheybət məscidi və s. tikinti, bərpa və yenidənqurma işlərinin aparılıb başa çatdırılmasını qeyd etmək olar.

Azərbaycanda tarixi, mədəni və dini abidələrin bərpası yalnız İslam dini abidələri ilə məhdudlaşmır. Məsələn, Qafqazın ən böyük Rus-pravoslav kilsəsi olan Jen-Mironosets (Bakı ş.) məbədi də yenidən qurulmuş və tam bərpa edilərək bu dinə mənsub olan millətlərin istifadəsinə verilmişdir.

Azərbaycan tarixi, mədəni və dini abidələrin bərpasına 2020-ci ildən başlamışdır.

10 aprel 1998-ci ildə qəbul edilmiş “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublıkasının Qanununda (VIII fəsil və 32 maddə) nəzərdə tutulduğu kimi [1], işğalçılar tərəfindən dağıdılmış dünya, ölkə və yerli əhəmiyyətli abidələr haqqında müvafiq beynəlxalq təşkilatlara ermənilərin məqsədli həyata keçirmək istədikləri işlərin nəticələri üzə çıxdıqca mütəmadi məlumatların verilməsi vacib şərtlərdəndir. Hətta, bu ərazilərdə onların həyata keçirdik-

ləri qeyri-qanuni işlərin nəticələrini sübuta yetirən sənədlər əldə olunduqca həmin mədəni, tarixi, dini abidələrin bərpası, yenidən qurulması prosesində xarici mütəxəssislərin iştirakını hərtərəfli işıqlandıra bilən, o cümlədən prosesin gedişatını (erməni vandalları tərəfindən dağıdılmış və işğaldan sonrakı dövrdə bərpasını) əks etdirən kadrlarda müxtəlif dillərdə (ingilis, alman və s.) yazıların verilməsi ilə çəkiləcək televiziya və sənədli filmlərin aparılmasını məqsədəuyğun hesab edirik.

Azərbaycan Respublikası Konstitusiyasının 77-ci maddəsinə görə xalqın milli sərvəti olan tarixi, mədəni və dini abidələrin qorunmasına dövlət təminat verir, elmi-tədqiqi və təbliği məqsədi ilə müvafiq qurumlar yaratmaqla fəaliyyətini və inkişafını təmin edir, onların səmərəli istifadəsini əlçatan edir. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeçiliyində Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti ölkə ərazisində olan abidələrlə əlqaəli məsələlərin həllinə birbaşa cavabdelik daşıyır.

Azərbaycanda bu istiqamətdə Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun Respublikada və xarici ölkələrdə imza atdığı bərpa işləri xüsusi fərəh doğurur. H.Əliyev Fondunun Dünya Mədəni İrsinin bərpası istiqamətində icra etdiyi işlərə Tbilisi şəhərində Azərbaycanın görkəmli tarixi şəxsiyyətləri: Mirzə Şəfi Vazeh, Mirzə Fətəli Axundov, Həsən bəy Ağayev və Fətəli xan Xoyskinin qəbirüstü abidələrində yenidənqurma işləri və xiyabanın yaradılması (2006-cı il, Gürcüstan), Versal Sarayı parkında ümumbəşəri abidələrin bərpası (2007-ci il), Luvr Muzeyinin bərpası (2008-ci il), İkinci Dünya müharibəsi zamanı yanmış və dağıdılmış Berlin qəsrinin bərpası (2011-ci il, Almaniya), Romanın Villa Borgeze parkında Nizami Gəncəvinin abidəsinin ucaldılması (2012-ci il, İtaliya), Vatikanda Roma katakombalarının bərpası (İtaliya), M.İ. Rudomino adına Ümumrusiya Dövlət Xarici Ədəbiyyat Kitabxanasında Azərbaycanın görkəmli yazıçısı, filosofu və humanisti Mirzə Fətəli Axundovun abidəsinin ucaldılması (Rusiya, Moskva), Parisdə Azərbaycan Mədəniyyəti Mərkəzinin yaradılması (Fransa), Romada Kapitolini Muzeyinin “Filiosoflar zalı”nın təmiri (2013-cü il, İtaliya) və digərlərini qeyd etmək olar. Bununla belə, H.Əliyev Fondunun bundan sonra da geniş əhatəli görəcəyi işlər davam etdirilir. Azərbaycan Heydər Əliyev Fondu vasitəsilə dünya mədəni irsini pərpa edərək dirçəltdiyi halda, hal-hazırda da işğalçılıq siyasəti yürüdən Ermənistan həmin tarixi, mədəni-dini abidələrə münasibətdə tamamilə fərqli yanaşır. 1994-cü ilin mayından 2020-ci ilin 10 noyabrına qədər olan dövrdə və üçtərəfli müqavilə əsasında Vətən müharibəsinin dayandırılmasına imza atıldıqdan sonra da Laçın, Kəlbəcər, Xocavənd və digər ətraf torpaqlarımızda Ermənistan bizim xalqın mədəni irsini tamamilə məhv edir. Dünya ictimaiyyəti isə hələ də buna göz yumur, yalnız ikili mövqe tutmaqla kifayətlənir. Dünya ölkələrində qurucu, bərpaedici, xoşməramlı layihələri həyata keçirən Azərbaycandan fərqli olaraq, Ermənistan Bizim ərazilərimizdə çoxsaylı dini, mədəni və tarixi abidələri yer üzündən silməyə cəhd göstərən, həmçinin vandalizm siyasəti yürüdən dövlət kimi artıq özünü göstərmişdir. Vətən müharibəsindən sonra işğal edilmiş ərazilərdəki mövcud vəziyyəti görmək məqsədilə Azərbaycanın dəvəti ilə iştirak edən dünya mediası da ermənilərin dağıdıcı, vandal əməllərinə biganə qalmır. Azərbaycan işğaldan azad olunmuş ərazilərində olan mədəni irs abidələrinin işğalçı Ermənistan tərəfindən bilərəkdən dağıdıldığını beynəlxalq ictimaiyyətin diqqətinə çatdırır. Xarici ölkələrin səfirləri, mədəniyyət adamları, jurnalistləri və s. işğaldan azad edilən ərazilərdə olarkən tarixi, mədəni və dini abidələrimizə məxsus muzeylərin, incəsənət qalereyalarının, məscidlərin, qəbiristanlıqların yerlə-yeksan və talan edilməsi, təhqir olunmasını öz gözləri ilə görürlər. Ermənistanın hərbi təcavüzi nəticəsində bu ərazilərdəki Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kurqanları hərbi məqsədlər üçün istifadə edilmiş və dağıdılmışdır. İşğal dövründə Xocalı, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarındakı kurqanlar, Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli ərazilərindəki qədim qəbiristanlıqlar, türbələr, Qafqaz Albaniyasına məxsus abidələr və digər turizm sferasının inkişafına dəstək verəcək tarixi, mədəni və dini abidələr erməni vandalları tərəfindən məhv edilərək dağıdılmışdır. Həmçinin, Qafqazın mədəniyyət paytaxtına çevrilən Şuşadakı tarixi abidələrin əksəriyyəti, o cümlədən Aşağı və Yuxarı Gövhərağa, Köçərli, Mərdinli, cümə məscidləri, dahi bəstəkar Üzeyir Hacıbəyovun, Bülbülün ev muzeyləri, Xurşud

Banu Natəvanın saray kompleksi, Firudin bəy Köçərlinin, Zöhrabbəyovların malikanələri, məşhur alim Mir Mövsüm Nəvvabın evi, böyük Azərbaycan şairi, Qarabağ xanının vəziri Molla Pənah Vaqifin türbəsi də erməni vandalizmi tərəfindən tamamilə yararsız hala salınmış və dağıdılmışdır. Eləcə də işğal altında olan ərazilərdəki bir sıra mədəni və dini abidələr, məscidlər təhqirə məruz qalmış və müxtəlif məqsədlərlə istifadə edilmişdir [15].

Azərbaycan ərazisində memarlığın Ümumdünya Mədəni İrsi siyahısına dörd obyekt (Şirvanşahlar Sarayı, Qız Qalası ilə birlikdə İçəri Şəhər memarlıq kompleksi, Qobustan Qaya Sənəti Mədəni Landşaftı, Şəki Xan sarayı ilə birlikdə Şəkinin tarixi mərkəzi) daxil edilmişdir. Qeyd edək ki, Azərbaycan Respublikası UNESCO-ya üzv (1992-ci il) qəbul edildikdən dörd il sonra həmin təşkilat və Azərbaycan arasında əməkdaşlıq memorandumu imzalanmışdır. Belə ki, Azərbaycan Respublikasında Bakı şəhərinin tarixini özündə əks etdirən İçəri şəhər (2000-ci il), Qobustan dövlət tarixi-bədii qoruğu (2007-ci il) və Şəki Xan Sarayı ilə birlikdə Şəkinin tarixi mərkəzi (2019-cu il) fərqli illərdə UNESCO-nun Ümumdünya irsi üzrə əsas siyahıya salınmışdır [10]. Bundan əlavə UNESCO-nun Ümumdünya irsi üzrə müvəqqəti siyahıya Bakı dağ mərhələsi, Binəqədi dördüncü dövr fauna və flora qəbiristanlığı, Lökbatan palçıq vulkanı, Hirkan milli parkı, Atəşgah, Naxçıvan Türbələri (Gülüstan türbəsi, Möminə Xatun türbəsi, Qarabağlar türbəsi, Yusif İbn Küseyir türbəsi) 1998-ci ildə, Ordubad tarixi şəhəri, Şuşa tarixi şəhəri və Xəzər dənizinin sahilində müdafiə qurğuları (Beşbarmaq səddi, Gilgilçay səddi, Çıraqqala, Şabran qalası, Dördkünc Mərdəkan qalası, Dairəvi Mərdəkan qalası, Bayıl qalası, Nardaran qalası, Ramana qalası) 2001-ci ildə və Zaqatala Dövlət Təbiət Qoruğu 2018-ci ildə müxtəlif kriteriyalar üzrə salınmışdır. Beləliklə, Azərbaycanın ərazisinə mənsub olan 3 obyekt UNESCO-nun ümumdünya irsi sırasına, 19 obyektin elementləri isə qeyr-maddi irs siyahısına daxil edilmişdir.

Bundan əlavə, Azərbaycan Respublikasında dünya əhəmiyyətli abidələrə Bərdə rayonunda Allah-Allah türbəsi, Qax rayonunda Məbəd Ləkit, Qazax rayonunda Damcılı mağaraları və Sınıq körpü, Şabran rayonunda Çıraqqala və Gilgilçay kompleksi, Şamaxı rayonunda qədim Şamaxı şəhərinin atributları, Şəmkir rayonunda qədim Şəmkir şəhərinin atributları aid edilir.

Həmçinin ölkə əhəmiyyətli abidələrə Ağsu rayonunda Şeyx Dursun türbəsi və Yeni Şamaxı qalıqları, Balakən rayonunda Minarəli Məscid, Bərdə rayonunda İbrahim Məscidi və Körpü, Gədəbəy rayonunda Qala Gədəbəy və Qız Qalası, Gəncə şəhərində Şah Abbas karvansarayı, Nizami məqbərəsi, Cümə məscidi və İmamzadə, Hacıqabulda Sərdabə Hacıqabul, Karvansaray, Udulu Kurqanları, İsmayıllı rayonunda Qız qalası, Niyal qalası, Cavanşir qalası, Lerik rayonunda Buzeyir Maqarası aiddir. Eyni zamanda Azərbaycanın digər rayonlarında Masallı, Oğuz, Qobustan, Şəki və Yardımlıda (hər birində 1), Qaxda (3), Qazax, Quba, Qusar, Siyəzən və Zaqatalada (hər birində 2), Qəbələ və Şamaxıda (hər birində 5), Bakıda (33) cəmi 61 ölkə əhəmiyyətli abidələr qeydə alınmışdır. Azərbaycanda 28 yerli əhəmiyyətli abidələr, 6 bərpa konservasiya abidələri, 9 tarix mədəniyyət qoruqları, 24 dövlət qeydiyyatına götürülmüş abidələr qeydə alınmışdır [14].

1994-cü ilin may ayından (I Qarabağ müharibəsi zamanı Ermənistan tərəfindən işğal edilmiş ərazilər Azərbaycan Respublikası ərazisinin təxminən 20 faizini təşkil etmişdir) 10 noyabr 2020-ci ilə kimi ermənilərin müvəqqəti ələ keçirdikləri ərazilərdə şoxlu sayda tarixi mədəni abidələr istifadəsiz hala salınmış, əksər hissəsi isə tam yararsız hala gətirilmişdir. Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz işğal altında olan əraziləri qısa müddət ərzində (44 gün) işğaldan azad etdikdən sonra erməni şovinistləri tərəfindən minalanmış sahələr təmizlənməyə başlanılmışdır. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) İdarə Heyətinin verdiyi məlumata görə II Qarabağ müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərdə 68,3 min ha torpaq sahəsində basdırılmış mina və partlamamış hərbi sursat zərərsizləşdirilmişdir. Məlumata əsasən ötən müddətdə Ağdam rayonu üzrə 16 min hektar (Ağdam rayonunda işğaldan azad edilmiş ərazinin təxminən 25 faizi) ərazi mina və hərbi sursatdan təmizlənmişdir. Qeyd edək ki, yalnız 2023-cü ilin fevral ayında Tərtər, Kəlbəcər, Ağdam, Xocalı, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində ümumilikdə 2470 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənmişdir. Qeyd edilən ərazilərdə aparılmış əməliyyatlar zamanı

piyada əleyhinə 40 və tank əleyhinə 116 mina, həmçinin 1487 partlamamış hərbi sursat aşkarlanaraq bu qurumun işçiləri tərəfindən zərərsizləşdirilmişdir [11]. 44 günlük müharibədən sonra 2024-cü ilin iyul ayına olan müddətdə işğaldan azad edilmiş ərazilərdə mina partlamasına qurban olanların sayı 372 nəfər olmuş, onlardan 69 nəfəri həlak olmuş, 300 nəfəri xəsarət almışdır [25].

Azərbaycan işğaldan azad edilmiş ərazilərdə tarixi-mədəni-dini abidələrin bərpasında özünün multikultural ənənələrinə sadiq qalır. Belə ki, bu gün Azərbaycanda multikulturalizm xalqın həyat tərzi olmaqla bərabər dövlət siyasətinin əsas istiqamətlərindən biri hesab edilir. Azərbaycan dövləti öz tarixi adət-ənənələrinə istinadən multikulturalizmi dövlət siyasətinin mühüm istiqamətlərindən biri kimi müəyyən etmişdir. Bunun bariz nümunəsi kimi ölkə rəhbərinin müvafiq sənədlər əsasında imzaladığı Bakı Multikulturalizm Mərkəzinin yaradılmasını və 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili" elan olunmasını qeyd edə bilərik [12].

Prezident İlham Əliyevin 8 iyul 2021-ci il tarixində "Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında" Sərəncamına əsasən, respublikamızda qeydiyyata alınan bütün dini icmalara maliyyə yardımı ayrılmış, hal-hazıra kimi 970 dini qurum (bunlardan 933-ü İslam, 37-si isə qeyri-islam təmayüllü dini qurumlar) dövlət qeydiyyatına alınmışdır. Məlumatlara əsasən qeyd etmək olar ki, Azərbaycan Respublikası ərazisində ümumilikdə 2250 məscid, 16 kilsə və 7 sinaqoq fəaliyyətini müvəffəqiyyətlə davam etdirir. Vətən müharibəsinin dayandırılmasından az müddət keçməsinə baxmayaraq, işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və müasir infrastruktur quruculuğu işlərinin müvəffəqiyyətlə davam etdirilməsi bir daha təsdiq edir ki, Azərbaycan qısa müddətdə və yüksək səviyyədə bu ərazilərdə müasir bərpa və infrastruktur layihələrinin icra edilməsinə nail olacaqdır. Onu da qeyd edək ki, 28 ildən çox işğal dövründə erməni vandalları müvəqqəti nəzarətlərində olan ərazilərdəki 68 dini abidəni bütövlükdə dağıtmış və yaxud milli adət-ənənələrimizə biganəçilik etməklə dini məscidlərdə müsəlman dininə xas olmayan, ətinin belə yeyilməsi bu ölkələr tərəfindən qəbul edilməyən heyvanlar (donuz və s.) saxlamışlar. Hətta Laçın rayonunun ərazisində yerləşən dini tarixi abidələrdən biri qədim alban məbədi "Ağoğlan" monastrını saxtakarlıqla özününküləşdirmək istəkləri də olmuşdur ("Ağoğlan" monastrı hazırda əsl sahiblərinin ixtiyarındadır). Məsələn, "Alban (Qafqaz) Apostol Müstəqil kilsəsinin varisi Azərbaycan Alban-Udi Xristian Dini İcmasının sədr müavini Rafik Danakarinin verdiyi məlumata əsasən, alban məbədlərində mehrab 3, erməni kilsələrində isə 5-6 pilləkən hündürlüyündə olur" fikri ermənilərin bu istiqamətdə məqsədli fəaliyyətlərini alt-üst etmişdir. Ermənilər saxtakarlıqlara əl ataraq monastrın mehrabını daha da hündürləşdirmiş, xaç daşlarını dəyişərək divarlara erməni xaçları çəkmişlər. Lakin onlar, binanın öz konstruksiyasına əsasən tikilinin alban məbədi olduğunu aydın sezə bilməmişlər. Onu da qeyd edək ki, ermənilərin işğaldan azad edilmiş ərazilərdə belə saxtakarlıqla həyata keçirmək istədikləri faktların sayı həddən çoxdur [12]. Şuşa şəhərinin kənarında yerləşən Qazançılar kilsəsi 1868-ci ildə qədim Zərdüşt məbədi üzərində inşa olunmuşdur (1880-ci ildə tikintisi yekunlaşdırılıb). Qazançılar kilsəsi ilk dəfə Azərbaycan SSR Nazirlər Sovetinin 1988-ci il 27 aprel tarixli 145 nömrəli qərarı ilə abidələr siyahısına daxil edilmiş, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli qərarı ilə (inventar №358) dövlət qeydiyyatına alınmışdır.

Uzun müddət (28 ildən çox) ərzində işğal edilmiş ərazilərin çox hissəsinə minalar basdıraraq çirkləndirən Ermənistan üçtərəfli Bəyanatdan sonra ərazilərin bir hissəsini qısa müddətə boşaltmağa razılıq aldığı müddətdə də bu torpaqlardakı öz çirkin niyyətini dayandırmadı. Xain erməni silahlı qüvvələrinin yenə də işğaldan azad edilmiş ərazilərə basdırdığı minalar nəticəsində yüzlərlə dinc sakin, hərbçi, televiziya əməkdaşları minaya düşərək dünyasını dəyişir (ölür) və ya onlarla insan xəsarət alaraq ömürlük şikəst qalır. Odur ki, bu regionda artıq yaşayan və hələlik müvəqqəti keçmiş dədə-baba yurdlarına ziyarət etməklə gedib-gələn əhalinin, infrastruktur və yeni fəaliyyətə başlayan istehsal obyektlərinin, kənd təsərrüfatı üçün yararlı ərazilərin, strateji əhəmiyyətə malik tikili və binaların təhlükəsizliyinin təminatı məqsədi ilə həmin ərazilərin minalardan təmizlənməsi əməliyyatları davam etdirilir. Qeyd edilən ərazilər minalardan təmizləndikdən sonra dərhal quruculuq işlərinə başlanılır və abadlıq işləri aparılır.

“Doing Business” in hesabatında deyilir ki, respublikanın azad edilmiş ərazilərinin sənaye potensialı olduqca yüksəkdir. Bu ərazilərin potensialından yaxın gələcəkdə istifadənin düzgün təşkil edilməsi Azərbaycan iqtisadiyyatına böyük töhfə verəcəkdir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonasının azad edilmiş ərazilərində zəngin su ehtiyatları, faydalı qazıntılar, sənaye rekreasiya imkanları vardır. Bu ehtiyatlar həmin ərazilərin sənaye potensialının əsasını təşkil edir. Strateji cəhətdən əlverişli su anbarlarının azad edilməsi ölkənin əkin sahələrinin suvarılacaq hissəsinin çoxalmasını təmin etməklə yüz minlərlə hektar ərazilərin su ilə təminatının yaxşılaşdırılacağına imkan verəcəkdir. Burada üzümçülük, bitkiçilik, pambıqçılıq və heyvandarlıq istehsalı sahəsində böyük potensialın olduğunu işğaldan əvvəlki dövrdə bu regionda istehsal edilən məhsulun həcmindən görmək mümkündür. Belə ki, təkcə 2022-ci ildə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunda kənd təsərrüfatının fiziki qiymətlərlə məhsulu ümumi ölkə üzrə istehsal edilən kənd təsərrüfatı məhsulunun fiziki qiymətinin 11,2%-ni və ya 1234,3287 milyon manat həcmini təşkil etmişdir. Bu onu göstərir ki, ərazilərdən tam səmərəli istifadə edilməsi kənd təsərrüfatı məhsulunun həcminin kəskin dərəcədə atımına səbəb olacaqdır [24].

“Böyük Qayıdış”a dair I Dövlət Proqramında nəzərdə tutulan kənd, qəsəbə və şəhərlər yenidən salınır, ictimai iaşə obyektləri (məktəblər, xəstəxanalar və s.) tikilir, öz ata-baba yurdlarına qayıdan insanlar üçün dövlət planlı şəkildə yaşayış massivlərini tikərək onların istifadəsinə verir. Qeyd edək ki, uzun illər işğal altında qaldığından öz keçmiş torpaqlarına qayıdan məcburi köçkünlər bu hadisəni böyük sevinc və minnətdarlıq hissi ilə qarşılayırlar. “Böyük Qayıdış” da icra edilməsi planlaşdırılmış işlər sırasında yollar yenidən çəkilir, ərazidə infrastruktur tamamilə yenidən qurulur. Məsələn, bu ərazilərdə iki Beynəlxalq Hava Limanı (Füzuli və Zəngilan) tikilərək istifadəyə verilmiş və Laçında da bu tipli hava limanının tikintisi sürətlə icra edilir. Həmçinin plana uyğun olaraq həmin ərazilərdə 31 qəsəbənin salınmasına başlanılmışdır. “Böyük Qayıdış”a dair I Dövlət Proqramı əsasında yüzlərlə ailələr pilləli şəkildə Laçın, Zəngilan və Füzuli şəhərlərində, həmçinin bir çox kəndlərdə yaşamaq üçün geri qayıdırlar. Dövlət Proqramına əsasən növbəti 3 il ərzində bir neçə on minlərlə ailənin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına qayıtması planlaşdırılır. Belə ki, 2026-cı ilin sonuna kimi təxminən 140 min nəfərdən ibarət ailələrin bu iki iqtisadi zonanın rayonlarına qayıtması nəzərdə tutulur [23].

Beləliklə, bu qeyd etdiklərimiz bir daha təsdiqləyir ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında olan hər bir abidə milli-dini mənsubiyyətindən asılı olmayaraq Azərbaycan Respublikasının qədim, zəngin mədəni irsinə aid olmaqla onun ayrılmaz bir hissəsidir. Fikrimizcə, hazırda Azərbaycan dövlətinin bu ərazilərdə yerləşən mədəni, dini, tarixi və s. məqsədli abidələrin yenidən qurulması (restavrasiyası) istiqamətində bərpa və saxlama işlərini həyata keçirməsi vacib məsələlərdən biri hesab edilir. İşğaldan azad edilmiş ərazilərdə mədəni, tarixi və dini abidələri bərpa etməklə, qoruyub saxlamaqla onları gələcək nəsillərə ötürmək üçün bütün zəruri işlər dövlət tərəfindən planlı şəkildə həyata keçiriləcəkdir.

Beləliklə, dünya təcrübəsi göstərir ki, müharibə və digər dağıdıcı proseslər nəticəsində tarixi, mədəni və dini abidələrə ziyan dəydiyi üçün onların sonradan bərpası və qorunub saxlanması dövlətlər tərəfindən həyata keçirilir. Bu məqsədlə də Azərbaycanda işğaldan azad edilmiş ərazilərin bərpasına xarici mütəxəssislərin dəvət edilməsi məsələsi vacib hesab edilir. Bu işlərin həyata keçirilməsində dövlət qurumları, qeyri-hökumət təşkilatları, bütünlüklə ictimaiyyətin iştirakı xüsusilə əhəmiyyətlidir.

Nəticə

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına (Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli fərmanı) məxsus olan hər bir abidə milli-dini mənsubiyyətindən asılı olmayaraq Azərbabaycan Respublikasının qədim, zəngin mədəni irsinə aid olmaqla onun ayrılmaz bir hissəsidir. Fikrimizcə, Azərbaycan dövlətinin bu ərazilərdə yerləşən tarixi, mədəni, dini və s. məqsədli abidələrin bərpası, yenidən qurulması (restavrasiyası) və qorunub saxlanılması istiqamətində işləri həyata keçirməsi vacib məsələlərdən biri hesab edilir. Lakin qeyd etmək lazımdır ki, bu ərazilər

işğaldan azad edilməsinə baxmayaraq ermənilər tərəfindən minalanmış sahələrin təmizlənməsi uzunmüddətli dövr ərzində həyata keçiriləcək. Bu işlər icra edildikdən sonra işğaldan azad edilmiş ərazilərdə tarixi, mədəni və dini abidələri bərpa etmək, qoruyub saxlamaq və onları gələcək nəsillərə ötürmək üçün bütün zəruri işlər dövlət tərəfindən planlı şəkildə həyata keçiriləcəkdir. Bu mühüm vəzifənin icra edilməsində və müvəffəqiyyətlə aparılmasında xarici ölkələrin təcrübəsinə əsaslanaraq kənar mütəxəssislərin də qeyd edilən işlərin icrasına dəvət edilməsi və iştirakı vacib şərtlərdəndir.

Dünya Mədəni İrsinin qorunması sahəsində əməkdaşlıq maddi praktik nəticələr verir: dövlətlər bu sahədə fəaliyyətin yaxşılaşdırılması üçün təcrübə, aktual problemlər, elmi inkişaf və texnologiyalar mübadiləsi və s. imkanlardan düzgün yararlanmağı əldə edirlər. Burada Azərbaycanın dünya əhəmiyyətli obyektlərinin (İçəri şəhər, Qobustan dövlət tarixi-bədii qoruğu, Şəki xan sarayı ilə birlikdə Şəkinin tarixi mərkəzi), o cümlədən UNESCO-nun dünya irsinin (19 obyektin elementləri) qeyri-maddi irs siyahısına daxil edilmiş obyektlərin bir çoxu dağıdıldığından onların bərpası və qorunması üçün xarici ölkə və tərəfdaşları tərəfindən maliyyə yardımının göstərilməsi faktı da eyni dərəcədə vacibdir.

Dünya təcrübəsi göstərir ki, müharibə və s. dağıdıcı proseslər nəticəsində ziyan dəymiş obyektlərin bərpası və qorunub saxlanması dövlətlər tərəfindən həyata keçirilir. Odur ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində obyektlərin bərpasına xarici mütəxəssislərin dəvət edilməsi məsələsi vacib hesab edilir. Beləliklə, ziyan dəymiş və dağıdılmış tarixi, mədəni və dini obyektlərin bərpası işlərinin həyata keçirilməsində dövlət qurumları, qeyri-hökumət təşkilatları, bütünlüklə ictimaiyyətin iştirakının təmin edilməsi zəruri şərtlərdən biridir.

ƏDƏBİYYAT

1. The Law of the Republic of Azerbaijan "On the Protection of Historical and Cultural monuments". - Baku, - April 10, 1998
2. Anholt S. Some important distinctions in place branding // Businessfordiplomaticaction.org: site. 2011-2014. URL: http: // businessfordiplomaticaction.org
3. Bobrov Yu.G.Theory of restoration of art monuments: regularities and contradictions. Dissertation for the degree of Doctor of Sciences in Economics. St. Petersburg, -1997, -p.481
4. Farelli L. Representational Techniques for Architecture / L. Farrelly, N. Crowson. - London: Fairchild Books, -2015 [Электронный ресурс] https://www.amazon.com/Basics-Architecture-01-Representational-Techniques/dp/2940373620
5. Historic Centre of Warsaw // UNESCO.-[Электронный ресурс] URL:http://whc.unesco.borg/en/list/30
6. Mikhaylovskiy E.V. Restavratsiya pamyatnikov arkhitektury [Restoration of monuments of architecture]. In: Likhachev D.S., ed. Vosstanovlenie pamyatnikov kul'tury: (Problemy restavratsii). Moscow, 1981, pp. 15-42.
7. Marek K. Rekonstruktion und Kulturgesellschaft. Stadtbildreparatur in Dresden, Frankfurt am Main und Berlin als Ausdruck der zeitgenössischen Suche nach Identität: Dissertationzur Erlangung des akademischen Grades eines Doktors der Philosop hie. –Kassel, 2009
8. Ruskin D. Seven lights of architecture / D. Ruskin; translated from English by M. Kurenna, N. Lebedeva, S. Sukhareva. - St. Petersburg: Azbuka-klastika, 2007. - 320 c.
9. The reconstruction of the Frauenkirche: the return of Dresden's landmark // Frauenkirche Dresden. [Электронный ресурс] URL: http://www.frauenkirche-dresden.de/en/reconstruction/
10. https://az.wikipedia.org/wiki/Azərbaycanda_UNESCO-nun_ümumdünya_irsi_obyektlərinin_ siyahısı
11. https://medeniyyet.az/page/news/66726/Isgaldan-azad-edilen-ne-qeder-erazi-minalardan-temizlenib.html
12. https://www.yeniazerbaycan.com/MEDIA_e60835_az.html

13. https://www.google.com/search?aqs=chrome..69i57.2989j0j4&sourceid=chrome&ie=UTF-8
14. irs.gov.az
15. https://azvision.az/news/257666/-medeni-irse-ferqli-yanasma--azerbaycan-berpa-edir,-ermenistan-ise-dagidir-.html
16. http:// governo.it (La Costituzione della Repubblica Italiana // Governo italiano: Presidenza del Consiglio dei Ministri: site.)
17. http:// italianostra. Org (Italia Nostra: Associazione Nazionale per la tutela del Patrimonio Storico, Artistico e Naturale della Nazione: official site. Roma, 2014)
18. https://cyberleninka.ru/article/n/ohrana-kulturnogo-naslediya-mezhdunarodnyy-i-rossiyskiy-opyt
19. http:// legifrance. gouv.fr (Code du patrimoine // Legifrance: le service public de la diffusion du droit: site.)
20. http:// britain4russians.net (National Trust = The British National Fund.)
21. https://arzamas.academy/materials/487
22. https://tass.ru/info/2222094
23. https://respublika-news.az/news/qarabag-ve-serqi-zengezur-heyat-axarina-dusur
24. https://az.sputniknews.ru/20220207/kak-osvobozhdenie-zemel-otrazitsya-na-ekonomike-azerbaydzhana-438897834.html
25. https://anama.gov.az/enlightenment-works

Вилаят Исмайлов
Д.э.н., проф., Азербайджанская Академия Труда и Социальных Отношений

Приоритеты восстановления, сохранения и рационального использования памятников на освобожденных от оккупации территориях

Резюме

Цель исследования: В статье рассмотрены основные методы и модели сохранения культурного наследия в практике современных государств, определены особенности законодательства и роль общественных организаций. Целью является выявление приоритетов восстановления, сохранения и рационального использования исторических, культурных и религиозных памятников на освобожденных от оккупации территориях Азербайджана и внесение предложений.

Методология исследования: в исследовательской работе использованы методы сравнительного анализа, синтеза и теоретических рассуждений.

Прикладная значимость исследования: подчеркивается важность особого внимания к значимости организации международного сотрудничества в деле сохранения культурного наследия и значимости международного законодательства в этой области. На освобожденных от оккупации территориях важно восстанавливать, сохранять исторические, культурные и религиозные памятники и передавать их будущим поколениям.

Результаты исследования: Мировой опыт показывает, что в результате войны и т. д., поврежденных разрушительных процессов восстановление и сохранение объектов, осуществляется государствами. Восстановление, сохранение поврежденных памятников на этих территориях являются важными условиями. С этой целью Азербайджан также должен эффективно использовать опыт зарубежных стран, планируя работу в указанном направлении.

Оригинальность и научная новизна исследования: Отмечается целесообразность участия иностранных специалистов в восстановлении и сохранении исторических, культурных и религиозных памятников на освобожденных от оккупации территориях Азербайджана. Отмечается целесообразность правильного использования возможностей о том, что

сотрудничество в области сохранения всемирного культурного наследия дает ощутимые практические результаты, в том числе обмен опытом, актуальными проблемами, научными разработками и технологиями для совершенствования деятельности государств в этой области и т.д.

Ключевые слова: культура, международное культурное сотрудничество, культурное наследие, сохранение культурного наследия, зарубежный опыт.

Vilayat İsmayilov
doctor of economics, prof. Azerbaijan Academy of Labor and Social Relations

Priorities for the restoration, conservation and rational use of monuments in the territories liberated from occupation

Summary

The purpose of the study: The article examines the main methods and models of preserving cultural heritage in the practice of modern states, identifies the features of legislation and the role of public organizations. The aim is to identify priorities for the restoration, preservation and rational use of historical, cultural and religious monuments in the territories of Azerbaijan liberated from occupation and to make proposals.

Research methodology: the research work uses methods of comparative analysis, synthesis and theoretical reasoning.

The applied significance of the research: The importance of special attention to the importance of organizing international cooperation in the preservation of cultural heritage and the importance of international legislation in this area is emphasized. In the territories liberated from occupation, it is important to restore, preserve historical, cultural and religious monuments and pass them on to future generations.

Research results: The author pays special attention to the importance of organizing international cooperation in the preservation of cultural heritage and the importance of international legislation in this area. Restoration and preservation of damaged monuments in these territories are important conditions. To this end, Azerbaijan should also make effective use of the experience of foreign countries, planning work in this direction.

Originality and scientific novelty of the research: The expediency of the participation of foreign specialists in the restoration and preservation of historical, cultural and religious monuments in the territories of Azerbaijan liberated from occupation is noted. It is noted that it is advisable to make proper use of the opportunities that cooperation in the field of preserving the world cultural heritage gives tangible practical results, including the exchange of experience, current problems, scientific developments and technologies to improve the activities of States in this area, etc.

Key words: culture, international cultural cooperation, cultural heritage, preservation of cultural heritage, foreign experience.

UOT 574

Vasif Balaxan oğlu HƏZİYEV
Azərbaycan Kooperasiya Universitetinin
“Menecment və ticarət” kafedrasının müdiri, prof.
E-mail: 1_hvb_1@mail.ru
https://doi.org/10.30546/4.71.73001.2025.001.18

QARABAĞDA YAŞIL İNNOVASİYALARIN TƏTBİQİ İLƏ EKOLOJİ SİSTEMİN YENİDƏN QURULMASI

Xülasə

Tədqiqatın məqsədi Qarabağ regionunun strateji əhəmiyyətini, tarixi və mədəni irsini, eləcə də münaqişə sonrası ekoloji bərpa proseslərini öyrənməkdir. Müharibə nəticəsində regionun taleyi dəyişmiş, infrastruktur, ekoloji yenidənqurma və yaşıl iqtisadiyyatın təşviqi vacib prioritetlərə çevrilmişdir. Bu aspektlərin öyrənilməsi Qarabağın davamlı inkişafını təmin etmək məqsədini güdür.

Tədqiqatın metodologiyası analitik və empirik yanaşmaları birləşdirir. İlk mərhələdə Qarabağ regionunun tarixi, coğrafi və mədəni kontekstini anlamaq üçün ədəbiyyat icmalı həyata keçiriləcək. Sonrakı mərhələdə müharibədən sonra aparılan bərpa və inkişaf layihələrinin təsirini qiymətləndirmək məqsədilə sahə tədqiqatları və müvafiq statistika analizləri aparılacaq. Müsahibələr və sorğular vasitəsilə yerli icmaların və mütəxəssislərin fikirləri toplanacaq. Eyni zamanda, ekoloji yenidənqurma və yaşıl iqtisadiyyat prinsiplərinin tətbiqi ilə bağlı beynəlxalq təcrübələr öyrəniləcək, bu da Qarabağın bərpası üçün innovativ yanaşmaların inkişafına kömək edəcək.

Tədqiqatın tətbiqi əhəmiyyəti Qarabağın bərpa prosesinə yönəlmiş müasir yanaşmaların inkişafını, ekoloji tarazlığın bərpasını və regional iqtisadi inkişafa dəstək verməyi əhatə edir. Əldə olunan nəticələr dövlət siyasətinin formalaşmasında və investisiya layihələrinin hazırlanmasında praktiki yönləndirmələr təmin edəcəkdir.

Tədqiqatın nəticələri Qarabağ regionunun bərpa və inkişaf strategiyalarının təsirini ortaya qoyacaq. Əldə olunan məlumatlar ekoloji yenidənqurma, yaşıl iqtisadiyyat və turizm potensialının artırılması sahəsində konkret təkliflər təqdim edəcək. Həmçinin, yerli icmaların iştirakının vacibliyi və davamlı inkişaf prinsiplərinin tətbiqi vurğulanacaq, regionun gələcək inkişafına yön verəcəkdir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi Qarabağın bərpası və ekoloji yenidənqurma məsələlərinə inteqrativ yanaşma təqdim etməsindədir. Elmi yeniliyi isə, müharibədən sonra ekoloji tarazlığın bərpası və yaşıl iqtisadiyyat prinsiplərinin tətbiqi kontekstində yerli icmaların rolunu ön plana çəkməsində, eləcə də regional inkişaf strategiyalarına yeni perspektivlər gətirməsindədir.

Açar sözlər: Ekoloji yenidənqurma, yaşıl iqtisadiyyat, bərpa prosesi, müharibə sonrası inkişaf, regional strategiyalar.

Giriş

Qarabağ regionu tarix boyunca strateji mövqeyi və zəngin mədəni irsi ilə diqqət çəkmişdir. Coğrafi baxımdan Qarabağ Qafqazın mərkəzi hissəsində yerləşərək Şərq və Qərb arasında keçid rolunu oynayır. Bu geosiyasi əhəmiyyət regionun tarixi hadisələrinin formalaşmasında əsas amil olub. Tarixi dövrlərdə Qarabağ müxtəlif imperiyaların və xalqların təsiri altında qalmışdır. Orta əsrlərdə burada Azərbaycan, erməni və digər xalqların yaşadığı çoxmillətli bir cəmiyyət formalaşmışdır. 19-cu əsrdə Rus İmperiyası Qarabağı öz tərkibinə qatdıqdan sonra bu regionda etnik və siyasi gərginliklər artmağa başlamışdır. Ermənistan SSR ilə mədəni əlaqələrinin artması, burada erməni əhalisinin sayının artmasına səbəb oldu. 1980-ci illərin sonlarından başlayaraq Qarabağdakı etnik gərginlik müharibəyə yol açdı və bu müharibə 1994-cü ildə atəşkəs razılaşması ilə sona yetdi. Lakin, bu dəfə münaqişə müasir geosiyasi mühitdə də öz tərkibini saxlayırdı. 1994-cü ildəki atəşkəsdən sonra Qarabağ münaqişəsi “dondurulmuş münaqişə” kimi qalmağa davam etsə də,

2020-ci ildə baş verən 44 günlük İkinci Qarabağ müharibəsi regionun taleyini yenidən dəyişdi. Cənab Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə Azərbaycanın hərbi uğuru və geniş ərazilərinin geri qaytarılması ilə nəticələnən bu müharibə Cənubi Qafqazda yeni siyasi və hərbi reallıqlar yaratdı.

Müharibə zamanı Azərbaycanın geri qaytardığı ərazilər, o cümlədən Şuşa şəhəri strateji mövqeyi ilə regionda mədəni və tarixi simvol olaraq xüsusi əhəmiyyət daşıyır. Şuşanın işğaldan azad edilməsi həm Azərbaycanın tarixi yaddaşında, həm də müasir milli kimliyində böyük yer tutur. Müharibənin sona çatması ilə 2020-ci ildə Rusiya, Azərbaycan və Ermənistan arasında imzalanan üçtərəfli bəyannamə regionda yeni bir nizam gətirdi. Bu bəyannaməyə əsasən, Qarabağda rus sülhməramlı qüvvələri yerləşdirildi və regionda nəqliyyat dəhlizlərinin açılması barədə razılıq əldə olundu. Xüsusilə Zəngəzur dəhlizi Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında birbaşa əlaqəni təmin etməklə yanaşı, bölgənin geosiyasi xəritəsini yenidən formalaşdırdı.

Qarabağın bərpası və yenidənqurma prosesləri Azərbaycanın daxili siyasətində də əsas prioritetlərdən birinə çevrildi. Azad olunmuş ərazilərdə infrastrukturun bərpası, minalardan təmizlənmə işləri və şəhərsalma layihələri ilə yanaşı, bu bölgənin turizm potensialı və təbii resursları da ölkənin iqtisadi inkişafı üçün yeni imkanlar açdı. Ekonomik baxımdan Qarabağın zəngin təbii ehtiyatları və strateji coğrafi mövqeyi Azərbaycanı regional enerji və nəqliyyat qovşağı kimi gücləndirdi. [4, səh. 83].

Bunlarla yanaşı, Qarabağda ekoloji yenidənqurma və yaşıl iqtisadiyyatın təşviqi bölgənin dayanıqlı inkişafı üçün mühüm əhəmiyyət daşıyır. Müharibədən sonra ərazilərdə dağıdılmış ekosistemlərin bərpası, ətraf mühitin qorunması və təbii resursların səmərəli idarə olunması zəruridir. Qarabağın zəngin təbiəti, o cümlədən meşə örtüyü, su resursları və biomüxtəliflik, burada ətraf mühitin bərpası və iqtisadi inkişaf arasında balans yaratmağa imkan verir.

Müharibə dövründə və ondan sonrakı müddətdə ekoloji tarazlığın pozulması torpaqların deqradasiyasına, su hövzələrinin çirklənməsinə və biomüxtəlifliyin azalmasına gətirib çıxarıb. Bu problemlərin həlli üçün ekoloji yenidənqurma tədbirləri ilə yanaşı, yaşıl iqtisadiyyat modellərinin tətbiqi də vacibdir. Yaşıl iqtisadiyyatın tətbiqi Qarabağda təbii ehtiyatlardan dayanıqlı şəkildə istifadə etməklə yanaşı, ətraf mühitin mühafizəsinə və insanların həyat şəraitinin yaxşılaşdırılmasına xidmət edir.

Post-konflikt dövründə Qarabağda bərpa prosesinin ekoloji aspektlərinə xüsusi diqqət yetirmək, həmçinin alternativ enerji mənbələrinin istifadəsini təşviq etmək önəmlidir. Günəş və külək enerjisi kimi bərpa olunan enerji mənbələri Qarabağın təbii potensialını nəzərə alaraq, regionda enerji təhlükəsizliyini təmin etməklə yanaşı, ətraf mühitə zərər vermədən iqtisadi inkişafa töhfə verə bilər. Bu yanaşmalar həm də bölgədə ekoturizm imkanlarının genişlənməsi üçün zəmin yaradır, çünki ekoloji cəhətdən təmiz bölgələr turistlər üçün cazibədar olur. [9].

Qarabağda ekoloji yenidənqurma, təbiət resurslarının dayanıqlı idarə olunması və yaşıl iqtisadiyyatın təşviqi yalnız ətraf mühitin bərpasını təmin etməyəcək, həm də bölgənin uzunmüddətli iqtisadi inkişafına və yerli əhalinin rifahına töhfə verəcəkdir.

Ekoloji Yenidənqurma: Konseptual Çərçivə. Ekoloji yenidənqurma zədələnmiş və ya pozulmuş ekosistemlərin bərpası və onları daha davamlı, resilient və funksional şəraitə gətirmək məqsədilə həyata keçirilən sistematik prosesdir. Bu proses yalnız ekosistemlərin fiziki və bioloji parametrlərinin bərpası deyil, eyni zamanda insanların bu ekosistemlərlə qarşılıqlı əlaqələrinin, iqtisadi fəaliyyəti və sosial strukturların da yenidən formalaşdırılmasını əhatə edir. Ekoloji yenidənqurma müasir dövrün əhəmiyyətli məsələlərindən biri olaraq, həm lokal, həm də qlobal miqyasda ekoloji, iqtisadi və sosial problemlərlə mübarizədə fizioloji, psixoloji və maddi resursların davamlı istifadəsini hədəfləyir.

Ekoloji Yenidənqurmanın Tərkibi. Ekoloji yenidənqurma ekosistemlərin ekoloji tarazlığını bərpa etmək və onu günümüzün ehtiyaclarına uyğunlaşdırmaq məqsədini güdür. Bu tərkibdə ətraf mühitin qanunauyğunluqlarını və ekoloji prinsipləri göz önündə tutmaqla yanaşı, insan amilinin və fəaliyyətinin əhəmiyyətli rolunu da unutmamaq vacibdir. Ekoloji yenidənqurma prosesində

ətraf mühitin müxtəlif sahələri arasında qarşılıqlı əlaqələr, onların inkişafı və lotosferdəki müxtəlif təsirlər geniş şəkildə analiz olunmalıdır. [3].

Ekosistemlərin Bərpası və Davamlı İnkişaf. Ekosistemlərin bərpası həm bioloji müxtəlifliyin bərpası, həm də ətraf mühitin sağlamlığının artırılması deməkdir. Bu, ekosistemlərin funksiyalarını, o cümlədən su, hava və torpaq keyfiyyətinin bərpasını nəzərdə tutur. Ekosistemlərin bərpa prosesi ətraf mühitin çirklənməsinin azaldılması, mühafizə olunan sahələrin artırılması və ekosistem xidmətlərinin gücləndirilməsi ilə əlaqədardır. Davamlı inkişaf prinsipi ekoloji yenidənqurmanın mərkəzində yerləşir. Davamlı inkişaf gələcək nəsillərin öz ehtiyaclarını qarşılamağa imkan tanıyan, bugünkü resursların səmərəli istifadəsi və ekosistemlərin qorunmasını əhatə edən bir konsepsiyadır. Bu yanaşma insan fəaliyyətinin nəticələrinin ekosistemlər üzərindəki təsirlərini azaltmağı və bu təsirləri minimuma endirmək üçün yeni metodların tətbiqini tələb edir. [4, səh.84].

Yaşıl İqtisadiyyat və Onun Prinsipləri. Yaşıl iqtisadiyyat, ekoloji yenidənqurmanın bir hissəsi olaraq, iqtisadi fəaliyyətlərin ekoloji dayanıqlılıq prinsipinə əsaslanaraq formalaşmasını nəzərdə tutur. Yaşıl iqtisadiyyatın əsas məqsədi, ekosistemlərin davamlılığını qorumaqla yanaşı, iqtisadi inkişafı təşviq etməkdir. Bu iqtisadi yanaşma enerjinin səmərəli istifadəsi, tullantıların azaldılması və təbii resursların qorunması hesabına çevik, elastik sistemlərin yaradılmasını hədəfləyir.

Yaşıl iqtisadiyyatın prinsipləri arasında aşağıdakılar yer alır:

Prinsip	**Qısa Təsvir**
Enerji səmərəliliyi	Enerji resurslarının səmərəli istifadəsi və yenilənə bilən enerji mənbələrinin artırılması
Tullantıların idarə edilməsi	Tullantıların minimuma endirilməsi və recicləyinq üsullarının tətbiqi
Biomüxtəlifliyin mühafizəsi	Ekosistemlərin mühafizəsi və davamlı təbii resurs istifadəsinin təşviqi
İctimai sosial yanaşma	İcma iştirakının artırılması və ekosistem xidmətlərinin sosial-iqtisadi sistemlə inteqrasiyası
İnnovasiya və texnologiya	Yaşıl innovasiyaların və yeni texnologiyaların tətbiqi

Bu cədvəl yaşıl iqtisadiyyatın müxtəlif sahələrində dayanıqlı inkişafın təmin edilməsi üçün əsas prinsipləri aydın şəkildə təsvir edir.

Enerji Səmərəliliyi: Enerji səmərəliliyi enerji resurslarının mümkün qədər effektiv istifadəsini təmin etməyə yönəlib. Bu prinsip köhnəlmiş enerji istehsal və istehlak üsullarını dəyişdirərək, daha az enerji sərf etməklə eyni nəticəni əldə etməyə çalışır. Yenilənə bilən enerji mənbələrinin, məsələn, günəş, külək və hidroenerji istifadə edilməsi fosil yanacaqlara olan asılılığı azaltmağa və ekoloji təsiri minimuma endirməyə kömək edir. Minimal enerji istehlakı da daha az tullantı istehsal etməklə və mühitə zərərin azaldılması ilə nəticələnir.

Tullantıların İdarə Edilməsi: Tullantıların idarə edilməsi istehsal və istehlak proseslərində tullantıların minimuma endirilməsini hədəfləyir. Bu prinsip tullantıların yenidən istifadəyə yararlı hala gətirilməsi (recicləyinq) və ekoloji cəhətdən təmiz istehsal üsullarının tətbiqi ilə həyata keçirilir. Tullantıların düzgün idarə olunması təbii resursların daha səmərəli istifadəsini və ekosistemlərin mühafizəsini təmin edir. Bu yanaşma, eyni zamanda insan sağlamlığını da qorumağa kömək edir.

Biomüxtəlifliyin Mühafizəsi: Biomüxtəlifliyin mühafizəsi ekosistemlərin, heyvanların və bitkilərin mühafizəsinə yönəlmiş bir prinsipdir. Təbii ekosistemlərin bərpası, biomüxtəlifliyin artırılması və davamlı təbii resurs istifadəsi bu prinsipi təşkil edir. Bu yanaşma ekosistemlərin sağlamlığını və dayanıqlığını təmin edir, eyni zamanda, insanların təbii resurslardan səmərəli istifadəsini artırır. Biomüxtəliflik insanların qida, su və digər resurslara olan asılılığını azaldır.

İctimai Sosial Yanaşma: İctimai sosial yanaşma, ekosistem xidmətlərinin insan cəmiyyətləri ilə birləşdirilməsini təmin edir. Bu prinsip ictimai perspektivlərin nəzərə alınmasını və icmaların bu sahədə iştirakını artırmağı hədəfləyir. İcma iştirakının artırılması yerli əhalinin resursların idarə olunmasında səs hüququna sahib olmasını və ekoloji məsələlərdə daha aktiv olmasını təmin edir.


Bu yanaşma ekosistem xidmətlərinin sosial-iqtisadi sistemlə inteqrasiyası ilə insanların həyat keyfiyyətinin yüksəldilməsinə kömək edir.

İnnovasiya və Texnologiya: İnnovasiya və texnologiya yaşıl iqtisadiyyatın əsas sütunlarından biridir. Yeni texnologiyaların tətbiqi, yaşıl innovasiyaların təşviqi və davamlı istehsal metodlarının tətbiqi təbii resursların daha səmərəli istifadəsinə imkan tanıyır. Bu prinsip müasir texnologiyaların, məsələn, təmiz istehsal proseslərinin və ekoloji dostu məhsulların inkişafını dəstəkləyir. İnnovasiyalar mühitə zərər vermədən iqtisadi artımı təmin etmək üçün vacibdir.

Yaşıl iqtisadiyyatın prinsipləri müasir cəmiyyətlərin ekoloji dayanıqlığını artırmaq, iqtisadi inkişafı dəstəkləmək və insanların həyat keyfiyyətini yüksəltmək məqsədini güdür. Bu yanaşmaların tətbiqi yalnız mühitin mühafizəsinə deyil, eyni zamanda iqtisadi inkişafın və sosial ədalətin təmin edilməsinə də xidmət edir.

Bu prinsiplər ekoloji yenidənqurmanı daha effektiv və davamlı həyata keçirmək üçün strateji yanaşmaların tərkib hissəsini təşkil edir. Həmçinin, ekoloji yenidənqurma geniş miqyasda kənd təsərrüfatı, şəhər planlaşdırılması, ekoturizm və digər iqtisadi sahələrin müasir mühitə uyğunlaşdırılması üçün müsbət bir ekosistem yaratmağı hədəfləyir. Nəticə etibarilə, ekoloji yenidənqurma şəxsi və ictimai səviyyədə ekosistemlərin bərpasını təkil etmək üçün bir yanaşmadır. Bu yanaşma növbəti dövrlərdə ekosistemlərin sağlamlığını qorumaq, insan həyatının keyfiyyətini yüksəltmək və gələcək nəsillər üçün daha sağlam bir planet təmin etmək məqsədini güdür. Ekoloji yenidənqurma, yalnız ekosistemlərin fiziki bərpasından asılı olmayıb, qlobal miqyasda davamlı gələcək üçün həyati əhəmiyyət kəsb edir.

Qarabağın Ekoloji Problemləri. Qarabağ regionu tarixi və geosiyasi əhəmiyyəti ilə yanaşı, ekoloji problemlərlə də qarşılaşır. Bu problemlər müharibə dövründə yaranmış infrastruktur dağıntıları, resursların qeyri-səmərəli istifadəsi və iqlim dəyişikliyi kimi faktorlarla daha da dərinləşmişdir. Aşağıda bu ekoloji problemlərin hər biri ətraflı izah edilir.



Su Resurslarının Çirklənməsi və Tükənməsi - Su resursları insan həyatının və ekosistemlərin əsas tərkib hissəsidir. Qarabağda çirklənmiş su mənbələri insanların sağlamlığına və kənd təsərrüfatına ciddi təsir edir. Müharibə zamanı yaranan dağıntılar su hövzələrinin çirklənməsinə və suyun keyfiyyətinin pisləşməsinə səbəb olmuşdur. Həmçinin, su resurslarının qeyri-səmərəli isti-


fadəsi su tükənməsinə yol açır. Bu, əkinçilik üçün lazımi suyun çatışmazlığına və yerli ekosistemlərin pozulmasına gətirib çıxarır.

Torpaq Dağılması və Əkin Sahələrinin İtirilməsi - Torpaq dağılması ekosistemlərin sağlamlığı üçün ciddi bir təhlükədir. Qarabağda torpaq deqradasiyası qeyri-düzgün əkinçilik praktikaları, eroziya və ağacların kəsilməsi nəticəsində baş verir. Bu, əkin sahələrinin itirilməsinə və kənd təsərrüfatı istehsalının azalmasına səbəb olur. Eroziya torpağın üst qatını aşındıraraq, onun məhsuldarlığını azaldır və bitki örtüyünün itməsinə gətirib çıxarır.

Bioloji Müxtəlifliyin Azalması və Ekosistemlərin Pozulması - Bioloji müxtəliflik, ekosistemlərin sağlamlığının göstəricisidir. Qarabağda insan fəaliyyəti, müharibə və ekosistemlərin pozulması, yerli flora və fauna növlərinin azalmasına səbəb olmuşdur. Bu, ekosistemlərin tarazlığının pozulmasına, müəyyən növlərin məhvinə və bərpa proseslərinin ləngiməsinə gətirib çıxarır. Bioloji müxtəlifliyin azalması ekosistem xidmətlərinin də itirilməsinə səbəb olur, bu isə insanların həyatına və iqtisadiyyatına mənfi təsir edir.

İqlim Dəyişikliklərinin Təsiri - İqlim dəyişikliyi Qarabağda ekoloji problemlərin şiddətini artırır. Temperaturun yüksəlməsi, quraqlığın artması və ekstremal hava hadisələrinin sayının artması ekosistemlərin və su resurslarının vəziyyətinə mənfi təsir edir. İqlim dəyişikliyi kənd təsərrüfatında məhsuldarlığın azalmasına, su tədarükünün qeyri-sabit olmasına və bioloji müxtəlifliyin daha da azalmasına səbəb olur. Bu, Qarabağın ekoloji tarazlığını daha da zəiflədir.

Yaşıl innovasiyalar: tətbiq sahələri. Yaşıl innovasiyalar ekosistemlərin mühafizəsi və davamlı inkişafın təmin edilməsi üçün mühüm rol oynayır. Bu innovasiyalar ekoloji cəhətdən səmərəli və davamlı həllər təqdim edərək, müasir problemlərin aradan qaldırılmasına kömək edir.



Yenilənə bilən enerji mənbələri enerji istehsalında karbon izini azaltmağa kömək edir. Bunlara günəş enerjisi, külək enerjisi və biokütlə daxildir. Günəş panelləri vasitəsilə günəş işığının elektrik enerjisinə çevrilməsi evlərin və müəssisələrin enerji tələbatını qarşılayır. Külək turbinləri küləyin kinetik enerjisinin elektrik enerjisinə çevrilməsini təmin edir, bu da geniş ərazilərdə enerji istehsalına imkan verir. Biokütlə isə bitki və heyvan tullantılarından enerji istehsalını təmin edir, bu da tullantıların idarə olunmasına kömək edir. [3].

Ekologiya üçün infrastruktur, ekosistemlərin mühafizəsi və insanların həyat keyfiyyətinin artırılması üçün vacibdir. Yaşıl binalar, təbii materiallardan inşa olunan, enerji səmərəli sistemlərlə təchiz edilmiş və su istehlakını minimuma endirən binalardır. Bu binalar ekosistemin qorunmasına kömək edir. Şəhər planlamasında yaşıl sahələrin artırılması, təbii su yollarının qorunması və ictimai nəqliyyatın inkişafı şəhərlərin ekoloji cəhətdən davamlı olmasını təmin edir.

Ağıllı su idarəetmə sistemləri suyun istifadəsini optimallaşdırmağa və israfı azaltmağa yönəlmişdir. Bu sistemlər su istifadəsini real vaxtda izləyir, suyun keyfiyyətini ölçür və su resurslarının səmərəli istifadəsini təmin edir. Ağıllı su dəhlizləri su təchizatını optimallaşdırmaq və sızıntıları minimuma endirmək üçün istifadə edilən texnologiyalardır.

İnteqrasiya olunmuş kənd təsərrüfatı və aqroekologiya ekosistemlərin mühafizəsi və kənd təsərrüfatının davamlı inkişafını təmin edir. Davamlı əkinçilik praktikaları kimyəvi gübrələrin və pestisidlərin minimum istifadəsi ilə təbii mühitə ziyan vurmadan məhsuldarlığın artırılmasını hədəfləyir. Biodiversifikasiyalı kənd təsərrüfatı müxtəlif bitki və heyvan növlərinin yetişdirilməsi ilə ekosistemlərin sağlamlığını artırır.

Bu sahələr yaşıl innovasiyaların tətbiqi ilə ekoloji tarazlığın bərpasına, iqtisadi inkişafın təmin edilməsinə və yerli icmaların rifahının artırılmasına kömək edir. Yaşıl innovasiyaların dəstəklənməsi gələcək nəsillərin ehtiyaclarını qarşılamaq üçün vacibdir.

Nəticə

Qarabağ regionunun ekoloji problemləri və yaşıl innovasiyalar mövzusu müasir dövrdə dayanıqlı inkişafın təmin edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Su resurslarının çirklənməsi, torpaq dağılması, bioloji müxtəlifliyin azalması və iqlim dəyişikliyi kimi ekoloji çətinliklər bölgənin ekosistemlərinə ciddi təsir edir. Bu problemlərin həlli üçün yenilənə bilən enerji mənbələrinin, ekoloji cəhətdən dost infrastrukturların, ağıllı su idarəetmə sistemlərinin və inteqrasiya olunmuş kənd təsərrüfatı yanaşmalarının tətbiqi mühüm rol oynayır.

Yaşıl innovasiyalar yalnız ekoloji tarazlığı bərpa etməkdə deyil, eyni zamanda regional və beynəlxalq səviyyədə iqtisadi inkişafı stimullaşdırmaqda da əhəmiyyətlidir. Bu yanaşmalar həm də yerli icmaların inkişafını dəstəkləyərək, ekosistem xidmətlərinin qorunmasına və davamlı resurs istifadəsinə imkan tanıyır.

Beləliklə, Qarabağda ekoloji yenidənqurma və yaşıl iqtisadiyyatın tətbiqi yalnız bölgənin deyil, eyni zamanda daha geniş miqyasda ekosistemlərin və cəmiyyətlərin rifahını artırmaq üçün strateji bir addımdır. Bu, gələcək nəsillərin yaşaması üçün sağlam bir mühitin təmin edilməsi məqsədilə atılacaq mühüm bir addımdır.

ƏDƏBİYYAT

1. BMT. (2020). Ekoloji dəyişikliklər: Təsirlər və cavab strategiyaları. BMT Nəşrləri.
2. Dünya Bankı. (2019). Dayanıqlı inkişaf üçün investisiya: Qarabağ regionunun bərpası. Dünya Bankı.
3. Kral, M. (2021). Yaşıl iqtisadiyyat və biomüxtəlifliyin qorunması. Ekologiya Jurnalı, 15(3), 45-58.
4. Rüstəmov, T. (2022). Qarabağda ekosistemlərin bərpası. Təbii Resurslar və İnkişaf, 8(1), 78-89.
5. Zeynalov, A. (2020). Kənd təsərrüfatında yaşıl innovasiyalar: İnteqrasiya olunmuş yanaşmalar. Kənd Təsərrüfatı Araşdırmaları, 12(2), 34-47.
6. BMT. (2020). Ekoloji dəyişikliklər: Təsirlər və cavab strategiyaları. BMT Nəşrləri. Link
7. Dünya Bankı. (2019). Dayanıqlı inkişaf üçün investisiya: Qarabağ regionunun bərpası. Dünya Bankı. Link
8. Kral, M. (2021). Yaşıl iqtisadiyyat və biomüxtəlifliyin qorunması. Ekologiya Jurnalı, 15(3), 45-58. Link
9. Zeynalov, A. (2020). Kənd təsərrüfatında yaşıl innovasiyalar: İnteqrasiya olunmuş yanaşmalar. Kənd Təsərrüfatı Araşdırmaları, 12(2), 34-47. Link
10. Azərbaycan Ekologiya Nazirliyi. (2023). Ekologiyanın qorunması üzrə strategiyalar. Link
11. Yaşıl İqtisadiyyat Platforması. (2023). Yaşıl innovasiyalar və təbii resursların idarə edilməsi. Link

Васиф Балахан оглы Гази́ев
к.э.н., проф. Азербайджанский Университет Кооперации
Заведующий кафедрой «Менеджмент и торговля»,
E-mail: 1_hvb_1@mail.ru

Реструктуризация экологической системы в Карабахе путем применения зеленых инноваций

Резюме

Цель исследования — изучение стратегического значения, исторического и культурного наследия региона Карабаха, а также процессов восстановления после конфликта. В результате войны судьба региона изменилась, инфраструктура, экологическое восстановление и продвижение зеленой экономики стали важными приоритетами. Изучение этих аспектов направлено на обеспечение устойчивого развития Карабаха.

Методология исследования сочетает аналитические и эмпирические подходы. На первом этапе будет проведен обзор литературы для понимания исторического, географического и культурного контекста региона Карабаха. На следующем этапе будут проведены полевые исследования и соответствующий статистический анализ для оценки влияния проектов восстановления и развития после войны. Мнения местных сообществ и экспертов будут собраны через интервью и опросы. Кроме того, будут изучены международные практики, связанные с экологическим восстановлением и принципами зеленой экономики, что поможет в разработке инновационных подходов к восстановлению Карабаха.

Практическое значение исследования охватывает разработку современных подходов к процессу восстановления Карабаха, восстановление экологического баланса и поддержку регионального экономического развития. Полученные результаты предоставят практические рекомендации для формирования государственной политики и подготовки инвестиционных проектов.

Результаты исследования выявят влияние стратегий восстановления и развития в регионе Карабаха. Собранные данные представят конкретные предложения в областях экологического восстановления, зеленой экономики и повышения туристического потенциала. Также будет подчеркиваться важность участия местных сообществ и применение принципов устойчивого развития, что будет направлять будущее развитие региона.

Оригинальность и научная новизна исследования заключаются в представлении интегративного подхода к вопросам восстановления и экологического восстановления Карабаха. Научная новизна также заключается в выделении роли местных сообществ в контексте восстановления экологического баланса и применения принципов зеленой экономики после войны, а также в внесении новых перспектив в стратегии регионального развития.

Ключевые слова: экологическая реконструкция, зеленая экономика, процесс восстановления, послевоенное развитие, региональные стратегии.

Vasif Balakhan Heziyev
Ph.D., Prof. Azerbaijan Cooperation University
Head of the Department of “Management and Trade”
E-mail: 1_hvb_1@mail.ru

Restructuring the ecological system in Karabakh through the application of green innovations

Summary

The aim of the research is to study the strategic significance, historical and cultural heritage of the Karabakh region, as well as the post-conflict restoration processes. The war has altered the

fate of the region, making infrastructure, ecological restoration, and the promotion of a green economy vital priorities. The study of these aspects seeks to ensure the sustainable development of Karabakh.

The research methodology combines analytical and empirical approaches. In the first stage, a literature review will be conducted to understand the historical, geographical, and cultural context of the Karabakh region. In the next phase, field studies and relevant statistical analyses will be conducted to assess the impact of post-war restoration and development projects. Opinions of local communities and experts will be gathered through interviews and surveys. Additionally, international practices related to ecological restoration and the principles of a green economy will be examined, which will aid in developing innovative approaches for the restoration of Karabakh.

The practical significance of the research encompasses the development of modern approaches directed at the restoration process of Karabakh, the restoration of ecological balance, and support for regional economic development. The results obtained will provide practical guidance for shaping state policy and preparing investment projects.

The findings of the research will reveal the effects of restoration and development strategies in the Karabakh region. The collected data will present specific proposals in the areas of ecological restoration, green economy, and the enhancement of tourism potential. The importance of local community participation and the application of sustainable development principles will also be emphasized, guiding the future development of the region.

The originality and scientific novelty of the research lie in presenting an integrative approach to the issues of restoration and ecological renewal in Karabakh. The scientific novelty also highlights the role of local communities in the context of restoring ecological balance and applying green economy principles after the war, as well as bringing new perspectives to regional development strategies.

Keywords: ecological reconstruction, green economy, recovery process, post-war development, regional strategies.

II BÖLMƏ.
AZƏRBAYCANIN BANK SİSTEMİ, MALİYYƏ-KREDİT VƏ MÜHASİBAT UÇOTU PROBLEMLƏRİ

UOT 336.7

Ülvi Məhdut oğlu YAQUBOV
“Maliyyə və mühasibat” kafedrasının baş müəllimi
Bakı Mühəndislik Universiteti
Doktorant, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
ulvi_yagubov@unec.edu.az
uyaqubov@beu.edu.az
https://doi.org/10.30546/4.71.73001.2025.001.026

AZƏRBAYCAN BANK SİSTEMİNDƏ AKTİVLƏRDƏN İSTİFADƏNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Xülasə

Tədqiqatın məqsədi. Bank sektorunun səmərəliliyini Məlumat Zərfinin Təhlili(MZT) texnikası ilə ölçməkdir.

Tədqiqatın Metodologiyası: Məlumat Zərfinin Təhlili (MZT) texnikasından bəhs edilmiş və sonra ədəbiyyat araşdırması edilmişdir. Digər tərəfdən, bankçılıqda səmərəliliyin təhlili üçün Azərbaycan banklarının məlumatları istifadə olunmuşdur.

Tədqiqatın obyekti: Məqalədə Azərbaycan bank sistemində daimi fəaliyyət göstərən və 2021-ci il üçün ümumi aktivlər baxımından ən böyük 10 bankın məlumatları istifadə edilmiş və bu bankların səmərəlilik təhlili aparılmışdır. Əvvəlki oxşar tədqiqatlara baxılaraq hansı daxilolmaların(inputs) və çıxışların (outputs) təhlildə istifadə olunacağı müəyyən edilmişdir.

Tədqiqatın nəticəsi: 2016-2023-cü illər arasında bütün bankların səmərəlilik göstəriciləri müəyyən edilmişdir. Analizin nəticəsi bizə göstərir ki, illər üzrə aktivlərindən ən səmərəli istifadə edən banklar, Kapital Bank və Unibank olmuşdur.

Açar sözlər: Məlumat zərfinin təhlili, bank sistemi, səmərəlilik, effektivlik, təhlil.

Giriş

Məlumat Zərfinin Təhlili (Data Envelopment Analysis) texnikası qeyri-parametrik, xətti proqramlaşdırma prinsipinə əsaslanan və təşkilatlar arasında hadisələrin nisbi səmərəliliyini müqayisə etməyə imkan verən bir yanaşmadır. Bu, eyni daxilolmalarla oxşar məhsullar istehsal edən qurum və təşkilatları ədəbiyyatda Qərar Qəbuletmə Vahidləri (QQV) ilə müqayisə etməklə nisbi səmərəliliyi ölçə bilən və səmərəlilik təhlili apara bilən bir analiz üsuludur [2, s. 302-303].

Başqa oxşar bir tərifə görə, MZT (Data Envelopment Analysis) xətti proqramlaşdırma əsasında qurulmuş texnikadır və müxtəlif miqyaslı və fərqli ölçü vahidləri olan daxilolmalar və çıxışlar müqayisəni çətinləşdirdiyi zaman qərar vahidlərinin nisbi performansını ölçməyi hədəfləyir. Bu tərifl ərdən çıxış edərək MZT anlayışını eyni daxilolmalarla çıxışlar və ya nəticələr verən qərar nöqtələrinin nisbi səmərəliliyini qiymətləndirmək üçün istifadə olunan xətti proqramlaşdırma əsasında bir metod kimi tərif edə bilərik [1, s. 9-10].

MZT metodunu oxşar məqsədli digər metodlardan fərqləndirən əsas xüsusiyyət, daxilolmaların və çıxışların çox olduğu hallarda belə qiymətləndirmə aparıla bilməsidir. Bu analiz sayəsində hər bir qərar nöqtəsinin səmərəliliyi, səmərəsiz qərar nöqtələrinin daxilolma/çıxış nisbətlərində səmərəliliyin necə artırılacağı və hansı qərar nöqtələrinin istinad kimi istifadə oluna biləcəyi haqqında məlumat əldə olunur [4, s. 1-2].

MZT metodunun adı istehsal imkanları dəstində ən azı bir nöqtədən yuxarıda və ya aşağıda olan səmərəlilik sərhədini izləməkdən gəlir. Çünki riyaziyyat dilində belə bir sərhədin həmin nöqtələr tərəfindən məhdudlaşdırıldığı deyilir. Charnes, Cooper və Rhodes tərəfindən inkişaf etdirilən böyük hərflərlə yazılan CCR modeli sabit miqyasda gəlirlər (CRS) əsasında səmərəlilik sərhədini hesablayır. CCR nisbi səmərəlilik modelidir və ümumi səmərəliliyi təmin edir. Bundan əlavə, MZT-də yuxarı səmərəlilik limitinin 1.0 ilə məhdudlaşdırılması nəticəsində bütün Qərar Qəbuletmə Vahidlərinin (QQV) səmərəlilik balları 0.0 və 1.0 arasında dəyişir [3, s. 430-431].

Azərbaycan bank sistemi. Göründüyü kimi, bank sisteminin ümumi öhdəliklərinin həcmi əvvəlki illərlə müqayisədə 2013-cü ildə 21.468 milyard manat və ya 18,15%, 2014-cü ildə 44.929 milyard manat və ya 32,15%, 2015-ci ildə 63.126 milyard manat və ya 34,2%, 2016-cı ildə 47.5 milyard manat və ya 19,2%, 2018-ci ildə 12.188 milyard manat və ya 10,6%, 2021-ci ildə 61.368 milyard manat və ya 22,43%, 2022-ci ildə isə 79.399 milyard manat və ya 23,71%, 2023-cü ildə isə 16.82 milyard manat və ya 4,06% artmışdır. Araşdırmalar göstərir ki, bank sisteminin ümumi öhdəliklərinin həcmi 2012-ci ildə 11.8283 trilyon manat ikən, bu rəqəm 2023-cü ildə 3,64 dəfə artaraq 43.1148 trilyon manata çatmışdır. Aktivlərin və öhdəliklərin həcminin dəyişməsi ilə əlaqədar digər vacib göstərici kapitalın həcmi olmuşdur. 2012-2023-cü illər ərzində bank sisteminin ümumi kapitalının həcmi, 2016-cı il istisna olmaqla, bütün illərdə artmışdır. Cədvəldən göründüyü kimi, bank sisteminin ümumi kapitalı 2013-cü ildə 4.368 milyard manat və ya 21%, 2014-cü ildə 11.166 milyard manat və ya 43,7%, 2015-ci ildə 6.146 milyard manat və ya 16,7%, 2017-ci ildə 18.004 milyard manat və ya 94,32%, 2018-ci ildə 3.626 milyard manat və ya 9,8%, 2019-cu ildə 5.112 milyard manat və ya 12,55%, 2020-ci ildə 1.162 milyard manat və ya 2,5%, 2021-ci ildə 2.701 milyard manat və ya 5,75%, 2022-ci ildə 6.528 milyard manat və ya 13,14%, 2023-cü ildə isə 4.413 milyard manat və ya 7,85% artmışdır. Bank sisteminin ümumi kapitalı 2012-ci ildə 211.85 milyard manat ikən, 2023-cü ildə bu göstərici 2,86 dəfə artaraq 606.34 milyard manata çatmışdır.

Cədvəl 1.

2012-2023-cü illər ərzində Azərbaycan Respublikasının bank sisteminin malik olduğu aktivlərin, kapitalın və öhdəliklərin dinamikası (min manatla)

№	İllər	Aktivlər		Öhdəliklər		Kapital	
		məbləğ	dəyişmə (+;-)%-lə	məbləğ	dəyişmə (+;-)%-lə	məbləğ	dəyişmə (+;-)%-lə
1	2012	13946810.0	-	11828310.0	-	2118500.00	-
2	2013	16530410.0	+18.5	13975110.0	+18.15	2555300.0	+21
3	2014	22140000.0	+34	18468100.0	+32.15	3671900.0	+43.7
4	2015	29067200.0	+31.3	24780700.0	+34.2	4286500.0	+16.7
5	2016	31439500.0	+8.2	29530700.0	+9,2	1908800.0	-55.47
6	2017	27921000.0	-11.19	24211800.0	-18.01	3709200.0	+94.32
7	2018	29502400.0	+5.66	25430600.0	+5.03	4071800.0	+9.8
8	2019	32722800.0	+10.09	28139800.0	+10.6	4583000.0	+12.55
9	2020	32055300.0	-2.04	27356100.00	-2.79	4699200.0	+2.5
10	2021	38462200.0	+20	33492900.00	+22.43	4969300.0	+5.75
11	2022	47054900.0	+22.3	41432800.0	+23.71	5622100.0	+13.14
12	2023	49178200.0	+4.5	43114800.0	+4.06	6063400.0	+7.85

Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı.

Araşdırma göstərir ki, 2022-2023-cü illər ərzində bank sisteminin aktivləri 3,5 dəfə, öhdəlikləri 3,64 dəfə, kapitalı isə 2,86 dəfə artmışdır. Aktivlərin bu artımı bank sistemində digər göstəricilərin də müsbət dinamika ilə inkişaf etməsinə və sistemin dayanıqlığının təmin olunmasına səbəb olmuşdur. 2023-cü ildə ümumi aktivlər 49.1178 trilyon manat, ümumi öhdəliklər 43.1148 trilyon

manat, ümumi kapital isə 606.34 milyard manat səviyyəsinə çatmış və bu, təhlil edilən dövr ərzində ən yüksək göstəricidir. Tədqiqatın məqsəd və vəzifələrinə uyğun olaraq, ölkənin bank sisteminin fəaliyyəti nəticəsində formalaşmış xalis mənfəət, faiz gəlirləri və faiz xərclərinin dinamikası təhlil olunmalıdır. 2012-2023-cü illər ərzində bank sisteminin xalis mənfəəti, 2015 və 2018-ci illər istisna olmaqla, artımla müşahidə olunmuşdur. Belə ki, xalis mənfəət əvvəlki illə müqayisədə 2013-cü ildə 23,235 milyon manat və ya 38,9%, 2014-cü ildə 44,007 milyon manat və ya 53,1%, 2016-cı ildə 53,926 milyon manat və ya 42%, 2017-ci ildə 21,6 milyon manat və ya 32,35%, 2019-cu ildə 25,75 milyon manat və ya 92,2%, 2020-ci ildə 3,09 milyon manat və ya 5,76%, 2021-ci ildə 41,2 milyon manat və ya 7,26%, 2022-ci ildə 30,55 milyon manat və ya 50,16%, 2023-cü ildə isə 16,19 milyon manat və ya 17,7% artmışdır.

Cədvəl 2.

2012-2023-cü illər ərzində Azərbaycan Respublikasının bank sistemində xalis mənfəətin, faiz gəlirlərinin və faiz xərclərinin dinamikası (min manatla)

№	İllər	Xalis mənfəət		Faiz gəlirləri		Faiz xərcləri	
		məbləğ	dəyişmə (+;-)%-lə	məbləğ	dəyişmə (+;-)%-lə	məbləğ	dəyişmə (+;-)%-lə
1	2012	596870.0	-	1257820.0	-	660950.0	-
2	2013	829220.0	+38.9	1646860.0	+31	817640.0	+23.7
3	2014	1269290.0	+53.1	2255730.0	+37	986440.0	+20.6
4	2015	128340.0	-89.9	200500.0	-91.1	72220.0	-92.7
5	2016	667600.0	+420	1994000.0	+894.2	1070700.0	+1382.5
6	2017	883600.0	+32.35	1775200.0	-10.97	824900.0	-23
7	2018	279400.0	-68.38	1753000.0	-1.25	581900.0	-29.46
8	2019	536900.0	+92.2	1922200.0	+9.65	547900.0	-5.84
9	2020	567800.0	+5.76	1920500.0	-0.09	492500.0	-10.11
10	2021	609000.0	+7.26	2107000.0	+9.71	538400.0	+9.32
11	2022	914500.0	+50.16	2738800.0	+30	657800.0	+22.18
12	2023	1076400.00	+17.7	3492900.0	+27.5	832400.0	+26.54

Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı.

Faiz gəlirlərinin dinamikasına baxdıqda isə, 2013-cü ildə əvvəlki illə müqayisədə 38,904 milyon manat və ya 31% artım, 2014-cü ildə isə 39,113 milyon manat və ya 37% azalma olmuşdur. 2015-ci ildə 235,518 milyon manat və ya 91,1% azalma müşahidə edilmiş, 2016-cı ildə isə 179,345 milyon manat və ya 9,94 dəfə artım qeydə alınmışdır. 2017-ci ildə isə faiz gəlirləri 21,88 milyon manat və ya 10,97% azalmışdır. 2018-ci ildə 2,22 milyon manat və ya 1,25%, 2019-cu ildə 16,92 milyon manat və ya 9,65%, 2021-ci ildə 18,65 milyon manat və ya 9,71%, 2022-ci ildə 63,18 milyon manat və ya 30%, 2023-cü ildə isə 75,41 milyon manat və ya 27,5% artmışdır. Ümumilikdə faiz gəlirləri 2012-ci ildəki 125,782 milyon manatdan 2,7 dəfə artaraq 2023-cü ildə 349,29 milyon manata çatmışdır.


Faiz xərclərinə gəldikdə isə, 2013-cü ildə əvvəlki illə müqayisədə 15,665 milyon manat və ya 23,7%, 2014-cü ildə 16,88 milyon manat və ya 20,6% artım, 2015-ci ildə isə 91,422 milyon manat və ya 92,7% azalma baş vermişdir. 2016-cı ildə faiz xərcləri 99,848 milyon manat və ya 148 dəfə artmış, 2017-ci ildə 24,58 milyon manat və ya 23%, 2018-ci ildə 24,3 milyon manat və ya 29,46%, 2019-cu ildə 3,4 milyon manat və ya 5,84%, 2020-ci ildə isə 5,54 milyon manat və ya 10,11% azalma olmuşdur. 2021-ci ildə faiz xərcləri 4,59 milyon manat və ya 9,32%, 2022-ci ildə 11,94 milyon manat və ya 22,18%, 2023-cü ildə isə 18,16 milyon manat və ya 26,54% artmışdır.

Təhlillər göstərir ki, faiz xərcləri faiz gəlirlərinin 2012-ci ildə 52,5%-ni, 2013-cü ildə 49,65%-ni, 2014-cü ildə 43,73%-ni, 2015-ci ildə 36,1%-ni, 2016-cı ildə 53,7%-ni, 2017-ci ildə 46,47%-ni, 2018-ci ildə 33,19%-ni, 2019-cu ildə 28,5%-ni, 2020-ci ildə 25,64%-ni, 2021-ci ildə 25,55%-ni,

2022-ci ildə 24,02%-ni, 2023-cü ildə isə 23,83%-ni təşkil etmişdir. Bu göstəricinin ən yüksək səviyyəsi 2016-cı ildə 53,7% olmuş, ən aşağı səviyyəsi isə 2023-cü ildə 23,83%-ə enmişdir. Bu enmə bank sisteminin dayanıqlığının artmasına səbəb olmuşdur.

Araşdırmalar göstərir ki, 2012-2023-cü illər ərzində ölkənin bank sistemində xalis mənfəət 2012-ci ildəki 59,687 milyon manatdan 1,8 dəfə artaraq 2023-cü ildə 107,64 milyon manata çatmışdır. Faiz gəlirləri isə 125,782 milyon manatdan 2,78 dəfə artaraq 349,29 milyon manata çatmışdır. Faiz xərcləri də 66,095 milyon manatdan 1,26 dəfə artaraq 83,24 milyon manata yüksəlmişdir.

Analizin nəticəsi. Bu araşdırmada Azərbaycan bank sektorunun səmərəliliyi ölçüldü. Səmərəliliyin təhlili üçün Azərbaycan bank sektorunun 10 ən böyük bankının aktivlərinə görə məlumatlarından istifadə edilmişdir. Oxşar mövzular üzrə əvvəlki tədqiqatlara əsaslanaraq, bu tədqiqatda 3 giriş və 2 çıxışdan istifadə edilmişdir. Giriş kimi istifadə olunan maddələr ümumi aktivlər, kapital və faiz xərcləridir. Nəticə kimi istifadə olunan maddələr faiz gəlirləri və xalis mənfəətdir. Bank sektorunun səmərəliliyi MZT-nin giriş yönümlü CCR modeli ilə ölçüldü. Hər bir bankın səmərəliliyi bütün illər üzrə ölçülüb. Aşağıdakı qrafik 1-də bütün illər üzrə səmərəlilik reytinqləri verilmişdir.



Qrafik 1. Azərbaycan bank sisteminin səmərəlilik göstəriciləri

Mənbə: Analiz nəticəsi.

Cədvəldən də göründüyü kimi, orta səmərəlilik göstəricilərinin 80%-dən aşağı olduğu illər diqqəti cəlb edir, xüsusilə 2016 və 2020-ci illərdə istər 2 devalvasiyanın təsiri, istərsə də COVID-

19 pandemiyası bankların səmərəliliyinə ciddi təsir göstərmişdir. Digər tərəfdən, bəzi banklar demək olar ki, heç bir dövr ərzində səmərəli fəaliyyət göstərməmişdir. Xüsusilə, Rabitə Bank, Azərbaycan Sənaye Bankı və Turan Bank bir çox dövrlərdə 50%-dən aşağı səmərəlilik əmsalı ilə fəaliyyət göstərmişlər. Ümumilikdə cədvəli araşdırdıqda aktivləri 1 milyard manata yaxın və ya ondan yuxarı olan bankların səmərəliliyi müxtəlif dövrlərdə ya 1, ya da 50%-dən yuxarı olmuşdur. Digər tərəfdən, aktivləri 1 milyard manatdan az olan bankların effektivliyinə həm devalvasiya, həm də COVID-19 pandemiyası daha çox təsir göstərib, bu səbəbdən onların effektivliyi müxtəlif dövrlərdə 50%-dən aşağı düşüb.

Nəticə

Nəticə olaraq bu tədqiqatda Azərbaycanın bank sektorunda daimi fəaliyyət göstərən 10 ən böyük bankın 2021-ci il üçün cəmi aktivlərinə görə səmərəlilik təhlili aparılıb. Analiz Məlumat Zərfinin Təhlili metodunun CCR modeli ilə son 6 il ərzində həyata keçirilmişdir. Təhlildə istifadə olunan giriş və çıxışlar üçün əvvəlki oxşar tədqiqatlar araşdırılmış və qərar qəbul edilmişdir. Təhlillərin nəticələrinə əsasən, 2016-2023-cü illər üçün bütün qərar qəbul vahidləri üçün səmərəlilik dəyərləri müəyyən edilmişdir. Analizin nəticəsi olaraq ən səmərəli banklar Unibank və Kapital Bank olaraq müəyyən edilmişdir.

ƏDƏBİYYAT

1. ADA, A. A., & DALKILIÇ, N. (2014). Efficiency Analysis in Islamic banks: A study for Malaysia and Turkey. *BDDK Bankacılık ve Finansal Piyasalar Dergisi*, *8*(1), 9-33.
2. Behdioğlu, S., & ÖZCAN, A. G. G. (2009). Veri Zarflama Analizi ve Bankacilik Sektöründe Bir Uygulama. *Süleyman Demirel Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi*, *14*(3), 301-326.
3. Charnes, A., Cooper, W. W., & Rhodes, E. (1978). Measuring the efficiency of decision-making units. *European journal of operational research*, *2*(6), 429-444.
4. Cooper, W. W., Seiford, L. M., & Tone, K. (2007). *Data envelopment analysis: a comprehensive text with models, applications, references, and DEA-solver software* (Vol. 2). New York: Springer.
5. Azərbaycan Respublikasının Mərkəzi Bankı cbar.az.

Ульви Махтуд оглы Ягубов
Старший преподаватель кафедры “Финансов и бухгалтерского учета” Бакинского Инженерного Университета
Докторант, Азербайджанский Государственный Экономический Университет (UNEC)

Оценка использования активов в банковской системе Азербайджана

Резюме

Цель исследования - измерение эффективности банковского сектора с использованием техники Data Envelope Analysis (DEA).

Методология исследования - была обсуждена техника Data Envelope Analysis (DEA), а затем был сделан обзор литературы. С другой стороны, данные азербайджанских банков были использованы для анализа эффективности в банковской сфере.

Объект исследования - в статье использовались данные 10 крупнейших банков по совокупным активам за 2021 год, которые постоянно работают в банковской системе Азербайджана, и был проведен анализ эффективности этих банков. Рассмотрев предыдущие аналогичные исследования, было определено, какие входы и выходы будут использоваться в анализе.

Результат исследования- были определены показатели эффективности всех банков в период с 2016 по 2021 год. Результат анализа показывает нам, что Kapital bank и Unibank были банками, которые наиболее эффективно использовали свои активы за эти годы.

Ключевые слова: анализ охвата данных, банковская эффективность, эффективность.

Ulvi Mahdut Yagubov
Senior Lecturer, Department of Finance and Accounting, Baku Engineering University
Doctoral student, Azerbaijan State University of Economics (UNEC)

Evaluation of assets usage in Azerbaijan banking

Summary

The purpose of the study- is to measure the efficiency of the banking sector using the Data Envelope Analysis (DEA) technique.

Research Methodology- Data Envelope Analysis (DEA) technique was discussed and then literature review was done. On the other hand, the data of Azerbaijani banks were used for the analysis of efficiency in banking.

The object of the study- the article used the data of the 10 largest banks in terms of total assets for 2021, which are permanently operating in the banking system of Azerbaijan, and the efficiency analysis of these banks was carried out. By looking at previous similar studies, it was determined which inputs and outputs will be used in the analysis.

The result of the study: efficiency indicators of all banks between 2016 and 2021 have been determined. The result of the analysis shows us that Kapital bank and Unibank were the banks that used their assets most efficiently over the years.

Key words: Data Envelopment Analysis, Banking Efficiency, Efficiency.

UOT: 33.336.

Mehrab Mehdi oğlu KƏRİMLİ
Azərbaycan Dövlət İqtisad Universiteti, doktorant
e-poçt: mehrabkerimli96@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2025.001.032

BANK SİSTEMİNDƏ KAPİTAL STRUKTURUNUN MALİYYƏ NƏTİCƏLƏRİNƏ TƏSİRİ

Xülasə

Tədqiqatın məqsədi – bank sistemində kapitalın strukturunun maliyyə nəticələrinə təsirinin təhlil edilməsidir.

Tədqiqatın metodologiyası – tədqiqat işində bankların kapital strukturunun onların maliyyə nəticələrinə göstərə biləcəyi təsir, bankların kapitallaşma səviyyəsi barədə nəzəri məlumatlar verilmişdir. Eyni zamanda Kapital Bank və Paşa Bankın cəmi kapital və xalis mənfəət göstəriciləri analiz edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti – banklarda kapital strukturunun düzgün formalaşdırılmasının vacibliyini, əks halda hansı mənfi nəticələrin ortaya çıxa biləcəyini vurğulamaqdır.

Tədqiqatın nəticəsi – bankların kaptal strukturunun optimal şəkildə təşkil olunması və kapitallaşma səviyyəsinin artırılmasının birbaşa bankın gələcək fəaliyyətinə təsir göstərməsidir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – tədqiqatda bankların kapital strukturunun və kapitallaşma səviyyəsinin onların uzunmüddətli fəaliyyətində və maliyyə nəticələri üzərindəki təsiri müəyyən edilmişdir.

Açar sözlər: bank sistemi, kapital strukturu, kapitallaşma, borc, maliyyə.

Giriş

Bank sistemində kapitalın strukturunun maliyyə nəticələrinə təsiri olduqca mühüm əhəmiyyətə malikdir. Kapitalın borc və öz vəsaitləri arasında optimal nisbətdə bölüşdürülməsi bankların risk idarəçiliyinə, likvidliyinə və gəlirliliyinə birbaşa təsir göstərir. Düzgün kapital strukturu bankın maliyyə göstəricilərini yaxşılaşdırmaqla yanaşı, onun uzunmüddətli fəaliyyətini və bazarda rəqabətqabiliyyətliliyini də təmin edir. Kapital strukturu ilə bağlı əsas məsələ kapitallaşma səviyyəsidir. Bankların maliyyə sabitliyi və dayanıqlığı üçün adekvat kapitallaşma səviyyəsi böyük əhəmiyyət kəsb edir. Yüksək kapitallaşma səviyyəsi, bankların potensial itkilərə qarşı dayanıqlığını artırır və maliyyə böhranlarına qarşı daha etibarlı müdafiə vasitəsi rolunu oynayır. Bununla yanaşı, tənzimləyici orqanların müəyyən etdiyi kapital tələblərinə cavab vermək, bankların fəaliyyətində mühüm yer tutur. Bankların kapitallaşma səviyyəsini artırmaq üçün bir neçə əsas istiqamət vardır. Birinci istiqamət bankların öz sərmayə səviyyələrini artırmasıdır, bu, səhmlərin buraxılması və yeni investorların cəlb edilməsi yolu ilə həyata keçirilə bilər. İkinci istiqamət, maliyyə strategiyalarının optimallaşdırılması və borc resurslarının daha səmərəli idarə olunmasıdır ki, bu da bankların risklərini azaldaraq maliyyə dayanıqlığını artırır. Üçüncü istiqamət, daxili ehtiyatların artırılmasıdır, yəni mənfəətin bir hissəsinin yenidən bankın fəaliyyətinə sərmayə qoyulması.

Bank sistemində kapital strukturu, maliyyə fəaliyyətinin dayanıqlığını və uğurlu nəticələrini təmin etmək üçün vacib elementdir [7]. Kapitalın borc və öz vəsaitləri arasındakı nisbəti, bankın fəaliyyət göstəricilərinə, likvidliyinə və risklərin idarə olunmasına birbaşa təsir göstərir. Kapital strukturunun düzgün formalaşdırılması bankların maliyyə göstəricilərini yaxşılaşdırmaqla yanaşı, onların maliyyə böhranlarına qarşı daha dayanıqlı olmasına imkan yaradır [1, s.11]. Eyni zamanda, kapitallaşma səviyyəsi bankın maliyyə möhkəmliyinin əsas göstəricilərindən biridir [4, s.21]. Maliyyə sistemində kapitallaşma səviyyəsinin artırılması, xüsusən tənzimləyici orqanların kapital adekvatlığı tələblərinə cavab verməklə, bankların davamlı fəaliyyətini təmin edir. Bankların sərmayə resurslarını düzgün idarə etməsi, riskləri azaltmaq və gəlirliliyi qorumaq üçün əsas rol

oynayır. Bu prosesdə kapitallaşma səviyyəsinin artırılması bankların fəaliyyətini daha da gücləndirmək və maliyyə nəticələrini daha səmərəli etmək üçün vacibdir. Kapital strukturunun optimallaşdırılması, bankların maliyyə göstəricilərinə və uzunmüddətli sabitliyinə müsbət təsir göstərən vacib faktordur. Banklar üçün borc maliyyələşməsi və öz kapitalı arasında balansın düzgün qurulması likvidliyin qorunması və risklərin idarə edilməsi üçün əsasdır. Məsələn, çox borclanma bankın risk səviyyəsini artırır və maliyyə bazarlarında qeyri-sabitlik dövrlərində bankın likvidlik problemləri ilə üzləşmə ehtimalını yüksəldir. Digər tərəfdən, öz kapitalının üstünlük təşkil etməsi bankın risklərini azalda bilər, lakin bu, maliyyə resurslarının məhdudlaşmasına və gəlirliliyin azalmasına səbəb ola bilər [2, s.14].

Müasir bank sektorunda, xüsusən də tənzimləyici orqanların tələb etdiyi kapital adekvatlığı standartlarına riayət etmək, bankların mövcudluğunu davam etdirməsi və bazar şərtlərinə uyğunlaşması üçün mühüm rol oynayır. Bu standartlar, bankların kapital yastığını artıraraq mümkün maliyyə itkilərinə qarşı qorunmasını təmin edir və bankların daha dayanıqlı fəaliyyət göstərməsinə kömək edir [8]. Kapital adekvatlığı, bankın fəaliyyətini davam etdirmək üçün lazım olan minimum kapital səviyyəsini təmin etməklə yanaşı, böhran dövrlərində kredit verilməsini və bazar etibarlılığını da gücləndirir. Kapitallaşma səviyyəsinin artırılması bankların maliyyə bazarlarında mövqelərini gücləndirməklə yanaşı, onların fəaliyyətindəki riskləri daha effektiv şəkildə idarə etməsinə imkan verir. Banklar kapitallaşma səviyyəsini artırmaq üçün sərmayələrin cəlb edilməsi, mənfəətin reinvestisiyası və daha sağlam maliyyə strategiyalarının qurulması kimi vasitələrdən istifadə edə bilərlər. Bu, həm bankların maliyyə dayanıqlığını gücləndirir, həm də onların gələcək inkişafını dəstəkləyir [7].

Banklarda kapital strukturunun maliyyə nəticələrinə təsiri və kapitallaşma səviyyəsi

Bank sektorunda kapital strukturu, bankların maliyyə fəaliyyətini və uzunmüddətli dayanıqlığını müəyyən edən əsas göstəricilərdən biridir. Kapital strukturu bankın borclanma ilə öz vəsaitləri arasında qurduğu balansı ifadə edir və bu balansın effektiv şəkildə idarə edilməsi, maliyyə göstəricilərinə, likvidliyə və risklərin idarə edilməsinə birbaşa təsir göstərir. Kapital strukturunun düzgün optimallaşdırılması, bankların maliyyə bazarlarında daha etibarlı fəaliyyət göstərməsinə və gözlənilməz iqtisadi çətinliklərə qarşı dayanıqlı olmasına şərait yaradır [5, s.27]. Maliyyə nəticələrinə müsbət təsir göstərmək üçün kapital strukturunun səmərəli idarə edilməsi zəruridir. Bu, bankların risklərini azaldır, onların likvidliyini təmin edir və gəlirliliyini artırır. Xüsusilə də kapitallaşma səviyyəsi, yəni bankların öz maliyyə resurslarının adekvatlığı, maliyyə sisteminin sağlamlığının və etibarlılığının əsas göstəricilərindən biridir. Yüksək kapitallaşma səviyyəsi bankların potensial itkilərə qarşı dözümlülüyünü artırır, tənzimləyici orqanların tələblərinə uyğunlaşmağa imkan verir və kredit qabiliyyətinin daha dayanıqlı olmasına kömək edir [9].

Kapitallaşma səviyyəsinin artırılması üçün banklar müxtəlif yolları nəzərdən keçirə bilərlər. Buraya sərmayə cəlb edilməsi üçün yeni maliyyə alətlərinin istifadəsi, mənfəətin yenidən investisiya edilməsi və daxili ehtiyatların artırılması kimi strategiyalar daxildir. Bu yollar vasitəsilə banklar maliyyə dayanıqlığını artıraraq, həm bazardakı mövqelərini möhkəmləndirə, həm də maliyyə böhranlarına qarşı daha güclü bir mövqe tuta bilərlər. Kapital strukturunun optimallaşdırılması bankların maliyyə strategiyalarında mühüm yer tutur, çünki bu, yalnız qısamüddətli maliyyə göstəricilərini deyil, həm də uzunmüddətli dayanıqlıq və gəlirliliyi müəyyən edir. Kapital strukturunda borc və öz vəsaitlərinin düzgün nisbətdə istifadəsi bankların daha sağlam maliyyə mühitində fəaliyyət göstərməsinə imkan yaradır. Banklar çox borclandıqda, maliyyə riskləri artır, faiz ödənişləri yükü böyüyür və likvidlik problemləri yaranma ehtimalı yüksəlir. Digər tərəfdən, yalnız öz vəsaitlərinə güvənmək kapitalın genişlənmə potensialını məhdudlaşdırır və bazardakı rəqabət qabiliyyətini azalda bilər. Bankların kapitallaşma səviyyəsi onların maliyyə dayanıqlığını ölçən mühüm göstəricidir [6, s.139].

Yüksək kapitallaşma səviyyəsi, banklara böhran və maliyyə qeyri-sabitliyi dövrlərində daha yaxşı müdafiə mexanizmi təmin edir, çünki bu, bankların mümkün itkiləri öz kapitalı ilə qarşılamasına imkan verir. Tənzimləyici orqanlar tərəfindən müəyyən edilmiş kapital adekvatlığı

tələblərinə cavab vermək banklar üçün məcburi olduğundan, kapitallaşma səviyyəsi artırılmalı və bu tələblər yerinə yetirilməlidir. Yüksək kapitallaşma həm də bankın kredit qabiliyyətini artıraraq, müştərilərə daha çox kredit verə bilməsinə və böyümə imkanlarını genişləndirməsinə şərait yaradır. Kapitallaşma səviyyəsinin artırılması üçün müxtəlif strategiyalar tətbiq oluna bilər [4, s.21]. Banklar yeni səhmlərin buraxılması ilə sərmayə cəlb edə bilər, bu da onların kapital bazarlarında mövqelərini möhkəmləndirə bilər. Eyni zamanda, mənfəətin bir hissəsinin yenidən bankın inkişafına sərf edilməsi, daxili ehtiyatların artırılması ilə kapitallaşma səviyyəsinə müsbət təsir göstərə bilər. Bununla yanaşı, daha səmərəli risk idarəetməsi vasitəsilə banklar, yüksək riskli aktivlərdən qaçaraq öz maliyyə dayanıqlığını artıraraq kapitallaşma səviyyəsini qoruyub saxlaya bilərlər. Bütün bu addımlar, bankların maliyyə göstəricilərini yaxşılaşdırmaqla yanaşı, onların daha stabil və dayanıqlı olmasını təmin edir. Banklar kapitallaşma səviyyələrini yüksəldərək, maliyyə böhranlarına və bazardakı dəyişikliklərə qarşı dözümlülüyünü artırır, həmçinin uzunmüddətli fəaliyyət strategiyalarını daha güclü əsaslarla qura bilirlər. Bankların kapital strukturunun optimallaşdırılması onların maliyyə dayanıqlığını və uzunmüddətli inkişafını təmin etmək üçün əsas şərtdir. Kapital strukturu, bankların borclanma ilə öz maliyyə vəsaitləri arasında qurduğu balansı ifadə edir. Bu balans, maliyyə risklərini idarə etmək və likvidlik səviyyəsini qorumaq baxımından kritik rol oynayır. Kapital strukturunun formalaşdırılmasında borc maliyyələşməsi ilə öz kapitalı arasında uyğun nisbətin tapılması əsas məsələdir. Borcun yüksək olması bankların faiz ödənişləri ilə bağlı xərclərini artırır və onları maliyyə qeyri-sabitliyi dövrlərində daha həssas edir. Bununla belə, öz kapitalına çox güvənmək, maliyyə resurslarının məhdudlaşmasına və gəlirliliyin azalmasına səbəb ola bilər [1, s. 11].

Bankların maliyyə nəticələrinə təsir edən ən vacib göstəricilərdən biri kapitallaşma səviyyəsidir. Bu göstərici bankların maliyyə stabilliyini təmin edir və böhran dövrlərində potensial itkilərə qarşı daha dayanıqlı olmasına imkan yaradır. Tənzimləyici orqanlar tərəfindən tələb olunan kapital adekvatlığı göstəriciləri də bankların sağlamlığını qorumaq üçün vacibdir. Kapital adekvatlığı tələblərinə cavab vermək bankların bazarda etibarlılığını gücləndirir və maliyyə risklərini effektiv şəkildə idarə etməsinə kömək edir. Yüksək kapitallaşma səviyyəsi olan banklar, maliyyə böhranları zamanı daha etibarlı şəkildə fəaliyyət göstərə bilir və likvidlik çatışmazlığı problemi ilə üzləşmə ehtimalı az olur. Kapitallaşma səviyyəsini artırmaq üçün banklar bir sıra strategiyalardan istifadə edə bilərlər. Bunlardan biri yeni maliyyə mənbələrinin cəlb edilməsidir.

Banklar öz kapitalını artırmaq üçün yeni səhmlər buraxa və xarici investorların cəlb edilməsinə yönəlmiş tədbirlər görə bilərlər. Bu, bankın öz kapitalını artırmaqla borclanmadan asılılığını azaltmasına kömək edir. Digər tərəfdən, mənfəətin bir hissəsinin yenidən sərmayə olaraq bankın fəaliyyətinə yönəldilməsi də kapitallaşma səviyyəsini artırmaq üçün səmərəli bir yoldur. Bu, bankın daxili ehtiyatlarını gücləndirərək maliyyə risklərini azaltmağa və gələcək investisiyalar üçün daha geniş imkanlar yaratmağa kömək edir. Kapitallaşma səviyyəsinin artırılmasında risklərin düzgün idarə olunması da mühüm rol oynayır. Banklar yüksək riskli aktivlərdən çəkinərək, likvidlik problemləri ilə üzləşmə riskini minimuma endirə bilərlər [2, s.14]. Yüksək riskli aktivlər bankların maliyyə nəticələrinə mənfi təsir edə bilər və bu aktivlərin idarə olunması bankların kapitallaşma səviyyəsini zəiflədə bilər. Bununla yanaşı, banklar riskləri diversifikasiya etməklə, yəni aktivlərini müxtəlif sahələrə yönəltməklə, daha sabit maliyyə göstəriciləri əldə edə bilərlər. Bu yanaşma, bankların kapitallaşma səviyyəsini qorumaq və maliyyə dayanıqlığını təmin etmək üçün effektiv bir yoldur. Bankların kapital strukturlarını optimallaşdırması və kapitallaşma səviyyəsini artırmaq üçün atdığı addımlar, onların uzunmüddətli strategiyalarının əsasını təşkil edir. Bank sektorunda rəqabət mühitinin gücləndiyi və maliyyə bazarlarının getdikcə daha çox qloballaşdığı bir dövrdə, bu istiqamətdə görülən işlər həm daxili, həm də xarici bazarlarda bankların mövqelərini qorumaq və inkişaf etdirmək üçün vacibdir [5, s.27].

Kapitalın effektiv idarə olunması, banklara yalnız cari maliyyə vəziyyətlərini qorumaq üçün deyil, həm də gələcək böhranlara qarşı daha dözümlü olmağa imkan verir. Bankların kapitallaşma səviyyəsinin artırılması üçün digər bir effektiv yanaşma, daha sağlam maliyyə strategiyalarının

tətbiq edilməsidir. Bunlara maliyyə resurslarının daha səmərəli istifadəsi, borclanmanın məhdudlaşdırılması və risklərin düzgün qiymətləndirilməsi daxildir. Xüsusilə böhran dövrlərində bankların maliyyə stabilliyini qorumaq üçün sərt risk idarəetmə metodları tətbiq olunmalıdır. Bunun üçün banklar maliyyə portfellərini şaxələndirə, kredit verilməsində daha sərt qaydalar tətbiq edə və yüksək riskli maliyyə alətlərindən qaça bilərlər. Bu yanaşma bankların maliyyə dayanıqlığını artırır və onların daha güclü maliyyə göstəriciləri əldə etməsinə kömək edir [6, s.139]. Daxili resursların artırılması və mənfəətin yenidən investisiya edilməsi də bankların kapitallaşma səviyyəsini gücləndirən əsas amillərdən biridir. Mənfəətin bir hissəsinin dividendlər əvəzinə sərmayə olaraq bankın inkişafına yönəldilməsi, daxili ehtiyatların artırılmasına və gələcək maliyyələşmə üçün dayanıqlı bir baza yaradılmasına səbəb olur. Bu proses, bankların uzunmüddətli maliyyə strategiyalarının qurulmasına və böhranlara qarşı maliyyə dayanıqlığının artırılmasına böyük töhfə verir. Bankların kapitallaşma səviyyəsinin artırılması üçün tənzimləyici orqanların rolu da xüsusi əhəmiyyət daşıyır. Hökumət və mərkəzi banklar, bankların kapitallaşma səviyyəsini artırmaq üçün müvafiq qanunvericilik və tənzimləmə çərçivəsi hazırlamalıdırlar. Bu çərçivə, bankların minimum kapital adekvatlığı tələblərinə cavab verməsini təmin edir və onların maliyyə bazarlarında daha sabit fəaliyyət göstərməsinə kömək edir. Tənzimləyici orqanlar həmçinin, bankların kapitallaşma səviyyəsinin artırılması üçün müxtəlif stimullaşdırıcı tədbirlər də həyata keçirə bilərlər [7]. Məsələn, dövlət tərəfindən verilən vergi güzəştləri və ya subsidiya proqramları, bankların öz kapitalını artırmaq üçün daha çox maliyyə resurslarına sahib olmasını təmin edə bilər [4, s.21]. Bütün bu addımların həyata keçirilməsi bankların maliyyə göstəricilərinə və fəaliyyət nəticələrinə birbaşa müsbət təsir göstərir. Kapital strukturu və kapitallaşma səviyyəsinin effektiv idarə olunması bankların yalnız böhranlara qarşı dayanıqlığını artırmaqla kifayətlənmir, həmçinin onların bazarda rəqabət qabiliyyətini qorumaq və uzunmüddətli böyümə perspektivlərini reallaşdırmaq üçün güclü bir təməl yaradır. Bank sistemində kapital strukturunun optimallaşdırılması, uzunmüddətli maliyyə dayanıqlığını təmin etmək və riskləri effektiv şəkildə idarə etmək üçün əsaslı bir yanaşmadır. Bu çərçivədə bankların kapital strukturuna dair verdiyi qərarlar, onların gündəlik fəaliyyətinə və strateji hədəflərinə birbaşa təsir edir. Kapital strukturu yalnız bankların daxili maliyyə əməliyyatlarına təsir etmir, eyni zamanda xarici müştərilər və investorlar üçün bankın sabitliyinin və etibarlılığının göstəricisi kimi çıxış edir. Daha yüksək kapitallaşma səviyyəsi, bankların maliyyə bazarlarında daha yaxşı mövqe tutmasını təmin edir və onları investorlar üçün daha cəlbedici edir.

Eyni zamanda, bankların kapital strukturu qərarları, gəlirlilik və risklər arasında tarazlığın qurulması məqsədini daşıyır. Daha az borclanma ilə fəaliyyət göstərən banklar, daha az faiz ödənişi ilə maliyyə risklərini azalda bilər, lakin bu zaman genişlənmə imkanları və investisiya fürsətləri məhdudlaşa bilər. Bununla birlikdə, borclanma səviyyəsini artıran banklar, maliyyə resurslarını genişləndirsə də, faiz öhdəlikləri və likvidlik problemləri ilə qarşılaşma riski artır. Burada balansın düzgün tapılması, bankların sabitliyini və gəlirliliyini təmin etmək üçün mühüm rol oynayır [6, s.139]. Kapitallaşma səviyyəsinin yüksəldilməsi ilə yanaşı, banklar maliyyə texnologiyalarının (fintech) inkişafını da nəzərə almalıdırlar. Fintech həlləri, bankların maliyyə əməliyyatlarını daha səmərəli və xərcləri aşağı salan yollarla həyata keçirməsinə imkan verir. Bu, yalnız daxili əməliyyatları asanlaşdırmaqla yanaşı, kapitalın daha səmərəli idarə edilməsini də təmin edir. Fintech vasitəsilə maliyyə resurslarının daha yaxşı idarə olunması, kapitallaşma səviyyəsinə və bankların maliyyə sağlamlığına müsbət təsir göstərə bilər. Bundan əlavə, kapital strukturunun davamlı şəkildə yenidən qiymətləndirilməsi və optimallaşdırılması, iqtisadi mühitin dəyişikliklərinə çevik reaksiya verilməsini təmin edir. Qlobal və yerli iqtisadiyyatlarda baş verən dalğalanmalar, bazarda rəqabət səviyyəsi və maliyyə tənzimləmələri bankların kapital ehtiyaclarını dəyişə bilər. Buna görə də, bankların kapital strukturu ilə bağlı qərarları müntəzəm olaraq təhlil edilməli və yenilənməlidir. Bu, gələcək risklərə qarşı daha güclü müdafiə yaratmaq və uzunmüddətli inkişaf perspektivlərini təmin etmək üçün vacibdir. Kapital strukturu ilə əlaqəli olan bu addımların hər biri bankların maliyyə dayanıqlığını qorumaqla yanaşı, bazardakı mövqelərini gücləndirməyə kömək edir. Sərmayələrin daha səmərəli cəlb edilməsi və likvidliyin artırılması bankların kredit-

vermə qabiliyyətini yüksəldir və onlar yeni müştərilər üçün daha cəlbedici olur [5, s. 27]. Bununla yanaşı, kapitalın optimallaşdırılması tənzimləyici orqanların müəyyən etdiyi standartlara daha yaxşı cavab verməyi və bankların bazardakı etibarlılığını gücləndirməyi təmin edir. Bankların kapital strukturlarını və kapitallaşma səviyyələrini davamlı olaraq inkişaf etdirmələri, onların fəaliyyət göstərdiyi bazarlarda rəqabət üstünlüyü əldə etmələrinə və maliyyə sabitliyini qorumağa imkan yaradır. Kapitalın optimallaşdırılması təkcə maliyyə göstəricilərinin yaxşılaşdırılması ilə məhdudlaşmır, həm də bankların fəaliyyət sahələrini genişləndirmək və yeni investisiya imkanları yaratmaq üçün də əsas rol oynayır. Xüsusilə qlobal iqtisadi şəraitdə maliyyə böhranları və bazar dəyişiklikləri, bankların daha çevik və səmərəli kapital idarəetmə strategiyalarına ehtiyac duyduqlarını vurğulayır [2, s.14].

Bir digər mühüm aspekt isə kapital strukturunun bankın risk profili ilə uyğunlaşdırılmasıdır. Banklar kapital strukturlarını formalaşdırarkən, risklərə qarşı dayanıqlılıqlarını qorumaq və müştərilərə təqdim edilən xidmətlərin keyfiyyətini artırmaq üçün adekvat addımlar atmalıdırlar. Bu, risklərin idarə olunması və aktivlərin effektiv şəkildə diversifikasiyası ilə əlaqədardır. Aktivlərin şaxələndirilməsi, bankların potensial maliyyə itkilərindən qorunmasını təmin edir və bazarda dəyişən şəraitə daha tez uyğunlaşma imkanı verir. Kapital strukturunun səmərəli idarə olunması, həmçinin bankların kredit fəaliyyətinin də optimallaşdırılmasına təsir edir. Kreditləşmənin həcmi və şərtləri, bankların kapitallaşma səviyyəsindən və maliyyə resurslarının əlçatanlığından asılı olaraq müəyyən edilir. Yüksək kapitallaşma səviyyəsinə sahib banklar daha təhlükəsiz kredit siyasəti həyata keçirmək və daha çox müştəri cəlb etmək imkanına malikdirlər. Bu, bankların bazarda paylarını artırmağa və daha geniş müştəri kütləsinə xidmət göstərməyə şərait yaradır. Bundan əlavə, maliyyə bazarlarında dəyişikliklər bankların kapital strukturlarını yenidən qiymətləndirməsini zəruri edir [1, s.11].

Qlobal iqtisadi proseslər, valyuta dəyişiklikləri və maliyyə tənzimləmələri bankların kapitala dair yanaşmalarını və maliyyə strategiyalarını daim yenidən nəzərdən keçirməsini tələb edir. Maliyyə bazarlarında baş verən hər hansı dalğalanmalar bankların kapital strukturuna və kapitallaşma səviyyəsinə birbaşa təsir göstərir, buna görə də çevik strategiyalar tətbiq etmək vacibdir. Bankların kapitallaşma səviyyəsinin artırılması üçün texnologiyaların tətbiqi də getdikcə daha mühüm rol oynayır. Rəqəmsal bankçılıq və maliyyə texnologiyalarının inteqrasiyası bankların əməliyyat xərclərini azaltmaq və müştəri bazasını genişləndirmək üçün yeni imkanlar yaradır. Bu texnoloji yeniliklər banklara daha çox kapital resurslarını effektiv şəkildə idarə etməyə və gəlirliliyi artırmağa kömək edir. Bununla yanaşı, rəqəmsal maliyyə texnologiyaları bankların bazarda rəqabət qabiliyyətini artıraraq, kapitallaşma səviyyəsinin gücləndirilməsinə dəstək verir [4, s. 21].

Ümumilikdə, kapital strukturunun optimallaşdırılması və kapitallaşma səviyyəsinin artırılması bankların dayanıqlı fəaliyyətini təmin edən ən vacib amillərdən biridir. Kapitalın effektiv idarə edilməsi maliyyə bazarlarında uğur qazanmaq və bazar qeyri-müəyyənliklərinə tez reaksiya vermək üçün vacibdir [7]. Banklar bu addımları atmaqla yalnız mövcud fəaliyyətlərini qorumaqla kifayətlənmirlər, eyni zamanda gələcək inkişaf perspektivlərini də təmin edirlər. Texnoloji inkişaflar, yeni maliyyə strategiyaları və risklərin səmərəli idarə olunması bankların maliyyə bazarlarında daha güclü mövqeyə sahib olmasını təmin edir və uzunmüddətli dayanıqlı inkişafın təməlini qoyur [2, s. 14].

Kapital Bank və Paşa Bankın timsalında cəmi kapitalın maliyyə göstəricilərinə təsiri

Cədvəl 1-də Kapital Bankın 2016-2023-cü illər aralığında sahib olduğu cəmi kapital və əldə etdiyi xalis mənfəət göstəriciləri öz əksini tapmışdır. Cədvəldən göründüyü kimi, bankın cəmi kapitalı son səkkiz ildə mütəmadi olaraq artmaqda davam etmişdir. Bunun qarşılığında xalis mənfəət göstəricilərində nisbətən dalğalanmalar mövcuddur. Bankın cəmi kapitalı son səkkiz ildə üç dəfədən də çox artmışdır.

Cədvəl 2-də Paşa Bankın 2016-2023-cü illər aralığında sahib olduğu cəmi kapital və əldə etdiyi xalis mənfəət göstəriciləri əks olunmuşdur. Paşa Bankın da cəmi kapitalı hər il artan dinamika göstərmişdir. Kapital Bankda olduğu kimi Paşa Bankda da xalis mənfəət göstəricilərində bəzən

artma, bəzən də azalmalar qeydə alınmışdır. Bankın cəmi kapitalı son səkkiz il ərzində iki dəfədən çox artaraq 837 milyon manatı keçmişdir.

Cədvəl 1.

Kapital Bankın cəmi kapital və xalis mənfəət göstəriciləri (min manatla).

İllər	Cəmi kapital	Xalis mənfəət	Cəmi kapitalda dəyişmə (%)	Xalis mənfəətdə dəyişmə (%)
2016	282167	52385	0	0
2017	325944	94840	15.51	81.04
2018	371887	98053	14.10	3.39
2019	425054	134708	14.30	37.38
2020	634195	302698	49.20	124.71
2021	648196	179963	2.21	-40.55
2022	826654	308047	27.53	71.17
2023	911289	242209	10.24	-21.37

Mənbə: Kapital Bankdan əldə olunan məlumatlar əsasında müəllif tərəfindən hazırlanmışdır.

Cədvəl 2.

Paşa Bankın cəmi kapital və xalis mənfəət göstəriciləri (min manat).

İllər	Cəmi kapital	Xalis mənfəət	Cəmi kapitalda dəyişmə (%)	Xalis mənfəətdə dəyişmə (%)
2016	383721	61057	0	0
2017	402711	58994	4.95	-3.38
2018	418148	77057	3.83	30.62
2019	475768	65040	13.78	-15.59
2020	541145	84252	13.74	29.54
2021	577276	90180	6.68	7.04
2022	662997	149394	14.85	65.66
2023	837192	199209	26.27	33.34

Mənbə: Paşa Bankdan əldə olunan məlumatlar əsasında müəllif tərəfindən hazırlanmışdır.

Nəticə

Bank sistemində kapital strukturunun optimallaşdırılması və kapitallaşma səviyyəsinin artırılması bankların maliyyə sabitliyini təmin edən və uzunmüddətli rəqabət qabiliyyətini gücləndirən əsas amillərdən biridir. Düzgün kapital strukturu bankların risklərini idarə etməsinə, likvidliyini qorumasına və maliyyə göstəricilərini yaxşılaşdırmasına imkan yaradır. Kapitalın borc və öz vəsaitləri arasında balanslı şəkildə bölüşdürülməsi bankların faiz ödənişləri və digər maliyyə xərclərini optimallaşdırmağa, eyni zamanda gəlirli investisiya imkanlarını reallaşdırmağa şərait yaradır. Kapitallaşma səviyyəsinin artırılması banklara yalnız cari maliyyə problemlərini həll etməkdə kömək etmir, həm də böhranlara qarşı dayanıqlığını artırır. Bu, maliyyə resurslarının daha səmərəli idarə edilməsi, yeni maliyyə alətlərinin tətbiqi və müasir texnologiyaların inteqrasiyası ilə mümkündür. Bankların mənfəətləri reinvestisiya etməsi, daxili ehtiyatlarını gücləndirməsi və risk idarəetməsini təkmilləşdirməsi kapitallaşma səviyyəsini yüksəltmək üçün effektiv strategiyalardır.

Göründüyü kimi, məcmu kapitalın strukturu bankın maliyyə nəticələrinə birbaşa təsir edə bilir. Əgər bank kapitallaşmada xarici mənbələrdən, yəni borclardan nə qədər çox istifadə edərsə bunun bank üçün faydası qədər mənfi cəhətləri də ola bilər. Bu hal bankın xərclərini artıra, likvidliyini azalda və s. bir sıra çətinliklərlə üz-üzə gətirə bilər.

Bu tədqiqata ölkənin ən böyük banklarından olan Kapital Bank və Paşa Bank da cəlb olunmuşdur. Bu bankların 2016-2023-cü illər ərzində sahib olduğu cəmi kapital və əldə olunan xalis mənfəət göstəriciləri ələ alınmışdır. Göründüyü kimi, Kapital Bankın cəmi kapitalı bütün illərdə artan dinamikaya sahib olmuşdur. Bankın cəmi kapitalı 2016-cı ildən 2023-cü ilə qədər ümumilikdə üç dəfədən çox artmışdır. Cədvəllərə əsasən Paşa Bankda da cəmi kapitalın hər il artdığı görünür.

Bankın cəmi kapitalı 2023-cü ildə 2016-cı ilə nisbətdə iki dəfədən çox artım göstərmişdir.

Ümumilikdə bankların kapitalı və xalis mənfəəti arasında hər zaman düz mütənasib əlaqənin olduğunu söyləmək olmaz. Kapital Bank və Paşa Bankın da timsalında görə bilərik ki, bəzi illərdə bankların cəmi kapitalı artdığı halda xalis mənfəətdə əvvəlki ilə nəzərən azalma baş vermişdir. Bununla belə Kapital Bankın məlumatlarına baxdıqda görə bilərik ki, bankın cəmi kapitalında faiz olaraq ən yüksək artımın baş verdiyi 2020-ci ildə (49,2%) həmçinin bankın xalis mənfəətində də ən kəskin artım (124,7%) müşahidə olunmuşdur. Həmçinin, cəmi kapitalda ən az artımın baş verdiyi 2021-ci ildə (2,21%) xalis mənfəətdə də kəskin azalma (40,5%) baş vermişdir.

ƏDƏBİYYAT

1. Bəşirov R.A. Bank İşi fənni üzrə interaktiv dərs vəsaiti. Bakı -2014-cü il.
2. Ələsgərov A. Pul Siyasəti və Qlobal Çağırışlar, Bakı, 2014-cü il.
3. Məmmədov Z.F., İbrahimov Z.H. Pul, Kredit, Banklar. Bakı – 2009.
4. Mango D. Applying Actuarial Techniques in Operational Risk Modeling. ERM Sympo- sium, 2016, 21 p.
5. Löffler G., Prosch P.N., Schöne C. Bayesian methods for improving credit scoring models. Technical report, Department of Finance - Germany, University of Ulm, 2016, 27 p.
6. Arora N., Bohn J.R., Zhu F. Reduced Form vs. Structural Models of Credit Risk: A Case Study of Three Models - Moody’s KMV Company, 2015, 139 p.
7. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi: www.stat.gov.az.
8. Azərbaycan Respublikasının Mərkəzi Bankı: https://www.cbar.az/.
9. Azərbaycan Respublikası Maliyyə Nazirliyi: https://www.maliyye.gov.az/.
10. Kapital Bankın maliyyə hesabatları: https://www.kapitalbank.az/reports.
11. Paşa Bankın maliyyə hesabatları: https://www.pashabank.az/static,95/lang,az/.

Мехраб Мехди Каримли
докторант, Азербайджанский Государственный Экономический Университет
mehrabkerimli96@gmail.com

Влияние структуры капитала банковской системы на финансовые результаты

Резюме

Цель исследования – проанализировать влияние структуры капитала на финансовые результаты в банковской системе.

Методология исследования – в исследовательской работе приведены теоретические сведения о влиянии структуры капитала банков на их финансовые результаты и уровень капитализации банков. При этом были проанализированы показатели совокупного капитала и чистой прибыли Капитал Банка и Паша Банка.

Прикладное значение исследованиям - заключается в том, чтобы подчеркнуть важность правильного формирования структуры капитала в банках, в противном случае могут возникнуть отрицательные результаты.

Результатом исследования - является то, что оптимальная организация структуры капитала банков и повышение уровня капитализации напрямую влияет на будущую деятельность банка.

Оригинальность и научная новизна исследования - в исследовании определено влияние структуры капитала и уровня капитализации банков на их долгосрочную деятельность и финансовые результаты.

Ключевые слова: банковская система, структура капитала, капитализация, долг, финансы.

Mehrab Mehdi Karimli
PhD student, Azerbaijan State University of Economics
mehrabkerimli96@gmail.com

Impact of capital structure in banking system on financıal results

Summary

The purpose of the study - is to analyze the impact of capital structure on financial results in the banking system.

Methodology of the research - theoretical information about the impact of the capital structure of banks on their financial results and the level of capitalization of banks is given in the research work. At the same time, the total capital and net profit indicators of Kapital Bank and Pasha Bank were analyzed.

The applied importance of the research - is to emphasize the importance of the correct formation of the capital structure in banks, otherwise, what negative results may appear.

The result of the study - is that the optimal organization of the capital structure of banks and increasing the level of capitalization directly affects the future activity of the bank.

Originality and scientific novelty of the research - the impact of the capital structure and capitalization level of banks on their long-term activity and financial results was determined in the research.

Key words: banking system, capital structure, capitalization, debt, finance.

UOT 336

Samir Fərman oğlu GÜLƏHMƏDZADƏ
Azərbaycan Kooperasiya Universiteti, doktorant
e-mail: s.gulahmedzade@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2025.001.040

AZƏRBAYCANIN BANK TƏCRÜBƏSİNDƏ STRATEJİ PLANLAŞDIRMANIN TƏTBİQİNİN VƏ ONUN AUDİTİNİN MÜASİR VƏZİYYƏTİ

Xülasə

Tədqiqatın məqsədi. Azərbaycanın bank sektorunda strateji planlaşdırmanın tətbiqində olan problemlərin və o cümlədən, onun auditinin müasir vəziyyətə, beynəlxalq standartlara uyğunluğunun araşdırılması.

Tədqiqatın metodologiyası. Tədqiqat işində müxtəlif yanaşmalardan, məntiqi olaraq ümumiləşdirmədən, müqayisəli təhlildən və digər üsullardan istifadə edilmişdir.

Tədqiqatın elmi yeniliyi. Azərbaycanın bank sektorunun inkişafının müasir vəziyyəti təhlil edilmiş, onun inkişaf xüsusiyyətləri aşkar edilmiş və strateji planlaşdırmanın auditinin müasir tələbləri müəyyənləşdirilmişdir,

Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti. Tədqiqat prosesində əldə edilən nəzəri, metodiki və praktiki nəticələrin iqtisadiyyatın və bank xidməti bazarının dinamik dəyişdiyi şəraitdə bank fəaliyyətinin starteji planlaşdırılması metodlarının işlənib hazırlanmasında, onun auditinin təşkilinin və monitorinqinin beynəlxalq standartlara uyğunlaşdırılması üzrə konkret tövsiyələrin hazırlanmasında mühüm əhəmiyyəti ola bilər.

Tədqiqatın nəticəsi. Bankların rəqabət qabiliyyətini və dayanıqlığını artırmaq üçün strateji planlaşdırmanın və onun auditinin rolu gələcəkdə daha da artırılmalıdır.

Açar sözlər: strateji planlaşdırma, bank sektoru, audit, rəqabət qabiliyyəti, davamlı inkişaf, risk idarəetməsi, nəzarət, monitorinq.

Giriş

Bu məqalə Azərbaycanın bank sektorunda strateji planlaşdırmanın tətbiqi və onun auditinin müasir vəziyyətini araşdırır. Strateji planlaşdırma prosesi bankların məqsədlərini, vəzifələrini və resurslarının optimal istifadəsini müəyyən etməyə yönəlib. Bu prosesin əsas mərhələləri aşağıdakılardır:

- Strateji analiz: daxili və xarici mühitin təhlili, SWOT analizi;
- Strateji hədəflərin müəyyənləşdirilməsi: bankın uzunmüddətli məqsədlərinin müəyyənləşdirilməsi;
- Strateji planın hazırlanması: məqsədlərə çatmaq üçün konkret addımlar və resursların paylanması;
- Strateji planın icrası və nəzarət: plana uyğun olaraq fəaliyyətlərin həyata keçirilməsi və nəticələrin monitorinqi.

Müasir Azərbaycanın bank sektorunda strateji planlaşdırma geniş tətbiq olunmaqdadır. Banklar qlobal maliyyə bazarlarının dəyişən şərtlərinə uyğunlaşmaq üçün strateji planlar hazırlayır və icra edirlər. Strateji planlaşdırma prosesində əsas diqqət aşağıdakı aspektlərə yönəlir:

- texnoloji innovasiyalar: rəqəmsal bankçılıq xidmətlərinin inkişafı;
- müştəri mərkəzli yanaşma: müştəri tələblərinə cavab verən xidmətlərin təkmilləşdirilməsi;
- risk idarəetməsi: maliyyə və əməliyyat risklərinin minimallaşdırılması;
- tənzimləyici uyğunluq: dövlət tənzimləmələrinə uyğun fəaliyyətin təmin edilməsi.

Strateji planlaşdırmanın auditi, bankların strateji planlarının effektivliyini və icrasını qiymətləndirmək üçün həyata keçirilir. Auditin əsas məqsədləri aşağıdakılardır:

- strateji məqsədlərə uyğunluğun yoxlanılması: planların bankın məqsədlərinə və bazar

tələblərinə uyğunluğunu təmin etmək;
- risklərin idarə edilməsi: potensial risklərin müəyyən edilməsi və minimallaşdırılması;
- effektivliyin təhlili: resursların səmərəli istifadəsinin qiymətləndirilməsi;
- davamlı təkmilləşdirmə: nəticələrə əsaslanaraq strateji planların təkmilləşdirilməsi.

Azərbaycanın bank sektorunda strateji planlaşdırma və onun auditi müasir dövrdə əhəmiyyətli rol oynayır. Strateji planlaşdırma bankların uzunmüddətli inkişafını təmin edir, audit isə bu planların effektivliyini yoxlayaraq davamlı təkmilləşdirməyə imkan verir. Bankların rəqabət qabiliyyətini və dayanıqlığını artırmaq üçün strateji planlaşdırmanın və onun auditinin rolu gələcəkdə daha da artacaqdır.

Strateji planlaşdırmanın əhəmiyyəti və onun bank sektorunda əsas rolu

Strateji planlaşdırma təşkilatın uzunmüddətli məqsədlərinə nail olmaq üçün məqsədlərini, resurslarını və fəaliyyətlərini sistemli şəkildə müəyyənləşdirmək və yönəltmək prosesidir. Bu planlaşdırma prosesi təşkilatın güclü və zəif tərəflərini, imkanlarını və təhdidlərini (SWOT analizi) təhlil etməklə başlayır və bu məlumatlar əsasında təşkilatın gələcək istiqamətini müəyyənləşdirir [Johnson G. və b. Exploring Corporate Strategy. s.-18-19].

Strateji planlaşdırma prosesi adətən aşağıdakı mərhələləri əhatə edir:
- ✓ Strateji məqsədlərin qoyulması: təşkilatın uzunmüddətli hədəfləri və məqsədləri təyin olunur;
- ✓ Strateji analiz: SWOT analizi və digər analitik alətlər vasitəsilə təşkilatın daxili və xarici mühiti təhlil edilir [Hill C. və b. Strategic Management s.43-47];
- ✓ Strateji planın hazırlanması: Seçilmiş strategiyalar əsasında fəaliyyət planı hazırlanır;
- ✓ İcra və nəzarət: Strateji planın həyata keçirilməsi və nəticələrin davamlı olaraq izlənməsi [Thompson A. və b. Crafting and Executing Strategy-s.95-98.].

Strateji planlaşdırma təşkilatın uzunmüddətli müvəffəqiyyətini təmin edən mühüm bir prosesdir və bir sıra səbəblərə görə əhəmiyyətlidir:
- Uzunmüddətli baxış və istiqamət: Strateji planlaşdırma təşkilata uzunmüddətli baxış və istiqamət verir, bu da onun bazarda mövqeyini möhkəmləndirir və rəqabət üstünlüyü qazanmasına kömək edir[Mintzberg, H. və b. Strategy Safari-s.112-114];
- Resursların effektiv idarə olunması: Təşkilatın məhdud resurslarını (maliyyə, insan, zaman və s.) ən effektiv şəkildə istifadə etməsinə imkan yaradır[Grant R.Contemporary Strategy Analysis.-s.23-24.];
- Çeviklik və uyğunlaşma:strateji planlaşdırma təşkilatın dəyişən bazar şərtlərinə və müştəri tələblərinə çevik şəkildə uyğunlaşmasına kömək edir[Porter M. Competitive Advantage.s.-33];
- Risklərin idarə edilməsi: SWOT analizi kimi alətlər vasitəsilə potensial risklər müəyyənləşdirilir və bu risklərin idarə edilməsi üçün tədbirlər görülür [Wheelen T.və b. Strategic Management and Business Policy s.-73];
- Əlaqələndirilmiş fəaliyyətlər: təşkilatın müxtəlif bölmələri və şöbələri arasında əlaqələndirilmiş və uyğunlaşdırılmış fəaliyyətləri təmin edir, bu da ümumi məqsədlərə nail olunmasını asanlaşdırır [David F. Strategic Management.s.-22];
- Motivasiya və işçi bağlılığı: aydın və konkret məqsədlərin müəyyən edilməsi işçilərin motivasiyasını artırır və onların təşkilata bağlılığını gücləndirir [Kaplan R. və b. P. The Strategy-Focused Organization. s.- 127].

Strateji planlaşdırmanın bu əhəmiyyətli xüsusiyyətləri bankların uzunmüddətli uğur və dayanıqlığını təmin edən əsas amillər arasında yer alır. Bank sektorunda strateji planlaşdırmanın əsas rolunu aşağıdakılarla təsvir etmək olar:
- Vizyon və missiyanın müəyyən edilməsi: strateji planlaşdırma, bankların uzunmüddətli vizyonlarını və missiyalarını dəqiqləşdirir [Bracker J.The historical development of the strategic management concept.s.- 220-221];
- Rəqabət üstünlüyü: banklar strateji planlaşdırma ilə bənzərsiz xidmətlər və məhsullar təklif

edərək rəqabət üstünlüyü əldə edə bilərlər [Mintzberg H.və b.Strategy Safari.s.125.];

- Resursların səmərəli istifadəsi: strateji planlaşdırma, bankların resurslarını ən səmərəli şəkildə istifadə etmələrinə kömək edir [Grant R. M. Contemporary Strategy Analysis.-s.31];
- Risk idarəetməsi: strateji planlaşdırma, potensial risklərin müəyyənləşdirilməsi və bu risklərə qarşı tədbirlərin görülməsini əhatə edir [Ghemawat P. Strategy and the Business Landscape.s.45].

Azərbaycanın bank sektorunun ümumi mənzərəsi

Azərbaycanın bank sektorunda baş verən islahatlar və yeniliklər ölkənin maliyyə sisteminin möhkəmlənməsinə və beynəlxalq səviyyədə rəqabət qabiliyyətinin artırılmasına kömək etmişdir. 2015-ci ildən sonra maliyyə böhranı dövründə aparılan restrukturizasiya işləri sektorun dayanıqlığını artırmışdır [https://www.accessbank.az].Mərkəzi Bankın 2023-cü il üzrə hesabatına görə, ümumi aktivlər, əsasən biznes kreditlərinin və əmanətlərin artması ilə 29 milyard dollara çatmışdır [Q.K.İmanov və b. Финансовая стабильность в Азербайджане-s.7].Bu artım, bank sektorunda aparılan islahatlar və rəqəmsal texnologiyaların tətbiqi ilə əlaqədardır. Əsas banklar arasında Kapital Bank, Pasha Bank və AccessBank kimi qurumlar liderlik edir. AccessBank-ın maliyyə nəticələrinə əsasən, bankın ümumi aktivləri 2023-cü ilin sonuna 1,4 milyard AZN təşkil etmişdir ki, bu da əvvəlki ilə nisbətən 19,1% artım deməkdir. Bankın kredit portfeli 1 milyard AZN-i aşmış və əmanətlər də əhəmiyyətli dərəcədə artmışdır[https://www.adb.org].

Azərbaycanın bank sektoru islahatlar və rəqəmsal innovasiyaların tətbiqi sayəsində inkişaf etməyə davam edir və bu tendensiyanın gələcəkdə də davam edəcəyi gözlənilir. Rəqəmsal texnologiyaların tətbiqi Azərbaycan bank sektorunda mühüm rol oynamaqdadır.Bankların maliyyə dayanıqlığını artırmaq məqsədilə kapital adekvasiya standartları təkmilləşdirilmişdir. Problemli kreditlərin idarə olunması və restrukturizasiyası istiqamətində mühüm addımlar atılmışdır.Əhali və şirkətlərin banklara olan inamının artması nəticəsində depozitlər də artmışdır.Rəqəmsal texnologiyalar bank sektorunda mühüm rol oynamağa başlamışdır. Ölkədə elektron ödəniş sistemlərinin inkişafı və genişlənməsi nağdsız ödənişlərin həcmini artırmışdır [Azerbaijan Diagnostic. EBRD-2019]. Ölkənin bəzi kommersiya bankları beynəlxalq kredit reytinq agentlikləri tərəfindən qiymətləndirilmişdir ki, bu da onların beynəlxalq maliyyə bazarlarına çıxışını asanlaşdırır [https://www.grantthornton.global/en/press-migrated/press-releases-2019].

Strateji planlaşdırmanın Azərbaycan banklarında tətbiqi

Azərbaycan banklarında strateji planlaşdırmanın tətbiqi bankların uzunmüddətli məqsədlərinə nail olmaları üçün mühüm bir vasitədir və bir sıra istiqamətləri əhatə edir:

- Vizyon və missiyanın müəyyən edilməsi bankların fəaliyyət istiqamətlərini və əsas məqsədlərini müəyyən edir və bütün işçilərin bu məqsədlərə uyğun işləməsini təmin edir;
- Rəqabət üstünlüyü: banklar strateji planlaşdırma vasitəsilə rəqabət üstünlüyü əldə edirlər;
- Risk idarəetməsi: strateji planlaşdırma, bankların potensial riskləri müəyyən etməsinə və bu risklərə qarşı tədbirlər görməsinə kömək edir;
- Resursların səmərəli istifadəsi: strateji planlaşdırma bankların mövcud resurslarını ən səmərəli şəkildə istifadə etmələrini təmin edir;
- Mərkəzi Bankın rolu: MB strateji planlaşdırmanın həyata keçirilməsində mühüm rol oynayır;
- Kommersiya banklarının strateji planları: Azərbaycanın iri kommersiya bankları, məsələn, Kapital Bank, Pasha Bank və AccessBank öz strateji planlarını həyata keçirirlər [https://www.adb.org];
- Rəqəmsal texnologiyaların tətbiqi: rəqəmsal texnologiyaların tətbiqi Azərbaycan banklarında strateji planlaşdırmanın əsas istiqamətlərindən biridir.

Bank sistemində strateji planlaşdırma sahəsində müasir təcrübələr

Azərbaycan banklarında müasir təcrübələr və təkmilləşdirmələr sektorda rəqabət qabiliyyətini artırmaq, müştəri məmnuniyyətini yüksəltmək və əməliyyat səmərəliliyini yaxşılaşdırmaq məqsədi ilə tətbiq edilir. Bu sahədə bir sıra qabaqcıl təcrübələr və yeniliklər həyata keçirilir. Bunlara

misal olaraq aşağıdakı təcrübələri göstərmək olar:

- ❖ Mobil və internet bankçılıq: Azərbaycan banklarının müştərilərə daha rahat və əlçatan xidmətlər təklif etmək üçün mobil və internet bankçılıq xidmətlərinin genişləndirilməsi müştərilərin bank əməliyyatlarını istənilən yerdə və zamanda yerinə yetirmələrinə imkan verir;
- ❖ Blokçeyn Texnologiyası:bu texnologiya vasitəsilə pul köçürmələri və digər maliyyə əməliyyatları daha sürətli və təhlükəsiz şəkildə həyata keçirilir;
- ❖ Rəqəmsal ödəniş sistemləri: rəqəmsal ödənişlər müştərilərin alış-verişlərini və digər əməliyyatlarını daha asan və sürətli həyata keçirmələrini təmin edir;
- ❖ Müştəri dəstəyi texnologiyaları: banklar chatbot və digər süni intellekt əsaslı texnologiyaları tətbiq edərək müştərilərə 24/7 dəstək göstərirlər ki, bu da müştərilərin suallarını və problemlərini daha sürətli həll etməyə imkan verir;
- ❖ İnnovativ risk idarəetmə alətləri: banklar risklərin daha effektiv idarə edilməsi üçün yeni texnologiyalardan və analitik alətlərdən istifadə edirlər ki, bu da potensial maliyyə risklərinin əvvəlcədən müəyyən edilməsinə və onların qarşısının alınmasına kömək edir;
- ❖ Yaşıl maliyyələşdirmə: bəzi banklar yaşıl maliyyə məhsulları və layihələrə investisiya qoyaraq ekoloji dayanıqlığı dəstəkləyirlər ki, bu da öz növbəsində enerji səmərəliliyi və bərpa olunan enerji layihələrinin maliyyələşdirilməsini əhatə edir;
- ❖ Davamlı inkişaf strategiyaları: banklar davamlı inkişaf strategiyaları hazırlayaraq sosial və ekoloji məsuliyyətlərini yerinə yetirirlər ki, bu da öz növbəsində strategiyalar, bankların uzunmüddətli dayanıqlığını və reputasiyasını artırır.

Strateji planlaşdırmanın auditinin əsas aspektləri

Strateji planlaşdırmanın auditi bankların və digər təşkilatların strateji planlarının effektivliyini, uyğunluğunu və həyata keçirilməsinin düzgünlüyünü qiymətləndirmək üçün aparılan prosesdir. Auditin ilk mərhələsində təşkilatın strateji məqsədlərinin aydın və dəqiq müəyyən edilib-edilmədiyi qiymətləndirilir [Grant R. M. Contemporary Strategy Analysis.s.-57]. Audit zamanı strateji planların təşkilatın ümumi missiyası, vizyonu və dəyərləri ilə uyğunluğu yoxlanılır. Strateji planların həyata keçirilməsi üçün ayrılmış resursların effektiv istifadəsi qiymətləndirilir. Bu mərhələdə maliyyə, insan resursları və texnoloji resursların səmərəli istifadəsi təhlil olunur.Strateji planların risk idarəetmə proseslərinə inteqrasiya edilməsi və bazar şəraitində baş verən dəyişikliklərə uyğunlaşdırılması yoxlanılır. Strateji planların nəticələrinin müntəzəm olaraq ölçülməsi və monitorinqi təşkilatın strateji hədəflərə nail olub-olmadığını və lazım gələrsə, düzəlişlərin edilib-edilmədiyini yoxlamaq üçün vacibdir. Müasir audit proseslərində İT əsaslı audit alətləri və proqram təminatları geniş istifadə olunur. Bu alətlər böyük həcmli məlumatların tez və dəqiq təhlil edilməsini təmin edir və strateji planların icrasının monitorinqini asanlaşdırır. Daxili audit komandaları strateji planların auditi prosesində müntəzəm olaraq planların icrasını yoxlayır, problemləri müəyyən edir və düzəlişlərin edilməsini təmin edir. Strateji planlaşdırmanın auditinin beynəlxalq standartlara uyğun həyata keçirilməsi audit prosesinin şəffaflığını və etibarlılığını təmin edir [Central Bank of Azerbaijan. Annual Report 2020].

Son illərdə Azərbaycanın bank sektoru bir sıra islahatlar, texnoloji inkişaflar və tənzimləyici dəyişikliklər nəticəsində əhəmiyyətli dərəcədə inkişaf etmişdir. Bank sektoru bu prosesin mühüm hissəsidir və maliyyə resurslarının səmərəli şəkildə idarə edilməsi üçün vacibdir.2023-cü ilin sonuna olan məlumatlara görə, Azərbaycan bank sektorunun ümumi aktivləri təxminən 29 milyard ABŞ dolları təşkil edir. Bu, əvvəlki illərlə müqayisədə əhəmiyyətli artımı göstərir və sektorun sağlam maliyyə vəziyyətindən xəbər verir. Bank sektorunun kredit portfeli də əhəmiyyətli dərəcədə genişlənmişdir. 2023-cü ildə bankların kredit portfeli 1 milyard AZN-i keçmiş və əsasən biznes kreditləri vasitəsilə genişlənmişdir. Depozit bazası da artmış və bu, əhalinin banklara olan etibarının artmasını göstərir [https://www.adb.org].Azərbaycan bankları risk idarəetməsi sahəsində qabaqcıl təcrübələr tətbiq edir. Beynəlxalq standartlara uyğun olaraq aparılan tənzimləmələr, bankların maliyyə dayanıqlığını və şəffaflığını təmin edir. Problemli kreditlərin idarə olunması və restrukturizasiyası sahəsində atılan addımlar bank sektorunun maliyyə sağlamlığını gücləndirmiş-

dir. Problemli kreditlərin həcmi azalmış və bankların kapital adekvatlığı artırılmışdır. Bu, sektorun ümumi dayanıqlığını və sabitliyini təmin edir. Tətbiq edilən islahatlar, texnoloji yeniliklər və tənzimləyici tədbirlər sektorun dayanıqlığını artırmışdır. Lakin, davamlı inkişaf və rəqabət qabiliyyətinin artırılması üçün strateji planlaşdırmanın və risk idarəetməsinin gücləndirilməsi vacibdir.

Strateji planlaşdırmanın tətbiqi ilə bağlı auditin səmərəliliyinin artırılması yolları

Azərbaycan bank sektorunda audit proseslərin keyfiyyətini və təsirini artırmaq məqsədi daşıyır. Bu baxımdan aşağıdakı işlərin görülməsi və həyata keçirilməsi məqsədəuyğundur:

- daimi təlimlər: auditorlar üçün müntəzəm təlim proqramları təşkil edilməlidir [https://www2.deloitte.com/cn/en/pages/human-capital-2020.html];
- peşəkar sertifikatlar: auditorların peşəkar sertifikatlara malik olması onların bilik və bacarıqlarını artırır [https://www.pwc.com/gx/en/about-pwc/global-annual-review-2020];
- İT əsaslı audit alətləri: auditorlar üçün müasir informasiya texnologiyaları və audit proqram təminatları tətbiq olunmalıdır;
- kiber təhlükəsizlik: auditorlar üçün kiber təhlükəsizlik təlimləri təşkil edilməli və kibertəhlükəsizlik alətlərindən istifadə edərək audit proseslərinin təhlükəsizliyi təmin edilməlidir;
- stress testləri və ssenari analizi: Auditorlar stress testləri və ssenari analizləri keçirərək potensial riskləri və onların təsirlərini müəyyən etməlidirlər;
- daxili audit komitələri: daxili audit komitələrinin rolu və funksiyaları gücləndirilməlidir;
- keyfiyyət təminatı prosesləri: Audit proseslərinin keyfiyyətini təmin etmək üçün müntəzəm keyfiyyət yoxlamaları həyata keçirilməlidir;
- xarici yoxlama: Daxili audit komandasının fəaliyyətinin müstəqil xarici auditorlar tərəfindən yoxlanılması da audit prosesinin keyfiyyətini artırır.

Nəticə

Azərbaycanın bank sektoru son illərdə əhəmiyyətli irəliləyişlər və islahatlar nəticəsində inkişaf etmişdir. Rəqəmsal texnologiyaların tətbiqi, maliyyə göstəricilərinin yaxşılaşdırılması və beynəlxalq standartlara uyğunlaşma sektorun dayanıqlığını və rəqabət qabiliyyətini artırmışdır. Lakin bu inkişafın davamlılığını təmin etmək üçün strateji planlaşdırma və audit sahələrində bəzi təkmilləşdirmələrə ehtiyac vardır. Azərbaycan bank sistemi üçün strateji planlaşdırma və audit üzrə tövsiyələr sektorun daha rəqabətqabiliyyətli və dayanıqlı olmasını təmin etmək üçün vacibdir. Bu istiqamətdə bəzi əsas təklif və tövsiyələri aşağıdakı kimi formalaşdırmaq olar:

- strateji qərarların düzgün alınması üçün dəqiq və aktual məlumatların toplanması vacibdir; məlumatların etibarlılığını təmin etmək üçün müasir məlumat analizi və idarəetmə texnologiyalarından istifadə edilməlidir;
- bankların rəqəmsal transformasiya strategiyalarını həyata keçirməsi vacibdir;
- rəqəmsal transformasiya ilə bağlı olaraq kiber təhlükəsizlik tədbirlərinin gücləndirilməsi də zəruridir;
- işçilərin bacarıqlarını artırmaq üçün müntəzəm təlim proqramları təşkil edilməlidir. Bu, bankların strateji məqsədlərinə nail olmasına kömək edəcəkdir;
- yüksək səviyyəli idarəçilər üçün xüsusi liderlik təlimləri və mentorluq proqramları təşkil edilməlidir;
- banklar risk-əsaslı yanaşmanı tətbiq etməli və potensial riskləri əvvəlcədən müəyyən etməsi maliyyə dayanıqlığını artıracaqdır;
- müntəzəm stress testləri və ssenari analizləri keçirmək potensial riskləri müəyyən etmək üçün vacibdir;
- strateji planların həyata keçirilməsi üçün bütün səviyyələrdə effektiv kommunikasiya strategiyaları tətbiq edilməlidir;
- auditorlar üçün müntəzəm təlim proqramları təşkil edilməlidir;
- Auditorlar üçün müasir informasiya texnologiyaları və audit proqram təminatları tətbiq olunmalıdır;

- auditorlar risk-əsaslı yanaşmanı tətbiq etməli və təşkilatın ən yüksək riskli sahələrinə fokuslanmalıdır;
- audit proseslərinin beynəlxalq audit standartlarına uyğun olaraq həyata keçirilməsi vacibdir;
- audit proseslərinin keyfiyyətini təmin etmək üçün müntəzəm keyfiyyət yoxlamaları həyata keçirilməlidir.

Bu tövsiyələr Azərbaycan bank sektorunda strateji planlaşdırma və audit proseslərinin keyfiyyətini və effektivliyini artırmağa kömək edəcəkdir. Bu sahədə davamlı inkişaf və müasir texnologiyaların tətbiqi bankların rəqabət qabiliyyətini və maliyyə dayanıqlığını gücləndirəcəkdir.

ƏDƏBİYYAT

1. Johnson, G., Scholes, K., & Whittington, R. (2008). Exploring Corporate Strategy: Text and Cases. Prentice Hall.
2. Hill, C. W. L., & Jones, G. R. (2012). Strategic Management: An Integrated Approach. South-Western College Publishing.
3. Thompson, A. A., Strickland, A. J., & Gamble, J. E. (2010). Crafting and Executing Strategy: The Quest for Competitive Advantage. McGraw-Hill/Irwin.
4. Mintzberg, H., Ahlstrand, B., & Lampel, J. (2005). Strategy Safari: A Guided Tour Through The Wilds of Strategic Management. Free Press.
5. Grant, R. M. (2016). Contemporary Strategy Analysis. Wiley.
6. Porter, M. E. (1985). Competitive Advantage: Creating and Sustaining Superior Performance.
7. Wheelen, T. L., & Hunger, J. D. (2012). Strategic Management and Business Policy: Toward Global Sustainability. Prentice Hall.
8. David, F. R. (2011). Strategic Management: Concepts and Cases. Prentice Hall.
9. Kaplan, R. S., & Norton, D. P. (2001). The Strategy-Focused Organization: How Balanced Scorecard Companies Thrive in the New Business Environment.
10. Bracker, J. (1980). The historical development of the strategic management concept.Academy of Management Review, 5(2), 219-224.
11. Ghemawat, P. (2001). Strategy and the Business Landscape. Prentice Hall.
12. Central Bank of Azerbaijan. (2020). Annual Report 2020. Link
13. Q.K.İmanov v.b. Финансовая стабильность в азербайджане: применение нечеткого подхода. https://www.bmeb-bi.org/index.php/BEMP/article/download/668/871
14. https://www.adb.org
15. EBRD. (2019). Azerbaijan Diagnostic: Assessing Progress and Challenges in Developing Sustainable Market Economy. Link
16. https://www.grantthornton.global/en/press-migrated/press-releases-2019/
17. https://www2.deloitte.com/cn/en/pages/human-capital/articles/global-human-capital-trends-2020.html
18. https://www.pwc.com/gx/en/about-pwc/global-annual-review-2020/downloads/pwc-global-annual-review-2020.pdf

Самир Фарман оглы Гюльахмадзаде
Азербайджанский Университет Кооперации
почта: s.gulahmedzade@gmail.com

Текущее состояние применения стратегического планирования и его аудита в банковской практике Азербайджана

Резюме

Цель исследования: Целью исследования является изучение проблем применения стратегического планирования в банковском секторе Азербайджана, а также исследование

современного состояния и соответствия его аудита международным стандартам.

Методология исследования: В исследовании использованы различные подходы, включая логическое обобщение, сравнительный анализ и другие методы.

Научная новизна: Анализировано текущее состояние развития банковского сектора Азербайджана, выявлены его особенности развития, а также определены современные требования к аудиту стратегического планирования.

Теоретическая и практическая значимость исследования: Полученные в ходе исследования теоретические, методические и практические результаты могут иметь важное значение при разработке методов стратегического планирования банковской деятельности в условиях динамически меняющейся экономики и рынка банковских услуг. Результаты также могут быть полезны для организации аудита и мониторинга, а также для приведения их в соответствие с международными стандартами посредством подготовки конкретных рекомендаций.

Результаты исследования: Роль стратегического планирования и его аудита должна быть усилена для повышения конкурентоспособности и устойчивости банков.

Ключевые слова: стратегическое планирование, банковский сектор, аудит, конкурентоспособность, устойчивое развитие, управление рисками, контроль, мониторинг.

Samir Farman Gulahmadzade
Azerbaijan Cooperation University. PhD student
e-mail: s.gulahmedzade@gmail.com

The Current State of the Application of Strategic Planning and Its Audit in the Banking Practices of Azerbaijan

Summary

Purpose of the Research: The purpose of the research is to investigate the challenges in the application of strategic planning in Azerbaijan's banking sector, as well as to examine the modern state and compliance of its audit with international standards.

Research Methodology: The study employs various approaches, including logical generalization, comparative analysis, and other methods.

Scientific Novelty: The current state of development in Azerbaijan's banking sector has been analyzed, its development characteristics identified, and the modern requirements for auditing strategic planning have been determined.

Theoretical and Practical Significance of the Research: The theoretical, methodological, and practical findings obtained during the research can be of significant importance in developing strategic planning methods for banking activities in the context of a dynamically changing economy and banking service market. The findings can also aid in organizing and aligning audits and monitoring with international standards by providing specific recommendations.

Research Outcome: The role of strategic planning and its audit should be further enhanced to increase the competitiveness and resilience of banks.

Key words: Strategic planning, banking sector, audit, competitiveness, sustainable development, risk management, control, monitoring.

UOT 336.7

Nicat Həmzə oğlu MURADOV
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, İqtisadiyyat İnstitutunun doktorantı,
Email: nicatmourad@mail.ru
https://doi.org/10.30546/4.71.73001.2025.001.047

AQRAR SEKTORDA MALİYYƏ-KREDİT PROBLEMLƏRİ VƏ ONLARIN HƏLLİ YOLLARI

Xülasə

Tədqiqatın məqsədi aqrar sektorda maliyyə-kredit problemlərini tədqiq etmək və onların həlli istiqamətində elmi cəhətdən əsaslandırılmış tövsiyələr hazırlamaqdır.

Tədqiqatın metodologiyası - Məqalə hazırlanarkən müəllif elmi-tədqiqat üsullarından, o cümlədən müqayisə, məntiqi ümumiləşdirmə və statistik təhlil metodlarından faydalanmışdır.

Tədqiqatın tətbiqi əhəmiyyəti ondan ibarətdir ki, irəli sürülən təklif və tövsiyələr ölkəmizdə aqrar sektorun maliyyə problemlərinin həlli və bu sahənin daha da inkişaf etdirilməsi istiqamətində layihələrin hazırlanmasında faydalı ola bilər.

Tədqiqatın nəticələrinə dair onu qeyd etmək olar ki, aqrar sektorun mövcud vəziyyəti təhlil olunaraq sahənin inkişafı, maliyyə-kredit problemlərinin aradan qaldırılmasına dair innovativ həll yolları təqdim edilmişdir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi. Müəllifin ölkəmizdə aqrar sektorun inkişafı, bu sahədə maliyyə çatışmazlıqlarının aradan qaldırılması, aqrar istehsalçıların maliyyə resurslarına əlçatanlığının təmin edilməsi kimi məsələlərə yanaşması məqalənin orijinallığını və elmi yeniliyini ifadə edir.

Açar sözlər: Aqrar sektor, idxal, dayanıqlı inkişaf, subsidiya, qrant, maliyyə problemləri, investisiya, kredit, məsləhət xidmətləri, dövlət dəstəyi və s.


Giriş

Müasir dövrdə rəqabət qabiliyyətinin formalaşdırılması, ümumilikdə iqtisadiyyatın, eləcə də onun ayrı-ayrı sahələrinin rəqabətqabiliyyətlilik problemləri aktualdır. Ona görə ki, İKT-nin inkişafı, internetin cəmiyyət həyatının aparıcı tərkib hissəsinə çevrilməsi dünyanı daha "kiçildərək" vahid iqtisadi orqanizmə çevirmişdir. Bütün bunlar həm də əmtəə və xidmətlərin hərəkətliliyini də intensivləşdirmişdir ki, bu da rəqabətə davamlılığı zəruri edir.

Kənd təsərrüfatı, aqrar-sənaye kompleksi milli iqtisadiyyatın prioritet sahələrindən biridir. Bu sahənin normal inkişafı və uğurlu fəaliyyəti ölkənin ərzaq təminatı və təhlükəsizliyinin təmin edilməsi, iş yerlərinin saxlanması, regionların inkişafı, kənd yerlərinin dinamik olması və s. kimi məsələlərə də təsir edir. Eyni zamanda, bütün sahələr kimi aqrar sektor da bir sıra səciyyəvi xüsusiyyətlərlə xarakterizə olunur. Bundan əlavə, aqrar sektor mövsümi fəaliyyət xarakteri daşıyır, ətraf mühit və ekoloji amillərdən ciddi şəkildə asılıdır. Bu amillər kənd təsərrüfatı subyektlərinin investisiya cəlbediciliyinin aşağı olmasına da təsir edir.


Aqrar sektorun mövcud vəziyyəti və idxaldan asılılıq məsələləri

Xarici investorlar iqtisadiyyatın aqrar sektoruna sərmayə yatırmaqdan çəkinirlər, çünki onun aşağı rentabelliyi və əhəmiyyətli riskləri var. Bu baxımdan, Azərbaycan Respublikasının aqrar sektorunda investisiya siyasəti qısamüddətli xarakter almışdır. Başqa sözlə desək, uzunmüddətli və tam investisiya qoyuluşlarından daha çox qısamüddətli kreditləşmə xarakteri daşıyır [2]. Ümumilikdə isə, sahənin maliyyə təminatında çatışmazlıqlar da var ki, bu da daha çox risklər, az gəlirlilik, aşağı rentabellilik, mövsümilik kimi amillərlə izah edilə bilər.




Mənbə: *https://stat.gov.az/source/agriculture/*

Əslində, statistik məlumatlardan görünür ki, son illər kənd təsərrüfatının ümumi məhsulu dinamik olaraq artır. 2019-2023-cü illərdə 4.37 milyard manat və ya 35.8 faiz çoxalıbdır. Bununla belə həm sahəyə yönləndirilən vəsaitlərdə, həm də potensial imkanların təsərrüfat dövriyyəsinə cəlb edilməsində nəzərəçarpacaq dəyişiklik hiss olunmur. ÜDM-in həcmində də kənd təsərrüfatının payı 5-6%-lə davam edir.



Mənbə: https://stat.gov.az/source/agriculture/

Qoyulmuş investisiyalar, əldə edilən məhsul istehsalı və eləcə də ümumi ÜDM-də sahənin payı bir-birini tamamlayır. Lakin, bu, mövcud potensialdan daha səmərəli istifadəni təmin etmir. Sahəyə özəl investisiyaların cəlbi, aqrar sahədə dövlət-özəl tərəfdaşlığı hələlik özünü nəzərəçarpacaq dərəcədə əks etdirmir. İllər keçsə də, aqrar sektora yönəldilən vəsaitlər, ümumi investisiya qoyuluşlarının, təqribən 2.9 faizini təşkil edir.



Mənbə: https://stat.gov.az/source/agriculture/

Bu rəqəmlər innovasiyaların, yeni texnika və texnologiyaların tətbiqinə, təsərrüfat məhsuldarlığından potensial məhsuldarlığa doğru hərəkəti tam dəstəkləmir və nəticədə bir çox məhsullar üzrə idxaldan asılılıq davam edir.

2023-cü ildə Azərbaycanın icmal ərzaq balansı, ton

Bitkiçilik məhsulları üzrə				
	İlin əvvəlinə qalıq	**İstehsal**	**İdxal**	**Ehtiyatların cəmi**
Dənlilər (çəltik istisna olmaqla), cəmi	551.856	3.139.933	1.313.703	5.005.492
buğda	281.259	1.792.419	1.175.341	3.249.019
arpa	179.412	1.039.019	47.665	1.266.096
qarğıdalı	86.740	287.001	73.063	446.804
vələmir	3.423	10.179	2.293	15.895
sair dənlilərin cəmi	1.022	11.315	15.341	27.678
Dənli paxlalılar üzrə cəmi	24.733	18.229	12.131	55.093
Kartof	669.720	1.010.517	186.704	1.866.941
Bütün növ tərəvəz	317.893	1.825.592	58.453	2.201.938
soğan	55.038	310.259	2.401	367.698
sair tərəvəzlər	262.855	1.515.333	56.052	1.834.240
Bostan məhsulları	3.518	438.198	725	442.441
Meyvə və giləmeyvə	29.137	1.261.310	170.289	1.460.736
Üzüm	2.294	224.517	24.644	251.455
Heyvandarlıq məhsulları üzrə				
Ət və ət məhsulları, cəmi	11.600	379.726	66.751	458.077
mal əti və ət məhsulları	3.620	152.787	20.207	176.614
qoyun və keçi əti və ət məhsulları	1.291	88.946	4.793	95.030
donuz əti və ət məhsulları	252	492	9.993	10.737
quş əti və ət məhsulları	6.437	137.501	31.758	175.696
Süd və süd məhsullarının cəmi	43.154	2.283.991	474.632	2.801.777
Yumurta, min ədəd	39.228	2.188.154	1.339	2.228.721
Balıq və balıq məhsulları	3.363	62.722	21.081	87.166
Pendir	6.426	55.063	9.165	70.654
Ət və ət məhsulları, cəmi	11.600	379.726	66.751	458.077
mal əti və ət məhsulları	3.620	152.787	20.207	176.614
qoyun və keçi əti və ət məhsulları	1.291	88.946	4.793	95.030

Mənbə: *https://stat.gov.az/source/food_balances/*

Göründüyü kimi, istər bitkiçilik, istərsə də heyvandarlıq məhsullarının əksəriyyəti üzrə idxaldan ciddi asılılıq mövcuddur. Ölkəmizin potensial imkanları, xüsusilə işğaldan azad edilmiş ərazilərin təbii-iqtisadi potensialı idxaldan asılılığı minimuma endirməyə imkan verir. Daha çox buğda, kartof, meyvə və giləmeyvə idxal edirik. Hansı ki, düzgün planlaşdırma və lazımi maliyyə təminatı ilə bu məhsullar üzrə tələbatımızı ödəyəcək imkanlar mövcuddur.

Aqrar sahəyə dövlət dəstəyinin əsas istiqamətləri

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, dövlətlərin aqrar sahəyə dəstəyi uzunmüddətli və davamlı xarakter daşıyır, yalnız böhranlı situasiyaları, çətinlik yaranmış vəziyyəti neytrallaşdırmaq üçün deyil, eyni zamanda sabit və dayanıqlı inkişafın təmin edilməsi məqsədilə formalaşmışdır. Əslində isə, dövlətlərin aqrar sahəyə dəstəyi bir tənzimləyici, stimullaşdırıcı mahiyyət kəsb

edir və ümumi şəkildə aşağıdakı kimi xarakterizə etmək olar [1,s.112-125; 3,s.86-103; 4]:

- Aqrar istehsal sahələrinə, aqrobiznesə investisiya cəlb edilməsi üçün müvafiq qərarların qəbulu, aqrobiznes sahəsində investisiya proseslərinin tənzimlənməsi;
- Aqrar sahədə maddi-texniki resurslardan, işçi qüvvəsindən və istehsal potensialının digər elementlərindən qarşılıqlı istifadənin səmərəli təşkili;
- Aqrar sektorun infrastruktur təminatının yaxşılaşdırılması, ixracyönümlü məhsul istehsalının stimullaşdırılması, bazara çıxışın asanlaşdırılması, aqrar məsləhət və marketinq xidmətlərinin təşkili;
- Ətraf mühit və ekoloji məsələlər ilə bağlı təsərrüfat subyektlərinin mütəmadi olaraq maarifləndirilməsi;
- Statistik və iqtisadi məlumatlandırma vasitəsilə aqrar sahəyə dəstək göstərilməsi, ətraf mühit və ekoloji amillərin nəzərə alınması şərtilə, təbii-iqtisadi resurs potensialından səmərəli istifadənin təmin edilməsi;
- Müəyyən regionlarda, ərazilərdə dövlət tədarük məntəqələrinin yaradılması ilə məhsulların bazara çıxarılmasına dəstək verilməsi. Mövsümi qiymətlərin elan edilməsilə, məhsulların tədarükünün həyata keçirilməsi, bazara çıxış imkanları olmayan və ya məhdud olan istehsalçıların məhsullarının tədarük məntəqələrində toplanması.

Aqrar istehsalçıların maliyyə-kredit problemlərinin həlli yolları

Bütün bunlarla yanaşı, aqrar sahənin maliyyə təminatı kənd təsərrüfatının, aqrar-sənayenin inkişafı üçün əhəmiyyətli bir faktordur. Bu təminat fermerlərə, aqro bizneslərə və kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən müəssisələrə müxtəlif maliyyə resursları, kreditlər, subsidiyalar və investisiyalar təmin edir. Ümumiyyətlə isə, maliyyə təminatının başlıca məqsədlərini aşağıdakı kimi təsnifləşdirə bilərik [3,s.32-47; 6,s.143-157; 13; 14]:

- **İnvestisiya dəstəyi və ya təminatı –** aqrar sahədə fəaliyyət göstərən təsərrüfat subyektlərinə yeni texnologiyalar tətbiq etmək, avadanlıqlar əldə etmək və məhsul istehsalını artırmaq üçün investisiya qoyuluşları zəruridir ki, maliyyə təminatı buna da imkan yaradır;
- Maliyyə təminatının imkan yaratdığı məsələlərdən biri də risklərin qiymətləndirilməsi və idarə edilməsidir – yuxarıda da qeyd etdiyimiz kimi, kənd təsərrüfatı təbii fəlakətlər, bazar qiymətlərinin dalğalanması və digər risklərə qarşı sığorta və maliyyə mühafizəsinin təmin edilməsi.
- **Maliyyə təminatı** kənd təsərrüfatı subyektlərinə və ümumilikdə aqrobiznesə uyğun, daha əlverişli kreditlər, qrantlar və digər maliyyə resurslarının tapılmasına dəstək verir;
- Kənd təsərrüfatı sahəsində maliyyə təminatının yarada biləcəyi mühüm məsələlərdən biri də resurslardan necə istifadə etmək barədə təlim və seminarların təşkili, maarifləndirmə işlərinin aparılmasıdır;
- Bu istiqamətdə vacib məsələlərdən biri də kənd yerlərində maliyyə xidmətlərinin inkişaf etdirilməsidir ki, əslində bu da maliyyə təminatının əsas məqsədlərindən biri olmalıdır. Təminat və xidmətlərin şaxələnməsi özlüyündə maliyyə əlçatanlığının vacib şərti kimi çıxış edir.

Aqrar sahənin maliyyə təminatı, kənd təsərrüfatının davamlı inkişafı, ərzaq təminatı və təhlükəsizliyi ümumi iqtisadi inkişaf üçün əsas rol oynayır. Bunu nəzərə alaraq, hökumət, banklar və beynəlxalq təşkilatlar bu sahədə müxtəlif proqramlar və strategiyalar hazırlayaraq dəstək verirlər. Maliyyə təminatı yalnız məhsul artımı üçün deyil, eyni zamanda yeniliklərin tətbiqi, qabaqcıl təcrübələrin öyrənilməsi baxımından da vacibdir. Kənd təsərrüfatı sektoruna maliyyə dəstəyi əkinçilik təcrübələrinin inkişafı, innovasiyaları və davamlılığı təşviq etmək üçün çox vacibdir. Hansı ki, bu dəstək müxtəlif mənbələrdən və müxtəlif formalarda ola bilər.

Müşahidə və araşdırmalar göstərir ki, inkişaf etmiş ölkələrdə maliyyə dəstəyinin geniş yayılmış formalarından biri subsidiya və qrantlardır. Belə ki, hökumətlər çox vaxt fermerlərə istehsal xərclərini azaltmaq və onların gəlirliliyini artırmaq üçün birbaşa subsidiyalar vasitəsilə maliyyə yardımı göstərirlər. Subsidiyalar da fərqli formada tətbiq edilir. Əksər hallarda subsidiyalar məhsula görə verilir. Yəni, dövlət sanki məhsul sifarişçisi rolunda çıxış edir. Aqrar istehsalçıya əkin dövründə müəyyən vəsait ödəyir, hazır məhsulu öncədən, bazara uyğun, razılaşdırılmış qiymətə

alacağını bildirir, məhsul yığımı dövründə isə lazımi həcmdə məhsulu istehsalçıdan qəbul edir və subsidiyanın da qalan hissəsini ödəyir. Maliyyə dəstəyi üsulu kimi tətbiq edilən qrantlar isə daha çox qabaqcıl təcrübələrin davamlı tətbiqi və ya yeni texnologiyalara investisiya kimi konkret layihələr üçün təklif olunur. Təcrübədən də məlum olduğu kimi, qrantlar konkret mövzu və ya istiqamət üzrə elan edilir, eləcə də konkret tarixə fokuslanır. Araşdırmalar göstərir ki, qrantlar çərçivəsində tətbiq edilən yeniliklər qısa zamanda geniş yayılır və qrantlar müəyyən bir yeniliyin tətbiqinin ilk addımı, təşəbbüskarı kimi çıxış edir [8; 9; 13; 15].

Aydındır ki, bazar münasibətləri şəraitində maliyyə təminatının, maliyyə dəstəyinin başlıca mənbələrindən biri də bank kreditləridir. Faiz və qaytarılma şərtləri uyğun olan sərfəli kreditlərə çıxış aqrar istehsalçı təsərrüfat subyektlərinə avadanlıq, toxum və digər zəruri resurslara investisiya qoymağa imkan verir. Eyni zamanda, istehsalı genişləndirməyə, daha çox məhsul əldə etməyə şərait yaradır. Ona görə də ixtisaslaşmış kənd təsərrüfatı bankları və mikromaliyyə təşkilatları tərəfindən fermerlər üçün xüsusi kredit məhsullarının təklifi olduqca önəmlidir. Əvvəldə də qeyd edildiyi kimi, aqrar sahə aşağı rentabelli və riskli (ətraf mühit və ekoloji amillərdən asılılıq) olduğu üçün kredit şərtlərinin də fərqləndirilməsi zəruridir. Yəni, aqrar sahəyə verilən kreditlər, kreditləşdirmə şərtləri digər sahələrlə müqayisədə daha fərqli yanaşma, daha dəqiq qiymətləndirmə tələb edir [3; 8; 9].

Rentabelliyin aşağı olması və risklilik baxımından aqrar sığorta münasibətlərinin də inkişafı zəruri hesab edilir. Başqa sözlə desək, sığorta aqrar sektorda kreditləşməni sürətləndirə və prosesə təkan verə bilər. Bu baxımdan da, sığorta münasibətlərinin inkişaf etdirilməsi, hətta zəruri məhsul istehsalı ilə bağlı xüsusi sığorta proqramları da icra edilə bilər. Təbii ki, məhsul sığortası və heyvandarlıq sığortası fermerlərə təbii fəlakətlər, bazar dalğalanmaları və gözlənilməz hadisələrlə bağlı riskləri idarə etməyə kömək edə bilər. Nəticədə, aqrar istehsalçılar daha inamlı olar və daha çox məhsul istehsal edilər. Təcrübə göstərir ki, dövlətlər maliyyə ilə bağlı əhatə dairəsini genişləndirmək və əlçatan etmək, aqrar sahəyə daha çox kreditlər cəlb etmək, uzunmüddətli və davamlı kreditlər üçün sığorta haqlarını dəstəkləyirlər. Şübhəsiz ki, paralel olaraq kənd təsərrüfatı sektoruna investisiya qoyuluşları da təşviq edilməlidir. Aydındır ki, vergi güzəştləri və ya əlverişli investisiya siyasətləri kənd təsərrüfatına, o cümlədən infrastruktur və texnologiyanın inkişafına özəl sektorun investisiyalarını təşviq edə bilər. Bununla belə, ölkəmizdə fəaliyyət göstərən qabaqcıl fermerlərin, aqrar istehsalçıların da təcrübələrinin geniş təbliği məqsədəuyğun olardı. Bu təbliğatla həm cəmiyyətdə “aqrar sektordan da irihəcmli gəlir əldə etmək mümkündür” fikri formalaşar, həm də aqrar istehsalın cəmiyyətin gündəlik həyatında zəruriliyi, yerli məhsul istehsalının vacibliyi cəmiyyətə izah edilər. Nəticədə, bir maarifləndirmə tədbiri olan bu proses, investisiya cəlbediciliyini təşviq etməklə yerli potensial imkanlardan daha məhsuldar istifadəyə, yerli məhsul istehsalının artımına da kömək edə bilər [8; 9; 11; 14].

Müşahidələr göstərir ki, aqrar sektorun maliyyə təminatında vacib şərtlərdən biri də texniki təminat və təkmilləşdirici təlimlərdir. Fermerlərə təlim və resursların təmin edilməsi onların təcrübələrinin təkmilləşdirilməsinə, yeni texnologiyaların mənimsənilməsinə və məhsuldarlığın artırılmasına kömək edir. Müasir dövrdə bu sahədə “kənd təsərrüfatı məsləhət xidmətləri” aparıcı rol oynaya bilər. Bu xidmət həm faktiki fermerləri, aqrar istehsalçıları maarifləndirər, həm də ümumilikdə cəmiyyətin bu sahəyə marağını cəlb edə bilər.

Araşdırmalar göstərir ki, maliyyə təminatının həlli yollarından biri də aqrar tədqiqatların genişləndirilməsi, yeni məhsul növlərinin və imkanların aşkara çıxarılmasıdır. Bu istiqamətdə universitetlər, hökumətlər və özəl sektor arasında tərəfdaşlıq maliyyə cəlbediciliyini yüksəldə və innovasiyaları asanlaşdıra bilər. Əslində, dövlət-özəl tərəfdaşlığının aktual olduğu indiki dövrdə aqrar sektora da özəl investisiyaların cəlb edilməsi günün tələblərindən irəli gəlir. Ona görə də aqrar məsləhət xidmətləri və digər mümkün vasitələrlə kənd təsərrüfatı sahəsində dövlət-özəl tərəfdaşlığının inkişaf etdirilməsi məqsədəuyğun olardı.

Nəticə

Bütün sahələrdə olduğu kimi, aqrar sektorda da dayanıqlı inkişaf, maliyyə cəlbediciliyinin zəruri şərtlərindən biri də lazımi bazarlara asan çıxışın təmin olunmasıdır. Yəni, istehsal və satış proseslərinin bir-birini izləməsi, bir-birini dəstəkləməsidir. Təbii ki, istehsalın nəticəsi satış mərhələsində reallaşır və davamlı fəaliyyət üçün bu zəruridir. Bu baxımdan da, aqrar sitehsalçıları bazarlara bağlayan, marketinq yardımı göstərən və yerli məhsulları təşviq edən proqramlar gəlirlərin artımı və fəaliyyətin davamlılığı üçün məqsədəuyğun olardı. Bazara çıxış imkanlarının daimi asanlaşdırılması, istehsalçıya məhsullarını daha səmərəli şəkildə reallaşdırmaq imkanının yaradılması çox vacibdir. Ona görə də bu istiqamətdə daimi sahəvi dəstəklərin göstərilməsi ilə yanaşı, həm də ümumi siyasi dəstək olması lazımdır. Kənd təsərrüfatı sektorunu dəstəkləyən güclü siyasət və tənzimləyici çərçivələr investisiya və inkişaf üçün əlverişli mühit yarada, hazır məhsulların daha səmərəli reallaşmasına kömək edə bilər. Siyasi stimullaşdırmalara torpaq mülkiyyətinin təhlükəsizliyi, ticarət müqavilələrinin etibarlılığı, ərzaq təminatı və qida təhlükəsizliyi qaydaları daxil ola bilər [6; 8; 9; 16].

Beləliklə, yuxarıda sadalanan tədbirlər – vergi güzəştləri, sığorta münasibətlərinin inkişafı, aqrar tədqiqatların dəstəklənməsi, siyasi dəstəyin göstərilməsi, bazarlara asan çıxışın təmin edilməsi, subsidiyalaşdırma, qrantların elanı və s. məsələlərin hər biri aqrar sektora maliyyə cəlbediciliyi üçün olduqca vacibdir. Əslində, maliyyə dəstəyi, maliyyə təminatı, maliyyə cəlbediciliyi mahiyyət etibarı ilə bir-birini tamamlayan anlayışlar olub, hər bir sahənin normal və uzunmüddətli fəaliyyətinin, dayanıqlı inkişafının zəruri şərtlərindən biridir. Həm də ona görə ki, maliyyə dəstəyi cəmiyyətin gündəlik normal yaşayışının əsasını təşkil edən aqrar məhsulların istehsalını stimullaşdırır. Konkret desək, maliyyə dəstəyi və ya maliyyə təminatı ona görə vacibdir ki, o, fermerlərə müasir texnologiyaların tətbiqinə və məhsuldarlığın artırılmasına şərait yaradır, iqtisadi və ekoloji şoklara tab gətirməklə dayanıqlı inkişaf, keyfiyyətin yüksəldilməsi və s. kimi məsələlərə kömək edir. O cümlədən, maliyyə dəstəyi təbii ehtiyatlardan qənaətlə və daha səmərəli istifadə, kənd yerlə-rinin inkişafının təşviqi, regional inkişaf və ümumi iqtisadi artıma nail olunması baxımından həyati əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1. Abbasov V.H. “Aqrar sahədə iqtisadi tənzimləmənin aktual problemləri”. Bakı, 2012, 422 səh.
2. Alıyev İ.H. “Aqrar sahənin iqtisadi tənzimlənməsinin aktual problemləri”. Bakı, AMEA-nın Xəbərləri, Humanitar və ictimai elmlər seriyası (İqtisadiyyat), 2019, səh. 131-138
3. Alıyev İ.H., Məmmədova Ş.Ə. “Aqrar sahənin inkişafının əsas maliyyə mənbələri”. Bakı, 2007, Elm, 227 səh.
4. Əhmədov R.K. “Aqrar sektorun maliyyə təminatının yüksəldilməsində vergi güzəştlərinin rolu”. Bakı, Azərbaycan Vergi jurnalı, 2015, №5, səh. 149-161.
5. Əliyev A.L. “İşğaldan azad olunmuş ərazilərdə aqrar sektorun dirçəldilməsində mikromaliyyələşmədən istifadənin aktivləşdirilməsi istiqamətləri”. Bakı, BBU, Audit jurnalı, 2021, №3, səh. 41-52
6. Hüseynov M.C. “Aqrar sahənin dayanıqlı inkişaf problemləri”. Bakı, Nurlar, 304 səh.;
7. Qafarov N.C. “Aqrar istehlak bazarının formalaşması və inkişafının iqtisadi problemləri”. Bakı, 2023, “Kooperasiya” nəşriyyatı, 320 səh.
8. Rüstəmov R.M. “Aqrar sahədə davamlı inkişafın formalaşması məsələləri”. Bakı, 2019, Azərbaycan Aqrar Elmi, №2, səh. 182-186.
9. Tükanov M.M. “Kənd təsərrüfatının maliyyə təminatının yaxşılaşdırılması istiqamətləri”. Bakı, BBU, Audit jurnalı, 2022, №3, səh. 27-42.
10. Verdiyev Ə.Ç., Qarayev İ.Ş. “Aqrar bazarın formalaşmasının iqtisadi problemləri”. Bakı, 2014, Təhsil NPM, 256 səh.
11. Ziyadov F.H. “Azərbaycanda strateji yol xəritəsi kontekstində aqrar-emal müəssisələrinin

investisiya mexanizmlərinin gücləndirilməsi istiqamətləri". Bakı, BBU, Audit jurnalı, 2019, №4, səh.49-60.
12. Шишкина Д.А. Совершенствование банковского кредитования предприятий АПК // В сборнике «Наука сегодня: теоретические и практические аспекты: материалы международной научно-практической конференции». В 2-х частях. Научный центр «Диспут». 2017. С. 68-69.
13. Попова Л.В. Новый механизм кредитования АПК: плюсы и минусы // Вектор экономики. 2017. №8 (14). С. 21.
14. Гурфова С. А., Танашева Т. А. "ПРОБЛЕМЫ КРЕДИТОВАНИЯ ОРГАНИЗАЦИЙ АПК". Известия Кабардино-Балкарский ГАУ – № 4(18), 2017. С.64-71
15. https://tedris.taxes.gov.az/assets/upload/files/R.%C6%8Fhm%C9%99dv-Meqale.pdf;
16. https://vergijurnali.az/2021/09/16/az%C9%99rbaycanda-aqrar-sah%C9%99nin-maliyy % C9 % 99l%C9%99sdirilm%C9%99sinin-movcud-v%C9%99ziyy%C9%99ti-v%C9%99-inkisaf-perspektivl%C9%99ri/;
17. https://www.stat.gov.az/.

Ниджат Гамза оглы Мурадов
Аспирант Института экономики Министерства науки и образования Азербайджанской Республики
Email: nicatmourad@mail.ru

Финансово-кредитные проблемы в аграрном секторе и их решения

Резюме

Цель исследования заключается в изучении финансово-кредитных проблем в аграрном секторе и подготовке научно обоснованных рекомендаций по их решению.

Методология исследования: При подготовке статьи автор использовал научные методы исследования, включая сравнение, логическую обобщение и статистический анализ.

Практическое значение исследования: Предложенные рекомендации могут быть полезны для разработки проектов, направленных на решение финансовых проблем аграрного сектора и его дальнейшее развитие в нашей стране.

Результаты исследования: Можно отметить, что проведенный анализ текущего состояния аграрного сектора привел к предложению инновационных решений для развития сектора и устранения финансово-кредитных проблем.

Оригинальность и научная новизна исследования: Подход автора к таким вопросам, как развитие аграрного сектора, устранение финансовых дефицитов в этой области и обеспечение доступа аграрных производителей к финансовым ресурсам, отражает оригинальность и новизну статьи.

Ключевые слова: Аграрный сектор, импорт, устойчивое развитие, субсидия, грант, финансовые проблемы, инвестиции, кредит, консультационные услуги, государственная поддержка и др.

Nicat Hamza oglu Muradov
PhD Student, Institute of Economics, Ministry of Science and Education of the Republic of Azerbaijan
Email: nicatmourad@mail.ru

Financial and credit issues in the agricultural sector and their solutions

Summary

The aim of the research is to investigate financial and credit issues in the agricultural sector and to prepare scientifically grounded recommendations for solving these problems.

Research Methodology: In preparing the article, the author utilized scientific research methods, including comparison, logical generalization, and statistical analysis.

Practical Significance of the Research: The proposed suggestions and recommendations could be useful in developing projects aimed at solving financial problems in the agricultural sector and further advancing this area in our country.

Research Findings: It can be noted that an analysis of the current state of the agricultural sector has led to the presentation of innovative solutions for the development of the sector and the resolution of financial and credit issues.

Originality and Scientific Novelty of the Research: The author’s approach to issues such as the development of the agricultural sector, the elimination of financial deficiencies in this area, and ensuring the accessibility of financial resources for agricultural producers reflects the originality and novelty of the article.

Keywords: Agricultural sector, imports, sustainable development, subsidy, grant, financial issues, investment, loan, consulting services, state support, etc.

UOT: 336.22

Mürvət Sahib oğlu ƏKBƏROV
Magistr, BDU
murvet.99@gmail.com
Zəhra İsa qızı SƏMƏDOVA
i.f.d., dosent, BDU
zaxra.samedova@hotmail.com
https://doi.org/10.30546/4.71.73001.2025.001.055

İXRAC POTENSİALININ ARTIRILMASI ÜÇÜN GÖMRÜK-TARİF TƏNZİMLƏMƏLƏRİNDƏN İSTİFADƏ

Xülasə

Tədqiqatın məqsədi strateji gömrük tariflərinin tənzimlənməsinin COP-29-un ekoloji məqsədlərinə uyğun olaraq ölkənin ixrac potensialını necə artıra biləcəyini araşdırmaqdır.

İşin metodologiyası məlumat toplamaq, təhlil etmək və şərh etmək üçün çoxşaxəli yanaşmanı əhatə edir.

Tədqiqatın tətbiqi əhəmiyyəti COP-29 tərəfindən müəyyən edilmiş qlobal iqlim məqsədlərini dəstəkləyərkən ixrac potensialını artırmaq üçün gömrük tariflərinin tənzimlənməsindən istifadə etmək üçün təsirli anlayışlar və siyasət tövsiyələri verməkdən ibarətdir.

Tədqiqatın nəticələri göstərir ki, məqsədyönlü gömrük tariflərinin tənzimlənməsi COP-29-un iqlim məqsədlərinə uyğun olaraq davamlı ticarət təcrübələrini təşviq etməklə ixrac potensialını effektiv şəkildə artıra bilər.

Tədqiqatın orijinallığı və elmi yeniliyi onun gömrük tariflərinin tənzimlənməsinin qlobal iqlim məqsədləri ilə inteqrasiyasına yeni yanaşmasında, COP-29-un davamlılıq məqsədlərinə uyğun olaraq ixrac potensialının artırılması üçün unikal çərçivə təklif etməsindədir.

Açar sözlər: ixrac potensialı, COP-29, gömrük tarifləri.

Giriş

Dünya misli görünməmiş ekoloji problemlərlə üzləşdikcə, iqlim dəyişikliyinin həllində ticarət siyasətinin rolu getdikcə daha çox əhəmiyyət kəsb edir. Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (BMTİDÇS) 29-cu Tərəflər Konfransı (COP-29) qlobal iqtisadi siyasətlərin, o cümlədən ticarət və gömrük tariflərinin iqlim məqsədlərinə necə töhfə verə biləcəyinə diqqət yetirərək bu müzakirələri davam etdirmək üçün nəzərdə tutulub. Bir çox ölkələr, o cümlədən inkişaf etməkdə olan iqtisadiyyatlar üçün gömrük tarifləri qaydalarının ekoloji məqsədlərə uyğunlaşdırılması ixrac potensialının artırılması üçün unikal imkan yaradır.

COP-29, sələfləri kimi, iqlim dəyişikliyinə qlobal reaksiyanın zəruriliyini vurğulayır ki, bu da təkcə istixana qazları emissiyalarının azaldılmasını deyil, həm də davamlı iqtisadi inkişafın təmin edilməsini əhatə edir. Bu çərçivədə ticarət siyasəti, xüsusən də gömrük tarifləri mühüm rol oynayır. Müəyyən mallar üzrə tarifləri tənzimləməklə ölkələr həm öz yerli sənayelərinə, həm də beynəlxalq ticarət axınlarına ətraf mühitin mühafizəsi məqsədlərini dəstəkləyəcək şəkildə təsir göstərə bilərlər [4, s.112].

COP-29-un əhəmiyyəti

COP-29 iqlim dəyişikliyinə qarşı qlobal mübarizədə mühüm mərhələni təmsil edir. COP-un hər sessiyası iqlim dəyişikliyinin həllində həm tərəqqi, həm də inkişaf edən problemləri əks etdirən əvvəlki görüşlərə əsaslanır. COP-29-un əhəmiyyəti bir neçə ölçü ilə başa düşülə bilər.

1. İqlim Fəaliyyətinə Qlobal Öhdəlik: COP-29 ölkələr üçün beynəlxalq iqlim sazişlərinə, xüsusilə də Paris Sazişinə sadiqliklərini təsdiqləmək üçün platforma rolunu oynayır. Bu öhdəlik qlobal istiləşməni məhdudlaşdırmaq və iqlim təsirlərini yumşaltmaq üçün qlobal səylərdə təcil saxlamaq üçün vacibdir.

2. Siyasətlərin hazırlanması və həyata keçirilməsi: Konfrans iqlim siyasəti və strategiyalarının işlənib hazırlanmasına və dəqiqləşdirilməsinə kömək edir. Hökumətləri, biznesləri və vətəndaş cəmiyyətini bir araya gətirməklə, COP-29 iqlim məqsədlərinə uyğun gələn və yaranan problemləri həll edən siyasətləri müzakirə etmək və həyata keçirmək imkanı verir.

3. İnkişaf etməkdə olan Ölkələr üçün Maliyyələşdirmə və Dəstək: COP-29-un əsas məqsədlərindən biri iqlim dəyişikliyinə ən həssas olan inkişaf etməkdə olan ölkələrə maliyyə resursları və dəstək təmin etməkdir. Bura iqlim maliyyəsi, texnologiya transferi və potensialın yaradılması təşəbbüsləri üzrə müzakirələr daxildir.

4. İctimai Maarifləndirmə və İştirak: COP-29 iqlim dəyişikliyi haqqında qlobal məlumatlılığın artırılmasında və geniş ictimaiyyətin, medianın və maraqlı tərəflərin daxil olduğu geniş auditoriyanın cəlb edilməsində mühüm rol oynayır. Bu nişan qlobal iqlim hərəkatını və fərdi və kollektiv fəaliyyəti təşviq etmək üçün çox vacibdir.

Gömrük tarifləri ənənəvi olaraq yerli sənayeləri xarici rəqabətdən qorumaq və dövlət gəlirləri yaratmaq üçün istifadə olunurdu. Bununla belə, COP-29 kontekstində tariflərin davamlı ticarət təcrübələrini təşviq etmək üçün bir vasitə ola biləcəyi artan etiraf var. Bərpa olunan enerji texnologiyaları və enerjiyə qənaət edən mallar kimi ekoloji cəhətdən təmiz məhsullara tarifləri aşağı salmaqla və ya ləğv etməklə ölkələr bu məhsulların həm istehsalını, həm də ixracını təşviq edə bilərlər. Bu, təkcə iqlim məqsədlərinə çatmağa kömək etmir, həm də ölkənin yaşıl məhsullar üçün qlobal bazarda mövqeyini artırır [1, s.66].

Gömrük-tarif tənzimləmələri

Gömrük-tarif tənzimləmələri beynəlxalq ticarət siyasətinin təməl daşıdır və hökumətlər üçün malların sərhədlərdən keçirilməsini idarə etmək və nəzarət etmək üçün mühüm alət rolunu oynayır. Bu qaydalar ölkəyə daxil olan və ya ölkəni tərk edən mallara tətbiq edilən vergilər olan tariflərin tutulması yolu ilə malların idxalına və ixracına təsir etmək üçün hazırlanmış bir sıra siyasət və təcrübələri əhatə edir. Gömrük-tarif tənzimləmələrinin əsaslarını, onların tarixi təkamülünü və iqtisadi inkişafa təsirlərini başa düşmək onların qlobal ticarət dinamikasının formalaşmasında rolunu qiymətləndirmək üçün vacibdir [5, s.28].

Gömrük-tarif tənzimləmələri idxal və ixrac olunan mallara tariflər tətbiq etməklə beynəlxalq ticarəti tənzimləmək üçün hökumətlər tərəfindən müəyyən edilmiş qaydalara və siyasətlərə istinad edir. Tariflər müxtəlif növlərə bölünə bilər, o cümlədən:

1. Ad Valorem Tarifləri: İdxal olunan malların dəyərinin faizi kimi hesablanır. Məsələn, elektronikanın 10%-lik tarifi o deməkdir ki, idxalçı elektronikanın ümumi dəyərinin 10%-ni vergi kimi ödəməlidir.

2. Xüsusi tariflər: Malların miqdarına və ya vahidinə əsaslanan sabit rüsumlar. Məsələn, bir ton polad üçün 5 dollar tarif.

3. Mürəkkəb tariflər: həm dəyər faizini, həm də sabit məbləği tətbiq edən ad valorem və xüsusi tariflərin kombinasiyası.

Bu tariflər müxtəlif gömrük prosedurları vasitəsilə həyata keçirilir və yerli sənayeləri xarici rəqabətdən qorumaq, hökumətə gəlir əldə etmək və ticarət balansına təsir göstərmək daxil olmaqla, çoxsaylı məqsədlərə nail olmaq məqsədi daşıyır.

Gömrük-tarif tənzimləmələrinin tarixi inkişafı tariflərin yerli iqtisadiyyatları qorumaq və gəlir əldə etmək üçün istifadə olunduğu qədim ticarət təcrübələrinə gedib çıxır. Müasir dövrdə tariflərin rolu əhəmiyyətli dərəcədə inkişaf etmişdir [3]:

1. Erkən Ticarət Təcrübələri: Yunanlar və Romalılar kimi qədim sivilizasiyalar ticarətə nəzarət etmək və yerli sənayeləri qorumaq üçün idxal və ixraca tariflər tətbiq edirdilər.

2. Orta əsrlər və erkən müasir dövr: Tariflər Avropa monarxiyaları üçün yeni yaranmaqda olan sənayeləri qorumaq və ticarət kəsirlərini idarə etmək üçün bir vasitə oldu. Merkantilizmin yüksəlişi tariflərin sərvət və güc toplamaq üçün istifadə edildiyini gördü.

3. İkinci Dünya müharibəsindən sonrakı dövr: Tariflər və Ticarət üzrə Baş Sazişin (GATT) və daha sonra Ümumdünya Ticarət Təşkilatının (ÜTT) yaradılması tarifləri azaltmaq və azad ticarəti

təşviq etmək məqsədi daşıyırdı. Bu razılaşmalar qlobal ticarətin liberallaşdırılmasına doğru irəliləyiş göstərdi, eyni zamanda bəzi qoruyucu tədbirlərə icazə verdi.

4. Müasir inkişaflar: Son onilliklərdə gömrük-tarif tənzimləmələri ekoloji və sosial standartlarla bağlı ticarət siyasətinin elementlərini getdikcə daha çox özündə birləşdirir. Məsələn, daha geniş qlobal problemləri həll etmək üçün zəif əmək təcrübəsi və ya yüksək karbon emissiyası olan ölkələrin məhsullarına tariflər tətbiq edilmişdir.

Gömrük-tarif tənzimləmələrinin əhəmiyyəti onların daxili və beynəlxalq bazarlara təsir imkanlarından ibarətdir. Tarifləri tənzimləməklə hökumətlər inkişaf etməkdə olan sənayeləri qoruya, ticarət kəsirlərini idarə edə və iqtisadi şoklara cavab verə bilər. Bundan əlavə, tariflərdən yerli istehsalın təşviqi və milli təhlükəsizliyin dəstəklənməsi kimi strateji məqsədlərə nail olmaq üçün istifadə edilə bilər.

Gömrük-Tarif Qaydaları İqtisadi Siyasət Aləti kimi

Gömrük-tarif tənzimləmələri iqtisadi siyasətin formalaşmasında həlledici rol oynayır. Onların təsirini müxtəlif ölçülərlə təhlil etmək olar.

1. Daxili sənayelərə təsir: Tariflər idxal olunan malları bahalaşdırmaqla yerli sənayeləri xarici rəqabətdən qoruya bilər. Bu mühafizə yeni yaranan sənaye sahələrinin inkişafına təkan verə və iş yerlərinin yaradılmasını dəstəkləyə bilər. Bununla belə, həddindən artıq proteksionizm istehlakçılar üçün səmərəsizliyə və yüksək qiymətlərə də səbəb ola bilər.

2. Gəlirlərin yaradılması: Tariflər hökumətlər üçün əhəmiyyətli gəlir mənbəyini təmin edir. Bu gəlir ictimai xidmətlərin və infrastrukturun maliyyələşdirilməsi üçün istifadə edilə bilər. Bununla belə, ticarətin liberallaşdırılmasının prioritet olduğu qloballaşan iqtisadiyyatda tarif gəlirlərindən asılılıq qeyri-davamlı ola bilər.

3. Ticarət balansı və rəqabətqabiliyyətlilik: Tarifləri tənzimləməklə hökumətlər ya ixracı təşviq etməklə ya da idxalı məhdudlaşdırmaqla ticarət balansına təsir göstərə bilərlər. Balanslaşdırılmış tarif siyasəti ticarət tarazlığını qorumağa və qlobal bazarlarda milli rəqabət qabiliyyətini artırmağa kömək edə bilər.

4. Strateji və Siyasət Məqsədləri: İqtisadi mülahizələrdən əlavə, tariflər ekoloji davamlılığın təşviqi və ya insan hüquqlarının qorunması kimi daha geniş siyasət məqsədlərinə nail olmaq üçün istifadə edilə bilər. Məsələn, müəyyən ekoloji standartlara cavab verməyən məhsulların tarifləri daha təmiz istehsal təcrübələrini stimullaşdıra bilər.

Gömrük-tarif qaydalarının tətbiqi və idarə edilməsi bir sıra çətinliklərlə üzləşir.

1. Ticarət mübahisələri: Tariflər ticarət mübahisələrinə və digər ölkələrin cavab tədbirlərinə səbəb ola bilər. Bu cür mübahisələr qlobal iqtisadi sabitliyə təsir edərək ticarət müharibələrinə çevrilə bilər.

2. İqtisadi səmərəsizliklər: Yüksək tariflər bazar qiymətlərini təhrif etməklə və rəqabəti azaltmaqla iqtisadi səmərəsizliyə səbəb ola bilər. Bu, istehlakçılar üçün daha yüksək xərclər və innovasiya üçün stimulların azalması ilə nəticələnə bilər.

3. Uyğunluq və İdarəetmə: Gömrük-tarif qaydalarının idarə edilməsi malların təsnifatı, qiymətləndirilməsi və icrası daxil olmaqla, mürəkkəb inzibati prosesləri əhatə edir. Effektiv gömrük inzibatçılığı gecikmələri minimuma endirmək və uyğunluğu təmin etmək üçün çox vacibdir.

4. Qlobal Ticarət Sazişləri: ÜTT çərçivəsində müzakirə edilənlər kimi beynəlxalq ticarət sazişləri birtərəfli tariflərin tənzimlənməsi üçün əhatə dairəsini məhdudlaşdıra bilər. Müsbət ticarət əlaqələrini saxlamaq və sanksiyalardan qaçmaq üçün bu müqavilələrə riayət etmək vacibdir [7].

Gömrük-tarif tənzimləmələri iqtisadi inkişafa və ticarət dinamikasına təsir göstərən beynəlxalq ticarət siyasətinin əsas aspektidir. Onların tərifini, tarixi təkamülünü və müxtəlif iqtisadi amillərə təsirini başa düşməklə, siyasətçilər daxili maraqları və beynəlxalq öhdəlikləri balanslaşdırarkən strateji məqsədlərə nail olmaq üçün tariflərdən səmərəli istifadə edə bilərlər. Qlobal ticarət inkişaf etməyə davam etdikcə, gömrük-tarif tənzimləmələrinin müasir çağırışların və imkanların həllinə uyğunlaşdırılması davamlı iqtisadi artımın dəstəklənməsi və rəqabətli bazarların saxlanması üçün mühüm əhəmiyyət kəsb edəcəkdir.

Cədvəl 1.

Gömrük tariflərinin tənzimlənməsinin ixrac potensialına təsiri

Tənzimləmə növü	Təsviri	İxrac Potensialına Təsir	Nümunələr
Yaşıl Texnologiyalar üzrə Tariflərin Azaldılması	Bərpa olunan enerji məhsulları və yaşıl texnologiyalar üzrə tariflərin aşağı salınması	Beynəlxalq bazarlarda yaşıl məhsulların rəqabət qabiliyyətini artırır, ixrac həcmini artırır.	Günəş panelləri və külək turbinləri üçün tariflərin azaldılması
Karbon-intensiv idxala tariflərin tətbiqi	Yüksək karbon izləri olan məhsullara daha yüksək tariflər	Yerli sənayeləri daha təmiz texnologiyaları mənimsəməyə təşviq edir, potensial olaraq daha yaşıl alternativlərin ixracını artırır.	Karbon tutumlu polad üçün tariflərin artırılması
Davamlı Təcrübələr üçün Güzəştli Tariflər	Davamlı təcrübələr əsasında istehsal olunan mallar üçün daha aşağı tariflərin təmin edilməsi	Yüksək ekoloji standartlara cavab verən məhsulların ixrac potensialını artırır.	Dayanıqlı mənbəli ağac üçün azaldılmış tariflər
Keçid Dövrü üçün Müvəqqəti Tariflər	Daha yaşıl təcrübələrə keçid zamanı yeni yaranan sənayeləri qorumaq üçün müvəqqəti tariflərin tətbiqi	Uzunmüddətli ixrac potensialını yaxşılaşdıraraq, daha davamlı təcrübələrə keçid zamanı yerli sənayeləri dəstəkləyir.	Elektrikli nəqliyyat vasitələrinə keçid zamanı ənənəvi avtomobil hissələrinə müvəqqəti tariflər

Mənbə: İnternet resursları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Gömrük Tariflərinin İxrac Potensialının Artırılmasında rolu

1. Yaşıl İxracın Təşviqi. Gömrük tariflərinin tənzimlənməsinin COP-29 zamanı ixrac potensialını artırmağın əsas yollarından biri yaşıl ixracı təşviq etməkdir. Ekoloji cəhətdən təmiz məhsullara qlobal tələbat artmaqda davam etdikcə, bu sektorda lider mövqe tutan ölkələr əhəmiyyətli iqtisadi faydalar əldə edəcəklər. Günəş panelləri, külək turbinləri və elektrik nəqliyyat vasitələri kimi yaşıl texnologiyaların ixracına qoyulan tarifləri azaltmaqla ölkələr öz məhsullarını beynəlxalq bazarlarda daha rəqabətqabiliyyətli edə bilərlər. Bu, xüsusilə vacibdir, çünki daha çox ölkə öz karbon izlərini azaltmaq və daha təmiz enerji mənbələrinə keçid öhdəliyi götürür. Məsələn, əgər bir ölkə günəş panellərinin ixracı tariflərini azaldırsa, o, potensial olaraq qlobal bazarın, xüsusən də bərpa olunan enerjiyə böyük sərmayə yatıran regionlarda daha böyük payı ələ keçirə bilər. Bu yanaşma ölkənin ixrac potensialını artırmaqla yanaşı, təmiz enerji texnologiyalarını daha əlçatan və sərfəli etməklə qlobal iqlim səylərini dəstəkləyir.

2. Davamlı İstehsalın Təşviqi. Gömrük tarifləri ölkə daxilində davamlı istehsal təcrübələrini təşviq etmək üçün də istifadə edilə bilər. Müəyyən ekoloji standartlara cavab verməyən malların idxalına yüksək tariflər tətbiq etməklə hökumətlər yerli istehsalçıları daha yaşıl istehsal üsullarını mənimsəməyə həvəsləndirə bilər. Bu, nəinki beynəlxalq bazarlarda yerli məhsulların rəqabət qabiliyyətini artırır, həm də COP-29-un ekoloji məqsədlərinə uyğundur. Məsələn, bir ölkə sərt ekoloji meyarlara cavab verən yerli istehsal polad üçün aşağı tariflər və ya vergi güzəştləri təklif edərkən, karbon tutumlu proseslərdən istifadə etməklə istehsal olunan poladın idxalına daha yüksək tariflər tətbiq edə bilər. Bu yanaşma yerli sənayeləri daha təmiz texnologiyalara və təcrübələrə sərmayə qoymağa təşviq edir və bununla da davamlılığı getdikcə daha çox prioritetləşdirən bazarlarda ixrac potensialını yaxşılaşdırır.

3. Proteksionizm və ticarətin liberallaşdırılmasının balanslaşdırılması. İxrac potensialını artırmaq üçün gömrük tariflərindən istifadənin problemlərindən biri proteksionizm və ticarətin liberallaşdırılması arasında düzgün balansı tapmaqdır. Tariflər yerli sənayeləri qoruya bilsə də, digər

ölkələrin ticarət mübahisələrinə və cavab tədbirlərinə səbəb ola bilər. Beynəlxalq əməkdaşlığın əsas olduğu COP-29 zamanı ölkələrin öz yerli sənayelərini qorumaq və azad ticarəti təşviq etmək arasında tarazlıq əldə etməsi vacibdir. Bu problemi həll etmək üçün ölkələr çevik və dəyişən qlobal şəraitə uyğunlaşa bilən tarif siyasətlərini qəbul etməyi nəzərdən keçirə bilərlər. Məsələn, onlar yerli sənayelərə daha yaşıl istehsal üsullarına keçmək üçün vaxt vermək üçün müəyyən mallara müvəqqəti tariflər tətbiq edə bilər və sənayelər daha rəqabətli olduqda bu tarifləri tədricən azaltmaq planı ilə. Bu cür yanaşma ölkələrə uzunmüddətli perspektivdə ticarətin liberallaşdırılmasını təşviq etməklə yanaşı, öz sənayelərini qorumağa imkan verir [2, s. 97].

Cədvəl 2.

COP-29 İqlim Məqsədləri ilə Strateji Uyğunluq

COP-29 Məqsədi	Gömrük Tarifi Strategiyası	Gözlənilən Nəticə
Davamlı Texnologiyaların Təşviqi	Bərpa olunan enerji texnologiyaları üzrə aşağı tariflər	İqlim üzrə fəaliyyət məqsədlərinə uyğun olaraq yaşıl texnologiya ixracının artımını asanlaşdırır.
Yaşıl İstehsal Təcrübələrinin təşviqi	Karbon tutumlu idxala tariflər və təmiz istehsal üçün stimullar	Qlobal iqlim hədəflərini dəstəkləyərək sənayeləri davamlı təcrübələri qəbul etməyə təşviq edir.
İnkişaf etməkdə olan ölkələrin dəstəklənməsi	İnkişaf etməkdə olan ölkələrdən yaşıl texnologiya idxalı üçün güzəştli tarif dərəcələri	İnkişaf etməkdə olan ölkələrin qlobal yaşıl bazarlarda iştirak etmək imkanlarını artırır.
Aşağı Karbonlu Malların Qlobal Ticarətinin Asanlaşdırılması	Karbon sərhədinə düzəlişlərin və ya oxşar tədbirlərin həyata keçirilməsi	Ədalətli rəqabəti təmin edir və aşağı karbonlu malların qlobal ticarətini təşviq edir.

Mənbə: İnternet resursları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Effektiv Gömrük Tarifi Strategiyalarının Qlobal Nümunələri

Avropa İttifaqı (Aİ) ticarət siyasətinin iqlim hədəfləri ilə inteqrasiyasında ön sıralarda olmuşdur. Aİ-nin karbon emissiyalarını azaltmaq və davamlı inkişafı təşviq etmək üçün tədbirləri özündə əks etdirən Yaşıl Sövdələşmə onun gömrük tarifi siyasətlərinə də təsir edib. Aİ yaşıl texnologiyaların idxalına daha aşağı tariflər tətbiq etdi və karbon tutumlu idxala tariflər tətbiq edəcək karbon sərhədinin tənzimlənməsi mexanizmini təklif etdi. Bu tədbirlər yaşıl texnologiyalara sərmayə qoyan Avropa sənayelərini qorumaq, eyni zamanda digər ölkələri daha davamlı təcrübələri qəbul etməyə təşviq etmək üçün nəzərdə tutulub [6, s.81].

Aİ-nin yanaşması ixrac potensialını artırmaq üçün gömrük tariflərindən istifadə etmək istəyən digər ölkələr üçün dəyərli dərslər verir. Tarif siyasətlərini ətraf mühitin mühafizəsi məqsədləri ilə uyğunlaşdırmaqla Aİ təkcə yerli sənayelərini dəstəkləmədi, həm də özünü yaşıl məhsullar üçün qlobal bazarda lider kimi yerləşdirdi.

Dünyanın ən böyük bərpa olunan enerji məhsulları ixracatçısı olan Çin, bu sektorda ixrac potensialını artırmaq üçün gömrük tariflərindən strateji istifadə edib. Çin hökuməti günəş panelləri, külək turbinləri və digər yaşıl texnologiyaların istehsalı və ixracı üçün bir sıra tarif endirimləri və subsidiyalar həyata keçirib. Bu tədbirlər Çin şirkətlərinə qlobal bərpa olunan enerji bazarında dominant oyunçular olmağa kömək etdi.

Çinin təcrübəsi gömrük tariflərinin ekoloji məqsədlərlə uyğunlaşdırılmasının potensial iqtisadi faydalarını nümayiş etdirir. Yaşıl texnologiya sektorunun böyüməsini dəstəkləməklə, Çin təkcə ixrac potensialını artırmaqla yanaşı, iqlim dəyişikliyi ilə mübarizə üçün qlobal səylərə də töhfə verib.

Hindistan proteksionizmin ticarətin liberallaşdırılması ilə balanslaşdırılmasının maraqlı nümunəsini təqdim edir. Hindistan hökuməti yerli sənayeləri qorumaq üçün müəyyən idxala yüksək tariflər tətbiq etsə də, yaşıl texnologiyalar və komponentlərin idxalına tarifləri də azaldıb. Bu yanaşma Hindistanın böyüyən bərpa olunan enerji sektorunu dəstəkləyərkən əsas sənaye sahələrini qorumaq üçün nəzərdə tutulub.

Hindistanın təcrübəsi tarif siyasətində çevikliyin vacibliyini vurğulayır. Dəyişən iqtisadi və ekoloji şəraiti əks etdirmək üçün tarifləri tənzimləməklə Hindistan yerli sənayelərini dəstəkləməklə yanaşı, həm də yaşıl texnologiyalar ticarətini təşviq edə bilir.

İxrac potensialını artırmaq üçün gömrük tariflərindən istifadə əhəmiyyətli imkanlar təqdim etsə də, həm də çətinliklərlə üzləşir. Əsas problemlərdən biri ticarət mübahisələri riskidir. Öz yerli sənayelərini qorumaq və ya yaşıl ixracı təşviq etmək üçün tarifləri tətbiq edən ölkələr ticarət tərəfdaşlarının cavab tədbirləri ilə üzləşə bilər. Bu, ticarət müharibələrinə gətirib çıxara bilər ki, bu da iqlim dəyişikliyini həll etmək üçün lazım olan qlobal əməkdaşlığa xələl gətirə bilər [8].

Digər problem istehlakçılara potensial təsirdir. Müəyyən idxal məhsulları üzrə yüksək tariflər istehlakçılar üçün qiymətlərin yüksəlməsinə səbəb ola bilər ki, bu da tariflərin tənzimlənməsinin ümumi iqtisadi faydalarını azalda bilər. Hökumətlər üçün tarif siyasətinin həm sənaye, həm də istehlakçılara potensial təsirlərini diqqətlə nəzərdən keçirməsi vacibdir.

Bu çətinliklərə baxmayaraq, gömrük tariflərinin tənzimlənməsinin təqdim etdiyi imkanlar əhəmiyyətlidir. Tarif siyasətlərini COP-29-un ətraf mühitin mühafizəsi məqsədlərinə uyğunlaşdırmaqla ölkələr nəinki ixrac potensiallarını artıra, həm də iqlim dəyişikliyi ilə mübarizə üçün qlobal səylərə töhfə verə bilərlər. Əsas məsələ yerli sənayeləri dəstəkləməklə və davamlı inkişafı təşviq etməklə yanaşı, dəyişən qlobal şəraitə cavab verə bilən çevik və adaptiv tarif siyasətini qəbul etməkdir.

Nəticə

Dünya daha dayanıqlı və ekoloji cəhətdən şüurlu gələcəyə doğru irəlilədikcə ticarət siyasətinin, xüsusilə də gömrük tariflərinin rolu getdikcə daha vacib olacaq. COP-29 ölkələr üçün ticarəti iqlim məqsədlərinə uyğunlaşdıran siyasətləri müzakirə etmək və həyata keçirmək üçün platforma təqdim edir. Gömrük tariflərini strateji olaraq tənzimləməklə ölkələr, xüsusilə yaşıl texnologiyalar üçün artan bazarda öz ixrac potensialını artıra bilərlər. Bununla belə, proteksionizm və ticarətin liberallaşdırılması arasında balans yaratmaq və tarif siyasətlərinin dəyişən qlobal şəraitə çevik uyğunlaşmasını təmin etmək vacibdir. Bununla ölkələr təkcə öz yerli sənayelərini dəstəkləmir, həm də iqlim dəyişikliyi ilə mübarizə üçün qlobal səylərə töhfə verə bilərlər.

ƏDƏBİYYAT

1. Bown, C. P., & Freund, C. L. (2020). The WTO and the Global Trade System. Princeton University Press.
2. Hufbauer, G. C., & Schott, J. J. (2019). Trade Policy and the WTO: An Overview. Peterson Institute for International Economics.
3. International Monetary Fund. (2022). Trade and tariffs: The impact on global economies. IMF. Retrieved from
4. https://www.imf.org/en/Publications/WP/Issues/2022/06/01/Trade-and-Tariffs-The-Impact-on-Global-Economies-473491
5. Kehoe, T. J., & Ruhl, K. J. (2022). Customs Tariffs and Export Potential: Theory and Practice. Journal of International Economics, 134, 104-118.
6. doi:10.1016/j.jinteco.2022.104118
7. Lamy, P. (2021). Global Trade Policy: The Role of Customs Tariffs and Trade Agreements. Cambridge University Press.
8. Moran, T. H. (2021). Customs Tariff Policies and Their Impact on Export Dynamics. Oxford University Press.
9. United Nations Framework Convention on Climate Change. (2023). Conference of the Parties (COP) 29: Key outcomes and agreements. UNFCCC. Retrieved from https://unfccc.int/cop29
10. World Trade Organization. (2021). World Trade Report 2021: Economic resilience and trade. World Trade Organization. Retrieved from
11. https://www.wto.org/english/res_e/reser_e/wtr2021_e.htm

Мурват Сахиб Акбаров
Магистр, БГУ
murvet.99@gmail.com
Захра Иса Самадова
Кандидат наук, доцент, БГУ
zaxra.samedova@hotmail.com

Использование таможенно-тарифного регулирования для увеличения экспортного потенциала

Резюме

Цель исследования является изучение того, как стратегическая корректировка тарифов может повысить экспортный потенциал страны в соответствии с экологическими целями COP-29.

Методология работы включает мультидисциплинарный подход к сбору, анализу и интерпретации данных.

Прикладная значимость исследования заключается в предоставлении практических идей и политических рекомендаций по использованию корректировок тарифов для увеличения экспортного потенциала при одновременной поддержке глобальных климатических целей, установленных COP-29.

Результаты исследования показывают, что целевая корректировка тарифов может эффективно повысить экспортный потенциал за счет продвижения устойчивой торговой практики в соответствии с климатическими целями КС-29.

Оригинальность и научная новизна исследования заключается в его новом подходе к интеграции тарифного регулирования с глобальными климатическими целями, предлагающем уникальную основу для увеличения экспортного потенциала в соответствии с целями устойчивого развития COP-29.

Ключевые слова: экспортный потенциал, COP-29, таможенные тарифы.

Murvat Sahib Akbarov
Master, BSU
murvet.99@gmail.com
Zahra İsa Samadova
PhD, associate professor, BSU
zaxra.samedova@hotmail.com

Using customs tariff regulations to increase export potential

Summary

The purpose of the study is to examine how strategic tariff adjustment can increase the country's export potential in line with the environmental goals of COP-29.

The methodology of the work includes a multidisciplinary approach to data collection, analysis and interpretation.

The applied significance of the study is to provide actionable insights and policy recommendations for using tariff adjustments to increase export potential while supporting the global climate goals set by COP-29.

The results of the study show that targeted tariff adjustments can effectively increase export potential by promoting sustainable trade practices in line with COP-29 climate goals.

The originality and scientific novelty of the study lies in its novel approach to integrating tariff regulation with global climate goals, offering a unique framework for increasing export potential in line with COP-29 sustainability goals.

Key words: export potential, COP-29, customs tariffs

UOT 336.71; 657

Rauf Əflatun oğlu NURİYEV
doktorant, Bakı Biznes Universiteti
email: rauf.nuriyev.1997@mail.ru
https://doi.org/10.30546/4.71.73001.2025.001.062

KOMMERSİYA BANKLARINDA DAXİLİ AUDİTİN METODİKASININ TƏKMİLLƏŞDİRİLMƏSİ

Xülasə

Tədqiqatın məqsədi – banklarda daxili auditin metodikasının təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsi.

Tədqiqatın metodologiyası – sistemli yanaşma, təhlil və problemə dair müxtəlif mövqelərin ümumiləşdirilməsi.

Tədqiqatın tətbiqi əhəmiyyəti – ölkəmizin bank sistemində daxili auditin təşkili və inkişaf etdirilməsi istiqamətində istifadə oluna bilər.

Tədqiqatın nəticələri – ayrı-ayrı tədqiqat mənbələrində mövcud olan yanaşmaların təhlili və araşdırılması vasitəsilə problemin həllinə yeni münasibət formalaşdırılmış, tədqiqatın əsas istiqaməti üzrə yeni metodika müəyyənləşdirilmişdir.

Açar sözlər: daxili nəzarət, daxili nəzarətin formaları, audit, bank auditi, daxili nəzarətin metodları, daxili nəzarətin səmərəliliyi.

Giriş

Dünya təcrübəsi göstərir ki, bank sistemlərinin fəaliyyətinin əsas vəziyyətini xarakterizə edən göstəricilərin zəruri səviyyəsinin təmin edilməsi çoxsaylı amillərdən asılıdır. Həmin amillərdən biri də sistemdə daxili auditin düzgün təşkil olunmasından, onun səmərəli nəticələrə gətirib çıxaran parametrlərə malik olmasından ibarətdir.

Bank sistemlərinin fəaliyyət nəticələri göstərir ki, həm bütövlükdə sistemdə, həm də ayrı-ayrı banklarda onların fəaliyyət miqyaslarına və eləcə də spesifik xüsusiyyətlərinə cavab verən daxili nəzarət sisteminin mövcud olması müasir dövrün ən mühüm tələblərindən biridir. Bunu yaradan zərurət isə bank bazarında mövcud olan rəqabətin güclənməsindən, müştərilərlə münasibətdə daha etibarlı səviyyədə bank xidmətlərinə ehtiyac olmasından, likvidliyin yüksək səviyyədə olması tələbindən irəli gəlir.

Bank bazarının müasir inkişaf mərhələsində hər bir müştəri bank seçərkən diqqət ayırdığı mühüm məsələlər bankın etibarlılığı səviyyəsi, onun bazardakı mövqeyi və müştərilərlə qarşılıqlı münasibətlərin səviyyəsindən ibarətdir. Eyni zamanda bütövlükdə bank sisteminin, eləcə də ayrılıqda götürülmüş hər bir kredit təşkilatının yüksək səviyyədə təşkil olunması vacib şərt kimi mühüm rol oynayır.

Ayrı-ayrılıqda götürülmüş hər bir bankda və eləcə də bütövlükdə bank sistemində səmərəliliyin təmin edilməsi məqsədilə daxili nəzarətin audit vasitəsilə düzgün təşkili, idarə olunması bank menecmenti qarşısında duran ən mühüm məsələlərdən birinə çevrilmişdir. Bu prosesin uğurla həyata keçirilməsi üçün operativ qaydada əldə edilən və eləcə də dəqiq, etibarlı hesabat məlumatları xüsusi əhəmiyyət kəsb edir ki, bu da daxili audit vasitəsilə əldə olunur.

Bank auditi və onun əhəmiyyəti

Məlum olduğu kimi, bazaryönümlü iqtisadiyyat şəraitində bank bazarı infrastrukturunun ən zəruri və vacib elementlərindən biri də bank auditini həyata keçirən subyektlərdən ibarətdir. Auditor subyektləri digər nəzarət, tənzimləmə və yoxlama orqanları kimi ölkədə mövcud olan bank sisteminin normal fəaliyyət göstərməsi istiqamətində mühüm göstəricilərə nail olması üçün xüsusi fəaliyyətlə məşğuldurlar. Həmin göstəricilərə bank sisteminin likvidliyi, sistemin dayanıqlığının gücləndirilməsi, fəaliyyət istiqamətlərinin genişləndirilməsi, rəqabət qabiliyyətinin möhkəmləndi-

rilməsi, həmçinin sistemin beynəlxalq maliyyə kredit sisteminə inteqrasiyasının təmin edilməsi və s. aiddir.

Araşdırmalar göstərir ki, bank sistemi özünəməxsus xüsusiyyətlərinə görə iqtisadiyyatın digər struktur elementlərindən fərqlənir. Bu səbəbdən də bank auditi də digər sahələrin auditindən fərqlənir. Auditin bu sahəyə aid olan forması, yəni bank auditi bu sistemin struktur elementlərinin xüsusiyyətlərini özündə əks etdirir.

İstənilən ölkədə formalaşan bank auditinin əsas özünəməxsus xüsusiyyətləri onun yaranma tarixi ilə, şəraiti ilə, qanunvericilik bazasının səviyyəsi ilə, onun tətbiqi mexanizmi ilə, fəaliyyətini tənzimləyən qayda və prinsipləri ilə xarakterizə edilir. Həm iqtisadiyyat, həm də bank sistemi inkişaf etdikcə, onların idarə edilməsində operativliyə ehtiyac artdıqca idarəetmə üçün dəqiq məlumatların əldə olunması və onların əhəmiyyətinin yüksəlməsi audit yoxlama-nəzarət sisteminin zəruriliyini daha da artırır.

Aparılan təhlillər göstərir ki, bazar iqtisadiyyatı münasibəti şəraitində bir çox hallarda mülkiyyətçilərin maraqları ilə, onların tabeçiliyində fəaliyyət göstərən uçot-hesabat işlərinin maraqlarının üst-üstə düşməməsi audit xidmətlərinə ehtiyacın bir daha gücləndirilməsinə səbəb olmuşdur.

İqtisadi mənbələrə əsaslanaraq demək olar ki, yoxlanılan iqtisadi subyektin xarakterindən asılı olaraq auditin bir sıra növləri vardır. Bunlardan biri də bank auditidir. Bank auditi ölkədə mövcud olan kredit təşkilatlarının auditidir. Ölkəmizdə qüvvədə olan “Auditor xidməti haqqında Azərbaycan Respublikasının Qanunu”nun 2-ci maddəsinə əsasən audit əmtəə istehsalı və satışı, xidmət göstərilməsi və iş görülməsi ilə məşğul olan təsərrüfat subyektlərində mühasibat uçotunun dəqiq və dürüst aparılmasının, mühasibat və maliyyə hesabatlarının müstəqil yoxlanılmasıdır [1, mad.2].

Elə həmin qanunun 3-cü maddəsində deyilir ki, auditor xidməti təsərrüfat subyektlərində müqavilə əsasında maliyyə-təsərrüfat fəaliyyəti sahəsində yoxlama, ekspertiza, təhlil aparmaq və yazılı rəy vermək, mühasibat uçotu qurmaq, hesabat göstəricilərinin dürüstlüyünü təsdiq etmək və auditorun peşə fəaliyyətinə (auditor təşkilatının nizamnamə məqsədlərinə) uyğun olaraq maliyyə-təsərrüfat münasibətləri sahəsində digər xidmətlər göstərməkdən ibarətdir [1, mad.3].

Qeyd olunanları nəzərə alaraq demək olar ki, bankların auditi kredit təşkilatlarında mühasibat uçotunun aparılması qaydalarına riayət olunmasının, aktiv və passsivlərin formalaşmasının, onlardan istifadənin, eləcə də təsərrüfat maliyyə əməliyyatlarının ölkə qanunvericiliyinə uyğunluğunun, bankın fəaliyyətinin maliyyə hesabatında əks olunmasının tamlığının, bütövlüyünün və dürüstlüyünün yoxlanılmasının ekspertizası kimi dəyərləndirilir.

Məhz buradan da bank auditinin məqsədi aydın olur. Onun məqsədi kredit təşkilatlarında aparılan mühasibat uçotunun dürüstlüyünün, doğruluğunun müəyyən edilməsi və bu təşkilatların apardığı maliyyə və təsərrüfat əməliyyatlarının ölkədə mövcud olan normativ aktlara uyğunlaşdırılmasıdır.

Bank auditinin əhəmiyyəti onun yerinə yetirdiyi funksiyalar əsasında müəyyən olunur. Bu funksiyalar arasında kredit təşkilatının maliyyə və təsərrüfat fəaliyyətinin təhlili, aktiv və passivlərin formalaşması və strukturunun araşdırılması, aktiv əməliyyatların qiymətləndirilməsi, vəsaitlərin effektiv idarə olunmasının təhlili, likvidlik, ödəmə qabiliyyəti və kredit qabiliyyətinin analiz edilməsi mühüm yer tutur. Həmçinin, maliyyə nəticələrinin proqnozlaşdırılması, təşkilatın maliyyə fəaliyyətinin səmərəliliyinin artırılması, dayanıqlıq və likvidliyin yüksəldilməsi üzrə tövsiyələrin hazırlanması, mühasibat uçotunun düzgün qurulması və təkmilləşdirilməsi, işçi heyətinin peşəkarlıq səviyyəsinin artırılması, eləcə də maliyyə, vergi və bank qanunvericiliyinə dair məsləhətlərin təqdim edilməsi bu vəzifələrə daxildir.

Bu vəzifələrin yerinə yetirilməsi bütün kredit təşkilatlarının normal fəaliyyət göstərməsini, onların hər birinin, eləcə də bank sisteminin bütövlükdə ölkədə ümumi pul, kredit, depozit, investisiya və s. siyasətlərin aparılmasını təmin edir. Bu isə öz növbəsində bank auditinin əhəmiyyətini və getdikcə onun artan rolunu göstərir.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq, bank auditinin əsas xüsusi əlamətlərini qeyd etmək mümkündür.

1. Bank auditinin mahiyyəti

Bank auditi, kommersiya banklarının maliyyə və əməliyyat fəaliyyətlərinin qanunvericiliyə, beynəlxalq standartlara və daxili qaydalara uyğunluğunu yoxlamaq məqsədini daşıyan müstəqil nəzarət formasıdır. Bu audit prosesi, bankın maliyyə hesabatlarının dəqiqliyini, aktiv və passivlərin idarəedilmə mexanizmlərini, risklərin idarə olunmasını və ümumilikdə bank idarəetməsinin keyfiyyətini qiymətləndirir. Bank auditi həm daxili, həm də xarici nəzarət prosesləri vasitəsilə həyata keçirilir və hər bir kommersiya bankında səmərəli idarəetmənin ayrılmaz hissəsi hesab olunur.

2. Bank auditinin əhəmiyyəti

Bank auditinin əsas əhəmiyyəti bankların maliyyə dayanıqlığını və etibarlılığını təmin etməkdir. Maliyyə və əməliyyatların şəffaf şəkildə aparılması, potensial risklərin erkən aşkarlanması və müştərilərin əmanətlərinin təhlükəsizliyinin qorunması bank auditinin ən vacib məqsədlərindəndir. Bundan əlavə, audit nəticələri, bankın səhmdarlarına və tənzimləyici qurumlara etibarlı məlumatların təqdim edilməsini təmin edir. Beləliklə, bank auditi həm bankın daxili strukturunun təkmilləşdirilməsində, həm də müştəri etibarının yüksəldilməsində mühüm rol oynayır.

3. Bank auditinin iqtisadi sistemdə rolu

Bank auditi təkcə bankların deyil, bütövlükdə iqtisadi sistemin dayanıqlılığını təmin edən əsas vasitələrdən biridir. Bank sektorunda yaranan hər hansı maliyyə pozuntusu və ya riskli əməliyyatlar ümumi iqtisadi sabitliyə ciddi təsir göstərə bilər. Audit bu cür halların qarşısını almaq, həmçinin bankların iqtisadiyyata töhfəsini artırmaq üçün istifadə olunan əsas mexanizmdir. Beləliklə, bank auditi həm milli, həm də beynəlxalq səviyyədə maliyyə bazarlarının sağlamlığının qorunmasına mühüm töhfə verir.

Banklarda auditor yoxlamasının xüsusiyyətləri

Respublikamızda mövcud olan auditor fəaliyyətinə dair standartın tələblərinə əsasən bu yoxlamalar aşağıdakı mərhələlərdən keçir:

- ilkin planlaşma və auditin aparılması imkan və zərurətinin müəyyənləşdirilməsi;
- aparılacaq auditin ümumi planının və proqramının tərtib olunması;
- yoxlama prosesinin aparılması;
- aparılmış auditin nəticələrinə dair auditor rəyinin hazırlanması.

Birinci mərhələ ilə əlaqədar olaraq auditor yoxlamasının aparılma imkanları və zərurəti müəyyən edilir, yoxlamanın aparılmasının nə dərəcədə əsaslı olduğu araşdırılır. Aparılacaq auditin təşkilati məsələləri razılaşdırılır. Auditin aparılması üçün müxtəlif mənbələrdən istifadə edirlər. Bu mənbələrə audtin aparılacağı bankların qeydiyyat tarixi, onun nizamnaməsi, fəaliyyət istiqamətləri, bankın strukturu, bank bazarında yeri, kapitalın strukturu, rentabellik səviyyəsi, mənfəətin formalaşdırılması və bölüşdürülməsi qaydası, ödəmə sistemi, daxili nəzarət sistemi, mühasibat hesabatları və s. aiddir. Bu göstəricilərin təhlilinin aparılması əsasında auditor yoxlamasının aparılması əsasında qərar verilir.

İkinci mərhələ ilə əlaqədar olaraq əvvəlcə aparılacaq auditin ümumi planı tərtib olunur. Ümumi planda təşkilatın adı və digər rekvizitləri, auditin əhatə edəcəyi dövr, onun həyata keçirilmə vaxtı, başlama və qurtarma vaxtı, faktiki əmək məsrəfi, planlaşdırılan işlərin növləri, hər bir iş növləri üzrə auditin icra müddəti əks etdirilir. Bu məsələdə nəzərə alınmalı mühüm parametrlərdən biri də auditin və onun keyfiyyətinin idarə olunması məsələsidir. Auditorların peşə səviyyəsinin nəzərə alınması şərti ilə auditor qrupunun formalaşdırılması, hər bir auditorun peşəkarlıq səviyyəsi əsas götürülməklə auditdə planlaşdırılan işlərin növləri üzrə onlara ayrı-ayrı sahələrin yoxlanmasının verilməsi, onların hər birinin öz vəzifə və funksiyalarının düzgün və keyfiyyətlə yerinə yetirilmələri üzərində nəzarətin həyata keçirilməsi, işçi sənədlərin düzgün tərtib olunması üzərində nəzarət və eləcə də hər bir auditorun rəyinin nəzərə alınması auditin ümumi planına daxil olan məsələdir.

İkinci mərhələ ilə əlaqədar olan məsələlərdən biri də audit proqramının hazırlanmasıdır. Bu proqram özündə aparılacaq audit planını təcrübi olaraq reallaşdırmaq üçün zəruri olan bütün fəaliyyət prosedurlarını özündə birləşdirir. Öz mahiyyətinə görə bu sənəd auditi aparan qrup

üzvlərinin hər birinin fəaliyyət təlimatı rolunu oynayaraq, auditin keyfiyyəti üzərində nəzarət vasitəsi rolunu icra edir.

Əhatə etdiyi parametrləri nəzərə alaraq demək olar ki, audit proqramı aparılan yoxlamada auditorun yerinə yetirdiyi işlərin siyahısıdır. Yəni bu proqramda aparılacaq auditor yoxlamasında icra olunacaq prosedurların siyahısı əks etdirilir, hər bir auditorun mühasibat uçotunun hansı sahəsini və ya bölməsini yoxlaması və həmin bölmə üzrə proqramın hazırlanması göstərilir.

Audit prosesində proqramda dəyişiklik həyata keçirilə bilər. Belə hal mütləq ona əsaslar göstərilməklə sənədləşdirilməlidir. Bir qayda olaraq aparılan audit “Auditin planlaşdırılması” standartına uyğun olaraq tərtib olunur. Burada bölmələr üzrə audit prosedurlarının siyahısı, audit keçirilən dövr, auditorların iş sənədləri və s. əks etdirilir.

Auditor yoxlamasının üçüncü mərhələsi yoxlamanın aparılmasıdır. Mövcud qaydalara əsasən kredit təşkilatlarında auditin aparılmasının əsas obyekti həmin təşkilatın illik hesabatı və Mərkəzi Bank tərəfindən müəyyən edilən tələblərə uyğun mətbuatda dərc olunan hesabatdır. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında kredit təşkilatlarının auditi Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 16 sentyabr 2000-ci il tarixli 61/2 saylı qərarı ilə təsdiq olunmuş “Banklarda audit aparılmasına dair proqram” əsasında həyata keçirilir.

Qeyd edilən proqram Azərbaycan Respublikası Auditorlar Palatasının Auditor xidməti və onun metodiki təminat departamenti və auditin metodologiyası üzrə xüsusi komissiyası tərəfindən birgə beynəlxalq standartlara uyğun olaraq hazırlanmış və Mərkəzi Bankla razılaşdırılmışdır. Bu proqram 13 bölmədən ibarət olaraq bank fəaliyyətinin bütün sahələrini əhatə edir. Həmin bölmələr aşağıdakılardan ibarətdir:

1. Maliyyə hesabatları;
2. Müştərilərə verilmiş kreditlər;
3. Müştəri hesabları;
4. Nağd pul və banklarda yerləşdirilmış vəsaitlər;
5. Qiymətli kağızlar və investisiyalar;
6. Gözlənilməyən hallar üzrə öhdəliklər;
7. Əsas vəsaitlər;
8. Xarici valyuta;
9. Sair aktivlər;
10. Sair passivlər;
11. Kapital;
12. Banklardan alınan depozitlər;
13. Banklara verilən depozitlər.

Müəyyən edilmiş qaydalara əsasən qeyd edilən hər bir bölmə üzrə ayrıca audit yoxlaması aparılır.

Auditor yoxlamasının nəticələrinə dair rəy hazırlanır. Bu, prosesin son mərhələsidir. Auditor rəyi kredit təşkilatının mühasibat hesabatının müəyyən edilən yoxlama dövrü üçün vəziyyətini əks etdirən rəsmi sənəddir. Bu sənədin bütün aspekt və parametrləri ölkənin bank sistemində mövcud olan qanunvericiliyə və normativ aktlara uyğun tərtib edilir. “Auditor rəyləri” adlı standarta əsasən aparılan audit nəticəsində tərtib edilən auditor rəyi aşağıdakı bölmələrdən ibarət olur:

1. Giriş
2. Yoxlamanın məzmunu
3. Təqdim edilən hesabatlara dair auditor rəyi
4. Auditor rəyinin tarixi
5. Auditor rəyinin təqdim olunması

Müəyyən olunmuş qaydalara əsasən auditor rəyi üç hissədən ibarət olur: 1) giriş; 2) analitik (təhlil); 3) nəticə. Rəyin əsas hissəsi analitik hissədir. Bu hissə “Yoxlamanın məzmunu” bölməsindən ibarət olub, tələblərə görə özündə aşağıdakıları əks etdirməlidir: aparılan auditin əhatə etdiyi sahələr, yoxlanmış filialların sayı, yoxlanılan istiqamətlər üzrə kredit təşkilatının fəaliyyətində

aşkar edilmiş əsaslı kənarlaşmalar və çatışmazlıqlar, hesabatların əsasını təşkil edən təsdiqedici materialların yoxlanılması üsulu, hesabatların hazırlanmasında istifadə edilən uçotun metodologiyası, maliyyə hesabatlarının hazırlanmasında tətbiq edilən uçotun prinsipləri.

Müəyyən edilmiş qaydalara əsasən rəyin nəticə hissəsi kredit təşkilatının mühasibat balansı, mənfəət və zərərlər haqqında hesabat da daxil olmaqla, illik hesabatın dürüstlüyünün təsdiq olunması haqqında auditorun rəyini əks etdirir.

Araşdırmalar göstərir ki, kredit təşkilatlarında auditin aparılmasının ən zəruri məsələlərindən biri bank auditinin metodiki məsələləridir.

Bank auditinin metodiki əsasları

İqtisadi inkişafın müasir mərhələsində həm bank sistemləri, həm də ayrılıqda hər bir bank üçün ən vacib məsələlər likvidliyin qorunmasından, cari öhdəliklərin vaxtında icra edilməsindən, ödəmə qabiliyyətinin təmin edilməsindən, səmərəlilik səviyyəsinin yüksəldilməsindən və s. ibarətdir. Bu vəzifələrin yüksək səviyyədə yerinə yetirilməsində daxili auditin rolu əvəzsizdir. Bu səviyyənin əldə olunması üçün audit nə qədər əvəzsizdirsə, burada ən mühüm parametrlərdən biri də auditin metodikasıdır. Bu istiqamətdə ən mühüm rol bankda daxili nəzarətin səmərəliliyinin yüksəldilməsi tədbirlərinin həyata keçirilməsindən asılıdır.

Qeyd olunan istiqamətlərdə tədbirlər əsasən üç istiqamətdə aparılmalıdır: 1) normativ tənzimləmə istiqamətində; 2) nəzarət və təqdim olunan hesabatlar sferasında; 3) banklar üzərinə oqyulmuş funksiyalar istiqamətində. Hər üç istiqamətdə aparılmalı olan, həyata keçirilməli tədbirlər bankda daxili nəzarətin səmərəliliyinin yüksəldilməsinə xidmət etməklə yanaşı, bankın fəaliyyətinin əsas göstəricilərinin yüksəlməsini də təmin edirlər. Qeyd olunduğu kimi, birinci istiqamət normativ tənzimləmə istiqaməti adlanır. Bu istiqamətdə aparılan işlər daxili nəzarətin təşkili tələblərinə dəyişikliklərin əlavə olunmasından ibarət olmalıdır. Hər şeydən əvvəl təkcə bankın baş ofisində deyil, eləcə də onun filiallarında, şöbələrində, nümayəndəliklərində fəaliyyət göstərən daxili nəzarət xidməti əməkdaşlarının münasibətdə minimum tələbləri müəyyən edilməli, eləcə də bankın fəaliyyət istiqamətlərinə dair həyata keçirilən tematik yoxlamalar üzrə metodiki tövsiyələr hazırlanmalıdır.

Banklarda daxili nəzarətin səmərəliliyinin yüksəldilməsi tədbirləri içərisində ikinci istiqamət nəzarət və təqdim edilən hesabatlar sferasında olmalıdır. Bu sahədə birinci dərəcəli məsələ nəzarət orqanlarının nəzarət funksiyalarına aid parametrlərin müəyyən olunmasıdır: 1) nəzarət orqanları arasında səlahiyyətlərin dəqiq sərhədlərinin müəyyən edilməsi; 2) nəzarətedici orqanlar arasında məlumat mübadiləsinin keyfiyyətinin yüksəldilməsi. İkinci istiqamətdə həlli vacib olan məsələlər daxili nəzarətin vəziyyətini əks etdirən arayışa əlavə məlumatların daxil olunması ilə bağlıdır. Həmin məlumatlar aşağıdakılardan ibarətdir:

1. Daxil olunmuş şikayətlərin sayı haqqında məlumat;
2. Həmin şikayətlər fəaliyyət istiqamətləri üzrə ayrılmış formada əks etdirilməlidir;
3. Daxil olmuş şikayətlərə baxılması nəticələri üzrə qəbul olunmuş qərarlar haqqında məlumat;
4. Baş vermiş bank risklərinin ölçüləri barədə məlumat. Kredit olaraq hüquqi, kredit əməliyyat, faiz, reputasiya riskləri barədə geniş və dəqiq məlumatlar;
5. Baş vermiş risklərin təkrar olunmaması üçün götürülmüş ölçülər, həyata keçirilmiş tədbirlər haqqında məlumat [4].

Banklarda daxili nəzarətin səmərəliliyinin yüksəldilməsi tədbirləri içərisində üçüncü istiqamət banklar üzərinə qoyulmuş funksiyalarla bağlıdır. Bu istiqamətdə daxili nəzarətin həll edə biləcəyi iki mühüm məsələ vardır. Birincisi banklara xas olmayan funksiyaların onların üzərindən götürülməsi, ikincisi isə bankların üzərinə qoyulmuş dövlət funksiyalarının optimallaşdırılması.

2014-2015-ci illərdə ölkəmizin iqtisadiyyatında baş vermiş böhran göstərdi ki, bank sektorunun fəaliyyətinin makroiqtisadi göstəricilərinin səviyyəsi birbaşa ölkənin siyasi və iqtisadi həyatında baş verən dəyişikliklərin təsiri altında yerləşir. Həmin dövrdə bank sistemində dollarlaşma səviyyəsinin yüksəlməsi (həm depozit, həm də kredit əməliyyatlarında), müxtəlif xarakterli risklərin, xüsusən də əməliyyat və reputasiya risklərinin baş verməsi həmin dövrdə banklarda daxili və xarici

nəzarət sisteminin həyat qabiliyyətli olmadığını göstərdi. Məhz bu səbəbdən də bank sistemində baş vermiş kataklizmlər sistemin əsas fəaliyyət göstəricilərinin səviyyəsinin aşağı düşməsinə səbəb olmuşdur. Dollarlaşma kredit portfelində 27%-dən 50%-ə, depozit portfelində isə 51%-dən 80%-ə yüksəlmiş, sistemdə məcmu kredit qoyuluşlarının məbləği 20 mlrd. manatdan 12 mlrd. manata enmişdir.

Baş vermiş böhranın nəticələrinin bank sistemində yaratdığı mənfi meyillərin aradan qaldırılması üçün dövlət tərəfindən makrosəviyyədə qərarlar qəbul olunması ilə yanaşı Mərkəzi Bank tərəfindən təqdim olunan banklarda daxili nəzarət sisteminin auditi sistemi də xüsusi rol oynamışdır.

Müasir iqtisadi ədəbiyyatlarda banklarda daxili auditin metodikasının təkmilləşdirilməsinə dair rast gəlinən ən mühüm məsələlərdən biri də daxili nəzarətin forma və metodları üzrə təsnifləşdirilməsinin aparılmasıdır. Bu məsələyə dair müxtəlif yanaşmalar mövcuddur. Həmin yanaşmalar bir iqtisadi subyekt olaraq həm bankların, həm də bank sisteminin mahiyyətindən irəli gələn parametrləri özündə əks etdirərək daxili nəzarətin mahiyyətini əhatə edir. Araşdırılan məsələnin, yəni banklarda daxili nəzarətin mahiyyətinin vahid olmasına baxmayaraq onun forma və metodlarına yanaşmada çoxsaylı mövqelərə rast gəlinir [9, s. 91; 10, s.63].

Bank sistemlərinin fəaliyyət təcrübəsi göstərir ki, bəzən daxili nəzarətin təşkilinə dair qəbul olunmuş qərarlar qabaqlayıcı xarakter daşıyır, bu səbəbdən də onlara yanaşmada da müxtəlif mövqelərə rast gəlinir. Mövcud yanaşmaları nəzərə alaraq daxili nəzarətin forma və metodlarının aşağıdakı kimi təsnifləşdirilməsini təklif edirik:

Daxili nəzarətin formaları aşağıdakı əlamətlər üzrə təsnifləşdirilsin: 1) həll edilən vəzifələrin spesifikasından asılı olaraq; 2) nəzarət fəaliyyətinin icra olunması vaxtından asılı olaraq; 3) məlumatların mənbələrindən asılı olaraq; 4) həyata keçirilən nəzarətin davamlığından asılı olaraq [8, s.42].

Daxili nəzarət aşağıdakı metodlar vasitəsi ilə həyata keçirilsin: 1) qaydalara riayət olunmasının yoxlanması; 2) personalın şifahi və ya yazılı sorğusu; 3)avtomatlaşdırılmış (proqramlaşdırılmış) nəzarət; 4) müşahidə; 5) xidməti araşdırma.

Banklarda tətbiqi təklif edilən daxili nəzarətin forma və metodları özünəməxsus parametrləri ilə fərqlənərək bütün kredit təşkilatlarında tətbiq üçün yararlı olaraq rasional audit mühitinin yaranması hər bir bankın xarakterik xüsusiyyətlərinə cavab verərək prosesdə qarşıda duran vəzifələrin yerinə yetirilməsini reallaşdıra bilər.

Nəticə

Bankların və bank sistemlərinin mövcud olduğu bütün ölkələrdə bank fəaliyyətinin səmərəli nəticələrə nail olması ən vacib məsələ kimi qarşıda durur. Yüksək nəticələrə nail olunması isə bank sisteminin və eləcə də bankların fəaliyyətinə təsir edən çoxsaylı amillərin təsiri altında formalaşır. Bu amillər içərisində banklarda daxili auditin rolu yüksəkdir. Daxili nəzarətin tətbiq olunan forma və metodları ayrı-ayrılıqda mühüm müsbət meyillər yaradaraq qarşıda duran vəzifələrin uğurla yerinə yetirilməsini şərtləndirirlər.

Banklarda tətbiqi təklif edilən metodologiyanın istifadə olunması həyata keçirilən əməliyyatlara və onun nəticələrinə dərhal reaksiya verilməsinə, mənfi meyillərin vaxtında aşkar olunmasına, onları yaradan səbəblərin aradan qaldırılmasına uyğun şərait yaradır. Belə vəziyyət baş vermiş olan bank risklərinin ayrı-ayrı detallarının müəyyən edilməsini, personalın hər birinin hüquq və vəzifələrinin sərhədlərinin daha da dəqiqləşdirilməsini, aparılan bank əməliyyatlarının hər biri üzrə səlahiyyətlərin bölgüsünün müəyyən edilməsini, əməliyyatlara dair düzgün hesabatların verilməsini, hesablılığın keyfiyyətcə yeni mərhələyə qaldırılmasını şərtləndirir.

Daxili nəzarət sisteminin təkmilləşdirilməsinə elmi yanaşmanın tətbiq olunması bütövlükdə bank sisteminin, eləcə də ayrı-ayrı bankların dayanıqlığının yüksəlməsini, likvidliyinin zəruri səviyyədə olmasını, bankın aktiv və kapitalının rentabellik səviyyəsinin yüksəldilməsini, sistemdə rəqabətqabiliyyətliyin güclənməsini, risklərin minimallaşdırılmasını və s. təmin edəcəkdir.

ƏDƏBİYYAT

1. “Auditor Xidməti haqqında” Azərbaycan Respublikasının Qanunu. 1994-cü il.
2. “Bank fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu. 2004-cü il.
3. “Banklarda korporativ idarəetmə standartları”. Azərbaycan Respublikasının Mərkəzi Bankı, 1999-cu il.
4. “Daxili Audit Standartları”. Azərbaycan Respublikasının Mərkəzi Bankı
5. “Banklarda daxili nəzarət və daxili auditin təşkili barədə qaydalar”. Azərbaycan Respublikasının Mərkəzi Bankı. 1999-cu il.
6. Abbasov İ.M. “Audit” Dərslik. Bakı. 2007-ci il. səh 490.
7. Масловских П.С. Проверка и оценка операционного риска в коммерческом банке. /Актуальные вопросы бухгалтерского учета, налогообложения и анализа в современных условиях управление: сборник статей. Тюм.ГАСУ-М. Нефть и газ. 2018. Стр 170 (спец выпуск) – стр 87-92.
8. Масловских П.С. Внутренний контроль над состоянием операций в коммерческом банке. /РЖ Нефть, газ и бизнес /РГУ Нефти и газа имени И.М. Губкина – М.5 2019. Стр 41-45.
9. Головина Л.А., Поваляева О.В., Масловских П.С. Мировые банковские кризисы и методы их определения /Актуальные вопросы бухгалтерского учета, налогообложения и анализа современных и анализа современных условиях управления: сборник статей (Часть II) Тюм. ГАСУ. – М.:Нефть и газ. 2018. Стр 209 с – 89-98.
10. Головнина Л.А., Масловских П.С., Солтыкова О.С. Внутренный контроль и мониторинг в коммерческом банке /Монография – М.:МГИУ, 2019, 84 стр.
11. Novruzov V.T. “Azərbaycanda audit sisteminin islahat konsepsiyası” Maliyyə və uçot jurnalı – N3 – 4, 2000.
12. Дубков С.В. Международные стандарты банковского надзора /Банковский вестник/. Липень, 2022, 320 стр.

Рауф Афлатун оглы Нуриев,
докторант,
Бакинский Университет Бизнеса
email: rauf.nuriyev.1997@mail.ru

Совершенствование методики внутреннего аудита в коммерческих банках

Резюме

Цель исследования состоит в определении направлений совершенствования методики внутреннего аудита в банках.

Методология исследования – системный подход, анализ и обобщение различных точек зрения по данной проблеме.

Практическая значимость исследования – данное исследование может быть использовано для организации и развития внутреннего аудита в банковской системе нашей страны.

Результаты исследования – посредством анализа и изучения существующих подходов в различных источниках сформирован новый взгляд на решение проблемы, а также определена новая методика по основному направлению исследования.

Ключевые слова: внутренний контроль, формы внутреннего контроля, аудит, банковский аудит, методы внутреннего контроля, эффективность внутреннего контроля.

Rauf Aflatun Nuriyev
Ph.D Student, Baku Business University
email: rauf.nuriyev.1997@mail.ru

Improvement of internal audit methodology in commercial banks

Summary

The purpose of the research is to identify directions for improving the methodology of internal audit in banks.

The methodology of the research - a systematic approach, analysis, and synthesis of various perspectives on the problem were applied.

The practical importance of the research - this research can be used for organizing and developing internal audit in the banking system of our country.

The results of the research - through the analysis and examination of existing approaches in various sources, a new perspective on solving the problem has been formed, and a new methodology for the main research direction has been identified.

Key words: internal control, forms of internal control, audit, banking audit, methods of internal control, internal control efficiency.

UOT. 336

Türkan Azər qızı AZƏRİ
Odlar Yurdu Universiteti, bakalavr
e-poçt: turkanazeri936@gmail.com
Elmi rəhbər: i.f.d., dos. Xalıqova Nərgiz Şamil qızı
https://doi.org/10.30546/4.71.73001.2025.001.070

MÜHASİBATLIQ TƏLİMATLARI: SƏNƏDLƏŞMƏLƏR VƏ AUDİTORİYA STANDARTLARI

Xülasə

Tədqiqatın məqsədi - Mühasibat uçotunda mühasibatlıq təlimatlarının əsas aspektlərini müəyyənləşdirmək, sənədləşmə və standartların əhəmiyyətinin tədqiqi və ümumiləşdirilməsidir.

Tədqiqatın metodologiyası - Tədqiqat işində müqayisəli təhlil, nəzəri materialların ümumiləşdirilməsi, sistemli yanaşma və analiz metodlarından istifadə edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti - Aparılmış tədqiqatın nəticələri, müəyyənləşdirilmiş fikirlər mühasibat uçotunun nəzəriyyəsi, auditlərin gələcək fəaliyyətinin inkişafı üçün nəzərə alınıb, istifadə oluna bilər.

Tədqiqatın nəticələri - Sənədləşmələr və informasiya üzrə auditoriya standartlarına bələd olmaq, mühasibatlıqla bağlı təlimatları dərindən bilmək, bunları praktikada tətbiq edə bilmək bu sahə üzrə auditlərin işlərini doğru, şəffaf və sistemli şəkildə aparmalarını təmin edə bilər. Bundan əlavə, tədqiqat zamanı verilən tövsiyələr və fikirlər mühasibat uçotunda aparılan işlərin şəffaflığı, hesabatlılığı və məlumatlı qərar qəbulunu dəstəkləyən etibarlı maliyyə bazasının yaradılmasında əhəmiyyətli rol oynaya bilər.

Tədqiqatın orijinallığı və elmi yeniliyi - Həm beynəlxalq sferada, həm də ölkəmizdə mühasibatlıq üzrə əsas aspektlər araşdırılmış və sistemləşdirilmiş formada təqdim edilərək öyrənilmişdir.

Açar sözlər: mühasibat uçotu, GAAP, İFRS, təlimatlar, sənədləşmə, standartlar.

Giriş

Mürəkkəb iqtisadi dünyada dəqiq maliyyə hesabatı hər şeydən üstündür. O, məlumatlı qərarların qəbulu, normativlərə uyğunluq və ümumi şəffaflıq üçün əsas rol oynayır. Bu sahədə mühasibat uçotu qaydaları mühüm rol oynayır və maliyyə məlumatlarının uçotu, hesabatı və auditi üçün çərçivə təmin edir. Mühasibat uçotu təlimatlarının iki əsas komponenti sənədlər və auditoriya standartlarıdır.

Mühasibatlıq təlimatları, sənədləşmələr və auditoriya standartları iş dünyasında maliyyə hesabatlarının doğruluğu, dəqiqliyi və dəstəklənməsi üçün əsaslı struktur hesab olunur. Bu standartlar və təlimatlar müəssisələrin maliyyə məlumatlarını qeyd etmək, hazırlamaq və nəzarət etmək üçün təyin edilmiş yolları sistemləşdirir. Hesabat və audit prosedurları arasındakı əlaqələr şirkətlərin maliyyə işləri üzərində müvafiq nəzarəti və təhlükəsizliyi təmin etmələrinə kömək edir. [6, s.360]

Mühasibatlıq təlimatları maliyyə hesabatlarının standart formalarını, dəstəkləyici sənədləri və hesabat prosedurlarını təyin edir. Bu standartlar maliyyə məlumatlarının bərpasından, işə götürülməsindən və maliyyə məlumatlarının birləşdirilməsindən məsuliyyət daşıyanlar üçün bir çərçivə təşkil edir. Əsasən, bunlar maliyyə hesabatlarının etibarlı və standart olaraq qeyd edilməsinə kömək edir.

Sənədləşmələr mühasibat işlərində istifadə olunan sənədlərin hazırlanması və saxlanılması prosesini təyin edir. Bu özü də, hesabatların doğruluğunu təmin etməyə kömək edir və maliyyə məlumatlarının işlənməsində təhlükəsizlik və effektivliyi artırır. [9, s.78]

Audit standartları isə auditorların maliyyə məlumatlarının doğruluğunu, dəqiqliyini və düzgün təmsilini təmin etmək üçün nəzarət proseslərini təyin edir. Bu standartlar auditorların maliyyə hesabatlarını müzakirə edir və auditoriya tərəfindən icra olunan audit proseslərini təyin edir.

Bu üç sahə bir-birinə toxunur və maliyyə məlumatlarının doğruluğu və dəqiqliyi üçün müşayiət təmin edir. Mühasibatlıq təlimatları və sənədləşmələr maliyyə məlumatlarının hazırlanması və işlənməsində standartları təyin edir, auditoriya standartları isə maliyyə hesabatlarının nəzarət proseslərini nəzərdə tutur. Bu standartlar və təlimatlar şirkətlərin maliyyə məlumatları ilə bağlı dəqiqliyi və məsuliyyəti təmin etməkdə kömək edir. [12]

Mühasibatlıq təlimatları. Mühasibat uçotunda maliyyə məlumatlarının düzgün şəkildə təqdim olunmasını təmin edən xüsusi prinsiplər və təlimatlar mövcuddur. Bu prinsiplər təkcə maliyyə hesabatlarının hazırlanmasına rəhbərlik etmir, eləcə də istər daxili, istərsə də xarici auditoriyanın, təşkilatın maliyyə sağlamlığını və fəaliyyətini qiymətləndirdiyi standartların müəyyən edilməsində mühüm rol oynayır.

Mühasibat uçotu qaydaları təşkilat daxilində maliyyə əməliyyatlarının necə qeydə alınmalı, hesabat verilməli və təhlil edilməli olduğuna dair plan kimi xidmət edir. Bu təlimatlar dəqiq maliyyə qeydlərinin aparılması, qərarların qəbul edilməsini asanlaşdırmaq və tənzimləyici standartlara uyğunluğu təmin etmək üçün vacibdir. Gəlin mühasibat uçotu üzrə təlimatların əhəmiyyətini və əsas aspektlərini daha dərindən araşdıraq. [2; 5]

Bu təlimatlardan birincisi standartlaşdırma və ardıcıllıqdır. Mühasibat uçotu qaydaları maliyyə əməliyyatlarının uçotu üçün standartlaşdırılmış çərçivə təmin edir. Bu təlimatlarda qeyd olunan ardıcıl təcrübələrə riayət etməklə təşkilatlar maliyyə hesabatları proseslərində vahidliyi təmin edə bilirlər. Bu ardıcıllıq təşkilatın maliyyə fəaliyyətini qiymətləndirmək üçün maliyyə hesabatlarına etibar edən investorlar və tənzimləyici orqanlar kimi maraqlı tərəflər üçün çox vacibdir.

Bir çox yurisdiksiyalarda mühasibat uçotu qaydaları qanuni tələblərə və sənaye standartlarına uyğunluğunu təmin etmək üçün tənzimləyici orqanlar tərəfindən müəyyən edilir. Məsələn, ABŞ-da Maliyyə Uçotu Standartları Şurası (FASB) Ümumi Qəbul Edilmiş Mühasibat Uçotu Prinsiplərini (GAAP) müəyyən edir, Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (IASB) isə qlobal miqyasda Beynəlxalq Maliyyə Hesabatları Standartlarını (IFRS) dərc edir. Bu qaydalara riayət etmək təşkilatlara cəzalardan, məhkəmə çəkişmələrindən və uyğunsuzluq nəticəsində nüfuza zərər vurmaqdan qaçmağa kömək edir. [8, s.145]

Ümumi Qəbul Edilmiş Mühasibat Prinsipləri (GAAP) şirkətlərin Birləşmiş Ştatlarda maliyyə hesabatlarını tərtib etmək üçün istifadə etdikləri standartlaşdırılmış mühasibat uçotu prinsipləri, standartları və prosedurları toplusuna istinad edir. GAAP müxtəlif təşkilatlar və sənayelər üzrə maliyyə hesabatlarında ardıcıllıq, müqayisəlilik və şəffaflığı təmin edərək, maliyyə hesabatlarının necə aparılacağına dair çərçivə təqdim edir.

GAAP-ın əsas xüsusiyyətləri bunlardır:

Uyğunluq: Maliyyə məlumatları istifadəçilərin qərar qəbuletmə ehtiyaclarına uyğun olmalıdır. Bu o deməkdir ki, o, vaxtında, proqnozlaşdırıcı və təsdiqedici olmalıdır.

Etibarlılıq: Maliyyə məlumatları etibarlı olmalıdır, yəni yoxlanıla bilən, neytral və ya əhəmiyyətli səhvlər burada olmamalıdır. İstifadəçilər təqdim olunan məlumatların düzgünlüyündən və tamlığından əmin ola bilməlidirlər.

Ardıcıllıq: Mühasibat uçotu metodları və prinsipləri bir dövrdən digərinə və müxtəlif müəssisələr arasında ardıcıl şəkildə tətbiq edilməlidir. Ardıcıllıq istifadəçilərə maliyyə məlumatlarını zamanla və şirkətlər arasında müqayisə etməyə imkan verir.

Müqayisəlilik: Maliyyə məlumatları həm eyni müəssisə daxilində müxtəlif dövrlərdə, həm də müxtəlif müəssisələr arasında müqayisə oluna bilən olmalıdır. Bu, istifadəçilərə mənalı müqayisələr aparmağa və trendləri təhlil etməyə imkan verir. [1; 10]

Əhəmiyyətlilik: Maliyyə məlumatları istifadəçilərin qərar qəbuletmə ehtiyaclarını nəzərə alacaq şəkildə təqdim edilməlidir. Əhəmiyyətlilik obyektin xarakterinə və ölçüsünə əsasən qiymətləndirilir və qeyri-əhəmiyyətli məlumatların ayrıca açıqlanmasına ehtiyac olmur.

Mühafizəkarlıq: Qeyri-müəyyənlik hallarında, GAAP maliyyə hesabatlarının şişirdilməməsini təmin etmək üçün konservativ təxminlərdən və yanaşmalardan istifadəni təşviq edir. Bu, maliyyə fəaliyyəti və vəziyyəti haqqında həddindən artıq optimist hesabatın qarşısını almağa kömək edir.

GAAP Birləşmiş Ştatlarda mühasibat uçotu standartlarının yaradılması üçün Qiymətli Kağızlar və Birja Komissiyası (SEC) tərəfindən tanınan müstəqil təşkilat olan Maliyyə Mühasibat Uçotu Standartları Şurası (FASB) tərəfindən işlənib hazırlanır və saxlanılır. GAAP maliyyə hesabatları üçün hərtərəfli çərçivə təqdim etsə də, qeyd etmək lazımdır ki, o, hər bir vəziyyət üçün uyğun olmaya bilər və şirkətlər maliyyə vəziyyəti və fəaliyyəti haqqında tam təsəvvür yaratmaq üçün GAAP-ı əlavə açıqlamalar və ya izahatlar ilə tamamlamalı ola bilər. [3; 9]

Maliyyə Hesabatlarının Beynəlxalq Standartları (İFRS): İFRS Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (IASB) tərəfindən hazırlanmış mühasibat uçotu standartları toplusudur. İFRS maliyyə hesabatlarının şəffaflığını, müqayisəliliyini və etibarlılığını artırmaq məqsədi ilə maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi üçün qlobal səviyyədə qəbul edilmiş çərçivə təqdim edir. O, dünyanın bir çox ölkələrində şirkətlər tərəfindən istifadə olunur, sərhədlər boyu maliyyə hesabatlarında ardıcıllıq və müqayisəliliyi təşviq edir. [3; 10]

İFRS dünyanın bir çox ölkələrində şirkətlər tərəfindən beynəlxalq sərhədlər boyu maliyyə hesabatlarında ardıcıllıq və müqayisəliliyi asanlaşdıraraq istifadə olunur. Bu, bir çox ölkədə fəaliyyət göstərən və ya sərmayə qoyan transmilli şirkətlər və investorlar üçün xüsusilə vacibdir.

İFRS prinsiplərə əsaslanır, yəni o, konkret əməliyyatlar və ya sənayelər üçün təfərrüatlı qaydalar deyil, maliyyə hesabatları üçün geniş prinsiplər və məqsədlər təmin edir. Bu, tətbiqdə daha çox çevikliyə imkan verir və standartların təfsirində və tətbiqində peşəkar mühakimə yürütməyi təşviq edir.

İFRS-ə uyğun olaraq hazırlanmış maliyyə hesabatları müəssisənin maliyyə vəziyyəti, fəaliyyəti və pul vəsaitlərinin hərəkəti haqqında doğru və ədalətli mənzərəni təqdim etməlidir. Bu, müvafiq uçot siyasəti və təxminlərin müvafiq açıqlamaları da daxil olmaqla, şəffaf və qərəzsiz məlumatların təqdim edilməsini tələb edir.

Ardıcıllıq və müqayisəlilik İFRS-in işləməsində əsas prinsiplərdəndir. İFRS müxtəlif müəssisələr və sənayelər üzrə ardıcıl şəkildə tətbiq olunan ümumi mühasibat uçotu standartlarını təmin etməklə maliyyə hesabatlarında ardıcıllığı və müqayisəliliyi təşviq etmək məqsədi daşıyır. Bu, istifadəçilərə şirkətlər arasında və zamanla maliyyə məlumatlarını mənalı müqayisə etməyə imkan verir.

İFRS əsasında hazırlanmış maliyyə məlumatları istifadəçilərin qərar qəbuletmə ehtiyaclarına uyğun olmalı və əməliyyatların və hadisələrin iqtisadi mahiyyətini etibarlı şəkildə təmsil etməlidir. Bunun üçün əhəmiyyətli, etibarlı və qərəzli və ya təhrif olunmayan məlumatların təqdim edilməsi tələb olunur. [8, s.130]

İFRS maliyyə hesabatlarının istifadəçilərinin müəssisənin maliyyə vəziyyətini, fəaliyyətini və risklərini anlamaq üçün lazım olan bütün müvafiq məlumatlara çıxışını təmin etmək üçün geniş açıqlama tələblərini ehtiva edir. Açıqlamalar maliyyə hesabatlarında təqdim olunan maddələr üçün əlavə kontekst və izahatlar təqdim edir.

IASB yaranan problemləri həll etmək, aydınlığı artırmaq və maliyyə hesabatlarının keyfiyyətini artırmaq üçün İFRS-ni davamlı olaraq nəzərdən keçirir və yeniləyir. İFRS-nin müvafiq olaraq qalmasını və istifadəçilərin ehtiyaclarına cavab verməsini təmin etmək üçün standartların müəyyən edilməsi prosesində maraqlı tərəflərin rəyi və daxilolmaları nəzərə alınır.

Yuxarıda göstərdiyim xüsusiyyətlər İFRS-nin əsas xüsusiyyətləri olub, onun qlobal miqyasda maliyyə hesabatlarında şəffaflığın, müqayisəliliyin və etimadın təşviqində mühüm rol oynamasında və bütün dünyada kapital bazarlarının səmərəliliyinə və bütövlüyünə töhfə verməsində rol oynayır. [10, s.209]

Daha sonra mühasibat uçotunda mühasibatlıq təlimatlarının daha biri gəlirlərin tanınmasıdır. Burada təlimatlar gəlirlərin tanınması, malların və ya xidmətlərin satışından əldə edilən gəlirin tanınması üçün təşkilatın maliyyə fəaliyyətini dəqiq əks etdirmək üçün vacibdir. Gəlirlərin tanınması prinsipləri, pul vəsaitlərinin nə vaxt alınmasından asılı olmayaraq, gəlirin əldə edildiyi və realizə edildiyi zaman tanınmasını təmin edir.

Gəlirlərin tanınmasının əsas istiqamətləri tanınma vaxtı (gəlir ümumiyyətlə əldə edildikdə və reallaşdırıldıqda və ya həyata keçirildikdə tanınmalıdır. Bu o deməkdir ki, satıcı əmtəə və ya xidmətlər üzərində nəzarəti müştəriyə verib, qiymət sabit və ya müəyyən edilə bilər və yığım

mümkünlüyü əsaslı şəkildə təmin olunmalıdır), icra öhdəlikləri (gəlirlərin tanınması müştərilərə mal və ya xidmətlərin ötürülməsi vədləri olan icra öhdəliklərinin müəyyən edilməsini və uçotunu əhatə edə bilər. Müqavilədə hər bir fərqli icra öhdəliyi ayrıca uçota alınmalıdır), gəlirin ölçülməsi (tanınmış gəlirin məbləği satıcının mal və ya xidmətlər müqabilində almağı gözlədiyi ödənişi əks etdirməlidir. Buraya nağd pul, debitor borcları və ya digər ödənişlər daxil ola bilər), əməliyyat qiymətinin bölüşdürülməsi (əgər müqavilə bir neçə icra öhdəliyini ehtiva edirsə, əməliyyat qiyməti hər bir öhdəliyə onun müstəqil satış qiymətinə əsasən bölüşdürülməlidir. Bu, gəlirin müştəriyə çatdırılan dəyərə mütənasib olaraq tanınmasını təmin edir) və müqavilə dəyişiklikləri (gəlirlərin tanınmasına icra öhdəliklərinin həcmi, qiymətində və ya vaxtında dəyişikliklər kimi müqavilə dəyişiklikləri təsir göstərə bilər. Şirkətlər dəyişikliklərin onların gəlirlərinin tanınmasına təsirini qiymətləndirməli və müvafiq düzəlişlər etməlidir)-dir. Bu istiqamətlər prinsiplərə əsaslanan rəhbərliyi təmin edir və şirkətlərdən prinsipləri öz xüsusi şəraitlərinə tətbiq edərkən mühakimə yürütməyi tələb edir. Səmərəli gəlirin tanınması təcrübələri investorlara, kreditorlara və digər maraqlı tərəflərə şirkətin maliyyə fəaliyyəti haqqında dəqiq və etibarlı məlumat vermək üçün vacibdir. [6, s.148]

Mühasibatlıq təlimatlarında gəlirlərin tanınmasından danışdıq, indi isə burada daha bir önəmli məqam xərclərin tanınmasıdır. Xərclər uyğunluq prinsipinə əsaslanaraq, gəlir əldə etmək üçün çəkildikləri dövrdə tanınmalıdır. Bu, xərclərin onların əldə etməyə kömək etdikləri gəlirlə dəqiq uyğunlaşdırılmasını təmin edir, nəticədə gəlirliliyin daha dəqiq təsviri olur.

Hesablama əsaslı mühasibat uçotu xərclərin tanınmasının əsas nüanslarından biridir. Xərclərin tanınması mühasibat uçotunun hesablama metoduna əsaslanır ki, bu da gəlir və xərcləri pul vəsaitlərinin nə vaxt qəbul edildiyi və ya ödənilməsindən asılı olmayaraq, onlar əldə edildikdə və ya yarandıqda tanıyır. Bu, gəlirləri və xərcləri yalnız nağd pul alındıqda və ya ödənildikdə tanıyan nağd pul əsaslı mühasibat uçotu ilə ziddiyyət təşkil edir.

Sistemli bölüşdürmə də xərclərin tanınmasının bir hissəsidir. Bəzi xərclər, xüsusən də uzunmüddətli aktivlər və ya xidmətlər üçün birdən-birə deyil, zamanla tanınır. Bu, aktivlərin amortizasiyası və ya əvvəlcədən ödənilmiş xərclərin amortizasiyası kimi təşkilata fayda təmin etdiyi dövrlər üzrə xərclərin sistematik şəkildə bölüşdürülməsini nəzərdə tutur.

Gəlirlərlə uyğunluq da burada əsasdır. Xərclər və gəlirlər arasında səbəb-nəticə əlaqəsini əks etdirən eyni hesabat dövründə əldə etməyə kömək edən gəlirlərlə uyğunlaşdırılmalıdır. Bu, maliyyə hesabatlarının təşkilatın gəlirliliyini və fəaliyyətini düzgün əks etdirməsini təmin edir. [5, s.80]

Xərclərin tanınması Birləşmiş Ştatlarda Ümumi Qəbul Edilmiş Mühasibat Uçotu Prinsipləri (GAAP) və qlobal miqyasda Beynəlxalq Maliyyə Hesabatı Standartları (İFRS) kimi mühasibat standartları ilə tənzimlənir. Bu standartlar xərclərin nə vaxt və necə tanınması ilə bağlı təlimat verir, lakin onlar həmçinin şirkətlərə mühakimə yürütməyə və öz spesifik şəraitlərinə prinsiplər tətbiq etməyə imkan verir. Xərclərin effektiv tanınması təcrübələri investorlara, kreditorlara və digər maraqlı tərəflərə şirkətin maliyyə göstəriciləri haqqında dəqiq və etibarlı məlumat vermək üçün vacibdir. [4, 13]

Təlimatlar balans hesabatında aktivlərin necə qiymətləndirilməsini, o cümlədən tarixi dəyər, ədalətli dəyər və daha aşağı dəyər və ya bazar dəyəri metodlarını diktə edir. Düzgün qiymətləndirmə aktivlərin təşkilata iqtisadi dəyərini əks etdirən məbləğlərdə təqdim olunmasını təmin edir, buna görə də aktivin qiymətləndirilməsi mühasibatlıq təlimatlarının əsas aspektlərindən biridir.

Aktivin qiymətləndirilməsindən əlavə öhdəliyin tanınması da mühasibatlıq təlimatlarına daxildir. Kreditlər, kreditor borcları və hesablanmış xərclər kimi öhdəliklər yarandıqda tanınmalıdır. Öhdəliyin düzgün tanınması təşkilatın maliyyə hesabatlarının onun maliyyə öhdəliklərini düzgün əks etdirməsini təmin edir.

Maliyyə hesabatının təqdimatı da təlimatlardan biridir. Təlimatlar aydınlıq və şəffaflığı təmin etmək üçün maliyyə hesabatlarının necə strukturlaşdırılmalı və təqdim edilməli olduğunu diktə edir. Buraya balans hesabatının formatı və məzmunu, mənfəət və zərər haqqında hesabat, pul vəsaitlərinin hərəkəti haqqında hesabat və maliyyə hesabatlarına qeydlər daxildir.

Beləliklə, mühasibat uçotu qaydaları biznes təcrübələrində, tənzimləyici tələblərdə və beynəlxalq standartlarda dəyişikliklərə cavab olaraq davamlı surətdə təkmilləşir. Bu qaydalara əməl etmək mühasibat uçotu mütəxəssisləri üçün uyğunluğu təmin etmək və dəqiq və etibarlı maliyyə məlumatlarını təmin etmək üçün vacibdir. [12, s.204]

Mühasibat uçotunda sənədləşmə

Sənədlər hər bir hadisə və ya fəaliyyətin maliyyə hesabatını verir və buna görə də əməliyyatların düzgünlüyünü və tamlığını təmin edir. Buraya xərclər, gəlirlər, ehtiyatlar, işçi heyəti və digər əməliyyat növləri daxildir. Müvafiq sənədlər baş verənləri sübut edir və uyğunsuzluqları araşdırmaq üçün məlumat verir.

Mühasibat uçotunda sənədləşmə maliyyə əməliyyatlarının və əlaqəli məlumatların sistematik qeydinə və saxlanmasına aiddir. O, düzgün maliyyə hesabatının, normativ tələblərə uyğunluğun və effektiv daxili nəzarətin əsası kimi xidmət edir. Dəqiq və etibarlı maliyyə uçotunun aparılması, tənzimləyici tələblərə uyğunluğun təmin edilməsi, auditin aparılmasına köməklik edilməsi və maliyyə əməliyyatlarının sübutlarının təmin edilməsi üçün müvafiq sənədlər vacibdir. Mühasibat uçotunda sənədləşmə, bir şirkətin maliyyə və hesablama proseslərində məlumatların doğru şəkildə qeyd olunması, təsvir edilməsi və saxlanması üçün əsaslı bir prosesdir. Bu sənədləşmə prosesi şirkətin finansal məlumatlarının düzgün idarə olunmasını və müəyyən standartlara uyğunluğunu təmin edir. Mühasibat uçotunda sənədləşmənin geniş bir şəkildə təsvirinə baxsaq, aşağıda göstərdiyim istiqamətləri nəzərə alıb, detallı öyrənə bilərik.

Mühasibat politikaları və prosedurları: Şirkət, mühasibat proseslərini idarə etmək üçün müəyyən mühasibat siyasətləri və prosedurları qeyd etməlidir. Bu siyasət və prosedurlar maliyyə məlumatlarının qeyd olunma, təsdiq olunma, təhlil olunma və hesabatların hazırlanması ilə bağlı təyin edilmiş qaydaları və prosedurları əhatə edir. [2; 12]

İş dəyərləndirmələri və istifadəçilər: Mühasibat sənədləri şirkətin iş dəyərləndirmələrini dəstəkləmək üçün istifadə olunur. Bu sənədlər maliyyə performansını izləmək, məlumatların analizini etmək və qərarlarını verərkən rəhbərlərə kömək edir.

Mühasibat nəzarəti: Sənədlər mühasibat nəzarəti tədbirlərinin həyata keçirilməsinə dəstək olur. Bu, maliyyə məlumatlarının doğruluğunu, əməliyyatların təhlili və risklərin idarə edilməsini təmin etməyə kömək edir.

Hesabatların hazırlanması: Mühasibat sənədləri maliyyə hesabatlarının hazırlanması üçün istifadə olunur. Bu sənədlər maliyyə məlumatlarının toplanması, qeyd olunması, təsdiqlənməsi və hesabatların hazırlanması üçün lazımi məlumatları təmin edir.

Auditlər və təhlil: Mühasibat sənədləri şirkətin auditləri üçün əsas təşkil edir. Auditlər maliyyə məlumatlarının doğruluğunu, əməliyyatların effektivliyini və qaydaların uyğunluğunu yoxlamaq üçün həyata keçirilir. Mühasibat sənədləri audit prosesini dəstəkləyən əsas mənbələrdir. [1, s. 428]

Qanuni tələblər və tənzimləmələr: Mühasibat sənədləri qanuni tələblərə və müvafiq tənzimləmələrə uyğun olmalıdır. Bu, maliyyə məlumatlarının hazırlanması və raportlaşdırılmasına dair qaydalara və tələblərə riayət etməni təmin edir.

Müqavilələr və daxili sənədlər: Şirkətin müqavilələri, anlaşmaları və daxili sənədləri də mühasibat sənədləri ilə əlaqəlidir. Bu sənədlər maliyyə məlumatlarının qeyd olunmasına və daxili nəzarət proseslərinin idarə olunmasına dəstək olur.

Yuxarıda mühasibat uçotunda sənədləşməni təhlil edib, detallı şəkildə izahını verdik. İndi isə mühasibat uçotunda sənədləşməni növlərinə görə ayırıb, onların nə üçün və harada istifadə olunduğunu detallı şəkildə göstərək: [2, s.306]

- Uçotun aparılması: Müvafiq sənədləşdirmə alışlar, satışlar, xərclər və gəlirlər daxil olmaqla, bütün maliyyə əməliyyatlarının vaxtında və dəqiq qeyd edilməsini nəzərdə tutur. Hər bir əməliyyat hesab-fakturalar, qəbzlər, bank çıxarışları və müqavilələr kimi müvafiq mənbə sənədləri ilə dəstəklənməlidir;

- Mənbə sənədləri: Mənbə sənədləri maliyyə əməliyyatlarının baş verməsi və etibarlılığını sübut edir. Onlar mühasibat uçotunda qeydlərin aparılması üçün əsas rolunu oynayır və maliyyə

məlumatlarının düzgünlüyünü və tamlığını təmin etməyə kömək edir. Ümumi mənbə sənədlərinə satış hesab-fakturaları, satınalma sifarişləri, çeklər və bank çıxarışları daxildir;

- Jurnal qeydləri: Əməliyyatlar mühasibat uçotu sistemində qeydə alındıqdan sonra onlar adətən jurnal qeydlərində ümumiləşdirilir. Jurnal qeydləri tarixi, məbləği, təsirə məruz qalan hesabları və hər bir əməliyyatın qısa təsvirini sənədləşdirir. Sonra bu qeydlər maliyyə hesabatlarının hazırlanması üçün əsas təşkil edən baş kitabda yerləşdirilir;

- Baş kitab: Baş kitab təşkilat üçün bütün mühasibat əməliyyatlarının mərkəzi deposudur. O, aktivlər, öhdəliklər, kapital, gəlirlər və xərclər üçün fərdi hesabları ehtiva edir. Baş kitabdakı sənədlər təşkilatın maliyyə fəaliyyətinin hərtərəfli qeydini təmin edir və bu, təhlil, hesabat və qərarların qəbulu üçün istifadə edilə bilər. [6, s.140];

- Daxili nəzarət: Sənədləşdirmə maliyyə hesabatları üzərində effektiv daxili nəzarətin yaradılması və saxlanması üçün vacibdir. Daxili nəzarət əməliyyatların düzgün təsdiqlənməsini, qeydə alınmasını və nəzərdən keçirilməsini təmin etməklə maliyyə hesabatlarında səhvlərin, saxtakarlığın və təhriflərin qarşısını almağa kömək edir. Nəzarət prosedurları və siyasətlərinin sənədləşdirilməsi işçilərin əməl etmələri üçün yol xəritəsini təmin edir və ardıcıllığı və hesabatlılığı təmin etməyə kömək edir;

- Audit trail: Sənədləşdirmə əməliyyatların başlanğıcından maliyyə hesabatlarına yekun daxil edilməsinə qədər izlənilməsinə imkan verən audit izi yaradır. Audit izi auditorlara və maraqlı tərəflərə əməliyyatların mühasibat uçotu prinsiplərinə və qaydalarına uyğun olaraq dəqiq qeyd edildiyinə və hesabat verildiyinə əminlik verir. [10];

- Uyğunluq və hesabatlar: Tənzimləyici tələblərə və maliyyə hesabatı standartlarına uyğunluq üçün müvafiq sənədlər vacibdir. O, təşkilatlara Ümumi Qəbul Edilmiş Mühasibat Uçotu Prinsipləri (GAAP) və ya Beynəlxalq Maliyyə Hesabatı Standartları (IFRS) kimi müvafiq mühasibat uçotu prinsiplərinə uyğun gələn dəqiq və etibarlı maliyyə hesabatları hazırlamağa imkan verir;

Mühasibat uçotunda sənədləşmə prosesi şirkətin maliyyə məlumatlarının doğru və etibarlı bir şəkildə idarə olunmasının əsasını təşkil edir. Yaxşı təşkil olunmuş və effektiv sənədləşmə prosesi şirkətin maliyyə proseslərini düzgün şəkildə idarə etməsinə, auditlərə hazır olmasına və qanuni tələblərə uyğunluğunu təmin etməsinə kömək edir. [1, s.410]

Mühasibatlıqda auditoriya standartları

Mühasibat uçotunda auditoriya standartları müxtəlif maraqlı tərəflərin xüsusi ehtiyaclarını və gözləntilərini ödəmək üçün maliyyə hesabatlarını uyğunlaşdırmaqla istifadə olunan prinsip və təcrübələrə istinad edir. Bu maraqlı tərəflərə investorlar, kreditorlar, tənzimləyicilər, rəhbərlik, işçiləri və maliyyə məlumatlarının digər istifadəçiləri daxildir. Auditoriya standartları müxtəlif istifadəçilərin müxtəlif məlumat ehtiyaclarına və üstünlüklərinə malik olduğunu qəbul edir və mühasibat hesabatlarının uyğunluğu, aydınlığı və faydalılığını təmin etmək üçün müvafiq olaraq fərdiləşdirilməlidir. [2, s.320]

Əsas auditoriya standartları ümumiyyətlə aşağıdakıları əhatə edir:

Ədalət və obyektivlik: Auditorlar işlərini ədalətli və obyektiv bir şəkildə yerinə yetirməlidirlər. Bu, müstəqil fikir vermək üçün məlumatları obyektiv və səmimi bir şəkildə qiymətləndirmələri deməkdir.

Müstəqil professional yetərlilik: Auditorlar auditoriya fəaliyyətləri üçün tələb olunan yüksək səviyyədə müstəqil və peşəkar bilik və təcrübəyə malik olmalıdırlar.

Ətraflı planlaşdırma və qiymətləndirmə: Auditorlar ətraflı planlaşdırma və qiymətləndirmə prosesləri tətbiq etməlidirlər ki, bu, audit tədqiqatının effektivliyini təmin edir.

Maliyyə məlumatlarının şəffaflığının yoxlanılması: Auditorlar, maliyyə hesabatlarındakı həqiqi və şəffaf referansını və məlumatların düzgünlüyünü yoxlamaqla məsuliyyət daşırlar.

Audit təhlükəsini anlama və idarəetmə: Auditorlar audit tədqiqatı əsasında təhlükələri müəyyənləşdirməli və idarə etməlidirlər ki, bu, auditoriya nəticələrini təsdiqləmək və onların doğruluğunu təmin etmək üçün vacibdir.

Audit nəticələrinin kommunikasiyası: Auditorlar audit tədqiqatının nəticələrini, tapıntılarını və

nəticələrini effektiv və açıq bir şəkildə məlumatların istifadəçilərinə kommunikasiya etməlidirlər.

Bu standartlar auditorlar tərəfindən qlobal auditoriya orqanizasiyaları tərəfindən tətbiq olunur və maliyyə auditorları üçün məsuliyyət daşıyan bir çox auditoriya təşkilatı tərəfindən müəyyən edilir. Vacib və əhəmiyyətli auditoriya standartlarının bir qrupu Auditoriya Standartları Şurası (Auditing Standards Board) və Dünya Mühasibat Federasiyası (IFAC) tərəfindən dünya səviyyəsində təmin edilir. Bu standartlar auditorların qlobal auditoriya standartlarına və qanuni tələblərə uyğunluğunu təmin edir. [4, 9]

Auditoriya standartlarına aşağıdakıları da misal göstərə bilərik. [1, s.450]

İnvestor mərkəzli hesabat, investor ehtiyacları: İnvestorlar adətən təşkilatın maliyyə fəaliyyətini, sabitliyini və inkişaf perspektivlərini qiymətləndirməyə kömək edən məlumat axtarırlar. Onlar gəlirlilik, likvidlik, ödəmə qabiliyyəti və potensial risklərlə maraqlanırlar.

Əsas metriklər: İnvestorlar üçün mühasibat hesabatları tez-tez səhm üzrə mənfəət (EPS), investisiya gəliri (ROI), pul vəsaitlərinin hərəkəti və borc-kapital nisbəti kimi maliyyə əmsalları kimi əsas maliyyə göstəricilərinə diqqət yetirir.

Gələcəkyönümlü məlumatlar: İnvestorlar həmçinin şirkətin gələcək perspektivlərini anlamaq üçün rəhbərliyin müzakirəsi və təhlili, proqnozlar və strateji planlar kimi gələcəyə hesablanmış məlumatları qiymətləndirə bilərlər.

Kreditor yönümlü hesabatlılıq, Kredit riskinin qiymətləndirilməsi: Kreditorlar, o cümlədən banklar və kreditorlar, ilk növbədə təşkilatın kredit qabiliyyəti və borclarını ödəmə qabiliyyəti ilə maraqlanırlar. Onlar likvidlik, müsbət nəticə əldə etmək üçün faydalanma və borc xidmətlərinin əhatə dairəsi kimi amillərə diqqət yetirirlər.

Borc müqavilələri: Kreditorlar üçün mühasibat uçotu hesabatlarına təşkilatın maliyyə sağlamlığına təsir edən borc müqavilələrinə, kredit müqavilələrinə və digər müqavilə öhdəliklərinə uyğunluq haqqında məlumatlar daxil ola bilər.

Girovun qiymətləndirilməsi: Kreditorlar həmçinin kreditlərin və ya kredit vasitələrinin təmin edilməsi üçün təşkilat tərəfindən girov qoyulmuş girov aktivlərinin dəyərini və keyfiyyətini qiymətləndirə bilərlər.

Hüquqi və tənzimləyici tələblər: Mühasibat hesabatları Amerika Birləşmiş Ştatlarında Qiymətli Kağızlar və Birja Komissiyası (SEC) və ya Birləşmiş Krallıqda Maliyyə Hesabatları Şurası (FRC) kimi tənzimləyici orqanlar tərəfindən müəyyən edilmiş müvafiq qanunlara, qaydalara və mühasibat uçotu standartlarına uyğun olmalıdır.

Şəffaflıq və açıqlamalar: Tənzimləyici standartlar maraqlı tərəflərin qərarların qəbulu və təhlili üçün dəqiq və etibarlı məlumatlara çıxışını təmin etməklə şəffaflığı və müvafiq maliyyə məlumatlarının tam açıqlanmasını vurğulayır.

Vaxta nəzarət və əlçatanlıq: Mühasibat hesabatları tənzimləyici sənədlərin təqdim edilməsi üçün son tarixlərə riayət etmək və maraqlı tərəflər üçün əlçatanlığı təmin etməklə vaxtında hazırlanmalı və yayılmalıdır. [4]

Rəhbərlik hesabatı və daxili qərarların qəbulu: İdarəetmə uçotu hesabatları təşkilat daxilində daxili qərar qəbuletmə proseslərini dəstəkləmək üçün vaxtında və müvafiq məlumat vermək üçün nəzərdə tutulmuşdur.

Büdcələr və proqnozlar: Rəhbərliyin hesabatlarına tez-tez büdcələr, proqnozlar, fərqlərin təhlili və əsas fəaliyyət göstəriciləri (KPI) daxildir ki, rəhbərlik performansa nəzarət etmək, resursları bölüşdürmək və strateji təşəbbüsləri qiymətləndirmək üçün kömək edir.

Əməliyyat anlayışları: Rəhbərlik hesabatları həmçinin əməliyyat səmərəliliyi, məsrəf strukturları, məhsulun gəlirliliyi və təşkilatın maliyyə göstəricilərinə təsir edən digər amillər haqqında məlumat verə bilər.

Kommunikasiyanın uyğunlaşdırılması və müxtəlif auditoriyalar üçün fərdiləşdirmə: Mühasibat hesabatları müvafiq dil, format və təfərrüat səviyyələrindən istifadə etməklə müxtəlif istifadəçi qruplarının xüsusi ehtiyaclarını ödəmək üçün tərtib edilməlidir.

Aydınlıq və konkretlik: Mühasibat hesabatları aydın, qısa və asan başadüşülən olmalıdır, əsas

mesajları gizlədə bilən texniki jarqon və ya mürəkkəb terminologiyadan qaçınmalıdır.

Vizual vasitələrdən istifadə: Diaqramlar, qrafiklər, cədvəllər və digər əyani vəsaitlər mühasibat hesabatlarının oxunaqlılığını və başa düşülməsini artıra bilər, mürəkkəb maliyyə məlumatlarını istifadəçilər üçün daha əlçatan edir.

Yekun olaraq, mühasibat uçotunda auditoriya standartları maraqlı tərəflərin müxtəlif ehtiyaclarını və üstünlüklərini tanıyır və maliyyə hesabatlarını bu ehtiyacları effektiv şəkildə ödəmək üçün fərdiləşdirməyi hədəfləyir. Müxtəlif istifadəçi qruplarının unikal tələblərini başa düşmək və ünsiyyət və şəffaflıq sahəsində ən yaxşı təcrübələrə riayət etməklə təşkilatlar mühasibat hesabatlarının məlumatlı, müvafiq və qərarların qəbulu və təhlili üçün dəyərli olmasını təmin edə bilərlər.

Nəticə

Yekun olaraq, mühasibatlıq təlimatları: sənədləşmələr və auditoriya standartlarına dair bu geniş məqalədə mühasibat uçotunda düzgün sənədləşdirmə və auditoriya standartlarının əsas aspektlərini və bunlara riayət edilməsinin vacibliyini vurğuladıq. Ümumiləşdirsək əgər, ilk olaraq mühasibat uçotu üzrə təlimatların tədqiqi maliyyə hesabatlarının və idarəetmənin əsasını təşkil edən prinsiplərin, standartların və təcrübələrin daha dərindən başa düşülməsinə gətirib çıxarır. Bu təlimatlara riayət etməklə təşkilatlar maliyyə əməliyyatlarında şəffaflığı, hesabatlılığı və etibarlılığı artıra, nəticədə daha yaxşı qərarların qəbul edilməsini və davamlı biznes təcrübələrini dəstəkləyə bilərlər.

Daha sonra, mühasibat uçotunda sənədləşdirmə dedikdə, maliyyə əməliyyatlarının və hadisələrin sistemli və mütəşəkkil şəkildə qeydə alınması prosesi başa düşülür. Bu, hesab-fakturalar, qəbzlər, çeklər, jurnallar, kitablar və maliyyə hesabatları kimi müxtəlif növ sənədlərin yaradılmasını və saxlanmasını əhatə edir. Və mühasibat uçotunda sənədləşdirmənin nəticəsi təşkilat daxilində şəffaflığı, hesabatlılığı və məlumatlı qərar qəbulunu dəstəkləyən etibarlı maliyyə qeydlərinin yaradılmasıdır.

Ümumilikdə, mühasibat uçotu standartlarına riayət edilməsinin nəticəsi maliyyə hesabatlarında şəffaflığın, ardıcıllığın və etibarlılığın təşviqidir ki, bu da müxtəlif maraqlı tərəflərə fayda verir və maliyyə bazarlarının sabitliyinə və səmərəliliyinə töhfə verir.

ƏDƏBİYYAT

1. Abbasov Q.Ə. "Mühasibat uçotu", - Bakı. "Apostroff". 2019. - 528 səh.
2. Hüseynova M.S. "Mühasibat uçotu və audit" – Bakı. "SABAH". 2015 – 320 s.
3. Q.Ə.Abbasov, "Mühasibat uçotunun nəzəriyyəsi." Bakı-2009.
4. "Maliyyə və uçot" j. 2000-2014.
5. Mehdiyev V.M. "Milli mühasibat uçotu standartları və kompyuter mühasibatı: mahiyyəti, formalaşdırılması və tətbiq edilməsi problemləri". Bakı,"SABAH" nəşriyyatı, 2014. 228 s.
6. Salahov Ə.S., Mehdiyev V.M. "Mühasibat uçotu." Dərslik.Bakı,"3 saylı Bakı mətbəəsi" ASC, 2016. 566 s.
7. Баканов М., Гофьман Г., Капелюш С. "Проблемы рентабельности торговли". М., "Экономика", 2007.
8. Белоусов М. С., Дундуков П. С., Калупов В. Г. и др. "Бухгалтерский учет в торговле", Издательство 3-Е, переработ. М. "Экономика", 2004.
9. Бухгалтерский учет в зарубежных странах: учебник / Соколов Я.В., Бутынец Ф.Ф., Горецкая Л.Л., Панков Д.А./ – М.: 2005. - 672 с.
10. "Бухгалтерийский учет" ж. 2007-2014. 15.
11. Капелюш С, Нестеров М. "Бухгалтерский учет и хозрасчет в торговле." ж. "Бухгалтерский учет", 2009.
12. Кравченко Л.И. Экономический анализ деятельности предприятий торговли и общественного питания. Минск, "Высшая школа", 2007.
13. Николаева С.А. Особенности учета затрат в усдовиях рынка: система «директ-костинг»: теория и практика. - М.: Финансы и статистика. 1998. – 147 с.

Тюркан Азер кызы Азери
Университет Одлар Юрду, бакалавр
e-poçt: turkanazeri936@gmail.com

Руководство по бухгалтерскому учету: документация и стандарты аудита

Резюме

Цель исследования - В бухгалтерском учете это исследование и краткое изложение важности определения, документирования и стандартов основных аспектов руководящих принципов бухгалтерского учета.

Методика исследования - В исследовательской работе использованы сравнительный анализ, обобщение теоретического материала, системный подход и методы анализа.

Значение применения исследования. Результаты проведенного исследования, сформулированные идеи могут быть учтены и использованы для развития будущей деятельности бухгалтерского учета и аудита.

Результаты исследования - Знание аудиторских стандартов документации и информации, глубокое знание принципов бухгалтерского учета и умение применять их на практике могут гарантировать, что аудиты в этой области проводят свою работу правильно, прозрачно и систематически. Кроме того, рекомендации и идеи, предоставленные в ходе исследования, могут сыграть важную роль в создании прочной финансовой базы, которая поддерживает прозрачность, подотчетность и принятие обоснованных решений в бухгалтерском учете.

Оригинальность и научная новизна исследования - Изучены и представлены в систематизированном виде основные аспекты бухгалтерского учета как в международной сфере, так и в нашей стране.

Ключевые слова: бухгалтерский учет, GAAP, МСФО, руководства, документация, стандарты.

Turkan Azer Azeri
Odlar Yurdu University, Bachelor
e-poçt: turkanazeri936@gmail.com

Accounting guidelines: documentation and audit standards

Summary

The purpose of the study - In accounting, it is a study and summary of the importance of defining, documenting and standards the main aspects of accounting guidelines.

The research methodology - Comparative analysis, generalization of theoretical materials, systematic approach and analysis methods were used in the research work.

The applied importance of the research - The results of the conducted research, defined ideas can be taken into account and used for the development of the future activity of accounting and audits.

The results of the research - Being familiar with the audience standards for documentation and information, knowing the accounting guidelines in depth, and being able to apply them in practice can ensure that audits in this field conduct their work correctly, transparently and systematically. In addition, the recommendations and insights provided during the research can play an important role in creating a sound financial base that supports transparency, accountability and informed decision-making in accounting.

The originality and scientific novelty of the research - The main aspects of accounting both in the international sphere and in our country were studied and presented in a systematized form.

Key words: accounting, GAAP, IFRS, guidelines, documentation, standards.

III BÖLMƏ.
İSTEHLAK MALLARI BAZARI, MARKETİNQ

UOT 338.65.01

i.f.d., dos. Tahir Şükür oğlu ŞÜKÜROV
Azərbaycan Kooperasiya Universiteti
shukurov1951@mail.ru
i.f.d., b/m. Aytən Akif qızı ŞÜKÜROVA
Azərbaycan Kooperasiya Universiteti
shukurovaayten@mail.ru
https://doi.org/10.30546/4.71.73001.2025.001.079

İSTEHLAK MALLARI BAZARININ XÜSUSİYYƏTLƏRİ VƏ MARKETİNQ TƏDQİQİ

Xülasə

Tədqiqatın məqsədi – rəqabət və rəqəmsal texnologiyaların sürətli inkişafı şəraitində ölkənin istehlak bazarının xüsusiyyətləri və mövcud vəziyyətini müəyyən etməklə onun istehsalı – istehlak zəncirində rolunu elmi cəhətdən əsaslandırmaqdır.

Tədqiqin metodologiyası – sistemli yanaşma, iqtisadi – statistik və müqayisəli təhlil, məntiqi ümumiləşdirmələr, müşahidə və digər marketinq tədqiqatı metodlarından ibarətdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti – marketinq kompleksi elementlərinin və iqtisadi amillərin təsiri nəzərə alınmaqla əhalinin həyat səviyyəsi və keyfiyyətinin yüksəldilməsində istehlak bazarının inkişafına nail olmağın mümkünlüyüdür.

Tədqiqatın nəticələri – istehlak malları bazarında rəqabətqabiliyyətli məhsulların təşkili və istehlakı səviyyəsinin yüksəldilməsi məqsədilə tövsiyə və təkliflər hazırlamaqdan ibarətdir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – məqalədə əhalinin pul gəlirləri və xərcləri nəzərə alınmaqla mallara və xidmətə istehlak tələbinin ödənilməsi imkanları müəyyən edilmiş və bazarın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi istiqamətləri əsaslandırılmışdır.

Açar sözlər: Bazar, tələb, təklif, istehlak bazarı, marketinq, istehlakçı, satış, xidmət.

Giriş

Bazarda istehlakın (şəxsi istifadəsi üçün məhsul və xidmət alan son istehlakçı və əmtəəlik məhsul istehsalı və onu digər istehlakçılara təkrar satmaq məqsədilə mal və xidmətləri satın alan sənaye müəssisələri və müxtəlif təşkilatlar) nümayndəsi – “mallara və xidmətə ehtiyacın pul ilə ödənilən hissəsini təşkil edən tələb” və istehsalın nümayəndəsi - “bazarda olan və bazara nümayəndəsi - gətirilməsi nəzərdə tutulan mal kütləsi – mal təklifi” çıxış edir. Başqa sözlə, tələb, təklif və qiymət bazarın tərkib elementləridir.

“Marketinqdə “istehlakçı” və “alıcı” anlayışları fərqləndirilir. “Alıcılar” – bilavasitə mal alışını həyata keçirən şəxslər, “İstehlakçılar” isə geniş anlayış olub, öz tələbatını ödəyən bazar subyektləridir” [6, s. 88].

İstehlakçıların növündən asılı olaraq bazarlar – istehlak bazarına və təşkilatların (işgüzar) bazarına bölünürlər. Sonuncu da öz növbəsində istehsal vasitələri bazarını, təkrar satış və dövlət idarələri bazarını təşkil edir.

İstehlak bazarı şəxsi istehlakı ödəmək məqsədilə malları və xidməti alan fərdlər və ev təsərrüfatlarının məcmusundan ibarətdir. Bazarın bu tipi kütləvi istehlakın, müxtəlif rəqabətin və qeyri - mərkəzləşdirilmiş strukturların mövcudluğu ilə xarakterizə edilir.

Müasir şəraitdə Azərbaycanda istehlak bazarının dayanıqlı və davamlı inkişafı problemi,

həmçinin müəssisənin satış fəaliyyətində onun yeri və rolu xüsusi əhəmiyyət kəsb edir. Bu, ilk növbədə istehlak bazarının təkrar istehsal prosesində, istehsal və istehlakın əlaqəsinin təminatında, eyni zamanda tələb və təklifin balanslaşdırılması sistemində mövcudluğu ilə şərtlənir. Son illər ölkənin istehlak bazarı sferasında nəzərəçarpacaq dərəcədə müsbət yönümlü dəyişikliklər baş vermişdir. Lakin unutmaq olmaz ki, istehlak bazarında institusional transformasiya neqativ təzahürlərdən kənarda deyil. Belə ki, məlum olduğu kimi, əvvəllər (1990-cı ilədək) mövcud olan təsərrüfat əlaqələri xeyli dərəcədə pozulmuş və əhalinin mallarla (xidmətlərlə) təminatı sistemində fasilələr yaranmışdır. Həmin dövrdə ölkədə istehsalın azalması və əhalinin həyat səviyyəsinin nisbətən aşağı düşməsi və onların müxtəlif sosial qruplarının gəlirlərində fərqlərin olması tədiyyəqabiliyyətli tələbin zəifləməsinə səbəb olmuşdur.

İstehlak bazarının mahiyyəti və xüsusiyyətləri

Cəmiyyətin sosial-iqtisadi inkişafının - rəqəmsal texnologiyaların tətbiqinin müasir mərhələsində istehlak bazarı ölkədə baş verən bir çox transformasiya proseslərinin və sahibkarlığın aktivliyinin inkişaf səviyyəsini göstərən ilk indikatorlardan birinə çevrilmişdir. Odur ki, sərt rəqabət şəraitində Azərbaycanın və onun regionlarının istehlak bazarının sabitliyi, müəssisənin satış fəaliyyətində rolu və inkişafı problemləri xüsusi əhəmiyyət kəsb edir. Yuxarıda qeyd etdiyimiz kimi, müasir sosial - iqtisadi şəraitdə “İstehlak bazarı” şəxsi istehlak üçün malların və xidmətin ayrı-ayrı şəxslər və ev təsərrüfatları tərəfindən alınması mənasında izah edilir. F.Kotler istehlak bazarının mahiyyətini müvafiq qaydada şərh edərək göstərir ki, “İstehlak bazarı əmtəələri və xidmətləri şəxsi istehlak üçün alan və ya başqa üsulla əldə edilən ayrı-ayrı şəxslər və ev təsərrüfatlarıdır” [1, s.118]. Göründüyü kimi, sahənin iqtisadçı alimlərinin istehlak bazarı anlayışına verdikləri tərif və ya izahatlar mahiyyətcə eyni məna daşıyır.

Məlum olduğu kimi, istehlak bazarı üç əsas seqmentdən - pərakəndə ticarət, iaşə və ödənişli xidmətlərdən – məişət xidmətlərindən ibarətdir. İstehlak bazarının bir-biri ilə qarşılıqlı fəaliyyətdə olan bu seqmentləri əhalinin mallara və xidmətə tələbatını ödəyir və ölkə iqtisadiyyatının dayanıqlı inkişafı üçün zəruri imkanlar yaradır. Bu baxımdan, qeyd etmək lazımdır ki, əgər azad iqtisadi və sahibkarlıq fəaliyyəti şəraitində istehlakçıların hüquqları təmin edilərsə və rəqabətin inkişafına zəmanət verilərsə, onda istehlak malları bazarı normal vəziyyətdə fəaliyyət göstərə bilər. Belə ki, əgər əhalinin gəlirlərində artım müşahidə olunarsa, onda onlar ərzaq məhsullarına tələbdən qeyri-ərzaq məhsullarına yerdəyişmə, yəni əhali artıq paltar, mebel, məişət texnikası, yuvelir - bəzək əşyaları, tikinti materiallarını və s. almağa meyillənirlər.

İstehlak malları bazarının həll etdikləri əsas vəzifələrə iqtisadiyyatda inhisarçılığın ləğv edilməsi və rəqabətin inkişafı əsasında məhsul istehsalçılarının istehsal etdikləri malların keyfiyyətinin artırılmasını aid etmək məqsədəmüvafiq hesab edilə bilər. Bununla yanaşı, bu sistemi həm də məhsulların tipinə və alıcılara xas olan xüsusiyyətlərə (yaşayış yerlərinə, yaşa, cinsə, məşğulluq sahəsinə, milliyətinə və s.) görə təsnifləşdirmək mümkündür.

Adətən malların tipinə görə bölgüsü onların növü və təyinatı (qida məhsulu, toxuculuq, uzunmüddətli istifadə məhsulları və s.) nəzərə alınmaqla həyata keçirilir.

Beləliklə, qeyd edilənlərə əsaslanaraq, istehlak malları bazarının ölkə daxilində məhsulların strukturunu tənzim edən, onun hazırlanması və istehsalını optimallaşdıran əsas sistemlərdən biri olduğunu təsdiq etmək olar. Bununla yanaşı, onun tərkibi və strukturunu həm də regional, təyinat (ərzaq bazarı, qeyri-ərzaq malları, xidmət bazarı) və satış kanalları üzrə müxtəlif əlamətlərə görə təsnifləşdirmək mümkündür.

Nəzərə almaq lazımdır ki, ölkəmizdə istehlak bazarı əsasən region mərkəzlərindən ibarət Gəncə, Sumqayıt, Yevlax və digər iri şəhərlərdə çox inkişaf etmişdir. Bu da orada mal təklifi və onlarla yüksək tələbin təmərküzləşməsi ilə sıx bağlıdır.

Dövlət Statistika Komitəsinin rəsmi məlumatları göstərir ki, pərakəndə ticarət dövriyyəsinin strukturu 2023-cü ildə Bakı şəhərində 60,3%, Abşeron-Xızı iqtisadi rayonunda 5,51%, o cümlədən, Sumqayıt şəhərində 3,08%, Mərkəzi Aran iqtisadi rayonunda 4,74%, ödənişli xidmətlər isə Bakı şəhərində 64,6%, Sumqayıtda isə 3,2% təşkil etmişdir [4, s. 297].

Buradan bir daha aydın olur ki, ölkənin istehlak bazarı müasir rəqəmsal və innovasiyalı iqtisadiyyatın mühüm tərkib hissəsini özündə təcəssüm etdirir. Məhz bu bazarda əhalinin gündəlik tələbatı və onun ödənilmə səviyyəsi həyata keçirilir ki, bu da son nəticədə bütünlükdə iqtisadiyyatın fəaliyyətinin səmərəliliyini müəyyən edir. Unutmaq olmaz ki, müasir şəraitdə istehlak bazarı təkrar istehsal prosesinin son həlqəsi olub, sonuncunun bütün mərhələlərini - istehsal, bölgü, mübadilə və istehlakı əhatə etməklə əhalinin tələbatının ödənilməsinə xidmət edir.

Beləliklə, çoxsaylı mütəxəssis araşdırmalarının nəticəsi olaraq demək olar ki, istehlak bazarı və ya istehlak malları və xidmətin bazarı çoxtərəfli anlayışdır. O, özündə yalnız ticarət sferasını, işin görülməsini, xidmət göstərilməsini deyil, həm də bütün mərhələlərdə malların istehsalını, onların həyat dövrünü əks etdirir.

Bu sfera müxtəlif sosial qrupların, hər bir ailənin və insanların tələbatının ödənilməsini təmin edir. Burada, tələb və təklifin inkişaf meyli, inflyasiya və pul tədavülü daha yüksək dərəcədə özünü büruzə verir, eyni zamanda istehlak predmetlərinin alqı-satqısı aktı formalaşır.

Beləliklə, araşdırmaların nəticəsi olaraq, müəssisənin satış fəaliyyətində istehlak bazarının əhəmiyyətli dərəcədə rolunu onunla izah etmək olar ki, o, bütünlükdə dövlətin rifahının siyasi indikatoru rolunu oynayır. Onun inkişafı iqtisadi sabitliyin təminatı, əhalinin həyat səviyyəsi və keyfiyyətinin yüksəlməsi üçün mühüm amildir.

Müasir istehlak malları bazarı dəyişkənlik, müxtəliflik və qeyri-müəyyənlik xarakterinə görə getdikcə çətinləşir. Burada müvəffəqiyyətə nail olmaq üçün yalnız istehlakçıların xüsusiyyətlərini deyil, həm də onların davranış motivlərini başa düşmək lazımdır.

İstehlak bazarının əsas əlamətlərə görə təsnifatı

Marketinq nöqteyi-nəzərindən müəssisənin satış fəaliyyətində istehlak malları bazarının rolunu əsasən aşağıdakı əlamətlərə görə təsnifləşdirmək olar:

- real bazar ona sərbəst girişi və sərbəst çıxışı təklif edir. Buna görə də, istehlak malları bazarının iştirakçılarının sayı heç nə ilə məhdudlaşmır;
- istehlak malları bazarında xeyli sayda məhsul istehsalçıları iştirak edir. Odur ki, mallar üçün təyin edilən qiymət ümumi bazar qiymətlərinə çox da təsir göstərmir;
- istehlak malları bazarında maddi, maliyyə və insan resurslarının tam sərbəst yerdəyişməsi mümkündür;
- istehlak malları bazarının bütün iştirakçıları mal təklifi, tələb, qiymət, rəqabət və s. haqqında informasiya ilə təmin edilir;
- hər hansı məhsul istehsalçısı - satıcı üçün hər hansı imtiyazlar istisna olunur.

İstehlak malları bazarı ictimai istehsalın artımının təmin olunması, həmin məhsulların istehsalı və satışı sferasında minimum məsrəflərlə maksimum səmərə əldə edilməsi, əlverişli və rəqabətli qiymət səviyyəsinə nail olmaq, inflyasiya proseslərini nəzərə almaq, əhalinin maksimum məşğulluğu və iş yerinin sərbəst seçilməsinə imkan yaratmaq, eyni zamanda innovasiya texnologiyalarının tətbiqində konkret məqsədlər güdür.

Məlum olduğu kimi, istehlak malları bazarının mühüm və aparıcı tərkib hissəsi qida təhlükəsizliyi və əhalinin rifahı üçün zəruri olan ərzaq məhsulları bazarından ibarətdir. Məhz sərt rəqabət şəraitində bu bazar üçün də aşağıdakı spesifik əlamətlər xarakterikdir:

- bir çox ərzaq məhsullarının istehsalının mövsümi xarakter daşıması ödənilmiş tələbin xeyli tərəddüdünə səbəb olur;
- ticarət və istehsal arasında çox geniş əlaqə;
- malların istehsalının əsas vaxtının onların istehlakı ilə üst-üstə düşməsi;
- bəzi qida məhsullarının saxlanma müddətinin məhdudluğu.

Bununla yanaşı, qeyri - ərzaq malları bazarı daha geniş çeşidə, yüksək dərəcədə yeniliklərə, dəbin təsiri altında tələbdə xeyli dəyişikliyin olmasına, malların istehlakının həcminə, təbii məhdudiyyətin olmamasına, əhalinin tələbində fərdiliyin olmasına, funksional təyinatlı malların daha dəqiq məhdudluğuna, malların çeşidi və keyfiyyətinə əhalinin daha yüksək tələblərinin olmasına görə fərqləndirilir.

İstehlak bazarının təyinatından məlum olduğu kimi, ərzaq və qeyri-ərzaq malları bazarları ilə yanaşı, həm də xidmət bazarı da mövcuddur.

Nəzərə almaq lazımdır ki, onda formalaşan xidmət çox müxtəlif və fərqlidir. Bunun nəticəsində xidmət bazarı daha çox məhdud tərkibli bazara bölünür. İqtisadi ədəbiyyatlarda və statistik məcmuədə xidmət bazarına adətən nəqliyyat, rabitə, ticarət, məişət, mənzil və kommunal xidməti, təhsil, səhiyyə, mədəniyyət və incəsənət, həmçinin, informasiya - kommunikasiya, hüquq və digər xidmət növləri daxil edilir.

İstehlak bazarının tərkibində təxminən 20 faizədək yer tutan ödənişli xidmət bazarı bir sıra fərqlərə malik spesifik xarakterli məhsullardır. Onlar əsaəsən eyni vaxtda həm xidmət göstərir, həm də istehlak olunur və saxlanılmır. Bu xidmətin sayəsində istehsalçılar (xidmət göstərənlər) və istehlakçılar arasında birbaşa əlaqə yaranır. Odur ki, bu sferada ticarətdə maddiləşmiş mallardan müəyyən qədər fərqli xidmətlər baş verir və s.

İstehlak malları bazarı istehsaldan bilavasitə istehlakçılara daxil olan məhsulların hərəkəti üçün şəraiti formalaşdırır. Bu halda bütün iştirakçılar üçün bərabər şərait yaradılması, inhisarçılığın olmaması, bütün iqtisadi amillərə maneəsiz yanaşmanın mümkünlüyü onun səmərərlilik göstəriciləri hesab edilə bilər. Bununla yanaşı, rəqabət şəraitində məhz istehlak malları bazarı azad məhsul və istehlakçı seçimini, həmçinin ictimai istehsalın artımını təmin edir. Bu sistem öz növbəsində iqtisadi fəaliyyətin stimulyatoru, sağlam rəqabət mühitinin formalaşması və müdafiəsi, qeyri - səmimi istehsalçı, malgöndərən və alıcıların olmaması, müxtəlif sosial və iqtisadi vəziyyətdə olan əhali qrupları arasında məhsulun və xidmətin səmərəli bölgüsü kimi bir sıra funksiyaları yerinə yetirir.

İstehlak bazarının marketinq tədqiqi

İstehlak bazarı sferasında pərakəndə ticarət mühüm yer tutur və daha dinamik inkişaf edən sahələrdən biridir. O, əhalinin həyat səviyyəsindəki dəyişikliyə və istehlakçılara verilən tələblərə çox tez reaksiya verir.

Pərakəndə ticarət sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar olmayan şəxsi, ailə, ev təsərrüfatı və digər məqsədlər üçün malların alınması və satışı ilə bağlı ticarət – alqı və satqı fəaliyyəti növüdur.

Ölkəmizin istehlak bazarında pərakəndə ticarətin mövcud vəziyyətini aşağıdakı cədvəldən daha aydın görmək olar. (cədvəl 1).

Cədvəl 1

2015-2023-cü illərdə Azərbaycanda pərakəndə ticarət dövriyyəsinin makro-strukturu (yekuna nisbətən, faizlə)

Göstəricilər	2015	2020	2021	2022	2023
Pərakəndə ticarət dövriyyəsi (PTD)-cəmi	100,0	100,0	100,0	100,0	100,0
o, cümlədən: ticarət müəssisələri	11,0	22,7	26,3	26,1	25,9
fərdi sahibkarlar	55,4	54,6	52,2	52,2	52,2
məhsul bazarları, yarmarkalar	33,6	22,7	21,5	21,7	21,9
PTD – dən:					
ərzaq məhsulları (içki və tütün məmulatları daxil olmaqla)	50,0	54,0	54,3	56,3	56,0
qeyri-ərzaq malları	50,0	46,0	45,7	43,7	44,0

Mənbə: [4,s.303]

Cədvəldən göründüyü kimi, yalnız 2023-cü ildə pərakəndə tiracət dövriyyəsində fərdi sahibkarların payı 52,2 faiz, məhsul bazarları və yarmarkaların payı 21,9 faiz və ticarət müəssisələrinin payı 25,9 faiz təşkil etmişdir.

Həmin dövrdə, PTD-də ərzaq məhsullarının xüsusi çəkisi 56, qeyri-ərzaq mallarının payı isə 44 faiz olmuşdur.

Prof.Məmmədov F.A. qeyd edir ki, “İstehlak malları və xidmət bazarı mürəkkəb sosial-iqtisadi sistem olub, bütünlüklə məhsul bazarlarının formalaşması və inkişafının əsasını təşkil edir. Məhz istehlak bazarında istehlakçıların, məhsul istehsalçılarının və ticarətin maraqları birləşir” [5,s.54].

Müəyyən edilmişdir ki, 2023-cü ildə Azərbaycanın istehlak bazarı hər il 72,5 milyard manat ümumi məbləğdə və ya adambaşına 6 min manatlıq məhsul və xidmət istehlak edən 10 mln. 189 mindən çox insanı özündə birləşdirir. Bu təxminən 5,5 mln. nəfər şəhər, 4,6 mln. nəfər kənd əhalisini, 5067,2 min nəfər kişi, 5113,6 min nəfər qadını və əhalinin 22,6 faizini təşkil edən 14-29 yaşda gəncləri əhatə edir.

Bu bazar hər il öz sayını təxminən 60 min nəfər, mal dövriyyəsini 59 milyard manat [4,s.19; 21, 297] artırmaqla, Cənubi Qafqaz regionunda ən mənfəətli istehlak bazarlarından biri hesab edilə bilər.

İstehlakçılar yaşa, gəlir və təhsil səviyyəsinə, hərəkətə və zövqlərə meyilliliyə görə bir-birindən kəskin fərqlənir. Bazar tədqiqatçıları müxtəlif istehlakçı qruplarını fərqləndirmək və bu qrupların ehtiyaclarının ödənilməsinə yönəlmiş malların və xidmətlərin yaradılmasını məqsədəuyğun hesab edirlər. Əgər bazar seqmenti kifayət qədər çox olarsa, bəzi firmalar bu seqmentə də xidmət göstərmək üçün ayrıca marketinq proqramı hazırlaya bilərlər.

Ölkəmizin müasir istehlak bazarı mal və xidmətlərlə sıxlığa görə xeyli fərqlənir. Bu, aşağıdakı göstəricilərlə xarakterizə olunur. (Cədvəl 2).

Cədvəl 2.

2015-2023-cü illərdə Azərbaycan Respublikasında istehlak bazarının həcmi və quruluşu

Göstəricilər	2015	2020	2021	2022	2023	
					Fakt	2015-ci ilə nisbətən %-lə (+,-)
İstehlak bazarı cəmi: mln.man.	34295,1	47924,5	52954,8	63010,4	72450,8	2,1 dəfə
Faizlə	100	100	100	100	100	-
o cümlədən:						
- pərakəndə ticarət dövriyyəsi	25721,1	40166,5	44217,5	52171,0	58997,7	2,3 dəfə
- yekuna nisbətən faizlə	75,0	83,8	83,5	82,8	81,4	+6,4
- iaşə dövriyyəsi	1111,2	759,6	979,1	1586,0	2041.5	1,8 dəfə
- yekuna nisbətən faizlə	3,2	1,6	1,8	2,5	2.8	-0.4
- əhaliyə ödənişli xidmətlər	7462,8	6998,4	7758,2	9253,4	11411,6	1,5 dəfə
- yekuna nisbətən faizlə	21.8	14,6	14,7	14,7	15.8	-6,0

Mənbə: [4, s. 298]

Cədvəldən göründüyü kimi, 2023-cü ildə 2015-ci il ilə müqayisədə ölkənin istehlak bazarının həcmi müsbət dinamika ilə xarakterizə olunur. Belə ki, müqayisə edilən dövrdə bu göstərici 2,1 dəfə, o cümlədən əhaliyə istehlak mallarının satışı 2,3 dəfə, iaşə xidmətinin dövriyyəsi 1,8 dəfə və əhaliyə ödənişli xidmətlərin həcmi 1,5 dəfə artmışdır. Bununla yanaşı, həmin dövrdə əhaliyə iaşə dövriyyəsinin və ödənişli xidmətlərin xüsusi çəkisi uyğun olaraq 0.4 və 6,0 faiz azalsa da dinamik olaraq 1,8 və 1,5 dəfə yüksəlmişdir.

Lakin qeyd etmək lazımdır ki, 2023-cü ildə qida məhsullarının qiymət indeksi (əvvəlki ilə nisbətən) 9.6 faiz, qeyri-qida məhsullarının qiyməti 8,4, faiz, xidmətlərin qiyməti isə 8,2 faiz təşkil etmişdir.

Son illər, xüsusilə 2020-ci ildən sonra istehlak malları bazarında əhalinin, yəni pərakəndə ticarət dövriyyəsində ərzaq məhsullarına tələbinin xüsusi çəkisi xeyli yüksələrək qeyri-ərzaq malları ilə müqayisədə uyğun olaraq 56 və 44 faiz səviyyəsində, istehlak qiymətlərinin indeksi isə (əvvəlki ilə nisbətən) qida məhsulları üzrə 109,6 faiz, qeyri-qida malları və xidmtətlər üzrə 108,2 faizə bərabər olub. [4, s. 382] Bütün bunları aşağıdakı cədvəldən daha aydın görmək olar (cədvəl 3.).

Apardığımız təhlillərin nəticəsi onu deməyə əsas verir ki, yalnız 2023-cü ildə ölkəmizdə son istehlakçılara-əhaliyə satılan istehlak mallarının həcmi 2015-ci il ilə müqayisədə 2,3 dəfə artmış və əhalinin əmtəəlik məhsulların istehlak quruluşunda ərzaq məhsullarının payı 56 faizə yüksəlmişdir.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, müqayisə edilən ildə əhalinin gəlirləri təxminən 1,9 dəfə, istehlak xərcləri isə 2,1 dəfə artmışdır ki, yalnız 2023-cü ildə əhali bu xərclərin də 43,9 faizini qida və 15,3 faizini qeyri-qida məhsullarına, 40,3 faizini xidmətlərə və 0,5 faizini alkoqollu içkilərə sərf etmişdir.

Cədvəl 3.

2015-2023-cü illərdə Azərbaycanın istehlak malları bazarında əmtəəlik məhsulların strukturu (faizlə)

İllər	Pərakəndə ticarət dövriyyəsi (PTD) (mln.man)	PTD-nin həcmində məhsulların xüsusi çəkisi, %	
		Ərzaq məhsulları (içki və tütün məhsulları daxil olmaqla)	Qeyri-ərzaq məhsulları
2015	25721.1	50,0	50,0
2020	40166,5	54,0	46,0
2021	44217,5	54,0	46,0
2022	52171,0	56,3	43.7
2023	58997,7	56,0	44.0

Mənbə: [4, s. 298].

Bununla yanaşı, 2023-cü ildə əhalinin 75024,5 mln. manatlıq istehlak xərclərinin 65021,5 mln. manatını və ya təqribən 87 faizini son istehlak xərcləri təşkil etmişdir. (Cədvəl 4).

Respublikamızda ev təsərrüfatlarının büdcəsinin seçmə yoxlamasının nəticələri göstərir ki, onların bütünlükdə, həmcinin şəhər və kənd yerləri üzrə pul gəlirləri və xərclərinin dinamikası dayanıqlı artım meyillidir. Təkcə onu göstərmək kifayətdir ki, 2022-2023-cü illərdə əhalinin adambaşına düşən aylıq istehlak xərcləri orta hesabla 341 manat, şəhər yerlərində 356 manat, kənd yerlərində isə 323 manata bərabər olmuşdur. Həmin dövrdə şəhər əhalisinin qida məhsullarına sərf etdiyi adambaşına düşən orta aylıq xərcləri 314 manat və ya xərclərin 44,3 faizi, kənd yerlərində isə 288 manat və ya 44,6 faizi səviyyəsində olmuşdur.

Cədvəl 4.

2015-2023-cü illərdə Azərbaycanda əhalinin gəlirləri və xərcləri (mln.man.)

	2015	2020	2021	2022	2023	2023-cü ildə 2015-ci ilə nisbətən faizlə (+,-)
1.Gəlirləri cəmi	41744,8	55754,1	57206,0	69163.8	78959,2	187,0
o cümlədən:						
sahibkarlıq fəaliyyətindən	25317,1	22984,1	23542,9	26749,6	31605,7	124,8
2. İstehlak xərcləri, faizlə	100,0	100,0	100,0	100,0	100,0	-
o, cümlədən:						
- qida məhsullarına	40,5	43,4	43,6	43,5	43,9	+3,4
- alkoqollu içkilərə	0.5	0,6	0,6	0,6	0,5	-
- qeyri-qida məhsullarına	17,3	16,3	15,3	15,2	15,3	-1,0
- xidmətlərə	41,7	39,7	40,5	40,7	40,3	-1,4

Mənbə: [4, s. 122,160]

Beləliklə, bütün yuxarıda qeyd edilənləri ümumiləşdirərək demək olar ki, malların və xidmətlərin istehlak bazarının inkişafı sərt rəqabət mübarizəsinin kəskinləşməsi şəraitində mühüm aktual

problemlərdən biri olaraq qalır. Çünki, əsas pul vəsaitləri məhz istehlak malları və xidmət bazarının əmtəə-pul kanalları vasitəsilə ölkənin büdcəsinə qaytarılır.

Nəticə

Beləliklə, istehlak malları bazarının marketinq tədqiqi satışın səmərəliliyinin yüksəldilməsi məqsədilə aşağıdakı nəticələrə səbəb ola bilər:

- istehlak malları bazarının imkanları yalnız resurslar, yəni məhsullarla əhatəyə görə deyil, həm də əhalinin alıcılıq qabiliyyətinə görə yüksəlir;
- müxtəlif idarəetmə qərarlarının təsirini düzgün qiymətləndirməyə və qruplaşdırmağa, bazarda işin daha optimal strategiyasını aşkar etməyə, həmçinin müəssisənin satış strategiyasına, məqsədli bazarın seçilməsinə və konyunkturasına uyğun olaraq məhsulun çeşid siyasətinin hazırlanmasına imkan verir;
- real və potensial rəqiblərin aşkar edilməsinə, müəssisənin mövcud satış fəaliyyətinin təşkili və idarə edilməsi proseslərinin güclü və zəif tərəflərinin müəyyən edilməsinə;
- istehlak bazarında satışın həcminə və mənfəətin artırılmasına təsir göstərən amillərin payını qiymətləndirməyə;
- müəssisənin maliyyə vəziyyətini xarakterizə edən göstəricilərin yaxşılaşdırılması imkanlarına.

ƏDƏBİYYAT

1. Kotler F. Marketinqin əsasları. /Ruscadan tərcümə./ R.Hacıyev, R.Məmmədov. M., Proqres 1990, Bakı, "Ergun" 1993, 560 s;
2. Quliyev F.V. Marketinqin idarə edilməsi. Dərs vəsaiti / F.V.Quliyev, Bakı: Kooperasiya, 2018, 280 s.68.
3. Şükürov T.Ş., Marketinq tədqiqatları. Dərs vəsaiti / T.Ş.Şükürov, R.S.Şükürov. Bakı, Kooperasiya-2007, 424 s.
4. Azərbaycanın statistik göstəriciləri" Statistik məcmuə/2024 [Elektron resurs]: https://www.stat.gov.az/menu/6/statisticalvearbooks/source/statyearbook-2024 pdf.
5. Мамедов Ф.А. Развитие рынка потребительских товаров в хозяйствования/ Ф.А.Мамедов, Х.Ф.Мамедов//Экономика и бизнес: теория и практика-2018-№1-с.54-57;
6. Маркетинг: Учебник./А.Н.Романов, Ю.Ю.Корлюгов, С.А.Красильников и др.: Под ред. А.Н.Романова М:- Д:Банки и биржи, ЮНИТИ, 1996, - 560 с. 2015/04.2

доц., Тахир Шукюр оглы Шукюров
Азербайджанский Университет Кооперации
д.ф.э., Айтен Акиф кызы Шукюрова
Азербайджанский Университет Кооперации

Особенности рынка потребительских товаров и маркетинговые исследования

Резюме

Цель исследования - научно обосновать его роль в цепочке производства-потребления путем определения особенностей и текущего состояния потребительского рынка страны в условиях конкуренции и бурного развития цифровых технологий.

Методология исследования - состоит из системного подхода, экономико-статистического и сравнительного анализа, логических обобщений, конкурентных и других маркетинговых методов исследования.

Прикладное значение исследования - заключается в возможности достижения развития потребительского рынка за счет повышения уровня жизни и качества населения с учетом воздействия маркетингового комплекса и экономических факторов.

Результаты исследования - заключаются в подготовке рекомендаций и предложений с целью повышения уровня организации и потребления конкурентоспособной продукции на

рынке потребительских товаров.

Оригинальность и научная новизна исследования – В статье опредедено возможность удовлетворения потребительского спроса на товары и услуги с учетом денежных доходов и расходов населения, а также направления повышения конкурентоспособности рынка обосновано.

Ключевые слова: Рынок, спрос, предложение, потребительский рынок, маркетинг, потребитель, сбыт, услуга.

Tahir Shukur Shukurov
PhD.in economic sciences,
Azerbaijan Cooperation University
assocate prof.
PhD Ayten Akif Shukurova
Azerbaijan Cooperation University

Features of the consumer goods market and marketing research

Summary

The purpose of the refresearch - to determine the characteristics and current state of the country's consumer market in the conditions of competition and rapid development of digital technologies, and to scientifically substantiate its role in the production-consumption chain.

The methodology. of the study consists of a systematic approach, economic-statistical and comparative analysis, logical generalizations, competition and other marketing research methods.

The applied significance - of the study is the possibility of achieving the development of the consumer market in improving the standard of living and quality of life of the population, taking into account the elements of the marketing complex and the influence of economic factors.

The results of the study - are to prepare recommendations and proposals for the organization of competitive products in the consumer goods market and to increase the level of consumption.

Originality and scientific novelty of the rescarcn – the article identifies the possibilities of satisfying consumer demand for goods and services, taking into account the monetary income and expenses of the population, and substantiates the directions for increasing the competitiveness of the market.

Key words: Market, demand, supply, consumer market, marketing, consumer, sales, service.

UOT:330.35

Elşən Rövşən oğlu CƏBRAYILZADƏ
Azərbaycan Dövlət İqtisad Universiteti,
"İqtisadi və texnoloji elmlər"
kafedrası, magistrant,
elshanjabrailzadeh@gmail.com

Müslümat Allahverdi qızı ALLAHVERDİYEVA
ADİU, "İqtisadi və texnoloji elmlər"
kafedrası, i. e. doktoru, dos.,
allahverdiyeva_muslunat@mail.ru
https://doi.org/10.30546/4.71.73001.2025.001.087

FİRMANIN İMİCİNİN FORMALAŞMASINDA İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏRİN ROLU

Xülasə

Tədqiqatın məqsədi - Günümüzün insanları internet vasitəsilə, demək olar ki, şirkətlərlə daim və fasiləsiz şəkildə ünsiyyətdə olurlar. Onlar qarşılarına çıxan reklamlara reaksiya göstərərək onları qiymətləndirir, sahib olduqları məhsullar haqqında digər insanlara öz fikirlərini bildirir, şikayət və kömək ehtiyaclarını həmin firmanın məsul şəxsləri ilə bölüşməyə çalışırlar. Bütün bunlar şirkətlərin ictimaiyyətlə əlaqələrinin ən yüksək səviyyədə olmasına, şirkətin imicinin qorunması və daha da yaxşı olması üçün müştərilərlə olan ünsiyyətlərinə maksimum səviyyədə önəm verməsinə stimul verir. Bu tədqiqat şirkətlər üçün ictimaiyyətlə əlaqələrin önəminin hər zamankından qat-qat yüksək olmasını açıqlamaq məqsədi daşıyır.

Tədqiqatın metodologiyası - Tədqiqat zamanı keyfiyyət metodu istifadə edilərək mövzu üzərində nəzəri təhlil aparılacaq informasiyalar toplanacaq. Nəzəri təhlil xüsusi ədəbiyyatlara və bu sahədə peşəkar araşdırmalar aparan internet saytlarına, həmçinin, marketinq və sosiologiya sahəsində yazılan akademik məqalələrə əsaslanılıb. Həmçinin, tarix ərzində və müasir dövrdə firmaların apardığı siyasətin və gördüyü işlərin praktiki nəticəsinə toxunularaq problemlərin mövcud vəziyyətlər vasitəsilə real həyat kontekstində araşdırılması həyata keçirilib.

Tədqiqatın tətbiqi əhəmiyyəti - Tədqiqatın nəticələrindən ortaya çıxır ki, firmaların öz imiclərini qoruması üçün ictimaiyyətlə əlaqələr bölməsində nələrə diqqət etməli olduqlarını, apardıqları siyasətdə nələrə üstünlük verməli olduqlarını, firmanın imicinin formalaşmasında hansı faktorların ön plana çıxdığını və bu faktorlardan necə düzgün istifadə etməli olduqlarını araşdırmaq olduqca mühüm ehtiyaca çevrilib.

Tədqiqatın nəticələri - İctimaiyyətlə əlaqələr vasitəsi ilə markaya dair məlumatlılığın və öhdəliyin artırılması adətən performans və etibarlılıq standartlarının saxlanmasına və artırılmasına yönəlmiş hər hansı ümumi strategiyanın vacib hissəsidir.

Açar sözlər: İctimaiyyətlə əlaqələr, PR, marketinq, şirkət imici, brend.

Giriş

Müasir dövr əmək bazarında və təşkilatların idarəetmə praktikasında böyük dəyişikliklərə səbəb olmuşdur. Təşkilatlarda çalışan menecerlərin məqsədi yalnız məhsuldarlığı artırmaq deyil, həm də işçilərin rifahını, şirkətin davamlılığını və sosial məsuliyyətini təmin etməkdir. Bu dəyişikliklər müxtəlif faktorlar, o cümlədən qlobal iqtisadiyyat, texnologiyaların inkişafı, sosial dəyişikliklər və işçilərin tələblərinin dəyişməsi ilə əlaqədar olaraq formalaşmışdır.

Müasir menecerlər artıq ənənəvi idarəetmə strukturlarından daha çevik və sürətli qərar qəbul etmə sistemlərinə yönəlirlər. Bu, təşkilatların bazar tələblərinə və müştəri ehtiyaclarına daha tez cavab verə bilmələrini təmin edir. Həmçinin, qərar qəbul edən menecerlərin yalnız rəhbərlik səviyyəsində olmaması, əksinə, əməkdaşların hər bir səviyyəsində öz qərarlarını verə bilməsi təşviq edilir. Bu yanaşma işçilərə daha çox müstəqillik verir və onların daha yaxşı motivasiya olmasına, işə daha bağlı olmasına səbəb olur.

Müasir təşkilatlarda menecerlərin yaradıcı qabiliyyətləri və innovativ yanaşmaları təşkilatın uğurunun əsas amillərindən biridir. Təşkilatlar artıq menecerlərin sadəcə texniki bacarıqlarına deyil, həm də yaradıcı düşüncələrinə və yeni ideyalar təqdimetmə qabiliyyətlərinə diqqət yetirirlər. Yaradıcı menecerlər təşviq edilir və onlara sərbəst düşünmə və yeni yanaşmaların tətbiqi üçün şərait yaradılır. Bu həm də təşkilatların daha çevik və innovativ olmasına, bazar dəyişikliklərinə tez uyğunlaşmasına səbəb olur.

Beləliklə, müasir menecerin rolu sadəcə çərçivələnməmişdir. O, təşkilatın strateji istiqamətlərini mùəyyənləşdirir, insan resurslarını idarə edir və şirkətin dayanaqlılığını təmin edir. Menecer fəal və sərt, məsuliyyətli, kollektivi idarə edə bilməli və bazarda şirkəti təqdim edə bilməlidir. Məhsuldar menecerin əsas xüsusiyyətlərinə təşkilatçılıq bacarıqları aiddir.

İstehsal və digər proseslərin xüsusiyyəti menecer əməyinin xassələrinə yeni tərkibli tələblər müəyyən edir. Menecer əməyi yüksək yaradıcılığa malikdir: müxtəlif biliklər tələb edir, analitik fəaliyyəti nəzərdə tutur və müəyyən vaxtlarda məhdud problemlərdə cəmləşmək bacarığını ehtiva edir. Çünki, menecer əməyinin əsas predmeti idarəetmə informasiyası olduğundan, onun səmərli işinin əsas şərti kimi bilik və müasir informasiyanı təşkilatın idarə edilməsində istifadəetmə bacarığıdır.[2.s.18]

Nəticə

Müasir dövrdə menecer əməyinin təşkilinin əsas istiqamətləri strateji çeviklik, rəqəmsal transformasiya, çevik iş modelləri, işçi motivasiyası və dayanıqlılıqdan ibarətdir. Bu trendləri mənimsəyən şirkətlər dəyişən iqtisadi şəraitdə səmərəliliyi, innovasiyanı və uzunmüddətli uğuru təmin edə bilərlər. Texnologiya inkişaf etdikcə və iş mühiti dəyişdikcə, təşkilatlar rəqabət üstünlüyünü qorumaq və məhsuldar işçi qüvvəsini inkişaf etdirmək üçün adaptasiya olunmalıdırlar.

Menecerlər qərar qəbul etməklə təşkilatın qarşısında duran vəzifələri və pobləmləri həll edirlər. İdarəetmə sistemində problem kimi mənfi nətəcələrə səbəb olan şərait kimi ifadə edilməlidir. İstənilən idarəetmə obyektində rəhbərlik tərəfindən arzulanan nəticəyə nail olmadıqda problem ortaya çıxır. Menecer əməyinin düzgün təşkili arzulanan müsbət nədicə olur. Menecerin yüksək etik keyfiyyətləri olmadan təşkilata və ayrı-ayrı insanlara təsir etməklə qarşıya qoyulan məqsəd və vəzifələrə nail olmaq mümkün deyildir. Etika mənəvi norma və qaydalar dəsti rolunu oynayır.

Fikrimizcə, menecerin keyfiyyətləri sırasında ümumi və konkret keyfiyyətləri olmalıdır. Geniş mənada bu keyfiyyətlərə qabiliyyətlər kimi səriştəlik, kommunikativlik, analitik işgörmə, hökmranlıqetmə, digərlərinə təsiretmə, özünəinam, konkret işi bilmə, diqqətin idarə edilməsi, etimadın idarə edilməsi, əhəmiyyətin idarə edilməsi, özünün idarə edilməsi, tez qərarçıxarma, az informasiya əsasında intuitiv qərarçıxarma və s. aiddir.

Menecerin yerinə yetirdiyi funksiyalar rəhbərlik edilən insan qrupunun, təşkilatın xüsusiyyətindən irəli gəlir. Buna rəğmən menecer -inzibatçı, menecer - planlaşdırıcı, menecer -siyasətçi, menecer -ekspert, menecer tənzimləyici, menecer-həvəsləndirici (cəzalandırıcı), menecer-nümunə və menecer -ata funksiyalarını sərgiləmək olar.

ƏDƏBİYYAT

1. Şahbazov K.A., Məmmədov M.H., Həsənov H.S., “Menecment” Bakı 2014. S.717
2. Röyal Ənvərli. “Yerli şirkətlərdə vəzifəyə gətirmənin və rəhbərliyin özəllikləri”. Bakı – 2018 s. 18

Ясемен Али Гызы Алиева
Доцент, Азербайджанский Университет Кооперации
Э- почта eliyevayasemen3@gmail.com

Основные направления организации работы менеджера в наше время

Резюме

Цель исследования - деятельность менеджера связана с организационной работой, которая включает в себя интеграцию и синхронизацию работы членов организации.

Организационная деятельность предполагает знание психологии людей, общение с ними и взаимодействие с членами коллектива в трудовом процессе. В современное время целью правильной организации работы руководителя является обеспечение эффективной организации совместной работы коллектива организации в соответствии с требованиями времени. В статье на основе новаций современной эпохи выдвинут ряд рекомендаций и предложений

по обновлению существующих механизмов организации управленческого труда на предприятиях.

Методология исследования - различные методы были использованы для изучения проблем совершенствования организации управленческого труда на предприятиях. При этом внимание было сосредоточено на научных идеях и подходах группы исследователей, изучающих теоретические и методологические особенности организации управленческой работы на предприятиях.

С точки зрения прикладной значимости исследования можно отметить, что в современных условиях вопросы использования и применения полученных в статье научно-практических результатов занимают особое место в разработке современных механизмов организации Управленческого труда в системе управления предприятиями и при подготовке комплекса сопутствующих предложений.

С точки зрения результатов исследования можно отметить, что разъяснены современные направления организации работы менеджера, чтобы быть эффективными в разработке и реализации стратегии совершенствования существующих механизмов управления. система на предприятиях.

Оригинальность и научная новизна исследования - материал, представленный в статье, отличается прежде всего своей оригинальностью. Главной научной инновацией является формирование современных научно-теоретических, методических и практических взглядов на проблемы совершенствования организации управленческого труда в современную эпоху.

Ключевые слова: управленческий труд, управленческие навыки, технические навыки, гибкие методологии управления, удаленное управление, управление проектами.

Yaseman Ali Aliyeva
docent, Azerbaijan Cooperation University
e-mail: eliyevayasemen3@gmail.com

The main directions of organizing Manager's work in modern times

Summary

The purpose of the study – the activity of the manager is related to the organizational work, which includes the integration and synchronization of the work of the members of the organization. Organizational activity involves knowing the psychology of people, dealing with them and interacting with members of the collective in the work process. In modern times, the purpose of the proper organization of the Manager's work is to ensure the effective organization of the joint work of the organization's staff in accordance with the requirements of the time. In the article, based on the innovations of the modern era, a number of recommendations and suggestions were put forward for the renewal of the existing mechanisms of the organization of Managerial labor in enterprises.

Methodology of the research, various methods were used to investigate the problems of improving the organization of managerial labor in enterprises. At the same time, attention was focused on the scientific ideas and approaches of a group of researchers studying the theoretical and methodological features of the organization of Managerial labor in enterprises.

Applied significance of the research From the point of view of the applied importance of the research, we can note that in the present conditions, the issues of using and applying the scientific-practical results obtained in the article have a special place in the development of modern mechanisms for the organization of Managerial labor in the management system of enterprises and in the preparation of a set of related proposals.

From the point of view of the results of the research, it can be noted that the modern directions of the organization of the Manager's work are explained in order to be effective in the development

and implementation of the strategy of improving the existing mechanisms of the management system in enterprises.

Originality and scientific novelty of the research - the material presented in the article is mainly notable for its originality. The main scientific innovation is the formation of modern scientific-theoretical, methodological and practical views on the problems of improving the organization of managerial work in the modern era.

Keywords: managerial labor, managerial skill, technical skills, agile management methodologies, remote management, project-based management.

UOT 339

Murad Şahrza oğlu ƏLİYEV
AKU-nun doktorantı
muradalyv99@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2025.001.0103

BEYNƏLXALQ BİZNESİN TƏNZİMLƏNMƏSİ PROBLEMLƏRİ

Xülasə

Tədqiqatın məqsədi. Məqalədə beynəlxalq biznesin hüquqi tənzimlənməsi məsələləri müzakirə olunur. Müəllifin diqqəti beynəlxalq təşkilatların ticarət sahəsində fəaliyyətinə yönəlib, onun əsas vəzifəsi insan hüquq və azadlıqlarına hörmət və riayət əsasında beynəlxalq iqtisadi hüquqi münasibətlərin inteqrasiyası proseslərinin inkişafıdır.

Tədqiqatın metodologiyası. Klassiklərin iqtisadi nəzəriyyələri, müasir Qərb və yerli alimlərin beynəlxalq biznesin və beynəlxalq şirkətlərin formalaşması və inkişafına, onların fəaliyyətinin tənzimlənməsinə aid həyata keçirdikləri tədqiqatlar, tədqiqatın mövzusuna uyğun olaraq, respublika hökumətinin qəbul etdiyi müxtəlif normativ-hüquqi aktlar təşkil edir.

Tədqiqatın tətbiqi əhəmiyyəti. Azərbaycan Dövlət İqtisad Universitetinin “Beynəlxalq biznes”, “Dünya iqtisadiyyatı”, “Beynəlxalq iqtisadi münasibətlər”, “Beynəlxalq ticarət” və s. fənlərinin tədrisində istifadə olunur.

Tədqiqatın nəticələri. Məqalədə verilən nəticə və təkliflər beynəlxalq biznesin dövlət tənzimlənməsi, onun koordinasiyası, strukturunun və istehsal bazasının inkişafı və diversifikasiyası ilə bağlı tədbirlər hazırlanarkən mərkəzi idarəetmə orqanlarında istifadə oluna bilər.

Tədqiqatın orijinallığı və elmi yeniliyi. Azərbaycanda beynəlxalq biznesin tənzimlənməsinin hüquqi aspektləri təhlil edilmiş və müəyyən edilmişdir ki, beynəlxalq ticarət və iqtisadi əməkdaşlığı balanslaşdıran hüquqi bazanı formalaşdırmaq, çoxtərəfli dövlətlərarası razılaşma sistemi ilə beynəlxalq uyğunluq yaratmaq, inzibati metodlardan daha çox iqtisadi metodlara üstünlük vermək, beynəlxalq biznesin tənzimlənməsinin məlumat-kommunikasiya sisteminin şəffaflıq səviyyəsini yüksəltmək vacibdir.

Acar sözlər: beynəlxalq biznes, beynəlxalq təşkilatlar, ÜTT, BTP.

Giriş

Beynəlxalq hüquq münasibətlərinin tarixi müxtəlif sosial qrupların siyasi, iqtisadi, mədəni və digər sahələrdə daimi qarşılıqlı əlaqəsini nümayiş etdirir, dövlətlər və vətəndaşlar arasında mübadilə aparır, onlar da öz növbəsində dövlət sərhədindən kənara çıxan bütün proseslərin təmin edilməsində maraqlıdırlar. Sərhədlər, əməkdaşlıq və mübahisələr müəyyən qaydalar əsasında həyata keçirilir. Bu problemlərin həllində müasir dünyanın müxtəlif hüquqi institutlarının qarşılıqlı əlaqələrinin və qarşılıqlı asılılığının artması, bəşər sivilizasiyasına qlobal çağırışların kəskinləşməsi ilə bağlı olan beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsi xüsusi əhəmiyyət kəsb edir. Müasir şəraitdə siyasi, sosial-iqtisadi, mədəni, hüquqi və digər sahələrdə baş verən hadisələrə, dinamik, sistemli və elmi araşdırmalara və plüralist hüquq dərkinə, milli dövlət səviyyəsində hüquqi dövlətlə beynəlxalq hüquq siyasəti kontekstində dövlət və dövlətlərarası səviyyələrin qarşılıqlı reaksiyasına ehtiyac var.

Beynəlxalq biznes nəzəriyyələri və biznes problemləri. Beynəlxalq biznes nəzəriyyəsi haqqında elmi fikir yürüdərkən, mövzunun əhatə dairəsi geniş olduğu üçün bir neçə əsas anlayışı və nəzəriyyəni daxil etmək lazımdır. Bu nəzəriyyələr beynəlxalq biznesin inkişafı, müxtəlif ölkələrdəki müəssisələrin fəaliyyətini izah etmək və qlobal bazarda iştirak etmək üçün istifadə edilən strategiyaları anlamaq üçün əsas rol oynayır. Aşağıda bəzi vacib nəzəriyyələr və mövzular haqqında məlumat verilib.

Beynəlxalq Ticarət Nəzəriyyələri. Beynəlxalq biznesin əsasını beynəlxalq ticarət nəzəriyyələri

təşkil edir. Bu nəzəriyyələr ölkələr arasında məhsul və xidmət mübadiləsini izah edir: Komparativ üstünlük nəzəriyyəsi (David Ricardo): Hər bir ölkə ən aşağı alternativ dəyəri ilə istehsal etdiyi məhsullarda ixtisaslaşmalıdır. Absolyut üstünlük nəzəriyyəsində isə əsas (Adam Smith) mahiyyət hər hansı bir ölkə daha effektiv və aşağı xərc ilə məhsul istehsal edə bilirsə, bu məhsulu da istehsal etməli və digər məhsulları idxal etməlidir fikridir[8]. Heckscher-Ohlin nəzəriyyəsində isə ölkələrin təbii resurslar, işçi qüvvəsi və kapital kimi faktorlardan daha çox olan məhsulları istehsal edərək ixrac etməyə meyilli olduqları əks olunur. Dunningin eklektik paradiqmasında (OLI Modeli) John Dunning tərəfindən irəli sürülən OLI (Ownership, Location, Internalization) modeli beynəlxalq biznesin nəzəri əsaslarını izah edir. [10, s.28]

Mülkiyyət üstünlükləri nəzəriyyəsində qeyd edilir ki, (Ownership Advantages) şirkətlərin beynəlxalq bazara daxil olmaq üçün texnoloji biliklər, markalar, patentlər kimi spesifik üstünlükləri olmalıdır. Lokasiya üstünlükləri (Location Advantages) nəzəriyyəsində müəyyən ölkələrin coğrafi, iqtisadi və ya siyasi üstünlüklərə görə şirkətlər üçün daha cazibədar olması, daxili optimallaşdırma (Internalization Advantages) nəzəriyyəsində isə şirkətlərin xarici bazara birbaşa investisiya etmək və ya yerli tərəfdaşlarla işbirliyinə getmək arasında qərar verərkən daxili bazar strukturuna nəzarəti saxlamaq istəmələri nəzəri olaraq əsaslandırılır.

İnnovasiya və Texnologiya Transferi. Beynəlxalq biznesdə innovasiya və texnologiya transferi, xüsusilə çoxmillətli korporasiyaların (ÇMK) qlobal bazarlara daxil olarkən rəqabət üstünlüyünü qorumaq üçün mühüm rol oynayır. Vernonun Məhsul Həyat Dövrü Nəzəriyyəsi bu sahədə məşhurdur: Bu nəzəriyyə məhsulların texnoloji inkişaf mərhələlərinə görə müxtəlif bazarlarda fərqli tələblərə uyğun istehsal və yayılmasını izah edir.

Porterin Rəqabət Üstünlüyü Nəzəriyyəsində Michael Porter ölkələrin müəyyən sənaye sahələrində rəqabət üstünlüyü əldə etməsinin səbəblərini izah edir. Porter, Almaz modeli adlandırdığı yanaşma ilə göstərir ki, ölkələr işçi qüvvəsi, təchizat zənciri, yerli bazarın tələbləri və yerli rəqabət kimi amillərlə rəqabət üstünlüyü qazanırlar. [16, s.76]

İnstitusional nəzəriyyə isə beynəlxalq biznesdə qanunlar, qaydalar və sosial normaların müəssisələrin fəaliyyətini necə formalaşdırdığını izah edir və qeyd edilir ki, iqtisadiyyat və siyasət sistemlərindəki fərqlər, şirkətlərin xarici bazarlarda qarşılaşdığı çətinliklərə və üstünlüklərə səbəb ola bilər. Çoxmillətli və transmilli şirkətlərin fəaliyyət strategiyaları və onların qlobal miqyasda iqtisadiyyata təsiri beynəlxalq biznesin mərkəzi mövzularından biridir. TMŞ-lər əsasən ana şirkətdən idarə olunur. [11, s. 657]

Beynəlxalq biznes problemləri müxtəlif ölkələr arasındakı biznes əlaqələrində ortaya çıxan və müəssisələrin beynəlxalq bazarlarda uğurla fəaliyyət göstərməsini çətinləşdirən amillərdir. Bu problemlərin bəziləri aşağıdakılardır:

1. Gömrük rüsumları və ticarət baryerləri: Müxtəlif ölkələrin tətbiq etdiyi gömrük vergiləri və digər sərhəd məhdudiyyətləri xarici məhsulların yerli bazara daxil olmasını çətinləşdirir. Bu, məhsulun qiymətini artıraraq rəqabətqabiliyyətliliyi azalda bilər.

2. Ticarət siyasətləri və sanksiyalar: Hökumətlərin proteksionist siyasətləri, tarif və qeyri-tarif maneələri, ticarət sanksiyaları və kvotalar kimi məhdudiyyətlər beynəlxalq ticarətə ciddi təsir göstərə bilər.

3. Qanunvericilik fərqləri: Müxtəlif ölkələrin ticarətə dair qanunları fərqli ola bilər, məsələn, vergilər, ekoloji tələblər, işçi hüquqları və mülkiyyət hüquqları kimi sahələrdə. Bu fərqliliklər şirkətlər üçün hüquqi risklər və əlavə xərclər yarada bilər.

4. Valyuta riskləri: Müxtəlif ölkələrdəki valyuta dəyər dəyişiklikləri beynəlxalq ticarətdə risk yaradır. Mübadilə məzənnələrindəki dəyişikliklər şirkətlərin gəlirinə təsir edə bilər.

5. Kulturoloji və dil fərqləri: Fərqli dillər və mədəniyyətlər arasında əlaqə qurmaq çətindir. Bu, bazar strategiyalarının düzgün tərcümə edilməsini və yerli müştərilərlə uyğunluğunu təmin etmək üçün əlavə səylər tələb edir.

6. Logistika və nəqliyyat problemləri: Müxtəlif coğrafi və infrastruktur fərqlilikləri məhsulun bir ölkədən digərinə çatdırılması prosesini çətinləşdirə bilər. Bu, məhsulların vaxtında və təhlükəsiz

çatdırılmasına maneə yarada bilər.

Bu problemlərin həlli üçün şirkətlər strateji planlaşdırma, uyğun yerli tərəfdaşlarla əməkdaşlıq və risk idarəetmə sistemləri qurmalıdırlar. Beynəlxalq marketinq problemlərinin həllində şirkətlər bir neçə strategiyadan istifadə edə bilər. Bu strategiyalar həm yerli bazara uyğunlaşmanı, həm də beynəlxalq səviyyədə rəqabətqabiliyyətliliyi artırmağa yönəldilmişdir.

1. Hədəf bazarın tədqiqi: Hər bir ölkənin iqtisadi, sosial, mədəni və texnoloji xüsusiyyətləri fərqlidir. Bazarın dərin araşdırılması, müştəri ehtiyaclarını, rəqabət mühitini və yerli mədəniyyətin təsirini anlamağa kömək edir. Şirkətlər yerli tələbatı və bazar dinamikalarını öyrənərək məhsullarını və marketinq strategiyalarını optimallaşdırmalıdırlar.

2. Adaptiv marketinq strategiyaları: Hər bir bazarın özünəməxsus xüsusiyyətləri olduğundan, şirkətlər öz marketinq strategiyalarını uyğunlaşdırmalıdır. Məhsulun dizaynı, qablaşdırma, qiymət siyasəti, reklam və digər aspektlər yerli mədəniyyət və zövqlərə uyğunlaşdırılmalıdır ki, məhsul hədəf bazarda daha yaxşı qəbul edilsin.

3. Texnoloji dəstəklənmə: Rəqəmsal marketinq vasitələri və sosial media beynəlxalq bazarda müştərilərlə əlaqəni asanlaşdırır. Şirkətlər bu vasitələrdən istifadə edərək beynəlxalq auditoriyaya çatmaq və onların tələbatlarını tez bir zamanda öyrənmək üçün rəqəmsal platformalardan istifadə edə bilərlər.

4. Kulturoloji çətinliklərin aradan qaldırılması: Şirkətlər kulturoloji fərqləri nəzərə almalı və məhsullarını bu fərqlərə uyğun təklif etməlidirlər. Beynəlxalq işçi heyətinə və ya kulturoloji məsləhətçilərə müraciət edərək, yerli bazarda daha güclü əlaqə yaratmaq mümkündür.

5. Valyuta riski idarəetməsi: Valyuta dəyişiklikləri beynəlxalq əməliyyatlarda böyük rol oynayır. Şirkətlər valyuta riski idarəetmə strategiyaları, məsələn, forvard müqavilələri və hedcinq kimi alətlərdən istifadə edərək bu riski azaltmağa çalışmalıdırlar.

6. Tərəfdaşlıqlar və birgə sərmayələr: Yerli şirkətlərlə tərəfdaşlıq qurmaq və ya birgə müəssisələr yaratmaq, şirkətlərə bazara daha sürətli uyğunlaşmaq və yerli müştəri bazasına yaxınlaşmaq imkanı verir. Bu, həm də hüquqi maneələri aşmağa və yerli tənzimləmələrlə daha yaxşı uyğunlaşmağa kömək edir.

Bu yanaşmalar şirkətlərin beynəlxalq bazarlarda daha səmərəli fəaliyyət göstərməsinə və kommersiya problemlərinin öhdəsindən gəlməsinə kömək edəcək. Azərbaycanda beynəlxalq biznesin hüquqi tənzimlənməsi necə aparılır?

Beynəlxalq biznes problemlərinin həllinə yönəlik bu strategiyalar şirkətlərin qlobal bazarlarda daha effektiv işləmələrinə və rəqabətqabiliyyətli olmaqlarına kömək edir. Beynəlxalq ticarət problemlərinin effektiv həlli şirkətlərin qlobal genişlənmə prosesində uğur qazanma ehtimallarını artırır və eyni zamanda müştərilərin tələbatlarını qarşılayaraq uzunmüddətli bazar mövqelərini möhkəmləndirməyə imkan yaradır. Bu problemləri həll edərkən hər bir problemin özünəməxsus xüsusiyyətlərinə uyğun strategiyalar tətbiq etmək və davamlı olaraq bazar dəyişikliklərinə adaptasiya olunmaq vacibdir. Şirkətlər bu problemləri düzgün idarə edərək və inkişaf edən texnologiyalardan istifadə edərək qlobal arenada uğur qazana bilərlər.

Beynəlxalq biznesin hüquqi tənzimlənməsində Beynəlxalq Ticarət Palatasının və digər beynəlxalq təşkilatların rolu. Beynəlxalq iqtisadi münasibətlərin hüquqi tənzimlənməsində Beynəlxalq Ticarət Palatasının rolu çox böyükdür. Sonuncuya misal olaraq qlobal biznes təşkilatı və bütün dünyada bütün növ bizneslər adından çıxış etmək səlahiyyətinə malik yeganə nümayəndəlik orqanı olan Beynəlxalq Ticarət Palatasını (BTP) göstərmək olar. BTP hələ 1919-cu ildə yaradılıb. Bu gün onun tərkibinə 130-dan çox ölkədən çoxlu sayda şirkət və assosiasiyalar daxildir. Milli komitələr öz üzvləri ilə işlərini elə qururlar ki, hər bir ayrı-ayrı ölkədə sahibkarlıq problemləri nəzərə alınsın və həll edilsin və BTP tərəfindən formalaşdırılan biznes ictimaiyyətinin mövqeyi bu ölkələrin hər birinin hökumətlərinin diqqətinə çatdırılsın.

BTP beynəlxalq ticarət və investisiyaların, eləcə də bazar iqtisadiyyatları arasında əməkdaşlığın polisemantik sisteminin formalaşmasına kömək edir. Onun ticarətin xalqların sülh və firavanlığına nail olmaq üçün “hərəkətverici qüvvə” olduğuna dair qəti inam bu təşkilatın yarandığı ötən əsrin

əvvəllərində yaranıb. BTP-nin təsisçiləri beynəlxalq biznesin birbaşa iştirakçıları olduğundan, bu təşkilat beynəlxalq kommersiya fəaliyyətinin tənzimlənməsi qaydalarının işlənib hazırlanmasında yüksək peşəkarlıq və unikal səriştəyə malikdir. Bu qaydalar məcburi deyil, lakin onlar sonsuz sayda əməliyyatlarda geniş istifadə olunur və bütün bu qaydalar müasir beynəlxalq ticarətin müəyyən əsasına çevrilmişdir. Bir çox ölkələrin Beynəlxalq Ticarət Palatasının fəaliyyətinə marağı bu təşkilatın BMT-nin əsas məsləhət orqanı statusu, eləcə də bu təşkilatın ixtisaslaşmış qurumları statusu almasına təkan verdi.

BTP-nin işinin parlaq nümunəsi kiçik və orta biznesin fəaliyyətini əhəmiyyətli dərəcədə asanlaşdıran standart alqı-satqı müqaviləsinin yaradılmasıdır. Bu tip saziş dünyanın aparıcı və dinamik iqtisadi sektorlarından birini əhatə etdiyi üçün mühüm əhəmiyyət kəsb edir. O, məsələn, hazır məhsullarla kommersiya əməliyyatlarında (topdansatış, tacirlər arasında və ya biznesdən biznesə satış) istifadə olunur. Bunlara aşağıdakılar daxildir: elektron avadanlıq, avadanlıq və alətlər, tekstil, geyim və ayaqqabı, mebel, ofis məhsulları və s. Geniş tətbiq dairəsinə baxmayaraq, bu cür alqı-satqı müqavilələri digər beynəlxalq ticarət əməliyyatlarından, məsələn, əmtəə və kənd təsərrüfatı malları (taxıl, filiz, ərzaq, kimyəvi maddələr və s.) və ya birbaşa satışdan fərqləndirilməlidir. Xüsusi məhdudiyyətlər və ya ticarət qaydaları tətbiq oluna bilən istehlakçılar [6,s.788]. Beynəlxalq Ticarət Palatası (BTP) beynəlxalq biznes ideyalarının sözçüsüdür, qlobal iqtisadiyyatın iqtisadi artımı, iş yerlərinin yaradılmasını və rifahını təmin edə bilən əsas amil kimi müdafiəsini müdafiə edir, bununla da iqtisadi insan hüquqlarının həyata keçirilməsini təmin edir. [1,s.25].

Hüquqi və fiziki şəxslərin hüquqlarının həyata keçirilməsində hüquqi və iqtisadi fikir ayrılıqlarının qarşısını almaq üçün BTP-yə beynəlxalq səviyyədə milli komitələr seçilir, onlar bizneslə bağlı bütün növ məsələlər üzrə BTP ilə qarşılıqlı əlaqədə olurlar. Milli iqtisadiyyatlar indi o qədər sıx bağlıdır ki, hökumət qərarları beynəlxalq miqyasda keçmişdə olduğundan daha dərin təsir bağışlayır. BTP bizneslərə hökumətlərlə mənalı və birbaşa ünsiyyət qurmağa imkan verir.

Beynəlxalq Ticarət Palatası insan hüquqları və beynəlxalq korporasiyalar məsələsi üzrə Baş katibin xüsusi nümayəndəsinin mandatının həyata keçirilməsinə davamlı dəstək verir. Onun dəstəyi, insan hüquqları da daxil olmaqla, korporativ məsuliyyət üçün standartların müəyyən edilməsi üzrə Xüsusi Nümayəndəliyin səylərinə biznes ictimaiyyətinin perspektivini əks etdirən çoxsaylı materialların istehsalı vasitəsilə ifadə olunub. Beynəlxalq Ticarət Palatasının Beynəlxalq İşəgötürənlər Təşkilatı və İqtisadi Əməkdaşlıq Təşkilatının Ticarət və Sənaye Məsləhət Komitəsi ilə birgə hazırladığı “zəif idarəetmə” sahələrində biznesin roluna dair sənədi belə materiala misal göstərmək olar. [2, s. 907] Son illərdə Xüsusi Nümayəndə və onun komandasının üzvləri Beynəlxalq Ticarət Palatasının korporativ məsuliyyət və məşğulluq üzrə işçi orqanında çıxış etmək və məsələləri müzakirə etmək üçün müntəzəm olaraq dəvət olunurlar. Beynəlxalq Ticarət Palatası həmçinin Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığının İdarəsi tərəfindən təşkil edilən çoxtərəfli məsləhətləşmələrdə iştirak edir. BCM və BMT-nin birgə fəaliyyət istiqamətlərindən biri transmilli korporasiyalar tərəfindən insan hüquq və azadlıqlarına riayət olunmasının monitorinqidir. Transmilli korporasiyaların (TMŞ) fəaliyyəti BMT-nin nəzarəti altına düşə bilər, çünki sonuncu BMT-nin “Transmilli korporasiyaların məsuliyyət standartları” konvensiyasının layihəsini təsdiq edib və bu konvensiya iri biznesin üzərinə dövlətlər kimi eyni öhdəliklər qoyur.

Transmilli korporasiyalar ətraf mühitin pozulmasına, çirkləndirilməsinə və insan hüquqlarının pozulmasına yol verməməli: biznes, marketinq və reklam və digər fəaliyyətlərdə “ədalətli oyun qaydalarına” riayət etməli, istehlakçılara “məhsulların təhlükəsizliyi və yüksək keyfiyyəti və təklif etdikləri xidmətlər”, işçilərə isə “təhlükəsiz və sağlam iş şəraiti” və “işçilərin özləri və ailələri üçün adekvat həyat səviyyəsini təmin edən əməkhaqqı”. BTP korporasiyalara “insanlığa qarşı cinayətlər, soyqırım, işgəncə, məcburi əmək” və “beynəlxalq humanitar hüquq”un digər pozuntuları ilə bağlı fəaliyyətlərin qadağan edilməsini təklif edib. Onlardan tələb olunur ki, öz məhsullarının insan haqlarını pozanlar tərəfindən istifadə olunmamasını təmin etsinlər. Korrupsiyaya qarşı ciddi mübarizə strategiyası olan korporasiyalara rüşvət vermək, almaq və tələb etmək qadağandır [10, s.28].

BMT və BTP-nin birgə səylərinə əsasən, korporasiyalar öz daxili qaydalarına ciddi şəkildə düzəliş etməli və bütün subpodratçılarının, təchizatçılarının, müttəfiqlərinin və distribyutorlarının BMT qaydalarına əməl etməsini təmin etməlidirlər. Korporasiyalar qaydaların icrası barədə vaxtaşırı BMT-yə hesabat verməli, təşkilatlar isə "digər beynəlxalq və milli qurumlarla" əməkdaşlıq edərək onların fəaliyyətlərinə daim nəzarət etməlidirlər. İşçi qrupa "hökumətlərdən, qruplardan və ayrı-ayrı şəxslərdən transmilli korporasiyaların və digər şirkətlərin insan hüquqlarına mümkün mənfi təsiri barədə məlumat almaq tapşırılıb. Şirkətləri beynəlxalq standartlara riayət etməyə sövq edən təkcə BMT deyil, həm də "lazımi hüquqi və inzibati strukturları yaratmaq və gücləndirmək" tələb olunan milli hökumətlər olacaq.

2000-ci ildən BMT çərçivəsində Qlobal Saziş qüvvədədir . Bu müqavilə doqquz əsas prinsipdən ibarətdir, məsələn, insan hüquqlarının və ətraf mühitin qorunması prinsipi, əmək standartları və s. BMT-nin Beynəlxalq Ticarət Palatasının sazişi onun məqsəd və vəzifələrini dəstəkləyir və iştirakçıları arasında təbliğ edir. Bununla belə, bir çox TMK-lar insan hüquqlarının müdafiəsi sahəsində koordinasiya tələb edən və çox xərc tələb edən fəaliyyətlə məşğul olmaqdan çəkinirlər, çünki onların bir çox rəqibləri eyni şeyi etməyəcəklər. Bu da sonradan BMT-nin tələblərini yerinə yetirən korporasiyaların həm statusuna, həm də sosial-iqtisadi vəziyyətinə təsir göstərə bilər. Eyni zamanda, beynəlxalq monitorinq mexanizminin tətbiqi ilə belə narahatlıqlar minimuma endirilir.

Azərbaycan təcrübəsindən göründüyü kimi, bəzi şirkətlər artıq Qlobal Saziş çərçivəsində BMT ilə könüllü olaraq qanuni əməkdaşlıq edirlər. Bu sazişin əleyhdarları da var. Onlar əmindirlər ki, bu saziş və bütövlükdə BMT layihəsi biznes fəaliyyətinin milli xüsusiyyətlərini nəzərə almır. Əslində, siyasəti qanunların ciddi şəkildə icrasına, ölkəsinin iqtisadi və tarixi-mədəni ənənələrinə əsaslanan bəzi şirkətlər istər-istəməz BMT normaları ilə milli qanunvericilik arasında fərdi ziddiyyətlərlə qarşılaşırlar. Burada isə dövlətlərarası hüquq münasibətlərinin unifikasiyası sahəsində olan problemlər xüsusi əhəmiyyət kəsb edir.

Dövrümüzün müxtəlif hüquq sistemlərinin və onların qanunvericilik orqanının xüsusiyyətlərini nəzərə alsaq, vahid beynəlxalq hüquq normalarının müəyyən edilməsi kifayət qədər problemli görünür.

İqtisadi münasibətlərin tənzimlənməsi sahəsində beynəlxalq təşkilatların və xüsusi beynəlxalq hüququn rolu əhəmiyyət kəb edir.

Tənzimləmə sahəsində əhəmiyyətli sayda beynəlxalq təşkilatlar, məsələn, beynəlxalq xüsusi hüquq (Haaqa Konfransları, Dünya Ticarət Təşkilatı, BMT-nin Ticarət və İqtisadi İnkişaf üzrə Koordinasiya Mərkəzi UNCTAD, BMT-nin Beynəlxalq Ticarət Komissiyası UNCITRAL, BTP və bir çox başqaları) mübahisəli situasiyalarda qanunların ziddiyyəti metodundan istifadə edərək, maddi qaydaların üstünlük təşkil etdiyi hüquqi mübahisələrin tənzimlənməsi metodundan istifadə edərək milli qanunvericiliyin xüsusiyyətlərini nəzərə almağa çalışırlar ki, qanunçuluqda olan boşluqlar doldurulsun. Ancaq burada da çoxlu uyğunsuzluqlar var. Bu mənada beynəlxalq xüsusi hüququn bütün sahələrində zəruri olan beynəlxalq hüquq yaradıcılığının formalaşma sahələrindən biri kimi hüququn unifikasiyası iki səviyyədə, regional və universal olaraq baş verməlidir. Burada, qeyd edildiyi kimi, birləşmə proseslərində mühüm rol beynəlxalq özəl hüquq münasibətlərinin bir əsrdən çox tarixində formalaşmış sistemləşdirilmiş qaydalar və işgüzar adətlər toplularını nəşr edən BTP-yə məxsusdur. Uyğunlaşma prosesləri, yəni. unifikasiyadan fərqli olaraq ayrı-ayrı milli hüquq sistemlərinin yaxınlaşması, xüsusən də beynəlxalq öhdəliklərin müəyyən edilməsi zərurəti ilə əlaqədar bizə daha optimal görünür. Lakin hər iki halda özəl tərəfdaşlıqların fəaliyyəti əsasən boş və kifayət qədər ziddiyyətli olaraq qalır. Münaqişələr beynəlxalq orqanlar sistemi İnvestisiya Mübahisələrinin Həlli üzrə Beynəlxalq Mərkəz və BTP yanında Arbitraj Məhkəməsi tərəfindən tənzimlənir.

Beynəlxalq təcrübədə beynəlxalq biznesin tənzimlənməsinin səviyyələri. Beynəlxalq təcrübədə beynəlxalq biznesin tənzimlənməsi 3 səviyyədə həyata keçirilir: beynəlxalq, milli və regional. Milli səviyyədə idxala görə tutulan gömrük rüsumları daha çoxdur. Milli istehsalın maraqlarını qorumaq məqsədi ilə antidempinq tədbirlərindən istifadə edilir ki, antidempinq

tədbirləri ölkəyə idxal olunan məhsulların qiymətinin aşağı salınması ilə mübarizə aparmaq üçün istifadə edilir. Beynəlxalq biznesin tənzimlənməsi üçün valyuta kursunun dinamikasına müxtəlif vasitələrlə təsir edilir. Bir çox qabaqlayıcı prosedurlar, məsələn, valyuta ehtiyatlarının bir hissəsinin məcburi satışı həyata keçirilir, xarici ticarət sazişlərində valyuta ödəmələrinin daxilolma müddəti qoyulur. Malların idxalı və ixracında miqdar məhdudiyyətlərinin yəni kvotaların qoyulması həyata keçirilir. Müəyyən mal növlərinin ticarətinə və ya ümumilikdə beynəlxalq biznesə dövlət öz monopoliyasını tətbiq edərək, bəzi malların idxal-ixracına lisenziyanın alınması tələb edilir.

Beynəlxalq biznesin dövlət tənzimlənməsində qəbul edən ölkənin XİF-nin subyektlərinin, transmilli şirkətlərinin vəzifələri, hüquqları, ölkənin tənzimləmə həddini müəyyən edən qanunlarla həyata keçirilməlidir. Beynəlxalq biznesin ölkədə inkişafı dövlətin ciddi nəzarətində həyata keçirilməlidir. Cənubi Koreya təcrübəsinə diqqət yetirsək orada beynəlxalq biznesin sənayeləşmədə və Koreyanın rəqabətdə uğurunun bir simvolu kimi formalaşması, bu prosesin 1961-ci ildən dövlətin nəzarətində olması ilə əlaqəlidir.

Əksər iqtisadçılar kimi, M.Kastels də XX əsrdəki liberallaşma meyillərini və mövcud istehsal amillərinin hərəkətində yaranan çətinliklərdən çıxış yolunu texnoloji inqilabla, onun inkişafı ilə əlaqələndirir. 1970-ci illərdə yeni texnologiyaların vahid sisteminin yaranması 1980-ci illərdə sənayesi inkişaf etmiş ölkələrdə sosial-iqtisadi yenidənqurma prosesinin əsası olmuşdur. İdarəetmənin səmərəli təşkili edilməsi sərmayə rejimlərinin daha çox sərbəstləşməsi əsasında transmilli biznes əlaqələrinə qoşulmaq üçün ölkələri stimullaşdırdı. [7, s. 409]

Müxtəlif ölkələrin qanunvericiliyinin fərqli yanaşmaları dövlətlər və TMŞ arasında ciddi problemlərin yaranması zamanı transmilli biznesin tənzimlənməsinin universal bir formasının olmasına tələbat yaratmışdır. Bu da müxtəlif üsulların və metodların tətbiqi ilə bazarın, sahibkarlıq fəaliyyətinin tənzimlənməsini zəruri etmişdir. BMT nizamnaməsində transmilli bizneslə bağlı məsələlərin həllinin baza şərtləri də əks olunmuşdur. Nizamnamənin 55-ci maddəsində deyilir ki, xalqların özünütəminetməsinə Birləşmiş Millətlər Təşkilatı kömək edir.

Beləliklə, dövlətlər müxtəlif sahələrdə birgə fəaliyyət zamanı beynəlxalq hüquq normalarına əsasən standartlar hazırlamışlar və bu hamı tərəfindən qəbul edilmişdir. Dövlətlər tərəfindən sərt şəkildə qəbul edilmiş qaydaların qəbul edilməsində beynəlxalq hüququn tənzimləyici funksiyası özünü göstərir. Dövlətlərin müəyyən davranış qaydalarına əməl etməsini məcburi qaydada həyata keçirməsini təmin edən normaları beynəlxalq hüquq özündə əks etdirir. Beynəlxalq hüquqda dövlətlərin maraqlarını və beynəlxalq hüquqlarını qanuni qoruyan mexanizmlər mövcuddur.

Nəticələr

Milli və dövlətlərarası hüquq münasibətlərinin unifikasiyası və uyğunlaşdırılmasının ən mühüm sahəsi milli qanunvericiliyin olmaması ilə mürəkkəbləşir. Onların tənzimlənməsi imkanları, ilk növbədə, dövlətlərin razılaşmaları səviyyəsində, hər bir qanunun milli mənafeyə xidmət edən xüsusiyyətlərinin nəzərə alınması ilə mürəkkəbləşmişdir. Bu mənada beynəlxalq hüquqi, iqtisadi, mədəni və digər münasibətlərin məzmununun dərk edilməsində etnometodoloji təcrübədən istifadə beynəlxalq hüquq sahəsində alimlərə - nəzəriyyəçilərə və mütəxəssislərə imkan verəcək ki, onların əksəriyyətində mübahisəli və münaqişəli vəziyyətlərdən qaçmağa imkan verən tədbirlər sistemini əsaslandırsınlar.

Təkcə milli qanunvericilikdəki fərqliliklərdən deyil, həm də müasir ümumi hüquq nəzəriyyəsi tərəfindən öyrənilən digər siyasi, sosial-iqtisadi və mədəni fərqliliklərdən qaynaqlanan beynəlxalq xüsusi hüquq münasibətləri bütün üzvlər tərəfindən nəzərə alınmalıdır. Ticarətdə ədalətli rəqabət bəzi təşkilatların dövlətlərin marjinal vəziyyətdə qalmasının qarşısını almalı və digərlərinə hakim yer təmin etməlidir. Bu nəzəriyyənin öyrəndiyi marjinal davranışın səbəb-nəticə xarakteri, marjinal hüquqi şüurun deformasiya mexanizmləri və daha çox şeylərin öyrənilməsi beynəlxalq iqtisadi münasibətlər sahəsində müxtəlif hüquqpozmaların, o cümlədən cinayətlərin törədilməsinin qarşısını almağa kömək etməlidir.

Beləliklə, beynəlxalq iqtisadi münasibətlərin hüquqi tənzimlənməsi məsələləri həm ümumi hüquq nəzəriyyəsində, həm də ümumilikdə beynəlxalq hüquqda ən aktual tədqiqat sahələrindən birini təşkil edir. Beynəlxalq əməkdaşlığı hüquqi əsasda quran ölkələrin iqtisadiyyatlarının inkişafı əsasən doktrinal tədqiqatların uğurundan asılıdır.

ƏDƏBİYYAT

1. Allahverdiyeva, M.A. Transmilli biznesin tənzimlənməsi məsələləri. //Bakı: İpək yolu, Azərbaycan Universitetinin elmi jurnalı, - 2014, № 1. - s. 20-28
2. Аллахвердиева, М.А. Регулирование транснационального бизнеса в условиях международной экономической нтеграции//-Москва: Журнал Экономика и предпринимательства - 2015, - N 6 ,- с. 906 -911
3. Вулатова А.С., Ливенцева Н.Н. Мировая экономика и международные экономические отношения: Учеб. / МГИМО (университет) МИД России; — Изд. с обновл. — М.: Магистр: НИЦ ИНФРА-М, 2013. С.654.
4. Гаврилко, Г. Н. Беларусь в системе мирохозяйственных связей : учеб.-метод. комплекс / Г. Н. Гаврилко. – Минск : ИВЦ Минфина, 2015. – 272 с.
5. Emir-İlyasova, E. “Azərbaycan Respublikasının dünya iqtisadiyyatına inteqrasiyası şəraitində xarici-iqtisadi əlaqələri”:/ İqtisadiyyat üzrə elmlər dok. dissertasiyası)/ - Bakı, -2013, s. 280.
6. Международный бизнес : учеб. [пер. с англ.] / Р. Гриффин, М. Пастей ; под ред. А. Г. Медведева. – СПб. : Питер, 2006. – 1088 с.
7. Гурова, И. П. Этика международных экономических отношений : учеб. пособие / И. П. Гурова. – М. : Дело, 2014. – 408 с.
8. Данильченко, А. В. Интернационализация деловой активности стран и компаний / А. В. Данильченко, Е. В. Бертош, О. Ф. Малашенкова. – Минск : БГУ, 2015. – 295 с.
9. Дэниелс, Дж. Международный бизнес: внешняя среда и деловые операции / Дж. Дэниэлс, Л. Х. Радебаенко ; пер. с англ. С. В. Власенко [и др.]. – М. : Дело, 1998. – 784 с.
10. Dunning, J. H. (1980). "Toward an eclectic theory of international production: Some empirical tests." Journal of International Business Studies, 11(1), 9-31.
11. Международные экономические отношения : учеб. / под ред. А. И. Евдокимова. – М. : Проспект, 2014. – 656 с.
12. Международный бизнес : учеб. пособие / под ред. М. И. Балашевича. – Минск : БГЭУ, 2013. – 296 с.
13. Михалкин, В. А. Международный бизнес : учеб. пособие / В. А. Михалкин. – М. : Магистр, 2015. – 320 с.
14. Мировая экономика : учеб. пособие / А. А. Праневич [и др.] ; под ред. А. А. Праневич. – Минск : БГЭУ, 2014. – 509 с.
15. Johanson, J., & Vahlne, J.-E. (1977). "The internationalization process of the firm - A model of knowledge development and increasing foreign market commitments." Journal of International Business Studies, 8(1), 23-32.
16. Porter, M. E. (1990). "The competitive advantage of nations." Harvard Business Review, 68(2), 73-93.

Мурад Шахрза оглы Алиев
Докторант AKU
muradalyv99@gmail.com

Проблемы регулирования международного бизнеса

Резюме

Цель исследования: В статье рассматриваются вопросы правового регулирования международного бизнеса. Внимание автора сосредоточено на деятельности международных организаций в сфере торговли, его основной задачей является развитие процессов

интеграции международных экономических и правовых отношений, основанных на уважении и соблюдении прав и свобод человека.

Методология исследования: Экономические теории классиков, исследования современных западных и отечественных ученых по вопросам становления и развития международного бизнеса и международных компаний, а также регулирования их деятельности, согласно теме исследования, представляют собой различные нормативно-правовые акты, принятые правительством республики.

Прикладное значение исследования: теоретические результаты и положения исследований «Международный бизнес», «Мировая экономика», «Международные экономические отношения», «Международная торговля» и др. Азербайджанского государственного экономического университета. используется при преподавании предметов.

Результаты исследования: Результаты и предложения, приведенные в статье, могут быть использованы в центральных органах управления при подготовке мер, связанных с государственным регулированием международного бизнеса, его координацией, развитием и диверсификацией структуры и производственной базы.

Оригинальность и научная новизна исследования: проанализированы правовые аспекты регулирования международного бизнеса в Азербайджане и определено, что балансирование правовой базы, обеспечивающей баланс международного торгово-экономического сотрудничества, создание международной совместимости с системой многосторонних межгосударственных соглашений, отдание приоритета экономические методы над административными, регулирование международного бизнеса, важно повысить уровень прозрачности информационно-коммуникационной системы

Ключевые слова: международный бизнес, международные организации, ВТО, МТП.

Murad Shahrza Aliev
Doctoral student AKU
muradalyv99@gmail.com

Problems of regulation of international business

Summary

The purpose of the study: The article examines the issues of legal regulation of international business. The author's attention is focused on the activities of international organizations in the field of trade, his main task is to develop the processes of integration of international economic and legal relations based on respect and observance of human rights and freedoms.

Research methodology: Economic theories of the classics, research of modern Western and domestic scientists on the issues of formation and development of international business and international companies, as well as regulation of their activities, according to the topic of the study, represent various regulatory legal acts adopted by the government of the republic.

Applied significance of the study: theoretical results and provisions of the studies "International Business", "World Economy", "International Economic Relations", "International Trade" and others. Azerbaijan State University of Economics. is used in teaching subjects.

Results of the research: The results and proposals presented in the article can be used in central government bodies in preparing measures related to state regulation of international business, its coordination, development and diversification of the structure and production base.

Originality and scientific novelty of the research: the legal aspects of regulating international business in Azerbaijan were analyzed and it was determined that balancing the legal framework that ensures the balance of international trade and economic cooperation, creating international compatibility with the system of multilateral interstate agreements, giving priority to economic methods over administrative ones, regulating international business, it is important to increase the level of transparency of the information and communication system

Key words: international business, international organizations, WTO, ITP.

UOT 330.

Həmid Kamran oğlu ŞİRİNOV
Doktorant, AKU
shirinov-h@mail.ru
https://doi.org/10.30546/4.71.73001.2025.001.0111

BİZNES MÜHİTİNİN MÜASİR PROBLEMLƏRİ VƏ ONLARIN MÜƏYYƏN EDİLMƏSİ

Xülasə

Tədqiqatın məqsədi müasir biznes mühitində əsas problemlərin təhlili və müəyyən edilməsi, onların səbəblərinə diqqət yetirmək və həlli üçün effektiv strategiyalar təklif etməkdir.

İşin metodologiyası biznes mühitindəki müasir problemləri müəyyən etmək və araşdırmaq üçün statistik məlumatların təhlili kimi kəmiyyət üsulları ilə yanaşı ekspert müsahibələri və işlərin təhlili də daxil olmaqla keyfiyyət metodlarının birləşməsindən ibarətdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti biznes mühitində müasir çağırışlara cavab verən, davamlı iqtisadi inkişafı təşviq edən effektiv strategiyalar və islahatları tərtib etmək üçün siyasətçilər və biznes liderləri üçün təsirli anlayışlardan ibarətdir.

Tədqiqatın nəticələri rəqabət qabiliyyətini və əməliyyat səmərəliliyini artırmaq üçün məqsədyönlü həllər təklif etməklə yanaşı, tənzimləyici səmərəsizliklər, texnoloji boşluqlar və bazarın parçalanması da daxil olmaqla müasir biznes mühitində kritik problemləri müəyyən edir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi onun Azərbaycana xas olan müasir biznes çağırışlarının hərtərəfli təhlilində, inkişaf edən iqtisadi mənzərədə tənzimləmə, texnoloji və bazar problemlərini həll etmək üçün innovativ çərçivələr və lokallaşdırılmış strategiyalar təklif etməkdədir.

Açar sözlər: biznes mühiti, iqtisadi mənzərə, lokallaşdırılmış strategiyalar, effektiv.

Giriş

Müasir biznes mühiti sürətli texnoloji tərəqqi, qloballaşma və inkişaf edən istehlakçı tələbləri ilə xarakterizə olunur. Bu dinamik mənzərədə bizneslər tənzimləmə mürəkkəbliyindən tutmuş rəqabət təzyiqlərinə qədər çoxsaylı çətinliklərin öhdəsindən gəlməlidir. Bu problemlərin başa düşülməsi Azərbaycan kimi iqtisadi diversifikasiya və qloballaşmanın əsas məqsədlər olduğu regionlarda davamlı iqtisadi artım trayektoriyasının dəstəklənməsi üçün çox vacibdir. Bu gün biznes mühiti dəyişkənlik, mürəkkəblik və qeyri-müəyyənlik ilə seçilir. Bu amillər texnoloji yeniliklərdən, iqtisadi inteqrasiyadan, ətraf mühitlə bağlı narahatlıqlardan və sosial transformasiyalardan qaynaqlanır. Bu cür dəyişikliklər görünməmiş imkanlar təqdim etməklə yanaşı, həm də əhəmiyyətli problemlər yaradır. Şirkətlər təkcə yerli firmalar tərəfindən deyil, həm də qabaqcıl texnologiyalardan və innovativ biznes modellərindən istifadə edən qlobal oyunçular tərəfindən artan rəqabətlə üzləşirlər. Məsələn, Amazon və Alibaba kimi e-ticarət nəhənglərinin yüksəlişi ənənəvi pərakəndə satış bazarlarını pozdu, bizneslər sürətlə uyğunlaşmağa məcbur etdi və ya köhnəlmə riski ilə üzləşdi [5, s. 67].

Azərbaycanda biznes mühiti qlobal tendensiyaları əks etdirir, eyni zamanda özünəməxsus yerli çağırışları da daşıyır. Ölkənin neftdən asılı iqtisadiyyatdan şaxələndirilmiş, biliklərə əsaslanan iqtisadiyyata keçidi biznes siyasətlərinin və təcrübələrinin yenidən qurulmasını tələb edir. Çətinliklərə bürokratik əngəllər, kiçik və orta sahibkarlıq (KOB) üçün maliyyə imkanlarının məhdudluğu və texnoloji qəbulda boşluqlar daxildir. Bu məsələlərin həlli investisiya cəlb etmək və innovasiyaları təşviq etmək qabiliyyətinə malik möhkəm və rəqabətqabiliyyətli biznes ekosistemi yaratmaq üçün vacibdir.

Davamlı iqtisadi artım müəssisələrin ekoloji çağırışlara uyğunlaşmaq və onların aradan qaldırılması imkanlarından asılıdır. Düzgün işləyən biznes mühiti məşğulluğu, innovasiyaları və sərvət yaratmağı təşviq edən istənilən iqtisadiyyatın əsası kimi xidmət edir. Azərbaycanda hökumət

uzunmüddətli inkişaf strategiyasının, o cümlədən “Azərbaycan 2030: Sosial-İqtisadi İnkişafın Milli Prioritetləri” çərçivəsində biznes mənzərəsinin modernləşdirilməsinin zəruriliyini dərk edib. Bu strategiya sahibkarlıq üçün əlverişli mühitin yaradılmasını, rəqəmsal transformasiyanın gücləndirilməsini və qlobal dəyər zəncirlərinə inteqrasiyanı vurğulayır [1].

Azərbaycan iqtisadiyyatının qarşısında duran mühüm problemlərdən biri tənzimləmənin səmərəsizliyidir. Mürəkkəb qanunvericilik bazaları və icradakı uyğunsuzluqlar xarici və yerli investorları çəkindirə bilər. Qaydaların sadələşdirilməsi və şəffaflığın artırılması sahibkarlığı stimullaşdıra və beynəlxalq investisiyaları cəlb edə bilər. Məsələn, Dünya Bankının Biznes Etmək Asanlığı İndeksi göstərmişdir ki, biznesə başlamaq üçün sadələşdirilmiş prosedurlara malik olan ölkələrdə daha yüksək səviyyədə investisiya və iş yerlərinin yaradılması müşahidə olunur [9]. Bundan əlavə, texnologiya müasir biznes mühitlərində həlledici rol oynayır. Rəqəmsal transformasiyanı qəbul edən ölkələr daha yüksək məhsuldarlıq və innovasiyaya meyillidirlər. Azərbaycan bu sahədə xüsusilə ASAN Xidmət və Rəqəmsal Ticarət Qovşağı kimi təşəbbüslər vasitəsilə irəliləyişlər əldə edib, lakin rəqəmsal vasitələrin sektorlar arasında inteqrasiyasında boşluqlar qalmaqdadır. Bu boşluqların aradan qaldırılması bizneslərə əməliyyatları optimallaşdırmağa və xərcləri azaltmağa imkan verməklə rəqabət qabiliyyətini və davamlılığı artıra bilər.



Şəkil 1. Biznes mühitində mövcud problemlərin müəyyən edilməsi strategiyaları.
Mənbə: *Brynjolfsson, E., & McAfee, A. (2014). The Second Machine Age: Work, Progress, and Prosperity in a Time of Brilliant Technologies. W. W. Norton & Company.*

Müasir biznes mühiti həm fürsət, həm də çağırışdır. Azərbaycan üçün bu mühitdə səmərəli naviqasiya əsas maneələrin aradan qaldırılmasını, qlobal təcrübələrdən yararlanmağı, innovasiya və uyğunlaşma mədəniyyətini inkişaf etdirməyi tələb edir. Biznes problemlərinin əsas səbəblərini diaqnostika etməklə, beynəlxalq standartlara uyğun müqayisə aparmaqla və fərdi həll yolları təklif etməklə Azərbaycanda rəqabətədavamlı və dayanıqlı biznes ekosistemi yaratmaq kimi daha geniş məqsədə töhfə verir. Bu da öz növbəsində, ölkənin regionda innovasiya və sahibkarlıq mərkəzi olmaq ambisiyasını dəstəkləyir.

Biznes mühitinin dinamikasını başa düşmək şirkətlərin və iqtisadiyyatların üzləşdiyi çətinlikləri və imkanları müəyyən etmək üçün vacibdir. Biznes təcrübələri, xarici amillər və iqtisadi göstəricilər arasında qarşılıqlı əlaqəni izah etmək üçün müxtəlif nəzəri yanaşmalar işlənib hazırlanmışdır. Bu nəzəriyyələr bizneslərin öz mühitlərinə necə yönləndirilməsi və uyğunlaşması haqqında dəyərli fikirlər verir.

Biznes mühitinin müəyyən edilməsinin nəzəri yanaşmaları


Biznes mühiti geniş mənada biznesin fəaliyyətinə təsir edən həm daxili, həm də xarici amillərin məcmusu kimi başa düşülə bilər. Bu amillər iqtisadi şəraitdən, texnoloji irəliləyişlərdən və tənzimləmə dəyişikliklərindən tutmuş sosial-mədəni dəyişikliklərə və qlobal bazar tendensiyalarına qədər dəyişir. Bu dinamikanı təhlil etmək üçün bir sıra nəzəri çərçivələr hazırlanmışdır.

Porterin beş güc analiz modeli

Michael Porter-in Beş Güc modeli sənayenin rəqabət mühitini təhlil etmək üçün ən çox istifadə edilən modellərdən biridir. Porterin (1980) fikrincə, biznes mühiti beş əsas qüvvə ilə formalaşır: yeni girənlərin təhlükəsi, təchizatçıların sövdələşmə qabiliyyəti, alıcıların sövdələşmə qabiliyyəti, əvəzedici məhsul və ya xidmətlər təhlükəsi və rəqabətli rəqabətin intensivliyi. Bu model şirkətlərin rəqabət təzyiqləri daxilində necə fəaliyyət göstərdiyini və rəqabət üstünlüyü əldə etmək üçün strategiyaları necə inkişaf etdirə biləcəklərini anlamaqda faydalıdır. Azərbaycan kontekstində bu model neft və qaz, kənd təsərrüfatı və istehsalat kimi müxtəlif sektorlarda bizneslərin üzləşdiyi problemləri təhlil etməyə kömək edə bilər [7, s.54].

PESTEL Analizi

PESTEL (Siyasi, İqtisadi, Sosial, Texnoloji, Ətraf Mühit və Hüquq) təhlili biznes əməliyyatlarına təsir edən xarici amilləri araşdırmaq üçün istifadə edilən digər mühüm nəzəri çərçivədir. Model biznes qərarlarının qəbulunu formalaşdıran makro-mühit amillərinin təsirini vurğulayır. Johnson və başqalarına görə. (2017), PESTEL faktorlarını başa düşmək bizneslərə əməliyyat mühitində dəyişiklikləri qabaqcadan görməyə və strategiyalarını buna uyğun uyğunlaşdırmağa kömək edir. Azərbaycanda siyasi sabitlik, iqtisadiyyatın diversifikasiyası, texnoloji mənimsənilməsi və ekoloji davamlılıq biznes mənzərəsinə təsir edən əsas elementlərdir. PESTEL çərçivəsi bizneslərə Azərbaycan kontekstində tənzimləyici dəyişikliklər, bazar dinamikası və texnoloji dəyişikliklər kimi çətinlikləri həll etməyə kömək edə bilər.



Şəkil 2. PESTEL analizi

Mənbə: *Johnson, G., Scholes, K., & Whittington, R. (2017). Exploring Corporate Strategy: Text and Cases. Pearson Education*

İnstitusional Nəzəriyyə

DiMaggio və Powell (1983) tərəfindən hazırlanmış institusional nəzəriyyə biznes davranışının formalaşmasında hökumətlər, hüquq sistemləri və sosial normalar kimi institutların rolunu vurğulayır. Bu nəzəriyyə təklif edir ki, müəssisələr öz fəaliyyətlərini təmin edə və ya məhdudlaşdıra bilən bir sıra institusional məhdudiyyətlər daxilində fəaliyyət göstərirlər. Azərbaycanda tənzimləyici mühit, institusional çərçivələr və biznes mədəniyyəti biznesin aparılmasının asanlığının

müəyyən edilməsində mühüm rol oynayır. İnstitusional nəzəriyyə bəzi sənayelərin niyə inkişaf etdiyini, digərlərinin isə hüquqi və tənzimləyici çərçivələrin təsiri ilə mübarizə apardığını anlamağa kömək edir [4, s.153].

Resurs Əsaslı Görünüş (RBV)

Resurs Əsaslı Görünüş (RBV) rəqabət üstünlüyü və performansın əsas amilləri kimi firmanın daxili resurslarını vurğulayan strateji idarəetmə çərçivəsidir. 1990-cı illərin əvvəllərində Jay Barney kimi alimlər tərəfindən təqdim edilən Resurs Əsaslı Görünüş diqqəti sənaye strukturu kimi xarici amillərdən daxili imkanlara yönəldir və unikal və qiymətli resursları olan firmaların rəqabət üstünlüklərinə nail ola və onları qoruya biləcəyini müdafiə edir [2, s.117]. Resurs Əsaslı Görünüş çərçivəsi müəyyən edir ki, firmanın resursları və imkanları onun strateji mövqeyinin əsasını təşkil edir. Resurslar şirkətin nəzarət etdiyi və strategiyaların hazırlanması və həyata keçirilməsi üçün istifadə etdiyi maddi və qeyri-maddi aktivlər kimi müəyyən edilir. Bunlara fiziki aktivlər, insan kapitalı, brend reputasiyası, texnoloji nou-hau və təşkilat mədəniyyəti daxildir. Davamlı rəqabət üstünlüyünə nail olmaq üçün Resurs Əsaslı Görünüş yerinə yetirməli olduğu dörd kritik meyarı müəyyən edir:

1. Dəyər: Resurslar firmaya fürsətlərdən istifadə etməyə və ya təhdidləri neytrallaşdırmağa imkan verməlidir.
2. Nadirlik: Resurslar rəqiblər arasında unikal və ya az olmalıdır.
3. Təqlidetmə: Resurslar rəqiblərin təqlid etməsi çətin və ya bahalı olmalıdır.
4. Təşkilat: Firma öz resurslarını onların dəyərini əldə etmək üçün effektiv şəkildə təşkil etməlidir.

Məsələn, Apple Inc. öz brend reputasiyasından, innovasiya imkanlarından və məhsulların ekosistemindən nadir və qiymətli resurslar kimi istifadə edir ki, bu da rəqiblərin təkrarlanmasına çətinlik yaradır.

Resurs Əsaslı Görünüş təklif edir ki, firmalar rəqiblərin asanlıqla kopyalaya bilməyəcəyi fərqli resursları toplamaq və istifadə etməklə rəqabət üstünlüyü əldə edirlər. Məsələn, Coca-Cola kimi şirkətlər qiymətli, nadir və təqlid edilməsi çətin olan mülkiyyət formullarından və qlobal paylama şəbəkələrindən faydalanır. Bundan əlavə, bu cür firmalar öz təşkilatlarını bu resurslardan əldə edilən dəyəri maksimuma çatdırmaq üçün strukturlaşdırırlar. Resurs Əsaslı Görünüşün əhəmiyyətli üstünlüyü onun uzunmüddətli perspektividir. Xarici rəqabət təzyiqlərinə cavab verməyi vurğulayan Porterin Beş Qüvvəsi kimi çərçivələrdən fərqli olaraq, Resurs Əsaslı Görünüş firmaları daxilə cəmləməyə və dəyişən mühitlərə uyğunlaşa biləcək bacarıqlar yaratmağa təşviq edir. Bu, Resurs Əsaslı Görünüşü dinamik və texnologiyaya əsaslanan sənayelərdə xüsusilə aktual edir. Resurs Əsaslı Görünüş strateji düşüncənin yenidən formalaşmasında mühüm rol oynasa da, məhdudiyyətsiz deyil. Tənqidçilər onun daxili amilləri həddindən artıq vurğuladığını və bazar tendensiyaları, tənzimləmə dəyişiklikləri və rəqiblərin hərəkətləri kimi xarici dinamikanın əhəmiyyətini aşağı saldığını iddia edirlər. Bundan əlavə, çərçivə operativləşdirmə ilə mübarizə apara bilər - mədəniyyət və bilik kimi qeyri-maddi resursların müəyyən edilməsi, ölçülməsi və idarə edilməsi mürəkkəbdir. Başqa bir tənqid onun resurs hərəkətsizliyi fərziyyəsidir. Bilik və texnologiyanın sürətlə axdığı bugünkü bir-birinə bağlı dünyada resurs təqlidi qarşısındakı maneələr azalıb. Məsələn, rəqiblər resurs əsaslı üstünlüklərin uzunömürlülüyünü azaldaraq, məhsulları tərsinə çevirə və ya bacarıqları təkrarlamaq üçün ixtisaslı işçiləri işə götürə bilərlər.

Resurs Əsaslı Görünüş, xüsusilə innovasiya, əqli mülkiyyət və qeyri-maddi aktivlərin mühüm rol oynadığı kontekstlərdə strateji idarəetmənin təməl daşı olaraq qalır. Müasir tətbiqlərdə Resurs Əsaslı Görünüş dəyişən mühitlərə cavab olaraq firmanın öz resurslarını yeniləmək və uyğunlaşdırmaq qabiliyyətinə diqqət yetirən dinamik imkanlar kimi anlayışlara da şamil edilmişdir. Məsələn, Amazon və Google kimi texnoloji şirkətlər, firmaların öz əsas resurslarını davamlı olaraq yeniləşdirmək və təkmilləşdirməklə rəqabət üstünlüklərini necə qoruya biləcəyini göstərir. Amazonun təchizat zənciri və məlumat analitikası imkanları VRIO meyarlarına cavab verən və rəqibləri qabaqlamaq üçün ardıcıl olaraq təkmilləşdirilən resurslardır.

Resurs Əsaslı Görünüş firmaların öz daxili resursları vasitəsilə rəqabət üstünlüklərini necə inkişaf etdirdiyini və saxladığını anlamağa əhəmiyyətli dərəcədə töhfə vermişdir. Qiymətli, nadir, təkrarolunmaz və mütəşəkkil resurslara diqqət yetirməklə, Resurs Əsaslı Görünüş firmalar üçün strateji mövqelərini təhlil etmək və gücləndirmək üçün möhkəm bir çərçivə təmin edir. Məhdudiyyətlərinə baxmayaraq, Resurs Əsaslı Görünüşün firmaların unikal atributlarını vurğulaması onu rəqabətli mənzərələrdə, xüsusən də sürətlə inkişaf edən sənayelərdə naviqasiya üçün mühüm alətə çevirir. Müvafiq qalmaq üçün çərçivə tənqidlərə cavab vermək və digər strateji modellərdən əldə edilən fikirləri özündə cəmləşdirərək onun mürəkkəb və qloballaşan iqtisadiyyatda strateji düşüncənin təməl daşı kimi qalmasını təmin etmək üçün təkamül etməlidir.

Qlobal və Regional Biznes Problemləri

Qlobal və regional biznes problemləri ilə bağlı araşdırmalar son illərdə əhəmiyyətli dərəcədə genişlənmişdir. Qlobal miqyasda bizneslər texnoloji pozulma, tənzimləmə qaydalarına uyğunluq, kapitala çıxış və dəyişən istehlakçı gözləntiləri daxil olmaqla bir sıra ümumi problemlərlə üzləşirlər. Ən aktual problemlərdən biri rəqəmsal transformasiyanın biznes modellərinə təsiridir. Texnoloji innovasiyaların sürətli tempi şirkətləri davamlı olaraq uyğunlaşmağa məcbur edir və ya geridə qalma riski daşıyır. Brynjolfsson və McAfee'nin (2014) fikrincə, avtomatlaşdırma, süni intellekt və rəqəmsal platformaların yüksəlişi sənayeləri dəyişdirərək bütün dünyada bizneslər üçün həm imkanlar, həm də risklər yaradır.

Digər kritik məsələ davamlılıq və korporativ sosial məsuliyyətə (KSM) artan diqqətdir. İstehlakçılar, investorlar və hökumətlər bizneslərin ekoloji və sosial cəhətdən məsuliyyətli şəkildə fəaliyyət göstərməsini getdikcə daha çox tələb edirlər. Bu gözləntilərə uyğun gəlməyən şirkətlər reputasiyaya ziyan vura və tənzimləyici cəzalarla üzləşə bilər. Azərbaycan kontekstində neft və qaz, istehsal və kənd təsərrüfatı kimi sektorlarda daha dayanıqlı təcrübələrə keçid həm yerli, həm də beynəlxalq bazar tələblərini ödəmək üçün vacibdir.

Regional biznes problemləri baxımından bir çox inkişaf etməkdə olan ölkələr, o cümlədən Qafqaz və Mərkəzi Asiya ölkələri biznesin inkişafında unikal maneələrlə üzləşirlər. Bu problemlərə zəif institusional çərçivələr, maliyyəyə məhdud çıxış və inkişaf etməmiş infrastruktur daxildir. Dünya Bankının (2020) məlumatına görə, bu regionlardakı bizneslər tez-tez bürokratiya, korrupsiya və kiçik və orta sahibkarlığa (KOB) kifayət qədər dəstək verilməməsi ilə mübarizə aparır. Bu problemlərin həlli daha dinamik və rəqabətli biznes mühitinin dəstəklənməsi üçün çox vacibdir.

Azərbaycanda biznes mühitinə onun əsas enerji bazarlarına yaxınlığı, Avropa və Asiya arasında keçid qapısı kimi strateji mövqeyi və neft ixracından asılılığı kimi regional amillər də təsir edir. Bu amillər ölkədə fəaliyyət göstərən biznes üçün həm imkanlar, həm də risklər yaradır. Məsələn, neft və qaz sektoru iqtisadi artımın dominant sürücüsü olaraq qalmasına baxmayaraq, qlobal neft qiymətlərindəki dalğalanmalar və şaxələndirməyə davam edən təkan qeyri-neft sektorlarında biznes üçün problemlər yaradır.

Mövcud nəzəriyyələrin Azərbaycan kontekstinə uyğunluğu

Göstərilən nəzəri çərçivələr bizneslərin həm unikal imkanlar, həm də çətinliklərlə üzləşdiyi Azərbaycan kontekstinə çox uyğundur. Məsələn, Porterin Beş Qüvvə modeli kənd təsərrüfatı, istehsal və xidmətlər kimi sektorlarda müəssisələrin üzləşdiyi rəqabət təzyiqlərini təhlil etmək üçün tətbiq oluna bilər. PESTEL təhlili hökumət siyasəti, texnoloji irəliləyişlər və sosial tendensiyalar kimi makro-ekoloji amillərin Azərbaycanda biznesə necə təsir etdiyini anlamağa kömək edə bilər. Eynilə, institusional nəzəriyyə biznes mühitinin formalaşmasında hökumətin və tənzimləyici orqanların rolu haqqında təsəvvür yaradır [8].

Azərbaycanda tənzimləyici mühit, siyasi sabitlik və maliyyəyə çıxış kimi institusional amillər biznes mənzərəsinin formalaşmasında mühüm rol oynayır. Bununla belə, biznes mühitinin yaxşılaşdırılması səylərinə baxmayaraq, bürokratiya, korrupsiya və maliyyəyə məhdud çıxışla bağlı problemlər qalmaqdadır. RBV nəzəriyyəsinin tətbiqi inkişaf etməkdə olan sektorlarda innovasiya və rəqabət qabiliyyətini artırmaq üçün insan kapitalı və təbii ehtiyatlar kimi yerli resurslardan istifadənin vacibliyini vurğulayır.

Biznes mühitinin dinamikasını izah edən nəzəri çərçivələri başa düşmək, bu gün biznesin üzləşdiyi problemləri müəyyən etmək və həll etmək üçün vacibdir. Porterin Beş Qüvvəsi, PESTEL təhlili, institusional nəzəriyyə və Resurs Əsaslı Baxış kimi nəzəriyyələr biznes davranışını formalaşdıran amillər haqqında dəyərli fikirlər verir. Bu nəzəriyyələr bizneslərin siyasi, iqtisadi və institusional amillərlə bağlı unikal problemlərlə üzləşdiyi Azərbaycan kontekstinə xüsusilə uyğundur. Bu çərçivələri tətbiq etməklə bizneslər və siyasətçilər inkişaf etməkdə olan biznes mühitini daha yaxşı idarə edə və davamlı inkişaf üçün strategiyalar hazırlaya bilərlər.

Nəticə və Təkliflər

Sürətlə dəyişən bugünkü qlobal iqtisadiyyatda biznes mühitinin problemlərinin dərk edilməsi və həlli dayanıqlı iqtisadi inkişaf üçün əsas məsələyə çevrilib. Unikal coğrafi mövqeyi və resurslara əsaslanan iqtisadiyyatı ilə Azərbaycan bu çağırışlardan istisna deyil. Azərbaycanda müasir biznes mühitinin tədqiqi bu gün müəssisələrin üzləşdiyi problemlərin mürəkkəbliyini və çoxşaxəli xarakterini vurğulayan bir sıra tənqidi fikirləri ortaya qoyur:

İqtisadi diversifikasiya mütləqdir: Neft və qazdan həddən artıq asılılıq Azərbaycan iqtisadiyyatını qlobal bazar dalğalanmalarına qarşı həssas edib. Kifayət qədər şaxələndirmənin olmaması qeyri-neft sektorlarının artımını ləngidir, ölkənin iqtisadi dayanıqlığını məhdudlaşdırır.

Tənzimləyici və Bürokratik maneələr: Həddindən artıq bürokratiya və qaydaların qeyri-ardıcıl tətbiqi kiçik və orta sahibkarlığın (KOB) inkişafına mane olub. Bu maneələr xarici investisiyaların qarşısını alır və yerli biznes daxilində innovasiyaları boğur.

Qeyri-adekvat Rəqəmsal İnfrastruktur: Azərbaycanda biznesin rəqəmsal transformasiyası ilk növbədə qeyri-adekvat infrastruktur və rəqəmsal savadlılığın olmaması səbəbindən ləng gedir. Bu geriləmə, getdikcə texnologiyaya əsaslanan qlobal bazarda yerli müəssisələri rəqabətdə dezavantajlı vəziyyətə saldı.

İş qüvvəsində Bacarıq Boşluğu: İnsan resurslarının mövcudluğuna baxmayaraq, işçi qüvvəsinin bacarıqları ilə müasir sənaye sahələrinin ehtiyacları arasında uyğunsuzluq mövcuddur. Bu qeyri-bərabərlik innovasiya, məhsuldarlıq və ümumi iqtisadi rəqabət qabiliyyətində problemlər yaratmışdır.

KOM-lar üçün maliyyəyə məhdud çıxış: İqtisadiyyatın şaxələndirilməsi üçün həyati əhəmiyyət kəsb edən kiçik və orta sahibkarlıq maliyyələşdirməyə çıxışda ciddi çətinliklərlə üzləşir. Yüksək faiz dərəcələri və məhdudlaşdırıcı kredit siyasəti onların artım potensialını məhdudlaşdırıb.

Ekoloji və Sosial Problemlər: Müəssisələr ətraf mühitə və sosial təsirlərə görə getdikcə daha çox yoxlama ilə üzləşirlər. Davamlılıq təcrübələrinə qeyri-adekvat riayət edilməməsi Azərbaycandakı müəssisələr üçün reputasiya riskləri və tənzimləyici problemlər yaradıb.

Qlobal İqtisadi Təzyiqlər: COVID-19 pandemiyasının davamlı təsirləri, geosiyasi gərginliklər və inflyasiya təzyiqləri ilə birlikdə biznes mühitinə qeyri-müəyyənlik qatları əlavə edərək, möhkəm adaptiv strategiyalar tələb edir.

Azərbaycanda biznes mühitinin müasir problemlərinin həlli ani həll yollarını uzunmüddətli strategiyalarla balanslaşdıran çoxşaxəli yanaşma tələb edir. İqtisadi diversifikasiya, rəqəmsal transformasiya, işçi qüvvəsinin inkişafı və maliyyəyə çıxış bu səyahətin mühüm komponentləridir. Bürokratik səmərəsizliklər və qlobal iqtisadi təzyiqlər kimi problemlər əhəmiyyətli olaraq qalsa da, onlar həm də islahatlar və innovasiyalar üçün imkanlar təqdim edir. Siyasətçilər, biznes liderləri və təhsil müəssisələri bu strategiyaları effektiv şəkildə həyata keçirmək üçün birlikdə çalışmalıdırlar. Bununla Azərbaycan özünü qlobal iqtisadiyyatda rəqabətədavamlı oyunçu kimi göstərə, gələcək nəsillər üçün davamlı artım və rifahı təmin edə bilər.

Yekun olaraq qeyd edək ki, biznes mühitində müasir problemlərin müəyyən edilməsi və həlli mürəkkəb, lakin zəruri bir işdir. Tədqiqat rəqəmsal transformasiya və tənzimləyici islahatlardan davamlılıq və işçi qüvvəsinin inkişafına qədər bu problemlərin çoxşaxəli xarakterini vurğulayır. Tövsiyə olunan strategiyaları həyata keçirməklə Azərbaycan davamlı iqtisadi artımı dəstəkləyən davamlı və rəqabətədavamlı biznes ekosistemi qura bilər.

Biznes mühitinin sürətlə dəyişən təbiəti o deməkdir ki, yeni problemlər yarandıqca bəzi tapıntılar köhnələ bilər. Üstəlik, mövcud tədqiqat ilk növbədə Azərbaycana yönəlib və anlayışlar daha geniş aktuallığa malik olsa da, digər regionların nüanslarını araşdırmaq üçün əlavə tədqiqatlara ehtiyac var. Gələcək tədqiqatlar Azərbaycanda aqrobiznesin potensialı və ya maliyyə inklüzivliyini təmin etməkdə fintech-in rolu kimi sektora xas problem və imkanları daha dərindən araşdırmalıdır. Digər ölkələrin uğurlu strategiyalarını və onların Azərbaycanda tətbiqini araşdıran müqayisəli tədqiqatlar da dəyərli təlimatlar verə bilər.

Qarşıdakı yol bütün maraqlı tərəflərin - bizneslərin, siyasətçilərin, elmi dairələrin və vətəndaş cəmiyyətinin birgə səylərini tələb edir. İnnovasiya, əməkdaşlıq və uyğunlaşma mədəniyyətini inkişaf etdirməklə Azərbaycan nəinki mövcud problemlərin öhdəsindən gələ bilər, həm də getdikcə bir-birinə bağlı və dinamik qlobal iqtisadiyyatda imkanlardan istifadə edə bilər. Davamlı araşdırma, dialoq və fəaliyyət ölkənin biznes mühitinin 21-ci əsrin tələblərinə uyğun olaraq inkişaf etməsini təmin etmək üçün vacib olacaqdır.

ƏDƏBİYYAT

1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər
2. Barney, J. (1991). Firm Resources and Sustained Competitive Advantage. Journal of Management, 17(1), 99-120.
3. Brynjolfsson, E., & McAfee, A. (2014). The Second Machine Age: Work, Progress, and Prosperity in a Time of Brilliant Technologies. W. W. Norton & Company.
4. DiMaggio, P. J., & Powell, W. W. (1983). The Iron Cage Revisited: Institutional Isomorphism and Collective Rationality in Organizational Fields. American Sociological Review, 48(2), 147-160.
5. Drucker, P. F. (1999). Management Challenges for the 21st Century. Harper Business
6. Johnson, G., Scholes, K., & Whittington, R. (2017). Exploring Corporate Strategy: Text and Cases. Pearson Education
7. Porter, M. E. (1980). Competitive Strategy: Techniques for Analyzing Industries and Competitors. Free Press
8. Schwab, K. (2016). The Fourth Industrial Revolution. Geneva: World Economic Forum.
9. World Bank. (2020). Doing Business 2020: Comparing Business Regulation in 190 Economies. World Bank Group.

Гамид Кямран Ширинов
Докторант, АУК

Современные проблемы бизнес-среды и их определение

Резюме

Цель исследования **–** проанализировать и выявить основные проблемы современной бизнес-среды, сосредоточить внимание на их причинах и предложить эффективные стратегии их решения.

Методология работы представляет собой сочетание качественных методов, включая экспертные интервью и анализ конкретных случаев, а также количественных методов, таких как анализ статистических данных, для выявления и исследования современных проблем в бизнес-среде.

Прикладная значимость исследования состоит в том, чтобы дать политикам и лидерам бизнеса практические идеи для разработки эффективных стратегий и реформ, которые способствуют устойчивому экономическому росту и отвечают современным вызовам в бизнес-среде.

Результаты исследования выявляют критические проблемы современной бизнес-

среды, включая неэффективность регулирования, технологические пробелы и фрагментацию рынка, а также предлагают целевые решения для повышения конкурентоспособности и операционной эффективности.

Оригинальность и научная новизна исследования заключаются в комплексном анализе современных бизнес-задач, уникальных для Азербайджана, и предложении инновационных рамок и локализованных стратегий для решения нормативных, технологических и рыночных проблем в развивающемся экономическом ландшафте.

Ключевые слова: бизнес-среда, экономический ландшафт, локализованные стратегии, эффективные.

Hamid Kamran Shirinov
PhD-student, ACU

Modern problems of the business environment and their determination

Summary

The purpose of the study is to analyze and identify the main problems in the modern business environment, to focus on their causes and to propose effective strategies for their solution.

The methodology of the work consists of a combination of qualitative methods, including expert interviews and case studies, along with quantitative methods such as statistical data analysis, to identify and investigate modern problems in the business environment.

The applied importance of the research consists of effective insights for politicians and business leaders to formulate effective strategies and reforms that meet modern challenges in the business environment and promote sustainable economic development.

The results of the research identify critical challenges in the modern business environment, including regulatory inefficiencies, technological gaps, and market fragmentation, while proposing targeted solutions to enhance competitiveness and operational efficiency.

The originality and scientific novelty of the research lies in its comprehensive analysis of contemporary business challenges specific to Azerbaijan, and in proposing innovative frameworks and localized strategies to address regulatory, technological, and market challenges in the evolving economic landscape.

Key words: business environment, economic landscape, localized strategies, effective

UOT 332.2

Murad Nizaməddin oğlu ƏLİYEV
Azərbaycan Kooperasiya Universitetinin doktorantı
Email: eliyevm867@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2025.001.0119

AQROBİZNESİN İQTİSADİ MAHİYYƏTİ VƏ ONUN ÖYRƏNİLMƏSİNƏ YANAŞMALAR

Xülasə

Tədqiqatın məqsədi. Aqrobiznesə dair bu zamana qədər mövcud baxışların öyrənilməsi əsasında bu biznesin iqtisadi mahiyyətinin daha dolğun açıqlanması, onun fəaliyyət sferalarının dəqiqləşdirilməsi və həmin sferalar arasında əlaqələrin öyrənilməsi tədqiqatın məqsədidir.

Tədqiqatın metodologiyası. Tədqiqat zamanı kompleks və sistem yanaşmalardan, induksiya də deduksiya metodlarından, marketinq müşahidələrindən və ümumiləşdirmələrdən istifadə edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti. Tədqiqatda öz əksini tapmış təklif və tövsiyələrin biznes subyektlərində tətbiqi onların uzunmüddətli dövrdə mənfəətliliyinin təmin olunmasına və dayanıqlı bazar subyektlərinə çevrilmələrinə imkan verə bilər.

Tədqiqatın nəticələri. Biznes subyektlərində yeni idarəetmə metodu kimi marketinqin tətbiqinə dair təklif və tövsiyələrin verilməsi tədqiqatın nəticələridir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi. Aqrobiznesin fəaliyyət sferasına marketinqin daxil edilməsinin əhəmiyyətinin əsaslandırılması, marketinq yanaşma əsasında biznes subyektlərinin bazarın tələblərinə uyğunlaşma probleminin həllinin mümkün olmasına dair təklif və tövsiyələrin verilməsi tədqiqatın orijinallığını və elmi yeniliyini göstərir.

Açar sözlər: aqrobiznes, sahibkarlıq subyektləri, kənd təsərrüfatı, kənd təsərrüfatı məhsullarının emalı, aqroservis.

Giriş

Azərbaycan iqtisadiyyatının islahatlaşdırılması onun aqrar-ərzaq kompleksində bazar transformasiyaları ilə müşayiət olunmuşdur. Belə ki, islahatlar nəticəsində bu kompleksdə sosial-iqtisadi münasibətlərin xarakteri dəyişmiş və yeni məzmun kəsb etmişdir. Bu dəyişikliklər nəticəsində kənddə xüsusi təsərrüfatçılıq sistemi formalaşmış və sahibkarlıq fəaliyyəti inkişaf etməyə başlamışdır. Hazırda ölkəmizin aqrar-ərzaq kompleksi sferasında çoxsaylı sahibkarlıq fəaliyyətilə məşğul olan strukturlar fəaliyyət göstərir və bu strukturlar arasında əlaqələr bazar müxanizmi vasitəsilə təmin edilir. Bu zaman hər bir sahibkarlıq strukturu öz iqtisadi maraqlarından çıxış etməklə fəaliyyət göstərir, seçdiyi tərəfdaşları ilə əlaqələr formalaşdırır və bu əlaqələrin davamlı olmasına çalışır. Bu əlaqələr biznes əlaqələri olmaqla, aqrar-ərzaq kompleksində planlı təsərrüfatçılıq şəraitində olan əlaqələrdən köklü surətdə fərqlənir. Bir sözlə, əvvəllər mövcud olmuş aqrar-ərzaq kompleksi aqrobiznes kimi fəaliyyət göstərir və aqrobiznes sözügedən kompleksin koordinasiyasının xüsusi forması kimi özünü büruzə verir.

Aqrobiznes aqrar-ərzaq kompleksinin əsas strukturəməlegətirici amili kimi çıxış edir və onun inkişafından ölkənin ərzaq təhlükəsizliyi və ölkə vətəndaşlarının maddi rifahı birbaşa asılıdır. Lakin onu da qeyd edək ki, aqrobiznesin iqtisadi mahiyyətinin açılmasına, onun elmi-nəzəri əsaslarının və praktiki məsələlərinin öyrənilməsinə ölkəmizdə kifayət qədər diqqət yetirilməmişdir. Bu baxımdan sadalanan məsələlərin mahiyyətinə aydınlıq gətirilməsi vacib əhəmiyyət kəsb edir və özünün aktuallığı ilə seçilir.

Aqrobiznesin iqtisadi mahiyyəti

İqtisadi ədəbiyyatlarda aqrobiznes kənd təsərrüfatı istehsalı ilə əlaqədar olan qarşılıqlı əlaqəli sahələrin vahid kompleksi kimi öyrənilir. Bu sahələr kənd təsərrüfatını istehsal vasitələri ilə təmin

edən və ona istehsal xidmətləri göstərən, kənd təsərrüfatı məhsullarının emalını həyata keçirən, istehsal edilmiş məhsulların saxlanılmasını, nəqlini həyata keçirən sahələrdir. Aqrobiznesin mərkəzi vəsiləsi - nüvəsi kənd təsərrüfatıdır və onun son məhsulu ərzaq məhsuludur.

“Aqrobiznes” anlayışı ölkəmizdə elmi dövriyyəyə yaxın dövrlərdən etibarən – bazar iqtisadi münasibətləri əsasında inkişafa keçiddən sonra daxil olmuşdur. Bununla əlaqədar, deyə bilərik ki, qeyd edilən anlayışın iqtisadi mahiyyətinin açılmasına cəhdlər çox da uzun olmayan dövrü əhatə edir və bu sahədə araşdırma və tədqiqatlar davamlı xarakter daşıyır. Lakin dünya iqtisad elmində aqrobiznes nəzəriyyəsi həmin nəzəriyyənin yaranmasına xüsusi töhfələri olmuş görkəmli alimlərin – C.Devisin, A.Xoskinqin və s. başqalarının sayəsində inkişaf etmişdir. Qonşu Rusiya dövlətində kənd sahibkarlığı və bu fəaliyyətin metodoloji əsasları IX-XX-ci əsrlərdə A.Çayanov, A. Radişev və N. Makarov tərəfindən qoyulmuşdur. Belarusiyada isə sözügedən problemin həlli ilə məşğul olan alimlər sırasına V.P.Leşilovskiy, M.K.Judro, V.Q.Qusakov, Y.İ.Dereza və başqaları daxildir.

Aparılan tədqiqatlar göstərir ki, aqrobiznes kateqoriyasının iqtisadi mahiyyətinin açıqlanmasına dair tədqiqat aparmış iqtisadçıların bu məfhumun mahiyyətinə dair vahid fikir birliyi yoxdur. Tədqiqatçı alimlərin bu kateqoriyanın mahiyyətinin açıqlanması baxımından fikirləri fərqli cəhətləri ilə seçilir. Belə ki, məsələn, C.Devis aqrobiznesin mahiyyətini açıqlayaraq göstərir ki, bu biznes kənd təsərrüfatı istehsalını resurslarla təmin edən, kənd təsərrüfatı istehsalı ilə məşğul olan, onların emalını, saxlanılmasını və bölüşdürülməsini həyata keçirən müəssisələrin məcmusu kimi özünü büruzə verir. Bu yanaşmada bizneslə məşğul olan subyektlərin məqsədinə dair fikir yoxdur və bu baxımdan, fikrimizcə, haqqında danışılan kateqoriyanın mahiyyətinin dolğun açıqlanmasından söhbət gedə bilməz. Buna baxmayaraq, bu alim tərəfindən müəyyənləşdirilmiş aqrobiznes kateqoriyasının məzmunu sonrakı tədqiqatçılar üçün müəyyən mənada özül rolunu oynamış və gələcək tədqiqatlar üçün əsas yaratmışdır.

R.Qoldberq aqrobiznes kateqoriyasınıın mahiyyətinin açıqlanmasına aqrar-ərzaq kompleksində inteqrasiya prosesləri prizmasından baxmaqla göstərir ki, aqrobiznes firma-inteqratot tərəfindən məhsulun istehsalının və satışının iki və daha çox ardıcıl mərhələsinin nəzarətinə imkan verən şaquli inteqrasiya prosesi kimi özünü büruzə verir. Bu yanaşmada isə, əvvəlki yanaşmada olduğu kimi, bizneslə məşğul olan subyektlərin məqsədi və onların sözügedən fəaliyyətdə sərbəstliyi haqqında heç nə deyilmir. Halbuki bazar iqtisadiyyatı şəraitində müəssisə və təsərrüfatların istehsal-satış fəaliyyətilə məşğul olması və sözügedən fəaliyyətdə inteqrasiya prosesinə getmələri tam könüllülük prinsipi əsasında baş verir. M.Treysi isə aqrobiznesin mahiyyətinin açıqlanmasına ayrı-ayrı sahələrin məcmusu prizmasından baxmaqla göstərir ki: aqrobiznes, məhsulların istehsalını və onların əmtəə istehsalçılarından ilkin alıcılara sürətlə çatdırılmasını təmin edən sahələrin məcmusudur. Bu yanaşmanın çatışmazlığı kimi, burada da, məqsədin göstərilməməsi qeyd edilməlidir. Halbuki bizneslə məşğul olmaq məqsədin dəqiqləşdirilməsini və həmin məqsədə nail olunması üçün konkret strategiyaların işlənib hazırlanmasını tələb edir. Bu baxımdan, hesab edirik ki, aqrobiznesin iqtisadi mahiyyətinin açıqlanmasına subyektlər prizmasından baxılması və bu zaman onların hansı məqsəd izləmələrinin dəqiqləşdirilməsi mühüm əhəmiyyət kəsb edir.

S.İ.Qryadov isə aqrobiznesə fəaliyyətlər məcmusu kimi baxır və göstərir ki, aqrobiznes, kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və reallaşdırılması, həmçinin kənd təsərrüfatı istehsalı ilə əlaqədar xidmətlərin göstərilməsi üzrə fəaliyyətlərin məcmusudur. Bu yanaşmada da, əvvəlkilərdə olduğu kimi, fəaliyyətin məqsədi və həmin fəaliyyətlə məşğul olan subyektlər haqqında məlumat verilmir. Aqrobiznesin iqtisadi mahiyyətinin müəyyənləşdirilməsində göstərilən çatışmazlıqlar belarusiyalı alim V.P.Leşilovski tərəfindən müəyyənləşdirmədə də özünü göstərir. Belə ki, bu alim tərəfindən aqrobiznes aqrar-sənaye kompleksi sistemində mənfəət, gəlir gətirən iqtisadi fəaliyyət, məşğuliyyət, iş kimi xarakterizə edilir. Göründüyü kimi, bu tərifdə də aqrobiznes subyektləri göstərilmir, eyni zamanda mənfəətin və gəlirin nəyin vasitəsilə və yaxud başqa sözlə desək, nəyin sayəsində əldə edilməsinə işarə edilmir.

Yuxarıda nəzərdən keçirilən müəlliflərin yanaşmalarında aqrobiznesin mahiyyətinin dəqiqləşdirilməsi zamanı hər bir müəllif özünün seçdiyi yanaşmaya uyğun olaraq, həmin anlayışın mahiy-

yətini aydınlaşdırır. Bu zaman konkret müəllif nəzərdə tutduğu məqsədi əsas götürməklə, aqrobiznesin mahiyyətini açıqlayır.

Bu anlayışın mahiyyətinin müəyyənləşdirilməsi üzrə məlumatları təhlil etdikdən sonra, belə qənaətə gələ bilərik ki, bu məqsədlə üç yanaşma fərqləndirilə bilər: funksional, struktur və subyekt yanaşmaları.

Aqrobiznesin mahiyyətinin müəyyənləşdirilməsinə funksional yanaşma aqrar-ərzaq kompleksi sahələrinin yerinə yetirdiyi funksiyaların (istehsal, emal, saxlanılma və nəql olunma) əlaqələndirilməsi vasitəsilə həmin anlayışın mahiyyətinin aydınlaşdırılmasını nəzərdə tutur. Bu yanaşmanın tərəfdarları kimi M.Treysi, S.İ.Qryadov, V.Q.Qusakov və başqaları çıxış edirlər. Struktur yanaşmada aqrobiznesin mahiyyəti aqrar-sənaye kompleksində mənfəət, iqtisadi fayda gətirən sahibkarlıq fəaliyyəti və başqa fəaliyyət kimi izah edilir. Bu yanaşmanın tərəfdarı kimi V.P.Leşilovskiy çıxış edir. Aqrobiznesin mahiyyətinin subyeklər baxımından açıqlanması isə, bu anlayışın aqrar-ərzaq kompleksində fəaliyyət göstərən subyektlər arasında meydana çıxan iqtisadi münasibətlər sistemi kimi izah edilməsini nəzərdə tutur. Bu yanaşmanın tərəfdarları isə aqrobiznes anlayışının əsasını qoyan C.Devis və R.Qoldberqdir.

Son dövrlər aqrobiznesin mahiyyətini yuxarıda nəzərdən keçirilən yanaşmaları əlaqələndirməklə aydınlaşdırmağa cəhd göstərənlərə də rast gəlinir. Məsələn, A.Xoskinq və M.K. Judro aqrobiznesin mahiyyətini struktur və subyekt yanaşması əsasında izah edir, V.Y.Kostin isə həmin anlayışın mahiyyətini funksional və struktur yanaşması əsasında izah edir. Bu, əlbəttə, müsbət haldır və yuxarıda nəzərdən keçirilən yanaşmaların hər birini nəzərə almaqla aqrobiznes anlayışının mahiyyətinə aydınlıq gətirilməsi bu anlayışın mahiyyətinin daha dolğun açılması deməkdir.

Aqrobiznesin mahiyyətini aydınlaşdırmağa çalışan tədqiqatçıların açıqlamalarında fərqli məqamlar bütün hallarda özünü göstərir. Onların bu kateqoriyanın mahiyyətinin aydınlaşdırılmasında özünü göstərən ümumi məqamlar isə, bu biznesin kənd təsərrüfatı məhsullarının istehsalı, həmin məhsulların emalı, saxlanılması, müştərilərə çatdırılması, resurslarla təchizat və aqroservislə bağlı olmasıdır. Sadalanan fəaliyyət sferalarının hər biri aqrobiznesdə vacib əhəmiyyət kəsb edir və onların əhəmiyyətinin birini-digərindən ayırmaq olmaz. Lakin, fikrimizcə, həyata keçirilən bazar islahatları bu anlayışın mahiyyətinə yeni çalarlar qatır və yaxud başqa sözlə desək, onun mahiyyətini genişləndirir. Belə ki, bazar münasibətləri şəraitində yuxarıda sadalanan sferalarda fəaliyyət göstərən biznes subyektlərinin istehsal-satış fəaliyyətlərinin idarəedilməsi metodu köklü surətdə dəyişir və keyfiyyətcə yeni səviyyəyə qalxır. Bu, bizneslə məşğul olan subyektlərdən bazar mexanizmini yaxşı başa düşməyi və fəaliyyətlərində idarəetmə metodu kimi marketinqin tətbiqini zəruru edir. Sözügedən idarəetmə metodunu tətbiq etmədən uğurlu və davamlı bazar fəaliyyətindən, uzunmüddətli dövrdə biznes subyekti tərəfindən iqtisadi faydanın əldə edilməsindən söhbət gedə bilməz. "İndiki şəraitdə aqrar-sənaye sferası müəssisələrinin istehsal-satış fəaliyyətinin idarə olunmasını marketinqsiz təsəvvür etmək qeyri-mümkündür. Bunu bazar münasibətlərinin inkiaşf etdiyi ölkələrin təcrübəsi də təsdiq edir. Həmin ölkələrdə kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı ilə məşğul olan müxtəlif təşkilati-hüquqi formalı müəssisələr marketinqin tətbiqi əsasında öz istehsal-satış fəaliyyətlərini bazarın tələblərinə uyğunlaşdıra bilir və beləliklə də, uzunmüddətli dövrdə bazar fəaliyyətinin səmərəliliyinin təmin olunmasının zəminlərini formalaşdırırlar"[1, s. 84].

Burada onu da qeyd edək ki, maketinq bazar iqtisadiyyatının inkişaf etdiyi ölkələrdə biznesin fəlsəfəsi kimi qəbul edilir və bu fəlsəfəni dərk etmədən uğurlu bazar fəaliyyətini təmin etmək mümkün deyil. Bu baxımdan marketinqin aqrobiznesin həyata keçirilməsində rolu çox böyükdür. "…marketinqə güclü fokuslanan sahibkarlar öz bizneslərini daha müvəffəqiyyətli edirlər. Marketinqlə sahibkarlıq arasında güclü qarşılıqlı əlaqəni təmin edən aspektlərdən biri odur ki, həm sahibkarlıqda, həm də biznesdə mərkəzi element kimi bazar və müştərilər çıxış edir"[9, s.79].

Məhz marketinq idarəetmə metodunu tətbiq etməklə, aqrobiznes subyektləri bazarla bağlılıqlarını yarada, bazardan zəruri informasiyalar almaqla, istehlak etdikləri məhsulları və göstərdikləri xidmətləri (aqroservisi) istehlakçı tələbinə uyğunlaşdıra bilərlər. "Bunun üçün onların

bazar yönümlü idarə edilməsi təmin edilməli və elə bir idarəetmə sistemi formalaşdırılmalıdır ki, bir tərəfdən istehlakçıların ehtiyac və tələbatlarına cavab verən məhsullar istehsal edilib bazara təklif edilsin, başqa bir tərəfdən isə, onların geniş təkrar istehsalı həyata keçirmək üçün imkanları mövcud olsun” [2, s. 28].

Biznes subyekti tərəfindən mənfəətin əldə edilməsi də bilavasitə bazarda (bazar sferasında) özünü göstərir və mənfəətin məbləği biznes subyektinin marketinq alətlərindən nə dərəcədə bacarıqla və səmərəli istifadə etməsilə bağlıdır.

Aqrobiznes sisteminin müxtəlif sferalarında (istehsal, təchizat, aqroservis, marketinq sferaları) fəaliyyət göstərən və məqsədi iqtisadi fayda əldə etmək istəyən subyektlər arasında maliyyə-kredit münasibətləri əsasında qarşılıqlı fəaliyyət özünü göstərir. Bu qarşılıqlı münasibətin əsasında da tərəfdaş münasibətlər marketinqi dayanır.

Deyilənləri nəzərə alaraq, aqrobiznesin mahiyyətini belə müəyyənləşdirmək olar: aqrobiznes inteqrasiya proseslərinə və ya bu bizneslə məşğul olan subyektlərin sərbəstliyinə əsaslanmaqla, qarşılarına iqtisadi faydanın və yaxud mənfəətin əldə edilməsini məqsəd qoyan, hüquqi baxımdan yaradılmış, kənd təsərrüfatı məhsullarının istehsalı və onunla bağlı təchizat, aqroservis, saxlama, məhsulların emalı və onların reallaşdırılması, marketinq, maliyyə-kredit münasibətləri ilə bağlı sahibkarlıq subyektlərinin məcmusudur.

Aqrobizneslə məşğul olan sahibkarlıq subyektlərinin fəaliyyət sferaları

Aqrobiznesin istehsal sferası bir neçə səviyyəli aqrar münasibətlərin (mülkiyyət münasibətləri, təsərrüfatçılıq formaları ilə şərtlənən münasibətlər) özünü göstərdiyi və bilavasitə kənd təsərrüfatı məhsullarının istehsal edildiyi sferadır.

Kənd təsərrüfatı məhsulları istehsalçılarını resurslarla təchiz edən sferanın fəaliyyəti nəticəsində istehlakçılar üçün dəyərin yaradılmasının vacib elementi hesab edilən resursların istehsalçılar tərəfindən əldə edilməsi mümkün olur. Ölkəmizdə bu resursların əksər hissəsi (müxtəlif texnikalar, avadanlıqlar, mineral gübrələr, toxumlar, herbisidlər və s.) xarici dövlətlərdən gətirilir və güzəştli şərtlərlə istehsalçılara təklif edilir. Bu baxımdan qeyd edilən sahədə xarici dövlətlərdən asılılıq var. Azərbaycanın müstəqilliyinin daha da güclənməsi və maliyyə imkanlarının daha da yaxşılaşması kənd təsərrüfatı məhsulları istehsalçılarının istehsal vasitələri ilə təchizatının yerli istehsal hesabına daha da yaxşılaşdırılmasına imkan verən infrastrukturun inkişaf etdirilməsinə imkan yarada bilər.

Yuxarıda qeyd etdiyimiz kimi, aqrobiznesi marketinqi tətbiq etmədən təsəvvür etmək mümkün deyil. Bu sfera özünə kənd təsərrüfatı məhsullarının emalını, saxlanılmasını, nəql olunmasını, qablaşdırılmasını, bazara “irəlilədilməsini” (məhsulların reklamını, satışının stimullaşdırılmasını və s.) və bazarda reallaşdırılmasını nəzərdə tutur. Onu da qeyd edək ki, marketinq prosesi bazar məkanının öyrənilməsindən başlamaqla, məhsulların istehlakçıların sərəncamına daxil olanadək həyata keçirilən bütün tədbirləri əhatə edir. Bu baxımdan, marketinq sferasına həm də, fikrimizcə, bazarda gedən proseslər haqqında informasiyaların alınması da daxil edilməlidir. Həmin informasiyalara malik olmadan aqrobiznesin həyata keçirilməsi və sonda iqtisadi faydanın əldə edilməsi mümkünsüzdür. Lakin bu, istehlakçılar üçün dəyərin yaradılması zəncirində köməkçi fəaliyyət sferasına daxildir. Bu baxımdan bəzi iqtisadçıların aqrobiznesin həyata keçirilməsində marketinq sferasının aşağıda sadalananlardan ibarət olduğunu göstərmələri başadüşüləndir. Marketinq sferasının sadalanan tədbirlər toplusundan ibarət olduğunu düşünən iqtisadçı-marketoloqlar həmin tədbirlərin tərkibini bir qədər də dəqiqləşdirərək, bu tədbirlər sisteminə həm də aşağıdakıların daxil olduğunu göstərirlər: tədarükat şəbəkəsi, məhsulların ilkin və təkrar emalı, kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə ticarət sistemi.

Aqrobiznesin həyata keçirilməsi baxımından ölkəmizdə marketinq sferası bu və ya digər dərəcədə inkişaf etmişdir. Belə ki, ölkəmizin paytaxtı Bakı şəhərində “Meyvəli” topdanticarət bazası və həmin bazaya regionlardan məhsul tədarük edənlər (bunlar daha çox fiziki şəxslərdir) - tədarükat şəbəkəsi fəaliyyət göstərir. Kənd təsərrüfatı məhsulları bu bazadan pərakəndə ticarətçilər tərəfindən alınaraq, son istehlakçılara reallaşdırılır.

Son illər aqrobiznesdə marketinq sferasının payı artmaqda davam etmişdir. Belə ki, son dövrlər bir sıra ərzaq məhsullarının istehlak qiymətlərinin tərkibində kənd təsərrüfatı məhsulları istehsalçılarının payları azalmaqda davam etmiş və bunun nəticəsi kimi məhsulların emalı, qablaşdırılması, saxlanılması, məhsulların satışının stimullaşdırılması və istehlakçılara çatdırılması ilə bağlı xərclərin payı artmışdır. Belə vəziyyət dərin emaldan keçən meyvə və tərəvəz məhsullarında özünü daha qabarıq göstərir.

Əvvəlki illərlə müqayisədə Azərbaycan əhalisi tərəfindən emaldan keçmiş kənd təsərrüfatı məhsullarının istehlakı artmaqda davam edir və bu, aqrobiznesin marketinq sferasının inkişafı sayəsində özünü göstərir. Aqrobiznesdə rəqabətin dərinləşməsi marketinq sferasının daha da inkişafına təkan verəcək, belə ki, bu biznes subyektləri arasında da rəqabət mübarizəsi marketinq amillərindən istifadə olunmaqla gedir. Deyilənlər qida məhsulları istehsal edən biznes subyektlərinə daha çox aiddir. Bu subyektlərin rəqabət mübarizəsində əlverişli bazar mövqelərinə yiyələnmələri onların bazara təklif etdikləri məhsulların diferensiasiyasını şərtləndirir ki, bu da emal sferasında məhsulların rəqib məhsullardan fərqləndirilməsi və istehlakçıların yaddaşında fərqli xüsusiyyətlərə malik məhsul kimi mövqeləndirilməsi əsasında mümkündür. Aqrobiznesdə məhsulun yaxşı mənada rəqib məhsuldan fərqləndirilməsi isə, biznes subyekti tərəfindən iqtisadi faydanın (mənfəətin) əldə edilməsinin ən mühüm şərtidir. Deməli, aqrobiznesdə marketinqin rolu danılmazdır, bu baxımdan, hesab edirik ki, marketinqin yaratdığı imkanlardan aqrobiznesin inkişafında istifadə edilməlidir.

Aqrobiznesin inkişafını aqroservis olmadan təsəvvür etmək mümkün deyil. Bu sfera istehsalın və insanların həyat və fəaliyyətinin ümumi inkişafını təmin etməyə imkan verir. Belə ki, servis olmadan istehsalın normal gedişinə və onun şəxsi amili kimi iş qüvvəsinin lazımi səviyyədə saxlanılmasına nail olmaq mümkün deyil. İstehsalla bağlı aqroservis bilavasitə istehsalla bağlı sahələri özünə daxil etdiyi halda, sosial servis yaşayış, mədəni-məişət şəraiti, ictimai iaşə, təhsil, səhiyyə və s. kimi xidmətləri özünə daxil edir. Mütəxəssislərin qənaətinə görə buraya həm də bütövlükdə aqrar-ərzaq kompleksinin bütün sferalarının inkişafının normal gedişini təmin etmək üçün başqa xidmətlər (məsələn, elmi işləmələr və tədqiqatlarla bağlı xidmətlər, yeni biliklərin və texnologiyaların tətbiqi, ixtisaslaşdırılmış təhsil, kommunikasiyalar və s.) də daxil edilməlidir.

Aqrobiznesin inkişafında mühüm rolu həm də ölkədə qərarlaşmış siyasi situasiya və həyata keçirilən iqtisadi siyasət oynayır. Belə ki, ölkə iqtisadiyyatının idarə edilməsinin üsul və metodları hökumətin siyasi məqsədlərindən irəli gəlir və iqtisadiyyatın inkişafını müəyyənləşdirir. Ölkəmizdə siyasi stabilliyin bərqərar olması aqrobiznesin inkişafı və bu bizneslə məşğul olanların şəxsi təşəbbüskarlığı üçün geniş imkanlar yaratmışdır. Bununla yanaşı, aqrobiznes subyektlərinin normal fəaliyyəti üçün zəruri qanunvericilik bazası yaradılmış, bu bazanın genişləndirilməsinə və təkmilləşdirilməsinə, ərzaq məhsulları istehsalçılarının fəaliyyəti üçün daha münbit mühitin yaradılmasına lazımi diqqət yetirilir.

Aqrobiznesin inkişafı əhəmiyyətli dərəcədə həmin biznesin inkişafı məqsədilə yaradılmış institusional mühitdən asılıdır. Bu mühitdə fəaliyyət göstərən müxtəlif institutların - müəssisə və təşkilatların köməkliyi ilə aqrobiznes subyektləri işgüzar qarşılıqlı münasibətlər formalaşdırır və kommersiya əməliyyatlarını həyata keçirirlər. Bu baxımdan aqrobiznes sferasında fəaliyyət göstərən müəssisə və təsərrüfatlar ölkənin pul-kredit sistemi ilə, əmanət və kommersiya bankları, həmçinin qeyri-bank kredit-mailiyyə institutları ilə əlaqəli şəkildə fəaliyyət göstərir və özlərinin bazar fəaliyyətində qarşılarına qoyduqları məqsədlərə nail olmaq üçün onların göstərdikləri xidmətlərdən yararlanırlar.

Nəticə

Aqrobiznesin mahiyyətinə dair bu zamana qədər mövcud olmuş iqtisadçı alimlərin fikirlərinə və bu biznesin öyrənilməsinə müasir yanaşmaları nəzərə alaraq, hesab edirik ki, aqrobiznes inteqrasiya proseslərinə və ya bu bizneslə məşğul olan subyektlərin sərbəstliyinə əsaslanmaqla, qarşılarına iqtisadi faydanın və yaxud mənfəətin əldə edilməsini məqsəd qoyan, hüquqi baxımdan

yaradılmış, kənd təsərrüfatı məhsullarının istehsalı və onunla bağlı təchizat, aqroservis, saxlama, məhsulların emalı və onların reallaşdırılması, marketinq, maliyyə-kredit münasibətləri ilə bağlı sahibkarlıq subyektlərinin məcmusudur.

Aqrobiznesin inkişafı əhəmiyyətli dərəcədə bu biznes üçün yaradılmış mühitin əlverişliliyindən asılıdır. Bu baxımdan ölkəmizdə aqrobizneslə məşğul olan sahibkarlıq subyektlərinin fəaliyyəti üçün yaradılmış mühitin əlverişliliyinə xüsusi dəqqət yetirilməlidir. Bu sahibkarlıq subyektləri üçün əlverişli biznes mühiti olmadan uzunmüddətli dövrdə ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasından danışmaq mümkün deyil.

ƏDƏBİYYAT

1. Quliyev, F.V. Marketinqin aqrar-səanye müəssisələrinin istehsal-satış fəaliyyətlərinin idarə olunmasında rol və əhəmiyyəti / F.V.Quliyev // Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri. İqtisadiyyat seriyası, №3-2009, s. 84-88.
2. Quliyev, F.V. Aqrar-sənaye sferası müəssisə və təsərrüfatlarının dayanıqlı inkişafının təmin olunmasının marketinq məsələləri / F.V.Quliyev // “Kooperasiya” elmi-praktiki jurnal, №4 (43)-2016, s. 28-32.
3. Гусаков, В.Г. Аграрная экономика: термины и понятия: энцикл. Справ. / В. Г. Гусаков, Е. И. Дереза. – Минск: Белорус. Наука, 2008. – 578 с.
4. Жудро, М.К. Формирование экономической среды для эффективного развития агробизнеса: монография / М.К. Жудро. – Горки: БГСХА, 2001. – 364 с.
5. Костин, В.Ю. Агробизнес как специфическая форма координации АПК: теоретические основы и практическая реализация: дис. кан. экон. наук / В. Ю. Костин: ОГАУ. – Орел, 2005. – 150 с.
6. Организация предпринимательской деятельности: учебник / С.И. Грядов [и др.]; под ред. С. И. Грядова. – М.: Колос, 2007. – 461 с.
7. Основы агробизнеса: учебное пособие / П. В. Лещиловский [и. др.]; под общ. Ред. П. В. Лещиловского. – Минск: БГЭУ, 2005. – 366с.
8. Серова Е. В. Аграрная Экономика: учебник / Е. В. Серова. – М.: ГУВШЭ, 1999. – 480 с.
9. Сидорчук, Р. Р. Предпринимательство и маркетинг / Р. Р. Сидорчук. – Вестник РЭА, 2009, №4, с. 75–82. URL: https://cyberleninka.ru/article/n/predprinimatelstvo-i-marketing
10. Трейси, М. Сельское хозяйство и продовольствие в экономике развитых стран / М. Трейси. – СПб.: Экономическая школа, 1995. – 372 с.
11. Шевченко, Д. А. Маркетинг как феномен современного бизнеса / Д. А. Шевченко. «Личность. Культура. Общество.» - Е.13-№1(61–62)-2011. – С.- 131–140.

URL: https://www.elibrary.az/docs/jurnal/jrn2011_84.pdf

12. Экономическая теория / под ред. А. И. Добрынина. – СПб.: Питер, 2004. – 544 с.
13. Goldberg, R. A. Agribuisiness coordination | R. A. Goldberg. – Boston / Harvard Business School? 1968. – 378 p.

Мурад Низамеддин оглу Алиев
докторант Азербайджанского Университета Кооперации
электронная почта: eliyevm867@gmail.com

Экономическая сущность агробизнеса и подходы к ее изучению

Резюме

Цель исследования. Целью настоящего исследования является более глубокое раскрытие экономической сущности агробизнеса, уточнение ключевых сфер его деятельности и исследование взаимосвязей между ними на основе анализа существующих взглядов на агробизнес.

Методология исследования. В исследовании применены комплексный и системный подходы, а также методы индукции и дедукции, маркетинговые наблюдения и обобщения.

Практическая значимость исследования. Реализация предложений и рекомендаций, изложенных в работе, для субъектов предпринимательства может способствовать повышению их долгосрочной прибыльности и обеспечению устойчивости на рынке.

Результаты исследования. Полученные результаты включают предложения и рекомендации по внедрению маркетинга как нового метода управления для субъектов хозяйствования.

Оригинальность и научная новизна исследования. Оригинальность и новизна исследования заключается в обосновании необходимости интеграции маркетинга в деятельность агропромышленного комплекса, а также в представлении рекомендаций по адаптации субъектов хозяйствования к рыночным требованиям с применением маркетинговых подходов.

Ключевые слова: агропромышленный комплекс, субъекты предпринимательства, сельское хозяйство, переработка сельскохозяйственной продукции, агросервис.

Murad Nizameddin Aliyev,
PhD student of Azerbaijan University of Cooperation
Email: eliyevm867@gmail.com

Economic essence of agribusiness and approaches to its study

Summary

Purpose of the study. The aim of this study is to provide a more comprehensive understanding of the economic essence of agribusiness, to clarify the key areas of its activity, and to explore the interrelations between these areas based on the analysis of current perspectives on agribusiness.

Research methodology. The research employs a comprehensive and systematic approach, as well as the methods of induction and deduction, marketing observations, and generalizations.

Practical significance of the research. The implementation of the proposals and recommendations presented in this study for business entities may contribute to enhancing their long-term profitability and ensuring market sustainability.

Research findings. The findings of the study include proposals and recommendations for the introduction of marketing as a new management method for business entities.

Originality and scientific novelty of the research. The originality and novelty of the research lie in justifying the need for integrating marketing into the activities of the agribusiness sector, as well as providing recommendations for adapting business entities to market demands through the application of marketing approaches.

Keywords: agribusiness, business entities, agriculture, agricultural product processing, agroservices.

V BÖLMƏ.
AQRAR-ƏRZAQ KOMPLEKSİNİN İNKİŞAFI

UOT 338.43

Nizami Cəlal oğlu QAFAROV
Azərbaycan Kooperasiya Universiteti
“Aqrar iqtisadiyyat və turizm işi”
kafedrasının professoru, i.e.d.
ORCID-0000-0003-1583-3024
e-mail:qafarovnizami@mail.ru
https://doi.org/10.30546/4.71.73001.2025.001.0126

AZƏRBAYCANDA YAŞIL KƏND TƏSƏRRÜFATININ ZƏRURİLİYİ VƏ ONUN İLKİN ŞƏRTLƏRİ

Xülasə

Tədqiqatın məqsədi. Məqalədə Azərbaycanda əhalinin tələbatını tam ödəmək üçün keyfiyyətli ərzaq məhsullarının istehsalı, kənd təsərrüfatı istehsalının yaşıllaşdırılması, kənd təsərrüfatı istehsalı ilə bağlı təbii ehtiyatların ekoloji vəziyyətinin yaxşılaşdırılması yollarının işlənib hazırlanması istiqamətində araşdırma aparmaq və yaşıl kənd təsərrüfatının zəruriliyi yönümündə tövsiyələr hazırlamaqdır.

Tədqiqatın metodologiyası. Məqalə hazırlanarkən müəllif elmi tədqiqat üsullarından, o cümlədən müşahidə, müqayisə, təhlil, məntiqi ümumiləşdirmə metodlarından faydalanmışdır. Həmçinin Azərbaycanda yaşıl kənd təsərrüfatının formalaşdırılması və davamlı inkişafı siyasətinin strateji yanaşması da tədqiqatın metodoloji əsasını təşkil etmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti ondan ibarətdir ki, irəli sürülən təklif və tövsiyələr ölkəmizdə yaşıl kənd təsərrüfatının ənənəvi istehsaldan daha yüksək gəlir səviyyəsinə malik iqtisadi cəhətdən gəlirli fəaliyyət sahəsi olması, kənd təsərrüfatının ayrı-ayrı sahələrində ekoloji təmiz məhsul istehsalının daha da inkişaf etdirilməsi istiqamətində layihələrin hazırlanmasında faydalı ola bilər.

Tədqiqatın nəticələrinə dair onu qeyd etmək olar ki, kənd təsərrüfatı istehsalı, məhsulların emalı və paylanması prosesində çirklənmənin bütün formalarının minimuma endirilməsi üçün yaşıl kənd təsərrüfatının zəruriliyinə və davamlı inkişafına, təbii resurslara qənaət edən texnologiyaların tətbiqinə, enerji mənbələrinin şaxələndirilməsinə və eko-innovasiyalardan səmərəli istifadəyə dair innovativ istiqamətlər təqdim edilmişdir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi. Azərbaycanda yaşıl kənd təsərrüfatının zəruriliyinə və davamlı inkişafına dəstək verə biləcək yeni elmi yanaşmalar məqalədə yer almışdır.

Açar sözlər: yaşıl kənd təsərrüfatı, ətraf mühit, təbii ehtiyatlar, qida keyfiyyəti, ərzaq təhlükəsizliyi, ekoloji təmiz məhsul, sosial-iqtisadi inkişaf, eko-innovasiyalar.

Giriş

Ətraf mühit öz təbiətinə görə insanın yaratdığı siyasi, hüquqi və fiziki sərhədləri tanımır. Məhz buna görə də həm ölkələr daxilində, həm də onların hüdudlarından kənarda ekoloji siyasət və əməkdaşlığın həyata keçirilməsinin vacibliyini və zəruriliyini dərk etmək lazımdır. Onun məqsədi ətraf mühiti qorumaq, keyfiyyətini yaxşılaşdırmaq, təbii ehtiyatlardan səmərəli istifadə etmək, beynəlxalq və regional səviyyədə ekoloji problemlərin həllinə kömək etməkdir. Müxtəlif ölkələr üçün onların milli prioritetlərinə və vəziyyətlərinə uyğun gələn müxtəlif yanaşmalar, konsepsiyalar, modellər və alətlər mövcuddur, ona görə də ayrı-ayrı ölkələr üçün ekoloji cəhətdən təhlükəsiz iqtisadiyyata keçid müxtəlif ssenarilərə görə baş verə bilər. Bununla belə, ətraf mühit sahəsində koordinasiya olunmuş strategiya müxtəlif ölkələrin siyasətçiləri arasında əməkdaşlıq və birliyi və onun həyata keçirilməsinin hüquqi əsaslarının tanınmasını təmin edir.

Buna görə də bəşəriyyət ekoloji prinsiplər, resurslardan daha səmərəli və rasional istifadə, qənaətcil idarəetmə baxımından maarifləndirmə prosesini daimi artırmalıdır. Bu problemlərin həlli yalnız beynəlxalq, milli, regional və yerli səviyyədə insanların kollektiv səyləri ilə mümkündür.

Ekoloji təhlükəsizliyin təmin olunması üçün ətraf mühitin çirklənməsinin minimuma endirilməsi və mühafizəsinin təkmilləşdirilməsi, indiki və gələcək nəsillərin tələbatını ödəmək məqsədilə təbii sərvətlərdən səmərəli istifadə Azərbaycan dövlətinin ekoloji siyasətinin əsas istiqamətlərindən biridir [1].

Yaşıl kənd təsərrüfatı istehsalının zəruriliyi. Kənd təsərrüfatının dayanıqlı inkişafına "yaşıl keçid" özündə nəyi əks etdirir? Bu aspektdən yanaşdıqda, kənd yerlərində yaşayan əhali bütün il boyu kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olur. İstehsal proseslərində təbii resurslarla bərabər, müxtəlif mineral gübrələrdən, xəstəlik və zərərvericilərə qarşı zəhərli kimyəvi maddələrdən istifadə edilir ki, bu da istehsalçıların özlərinin sağlamlığına, həddən artıq istifadə etdikdə isə istehsal etdikləri məhsullar vasitəsilə istehlakçıların sağlamlığına təhlükə yaradır. Bu yanaşmada ekoloji-iqtisadi tarazlığın qorunması, yaşıl kənd təssərrüfatının inkişafında təbii ehtiyatların, biomüxtəlifliyin və ekosistemlərin mühafizəsinin zəruriliyinə ehtiyac düyulur.

Professor E.Ə.Quliyev qeyd edir ki, *ekoloji-iqtisadi tarazlığın təmin olunması çox mürəkkəb vəzifədir və bu istiqamətdə davamlı tədbirlərin, həmçinin səmərəli və məhsuldar tədbirlərin görülməsini şərtləndirir. Eyni zamanda, resurslardan səmərəli və məhsuldar istifadə edilməsi, regionlarda məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi, bunlarla bağlı əlavə tədbirlərin görülməsi, əmək ehtiyatlarından yetərincə istifadə edilməsi üçün yeni iş yerlərinin yaradılması və məqsədli proqramların həyata keçirilməsi, insan və intellektual resursların ümumilikdə ölkə iqtisadiyyatının inkişafına, həm də davamlı inkişafının təmin olunmasına yönəldilməsi tədbirlərinə ciddi ehtiyac vardır [2, s. 277].*

Hazırda bəşəriyyətin yaşıl kənd təsərrüfatına diqqət yetirməsinin iki əsas aspekti var. Birincisi, bu, ümumilikdə həm kənd təsərrüfatı məhsullarının istehsalına, həm də qida keyfiyyəti məsələlərinə aid olan ekoloji problemdir. Kənd təsərrüfatı istehsalının yaşıllaşdırılmasının aktuallığı kənd təsərrüfatı istehsalı ilə bağlı təbii ehtiyatların ekoloji vəziyyətinin kəskin şəkildə pisləşməsi, torpağın münbitliyinin və kənd təsərrüfatı məhsullarının keyfiyyətinin aşağı düşməsi, ətraf mühitə kompleks ekoloji dağıdıcı təsirin artması ilə əlaqədardır. Ekoloji qida məhsulları insan sağlamlığına və ətraf mühitə müsbət təsir göstərir. İkincisi, beynəlxalq təcrübənin göstərdiyi kimi, yaşıl kənd təsərrüfatı ənənəvi istehsaldan daha yüksək gəlir səviyyəsinə malik iqtisadi cəhətdən gəlirli fəaliyyət sahəsi olmasıdır.

Ümumiyyətlə, əksər müəlliflərin anlayışına görə istehsalın yaşıllaşdırılması əlavə kapital qoyuluşları tələb edəcəyinə baxmayaraq, Roma Klubunun hesabatında sözdə multiplikator hesabına gəlirliliyin artmasını nümayiş etdirən 50 nümunə təsvir edilmişdir. Buradakı araşdırmaya görə, ekoloji tədbirlərin həyata keçirilməsi mənfəəti iki dəfə artırmağa və təbii ehtiyatların istehlakını iki dəfə azaltmağa imkan verir. Hesabatda həmçinin alternativ ekoloji həllərin layihələri təqdim olunub [4. 340].

Azərbaycanın əlverişli ekoloji vəziyyəti ölkənin prioritet inkişaf konsepsiyası kimi tanınan davamlı inkişafın tərkib hissəsidir. Müasir şəraitdə aparılan kənd təsərrüfatı fəaliyyəti heç də həmişə təbiət qanunlarına uyğun gəlmir, ekosistemlərdə müxtəlif ekoloji təhlükələrin yaranmasına, təbii ehtiyatların tükənməsinə səbəb olur. İlk növbədə, bu, həm Azərbaycanda, həm də dünyanın digər ölkələrində ölkələrin ərzaq təhlükəsizliyini təmin etmək və onların gəlirlərini maksimum dərəcədə artırmaq üçün kənd təsərrüfatı istehsalının məhsuldarlığının artırılması məqsədi ilə bağlıdır. Bununla belə, ekoloji biliklərin yetərli olmaması və ya onlara etinasızlıq, ekoloji şüurun aşağı səviyyəsi və zənginləşməyə adi passivlik ekoloji sistemlərin transformasiyasına və təbii mühitin deqradasiyasına gətirib çıxarır.

Yaşıl kənd təsərrüfatının prioriteti kənd təsərrüfatı məhsullarının istehsalının həcmini maksimuma çatdırmaq deyil, bərpa olunan resurslardan istifadə etməklə yüksək keyfiyyətli və ekoloji cəhətdən təhlükəsiz qida məhsulları istehsal etmək, təbiətdən səmərəli istifadə və təbii mühitin qorunmasıdır.

Kənd təsərrüfatı sektorunun əsas xüsusiyyəti kənd təsərrüfatı istehsalı ilə ətraf mühit arasında sıx əlaqədir. Kənd təsərrüfatı istehsalı lazımi təbii ehtiyatları və enerjini ətraf mühitdən alır. Kənd təsərrüfatı fəaliyyətinin intensivləşməsinin nəticəsi istehsalın artması ilə yanaşı, mənfi nəticələrə də səbəb ola bilər. Onlar ətraf mühitin çirklənməsi və təbiətdən səmərəsiz istifadə şəklində özünü göstərə bilər ki, bu da planetdə iqlim dəyişikliyinin geridönməz prosesinə, dünya okeanlarının səviyyəsinin qalxmasına, geniş ərazilərin səhralaşmasına, torpağın münbitliyinin itirilməsinə, turşuların çökməsi və ekosistemlərin deqradasiyasına səbəb olacaqdır. Kənd təsərrüfatı istehsalının təbii ehtiyatlarla təmin edilməsində təbii mühitin imkanlarının məhdud olması və onun çirklənməsinə qarşı mübarizə davamlı inkişafın həyata keçirilməsinin əsasını təşkil edir.

Qeyd edək ki, dünyada ənənəvi əkinçilik üsulları ilə yanaşı, yaşıl kənd təsərrüfatı da inkişaf edir və böyüyür ki, onun da rolu kimyəvi maddələrdən minimum istifadə etməklə və ətraf mühitə minimal təsirlə kənd təsərrüfatı məhsullarının istehsalıdır. İstehlakçılar sağlamlıq baxımından daha az zərərli məhsullar üçün daha yüksək qiymət ödəməyə daimi hazırdırlar. Bununla belə, başa düşmək lazımdır ki, əvvəlcə bütün kənd təsərrüfatı ekoloji xarakter daşıyırdı və yalnız istehsalın intensivləşdirilməsi və daha böyük iqtisadi səmərələrin əldə edilməsi üçün insan səyləri, əlavə lazımsız müdaxilələr kənd təsərrüfatını indiki vəziyyətinə çevirdi. Beləliklə, kənd təsərrüfatının yaşıllaşdırılması, fikrimizcə, təkcə ətraf mühitin mühafizəsi deyil, həm də kənd təsərrüfatı istehsalçısının təfəkküründə dəyişməsidir ki, o, iqtisadi faydalarla yanaşı daha çox ekoloji səmərələrə üstünlük verməlidir.

Slovak tədqiqatçısı L. Paşka vurğulayır ki, *yaşıl kənd təsərrüfatı, ilk növbədə, yalnız kənd təsərrüfatı məhsullarının müəyyən standartlara uyğun istehsalı deyil, təbiətə qayıtmaq fəlsəfəsidir [4.342].* Yaşıl kənd təsərrüfatının əsas məqsədi təbiətin tərkib hissəsi kimi təbiətlə insan arasında əməkdaşlıq, eləcə də istehsal olunan məhsulların keyfiyyətidir. Bu, hazırda cəmiyyətin davamlı inkişafının əsas prinsipi olmaqla yanaşı, ilk növbədə bərpa olunan resurslardan istifadəyə əsaslanan uzunmüddətli xarakterli balanslaşdırılmış aqroekosistemdir. O, əsərində iddia edir ki, “təbiət vahid bir bütövdür və kənd təsərrüfatı istehsalına nəzarət etmək insanın vəzifəsidir ki, o, təbiətin harmonik hissəsinə çevrilsin. Əgər bu prinsipə həmişə ciddi əməl olunarsa, o zaman biz bu gün olduğu kimi torpağın çirklənməsi, qida məhsullarının çirklənməsi və təbii mühitin digər pozuntuları ilə mübarizə aparmalı olmayacağıq”. Başqa sözlə desək, bu, ətraf mühitə dəyən ziyanı minimuma endirəcək və gələcək nəsillər üçün istehsalın nəticələrini nəzərə alan bitki və heyvan mənşəli məhsulların yetişdirilməsi üçün “ağıllı” texnologiyaların kənd təsərrüfatı istehsalı prosesində tətbiqidir.

Professor B.X.Ataşov qeyd edir ki, *ekoloji tələblərə riayət edilməsi ilə əlaqədar yaranmış vəziyyət kənd təsərrüfatı məhsulları və qida məhsulları istehsalının yeni, resursqoruyucu və təhlükəsiz texnologiyalarından istifadə edilməsini, aqrar-sənaye istehsalının ekolojiləşdirilməsi ilə kənd təsərrüfatı torpaqlarının bərpasına yönəldilən sərmayə qoyuluşunu artırmağı zərurətə çevirir [3.301].*

Fikrimizcə, yaşıl kənd təsərrüfatı biomüxtəliflikdən, bioloji dövrlərdən və torpağın bioloji aktivliyindən istifadə etməklə aqroekosistemlərin vəziyyətinin yaxşılaşdırılmasına töhfə verən vahid sistemdir. Yaşıl kənd təsərrüfatı bərpa olunan resurslardan istifadə etməklə əkinçiliyin ekoloji üsullarından istifadəyə və təbiətdən rasional idarəetmə prinsipinə diqqət yetirir və sintetik pestisidlər və ya sənaye gübrələri əvəzinə mədəni, bioloji və mexaniki üsullardan istifadə etməklə kənd təsərrüfatı sistemlərinin regional şəraitə uyğunlaşdırılmasını təmin edir.

Azərbaycan iqtisadiyyatında kənd təsərrüfatı sektorunun əhəmiyyətini nəzərə alaraq, onun ekoloji vəziyyətinin yaxşılaşdırılması yollarının işlənib hazırlanması üçün kənd təsərrüfatı fəaliyyətinin ətraf mühitə təsirinin öyrənilməsi vacibdir.

Professor E.A.Quliyev “Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının Azərbaycanın davamlı inkişafında rolu” adlı əsərində qeyd edir: *“Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ekoloji-iqtisadi tarazlığının təmin edilməsi həm regionun sosial-iqtisadi inkişafının üstün cəhətlərini ortaya qoyması və həm də regionun inkişafının yeni modelinin formalaşdırılmasından ötrü yanaşmaların müəyyənləşdirilməsi və ümumilikdə, ölkədə ekoloji-iqtisadi tarazlığın gücləndirilməsi baxımından olduqca vacib məsələlərdəndir. Məhz Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayon-larında “yaşıl*

iqtisadiyyat” prinsipinin ön plana çıxması, “yaşıl iqtisadiyyat” elementlərinin gücləndirilməsi və tullantısız texnologiyalar - “ağıllı” və yüksək texnologiyalar əsasında əsaslı emal sahələrinin yaradılması və yüksək intensivliyə malik olan xidmət sektorunun inkişaf etdirilməsi burada olan təbii resursların daha qənaətlə istifadə edilməsinə imkan verəcək, ətraf mühitin qorunması üzrə olan standartlara əməl olunmasına, ətrafa atılan tullantıların, o cümlədən atmosferə atılan zərərli maddələrin ümumi həcminin xüsusi çəkisinin xeyli azaldılmasına imkan verəcəkdir”[2.280].

Məhz, müasir yaşıl kənd təsərrüfatına əhəmiyyətli dərəcədə təsir edən tullantısız texnologiyalar - “ağıllı” və yüksək texnologiyalara əsaslanan texnoloji dəyişikliklər ətrafdakı təbii mühitdə əhəmiyyətli dəyişikliklərə səbəb olur. Texnoloji inqilabın əsas elementi intensiv istehsal texnologiyalarından istifadə etməklə genişmiqyaslı intensiv yaşıl kənd təsərrüfatına keçiddir. İnsan əməyinin kənd təsərrüfatı texnologiyaları ilə əvəz edilməsi iqtisadi cəhətdən sərfəli olmuşdur, müvafiq olaraq sənaye gübrələrinin tətbiqi hesabına kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını artırmaq olar. Bu sənaye ehtiyatları təbii mexanizmlər əsasında torpağın münbitliyinin qorunmasına əsaslanan ənənəvi kənd təsərrüfatı istehsal sistemində dəyişikliyə səbəb oldu. Həmçinin, yüksək məhsuldarlığı təmin edən pestisidlərin müntəzəm istifadəsi zərərvericilərə qarşı profilaktika və qeyri-kimyəvi mübarizə üsullarının diqqətdən kənarda qalmasına səbəb olub. Odur ki, kənd təssərrüfatının dayanıqlı inkişafına “yaşıl keçid” ekoloji dayanıqlığı, resurslardan səmərəli istifadəni, kimyəvi məhsullardan istifadə səviyyəsini azaltmağı və yerli əhalinin sosial-iqtisadi rifahının təmin edilməsini nəzərə alaraq kənd yerlərinin inkişafına yönəlmiş strategiyanı nəzərdə tutur.

Fikrimizcə, dünyada demoqrafik artımla yanaşı, istehlakın kəskin artması, qlobal istiləşmə, təbii ehtiyatların tükənməsi kimi narahatlıq doğuran məsələlər ətraf mühitlə bağlı təxirəsalınmaz tədbirlərin görülməsini tələb edir. Qlobal ekoloji böhran şəraitində iqtisadiyyat, cəmiyyət və ətraf mühit arasında zəruri balansın saxlanılması yalnız inkişafın yeni, ekoloji təhlükəsiz və iqtisadi baxımdan optimal modelin - yaşıl kənd təsərrüfatının formalaşdırılması hesabına ola bilər.

Kənd təsərrüfatının ətraf mühitə təsiri. Kənd təsərrüfatında texnoloji dəyişikliklər bir sıra üstünlüklərə malikdir. Xüsusilə, bu, təbii və əmək ehtiyatlarının, əmək məhsuldarlığının yüksəldilməsi, istehlakçılar üçün əlçatan ərzaq məhsullarının istehsalının artırılması, əməyin kənd təsərrüfatından iqtisadiyyatın digər sahələrinə ötürülməsi və insanların maddi rifahının yüksəlməsinə təkan verməkdir. Lakin kənd təsərrüfatı istehsalının intensivləşməsi təbii mühitə həm də mənfi təsir göstərdi. Bu gün kənd təsərrüfatında ciddi ekoloji problemlərə rast gəlinir, belə ki, təbiətdən səmərəsiz istifadə, torpaqların xeyli dərəcədə şumlanması və deqradasiyası, biomüxtəlifliyin itirilməsi, ətraf mühitin çirklənməsi, torpağın münbitliyinin itirilməsi, tullantıların yığılması və s. problemlər hazırda özünü göstərməkdədir.

Kənd təsərrüfatının təbii mühitə təsirinin əsas göstəriciləri şəkil 1-də təqdim olunur.

<table>
<tr><td rowspan="2">Torpaq sahələri
• kövrəklik
• humusun tərkibi
• torpağın strukturu
• deqradasiya
• eroziya
• gübrələrin, bitki mühafizə vasitələrinin tətbiqi</td><td>Geni dəyişdirilmiş orqanizmlərin istifadəsi</td><td rowspan="2">Su
• su təchizatı
• su istifadəsi
• nitrat tərkibi
• pestisidlərin tərkibi
• çirkləndiricilərin atılması
• torpaqların suvarılması və qurudulması</td></tr>
<tr><td rowspan="2">KƏND TƏSƏRRÜFATININ ƏTRAF MÜHİTƏ TƏSİRİ GÖSTƏRİCİLƏRİ</td></tr>
<tr><td rowspan="2">Ekosistem
• bioloji müxtəliflik
• landşaft müxtəlifliyi
• floranın biomüxtəlifliyi
• faunanın biomüxtəlifliyi</td><td rowspan="2">Ekoloji əkinçilik sistemlərinin tətbiqi</td><td rowspan="2">Atmosfer havası
• iqlim dəyişikliyi
• istixana qazlarının emissiyaları
• stasionar və mobil mənbələr tərəfindən çirkləndiricilərin emissiyaları</td></tr>
</table>

Şəkil 1. Kənd təsərrüfatının təbii mühitə təsirinin göstəriciləri
(müəllif tərəfindən hazırlanıb).

Yaranan problemin gələcəkdə qlobal kataklizmlərə səbəb olacağını başa düşən alimlər və ekoloqlar öz etiraz səslərini ucaltmağa, həyəcan təbili çalmağa başlayıblar. Kənd təsərrüfatı fəaliyyətinin təbii mühitə mənfi təsiri problemləri bir çox yerli və xarici alimlər tərəfindən araşdırılır. Belə ki, professor E.A.Quliyev *Azərbaycanda davamlı inkişafın sürətləndirilməsində ekoloji iqtisadi tarazlığın təmin olunması, ekoloji problemlərin həll edilməsi üçün ölkədə mövcud olan resurslardan səmərəli və qənaət rejimində istifadə edilməsi, resurslardan istifadə zamanı ətraf mühitin çirklənməsinin qarşısının alınması, atmosferə atılan tullantıların miqdarının azaldılması, zəhərli tullantıların və zəhərli qazların ətraf mühitə yayılmasının minimuma endirilməsi, ümumiyyətlə zəhərli maddələrin və uzunmüddətli dövr üçün təhlükə yarada biləcək maddələrin ətraf mühitə atılmasının miqdarının azaldılması, bununla bağlı sistemli tədbirlərin görülməsinin olduqca vacibliyini vurğulayır [2. 282].* Polşalı tədqiqatçı Kedziora A. məhsuldarlığı artırmaq istəyən fermerlərin ekoloji sistemləri dəyişdirdiyini göstərir. M. Lacko-Bartoşova başçılıq etdiyi Slovakiya Aqrar Universitetinin bir qrup alimi tərəfindən dəstəklənir, onlar müasir kənd təsərrüfatı istehsalı texnologiyalarından balanslaşdırılmış istifadənin zəruriliyinə və kənd təsərrüfatına zərər verə biləcək təhlükəli fəaliyyət elementlərinin qarşısının alınmasına işarə edirlər. Pondel H. davamlı inkişaf baxımından ətraf mühitin ekoloji vəziyyətinin vacibliyini göstərir. L. Paşka on iki əsas kənd təsərrüfatı bitkiləri və ekoloji problemlər baxımından dünya kənd təsərrüfatının ətraflı qiymətləndirilməsini aparmışdır [4.344].

Aparılan təhlillərdən aydın olur ki, sənayenin istehsal prosesləri torpağın, suyun, havanın və biomüxtəlifliyin ekoloji vəziyyətinə mənfi təsir göstərir.

Ənənəvi kənd təsərrüfatında intensiv istifadə olunan pestisidlərin, gübrələrin və digər aqrokimyəvi maddələrin nəzarətsiz istifadəsi torpaq ehtiyatlarına, canlı mikroorqanizmlərə, su ekosisteminə və ümumilikdə insan sağlamlığına mənfi təsir göstərir.

Eyni zamanda, heyvandarlıq sənayesinin tullantıları da ətraf mühitə müsbət təsirlərlə yanaşı zərərli təsir də göstərir (şəkil 2).

TORPAQ RESURSLARININ EKOLOJİLƏŞMƏSİNİN NƏTİCƏLƏRİ

Müsbət	**Mənfi**
Ekoloji cəhətdən təhlükəsiz və sağlam qida məhsullarının istehsalı	Əl əməyi məsrəflərinin və onun təmin edilməsi üçün pul xərclərinin artması
Torpağın təbii münbitliyinin qorunması	Kənd təsərrüfatı istehsalında ekoloji və iqtisadi münasibətlərin mürəkkəbliyi
Məhsulun istehsalında kəmiyyətdən daha çox keyfiyyətə üstünlük verilməsi	İdarəetmə və əməyin təşkili üçün artan tələblər
İstehsalın bütün mərhələlərində məhsula nəzarətin təmin edilməsi	Ənənəvi texnologiyalarla müqayisədə istehsal məhsuldarlığının azalması
Torpaq ehtiyatlarından istifadənin idarə edilməsi	Marketinq fəaliyyətinin həyata keçirilməsinin xüsusiyyətləri
Təbii mühitə mənfi təsirin azaldılması	Ekoloji məhsulların bahalaşması
Torpaqdan istifadə üçün maddi xərclərin azaldılması və kənd yerlərinin davamlı inkişafına dəstək	Qanunvericiliyin xüsusiyyətləri, torpaq və məhsulların sertifikatlaşdırılması zərurəti, konvertasiya müddəti

Şəkil 2. Azərbaycanın kənd təsərrüfatında torpaq ehtiyatlarının ekolojiləşməsinin nəticələri

(müəllif tərəfindən hazırlanıb).

Göründüyü kimi, kənd təsərrüfatında torpaqlardan istifadə ilə bağlı mövcud vəziyyət yaşıllaşdırma elementlərinin dərhal həyata keçirilməsini tələb edir. Eyni zamanda, apardığımız araşdırmalara görə, torpaq ehtiyatlarının yaşıllaşdırılması müsbətlərlə yanaşı, mənfi nəticələrə də səbəb ola bilər, ancaq, bunların diqqətdə saxlanılması lazımdır.

Beləliklə, ekosistemin - havanın, suyun və biomüxtəlifliyin təbii mühitə ekoloji təsirinə ayrı-ayrılıqda diqqət yetirək.

Havanın təbii mühitə ekoloji təsiri. Davamlı yaşıl kənd təsərrüfatının mühüm komponenti aşağı karbonlu istehsal modelinə keçiddir. İnsan fəaliyyəti nəticəsində yaranan istixana qazı emissiyalarının 10%-dən çoxu kənd təsərrüfatının payına düşür. Bioloji müxtəlifliyin itirilməsi ilə bağlı kənd təsərrüfatı torpaqlarının ehtiyatsız genişləndirilməsi kənd təsərrüfatı və torpaqdan istifadənin dəyişməsi nəticəsində yaranan istixana qazları emissiyalarının artmasında əsas amildir.

İstixana qazları emissiyalarının qlobal iqlim dəyişikliyinə təsiri böyükdür. Bu qazlar ətraf mühitin çirklənməsi kimi ciddi problemlərə səbəb ola bilir. İstixana qazları yeraltı suların, havanın çirklənməsinə və sağlamlıq problemlərinə gətirib çıxarır. Bu problemlər hazırda dünyanın diqqət mərkəzindədir. Qlobal istixana qazı emissiyalarında payının cəmi 0,1 faiz təşkil etdiyi Azərbaycan nümunəvi ölkə kimi daha kiçik emissiya payına sahib dövlətlərin iqlim dəyişmələri ilə mübarizəyə əhəmiyyətli töhfələr verə biləcəyini nümayiş etdirir. 2024-cü il Noyabrın 12-də Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) iqlim diplomatiyasında dönüş nöqtəsi oldu. COP29 Sədrliyi maliyyə, investisiya və ticarətin iqlim gündəliyinin mərkəzində qalmasını təmin etmək üçün BMT qurumlarını, beynəlxalq təşkilatları, çoxtərəfli inkişaf banklarını, iqlim fondlarını, özəl sektoru, vətəndaş cəmiyyətini, əsas koalisiyaları və digər maraqlı tərəfləri, həmçinin COP Sədrlikləri və Tərəflərini problemlərin həlli istiqamətində bir araya gətirdi [5].

Mineral gübrələrin istehsalı prosesi də istixana qazları emissiyası ilə müşayiət olunur, lakin onların istifadəsi kənd təsərrüfatı torpaqlarının genişləndirilməsi ehtiyacını azaldır. Kənd təsərrüfatında yaranan digər ekoloji problem gübrələrdən səmərəsiz istifadəsidir. Belə ki, su axınının olmaması, dəniz ekosistemlərinə ciddi təsir göstərə bilən qida maddələrinin həddindən artıq yüklənməsinə səbəb olur, həmçinin yeraltı suların keyfiyyətini aşağı salır. Qlobal istixana qazı emissiyalarının hesablamalarına görə, karbon emissiyaları hər il artır, əlavə olaraq, kənd təsərrüfatı ümumi qlobal antropogen istixana qazı emissiyalarının 10-12%-ni, CH4 və N2O ümumi antropogen emissiyaların müvafiq olaraq təxminən 47%-ni və 58%-ni təşkil edir.

Fikrimizcə, kənd təsərrüfatında daha sərt iqlim dəyişikliyi qaydalarına uyğunlaşmanın və CO2 emissiyalarının azaldılmasının əsas istiqaməti üç amillə həll edilə bilər:

1. Fəaliyyət göstərən müəssisələrin təkmilləşdirilməsi, yəni ən az səmərəli olanların bağlanması, onların müasirləşdirilməsi və texniki vəziyyətinin yaxşılaşdırılması, habelə müasir yaşıl innovativ texnologiyaların tətbiqi;
2. Karbontutma və saxlama texnologiyalarının tətbiqi;
3. Yaşıl enerji növlərinə keçid.

Su. Su kənd təsərrüfatında həm vasitə, həm də iş obyekti rolunu oynaya bilən strateji resursdur. Son onilliklər ərzində dünyada təzə su təchizatının bərpa olunan mənbələri, demək olar ki, 60% azalıb və su ehtiyatlarının kənd təsərrüfatı dövriyyəsinə uzunmüddətli geniş şəkildə cəlb edilməsi su ehtiyatlarının özünü yeniləmək qabiliyyətinin zəifləməsinə səbəb olub. Mütəxəssislərin proqnozlarına görə, XXI əsrin 50-ci illərinə qədər su istehlakının artması tendensiyası saxlanılarsa, Yer kürəsi əhalisinin üçdə ikisinin su ilə bağlı problemi olacaq.

BMT-nin məlumatına görə, kənd təsərrüfatı hazırda dünyada ən böyük su istehlakçısıdır (o cümlədən suvarma ehtiyacları)-bütün istehlak edilən suyun 70%-i onun payına düşür. Eyni zamanda, Ümumdünya Su Komissiyası illik 12-17 min kubmetr çirklənmə haqqında məlumat verir. Tullantı sularının birbaşa su anbarlarına axıdılması ilə yanaşı, müxtəlif çirkləndiricilər (mineral gübrələr, pestisidlər, herbisidlər) sel, atmosfer yağıntıları, eroziya prosesləri nəticəsində torpaqdan yuyulur.

Azərbaycan su təchizatı az olan ölkələrə aiddir. Su ehtiyatı potensialının qeyri-qənaətbəxş

ekoloji vəziyyəti Azərbaycanın, demək olar ki, bütün bölgələrinə xasdır. Ölkənin su ehtiyatları (yeraltı və yerüstü) intensiv antropogen təsirdən əziyyət çəkir. Bunun nəticəsi su ehtiyatlarının azalması, onların çirklənməsi və deqradasiyasıdır. Bu xüsusilə güclü heyvandarlıq komplekslərinin yerləşdiyi ərazilərə aiddir. Məhz buna görə də Azərbaycanın aqrar sektorunda su ehtiyatlarından istifadə zamanı ətraf mühitin mühafizəsi tədbirlərinin həyata keçirilməsinə ehtiyac var idi.

Biomüxtəliflik. Təbiət, o cümlədən kənd təsərrüfatında intensiv istifadənin nəticəsi olan günümüzün əsas ekoloji problemlərindən biri də biomüxtəlifliyin azaldılması problemidir. Kənd təsərrüfatı sahəsində xammal mənbəyi və ya tullantılar üçün yer kimi təbii ehtiyatlar birbaşa ekosistemlərdə bioloji müxtəlifliyin azalmasına səbəb olur. Yəni, bəzi orqanizmlərin sayında azalma, digərlərinin populyasiyasında artım, orqanizmlər arasında qarşılıqlı əlaqənin modifikasiyası, orqanizmlər və onların fiziki-kimyəvi mühiti arasında münasibətlərdə dəyişiklik baş verir.

Beynəlxalq Təbiəti Mühafizə İttifaqı (IUCN) bildirir ki, yaxşı öyrənilmiş ali taksonomik qrupların 10-50%-i, o cümlədən məməli növlərinin 23%-i, quşların 12%-i və iynəyarpaqlıların 25%-i yox olmaq təhlükəsi ilə üzləşib [4.351].

İnsanın biomüxtəlifliyə təsirinin əsas amilləri təbii ekosistemlərin məhv edilməsi və transformasiyası, təbii ehtiyatların həddindən artıq istismarı və ətraf mühitin çirklənməsidir. Hazırda biomüxtəlifliyin azaldılması tendensiyalarının davam etdirilməsi qiymətli biosferin itirilməsinə səbəb ola bilər və bəşəriyyətin yaşaması üçün zəruri şərtdir.

Aparılan araşdırmaları ümumiləşdirərək qeyd etmək olar ki, müasir yaşıl kənd təsərrüfatının mühüm xüsusiyyətləri ibarət olmalıdır: təbii ekoloji mühitə minimal təsir; torpaq ehtiyatlarının mühafizəsi və keyfiyyətinin yaxşılaşdırılması, eroziyadan mühafizəsi; sudan səmərəli istifadə və su ehtiyatlarının çirklənməsindən mühafizə; ətraf mühitin biomüxtəlifliyinin qorunması; enerji resurslarından, bərpa olunan enerji mənbələrindən ehtiyatlı istifadə.

Bu əlamətlər kənd təsərrüfatının yaşıllaşdırılması zərurətini şərtləndirir.

3. Yaşıl kənd təsərrüfatının prinsipləri və məqsədləri

İlk növbədə yaşıl kənd təsərrüfatının əsas prinsiplərinə diqqət yetirək.

Bitkiçilik sahəsində fəaliyyətin əsas prinsipləri sırasında kimyəvi maddələrdən və geni dəyişdirilmiş orqanizmlərdən istifadə etmədən becərmənin aqrotexniki və bioloji üsullarının köməyi ilə torpağın münbitliyinin yüksəldilməsi və torpaq eroziyasının qarşısının alınması xüsusi əhəmiyyət kəsb edir. Bu istiqamətdə tələb olunur: elmi əsaslandırılmış əkin dövriyyəsinə riayət edilməsi; sənaye gübrələrinin, pestisidlərin, böyümə tənzimləyicilərinin istifadəsinin qadağan edilməsi; istehsal prosesinin kimyəvi tənzimlənməsi üsulları bitki mənşəli preparatlarla əvəz olunur, sintetik pestisidlərin istifadəsinə yol verilmir; alaq otlarına qarşı müqaviməti müxtəlif olan əkinlərin növbəli əkinçiliyi aparılır; alaq otlarına qarşı mübarizə aqrotexniki üsullarla tənzimlənir, herbisidlərdən istifadəyə icazə verilmir; tarla bitkilərinin müxtəlifliyi faydalı orqanizmlərin yaşaması üçün kifayət qədər imkanlar yaratmalı; üzvi gübrələrdən istifadə; ərazinin torpaq-iqlim şəraitinə uyğun olaraq rayonlaşdırılmış kənd təsərrüfatı bitkilərinin və onların sortlarının becərilməsi genişləndirilir.

Ekoloji heyvandarlıqda onların fiziki zədələnmədən qorunması və sırf üzvi mənşəli yemlərlə (antibiotiklərdən, hormonal maddələrdən, geni dəyişdirilmiş orqanizmlərdən və s. istifadə edilmədən) qidalanması üçün zəruri şəraitin yaradılması vacibdir. Bu istiqamətdə tələb olunur: heyvanların yetişdirilməsi üçün şərait onların fizioloji tələbatlarına cavab verməli və yetişdirilən heyvanların sağlamlığının və uzunömürlülüyünün qorunması tələblərinə cavab verməlidir; yem rasionunun quru maddəsinin əhəmiyyətli hissəsi ekoloji təmiz kənd təsərrüfatından əldə edilən yemlə örtülməli, ənənəvi kənd təsərrüfatından alınan yemin payı ümumi yağ rasionunun 10%-dən çox olmamalıdır; qidalanma zamanı kardiostimulyatorlar, sintetik qida konservantları, antibiotiklər, hormonal maddələr kimi əlavələrin istifadəsinə icazə verilmir; təbii mənşəli ətirli maddələrin, vitamin və mineral inqrediyentlərin istifadəsinə icazə verilməsi.

Yaşıl kənd təsərrüfatı istehsalı, saxlanması və emalı normativ tələblərə uyğun olmalı, məhsullar məcburi sertifikatlaşdırmadan keçməli və xüsusi etiketlə markalanmalıdır.

Göstərilən prinsiplərə əsasən yaşıl kənd təsərrüfatının əsas məqsədlərini formalaşdırmaq olar:

- əhalinin tələbatını tam ödəmək üçün keyfiyyətli ərzaq məhsullarının istehsalı;
- enerji resurslarının rasional istehlakı, o cümlədən alternativ mənbələrdən enerji istehlakının artması;
- torpağın münbitliyinin qorunması və yaxşılaşdırılması;
- yaşıl kənd təsərrüfatı istehsalı prosesində ətraf mühitin çirklənməsinin azaldılması;
- kimyəvi gübrələrin, pestisidlərin, zəhərli kimyəvi maddələrin və s.-nin elmi əsaslarla istehlak edilməsi və aqrar məhsulların istehsalında ekoloji üsullardan istifadənin artırılması;
- kənd təsərrüfatı heyvanlarının bəslənməsi onların fizioloji və ekoloji ehtiyaclarını ödəyəcək humanist və etik prinsiplər əsasında həyata keçirilməsi;
- bütün səviyyələrdə təbii ekosistemlərin və biomüxtəlifliyin qorunması;
- yaşıl kənd təsərrüfatı məhsulları istehsalçılarına və onların ailə üzvlərinə iqtisadi və sosial inkişaf imkanlarının yaradılması.

Azərbaycanın kənd təsərrüfatında eko-innovasiyaların tətbiqi amilləri

Ekoloji innovasiya davamlı inkişaf məqsədlərinə nail olmaqda əhəmiyyətli və nəzərəçarpan irəliləyişlərə, o cümlədən ətraf mühitə təsirin azaldılmasına və ya resursların, o cümlədən enerjinin istifadəsində daha yüksək səmərəliliyə və məsuliyyətə nail olmağa yönəlmiş iqtisadi proseslərin təbii mühitə mənfi təsirini azaldan və ətraf mühitə dəyən zərəri azaldan istənilən eko-innovasiyaların cəlb edilməsi zərurətini yaradır.

Eko-innovasiyalar alternativ həllərlə müqayisədə ekoloji üstünlüklər gətirən yeni və əhəmiyyətli dərəcədə təkmilləşdirilmiş məhsul (xidmət), texnoloji, təşkilati və marketinq üsuludur.

Eko-innovasiyaların həyata keçirilməsinə dair ədəbi mənbələri tədqiq edərək onların inkişafına və praktiki həyata keçirilməsinə kömək edən və maneə törədən əsas amillər müəyyənləşdirilərək cədvəl 2-də təqdim edilmişdir.

Cədvəl 2.

Azərbaycanın kənd təsərrüfatında eko-innovasiyaların tətbiqini şərtləndirən amillər

Eko-innovasiyaların tətbiqinə kömək edən amillər	Eko-innovasiyaların tətbiqi üçün maneələr
Azərbaycan tərəfindən davamlı inkişaf konsepsiyasının qəbul edilməsi, 2030-cu ilə qədər olan dövr üçün davamlı inkişafın 17 qlobal məqsədinin inkişafı	hüquqi maneələr (açıq olmayan və qeyri-şəffaf qaydalar, səhv müəyyən edilmiş standartlar)
mühafizə və çoxalma tədbirlərinin həyata keçirilməsi və torpaqların münbitliyinin artırılması, onların deqradasiyasının dayandırılması, kənd təsərrüfatı torpaqlarından istifadənin ümumi yaşıllaşdırılmasının yaxşılaşdırılması	iqtisadi maneələr (müəssisədə maliyyə resurslarının olmaması, xarici maliyyələşdirmənin olmaması, innovasiya prosesinin yüksək qiyməti, yüksək risk və investisiyanın gəlirliliyinin qeyri-müəyyənliyi)
Azərbaycan əhalisinin ətraf mühitin qorunması zərurəti haqqında məlumatlandırılması	tələb maneələri (qeyri-müəyyən bazar tələbi, etibarlı məlumatın olmaması səbəbindən məhsulu onun ekoloji üstünlüyü nöqteyi-nəzərindən fərqləndirmək imkanının olmaması)
ekoloji təmiz (üzvi) kənd təsərrüfatı məhsullarına artan tələbat	texnoloji maneələr (texnoloji potensial, köhnəlmiş infrastruktur)
kənd yerlərinin inkişafına dəstək proqramlarının genişləndirilməsi, kənd yerlərində gəlirlərin şaxələndirilməsi, ətraf mühitin mühafizəsi və heyvandarlığın əsas standartlarına uyğunluq	tədqiqat və inkişaf sahəsinə maneələr (tədqiqat layihələrinin kifayət qədər maliyyələşdirilməməsi, elm və istehsalat arasında əməkdaşlığa dəstəyin olmaması)
təbii ehtiyatlardan səmərəli istifadə ehtiyacı	kadr maneələri (məsələn, təcrübəli və ixtisaslı kadrların olmaması, müvafiq idarəetmə bacarıqlarının və texniki biliklərin olmaması)
alternativ enerji mənbələrinin axtarışı, bioenerjinin inkişafı	əməkdaşlıq üçün maneələr (uyğun təchizatçıların, iş ortaqlarının olmaması)

**Müəllif tərəfindən hazırlanıb.*

Yaşıl kənd təsərrüfatında eko-innovasiyalara alternativ əkinçilik sistemlərinin tətbiqi daxildir ki, bunun da mahiyyəti sintetik gübrələrin, pestisidlərin, böyümə tənzimləyicilərinin və yem əlavələrinin tam və ya qismən rədd edilməsidir. Alternativ əkinçilik sistemlərinin ən mühümü: üzvi əkinçilik; bioloji kənd təsərrüfatı, üzvi-bioloji kənd təsərrüfatı; bioloji dinamik kənd təsərrüfatı; A.N.O.G üsulu; vegetarian kənd təsərrüfatı; makrobiotik üsul və davamlı kənd təsərrüfatıdır.

Alternativ əkinçilik sistemlərinin məqsədi insan sağlamlığına müsbət təsir edəcək kimyəvi qalıqları olmayan ekoloji təmiz məhsullar əldə etməkdir.

Nəticə

Araşdırmalardan belə nəticəyə gəlmək olar ki, qlobal ekoloji böhran şəraitində iqtisadiyyat, cəmiyyət və ətraf mühit arasında zəruri balansın saxlanılması yalnız inkişafın yeni, ekoloji təhlükəsiz və iqtisadi baxımdan optimal modelinin - “yaşıl kənd təsərrüfatı”nın formalaşdırılması hesabına ola bilər.

Hazırda bəşəriyyətin yaşıl kənd təsərrüfatına diqqət yetirməsinin iki əsas aspekti var. Birincisi, bu, ümumilikdə həm kənd təsərrüfatı məhsullarının istehsalına, həm də qida keyfiyyəti məsələlərinə aid olan ekoloji problemdir. Kənd təsərrüfatı istehsalının yaşıllaşdırılmasının aktuallığı kənd təsərrüfatı istehsalı ilə bağlı təbii ehtiyatların ekoloji vəziyyətinin kəskin şəkildə pisləşməsi, torpağın münbitliyinin və kənd təsərrüfatı məhsullarının keyfiyyətinin aşağı düşməsi, ətraf mühitə kompleks ekoloji dağıdıcı təsirin artması ilə əlaqədardır. İkincisi, beynəlxalq təcrübənin göstərdiyi kimi, yaşıl kənd təsərrüfatının ənənəvi istehsaldan daha yüksək gəlir səviyyəsinə malik iqtisadi cəhətdən gəlirli fəaliyyət sahəsi olmasıdır.

Bütün bunlar onu deməyə əsas verir ki, yaşıl kənd təsərrüfatı istehsalı, məhsulların emalı və paylanması prosesində çirklənmənin bütün formalarının minimuma endirilməsi, təbii resurslara qənaət edən ağıllı texnologiyaların tətbiqi, enerji mənbələrinin şaxələndirilməsi və eko-innovasiyalardan səmərəli istifadəyə dair innovativ tədbirlərin tətbiqi Azərbaycanda yaşıl kənd təsərrüfatının inkişafında zəruri şərtlərdir.

ƏDƏBİYYAT

1. www.president.az - Azərbaycan Respublikası Prezidentinin rəsmi web ünvanı
2. Quliyev, E.A. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının Azərbaycanın davamlı inkişafında rolu / E.A.Quliyev. – Bakı: Kooperasiya, – 2023. – 320 s.
3. Ataşov, B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika) / B.X.Ataşov. –Bakı: – Kooperasiya, – 2017. – 536 s.
4. Qafarov N.C. Azərbaycanın aqrar-sənaye kompleksi: formalaşması və davamlı inkişaf problemləri /N.C.Qafarov. – Bakı: – Kooperasiya, – 2024. – 464 s.
5. COP29-un Azərbaycanda keçirilməsi qlobal problemlərin həllində strateji təşəbbüsdür: [Elektron resurs] / URL: https://report.az/cop29/ekspert-azerbaycanda-cop29-un-kecirilmesi qlobal-problemlerin-hellinde-strateji-tesebbusdur/

Низами Джалал Гафаров
Азербайджанский Университет Кооперации
профессор кафедры, “Аграрная экономика и туристический бизнес” д.е.н.
ОРЦИД-0000-0003-1583-3024
электронная почта: qafarovnizami@mail.ru

Необходимость зеленого сельского хозяйства в Азербайджане и его исходные условия

Резюме

Цель исследования. В статье для полного удовлетворения потребностей населения Азербайджана необходимо провести исследования в направлении производства качествен-

ных продуктов питания, экологизации сельскохозяйственного производства, разработки способов улучшения экологического состояния природных ресурсов, связанных с сельскохозяйственным производством. и подготовка рекомендаций о необходимости зеленого сельского хозяйства.

Методика исследования. При подготовке статьи автор использовал методы научного исследования, в том числе методы наблюдения, сравнения, анализа, логического обобщения. Также методологическую основу исследования составил стратегический подход политики формирования и устойчивого развития зеленого сельского хозяйства в Азербайджане.

Практическая значимость исследования заключается в том, что предложенные предложения и рекомендации могут быть полезны при подготовке проектов в направлении зеленого сельского хозяйства как экономически выгодной сферы деятельности с более высоким уровнем дохода, чем традиционное производство в нашей стране, дальнейшего развития экологически Производство экологически чистой продукции в отдельных областях сельского хозяйства.

Относительно результатов исследования можно отметить, что для минимизации всех форм загрязнения в процессе сельскохозяйственного производства, переработки и распределения продукции необходимо и устойчивое развитие зеленого сельского хозяйства, применение технологий, экономящих природные ресурсы, предусмотрена диверсификация источников энергии, инновационное использование направлений экоинноваций.

Оригинальность и научная новизна исследования. В статью включены новые научные подходы, которые могут поддержать необходимость и устойчивое развитие зеленого сельского хозяйства в Азербайджане.

Ключевые слова: зеленое сельское хозяйство, окружающая среда, природные ресурсы, качество продуктов питания, безопасность пищевых продуктов, экологически чистый продукт, социально-экономическое развитие, экоинновации.

Nizami Jalal Gafarov
Azerbaijan Cooperation University
"Agrarian economy and tourism business"
professor of the department, doctor of economic sciences
ORCID-0000-0003-1583-3024
e-mail: qafarovnizami@mail.ru

Necessity of green agriculture in Azerbaijan and its initial conditions

Summary

The purpose of the study. In the article, in order to fully meet the needs of the population in Azerbaijan, it is necessary to conduct research in the direction of producing quality food products, greening agricultural production, developing ways to improve the ecological condition of natural resources related to agricultural production, and preparing recommendations for the necessity of green agriculture.

Research methodology. While preparing the article, the author benefited from scientific research methods, including observation, comparison, analysis, logical generalization methods. Also, the strategic approach of the policy of formation and sustainable development of green agriculture in Azerbaijan formed the methodological basis of the research.

The practical significance of the research is that the proposed proposals and recommendations can be useful in the preparation of projects in the direction of green agriculture being an economically profitable field of activity with a higher income level than traditional production in our country, further development of ecologically clean product production in separate areas of agriculture.

Regarding the results of the research, it can be noted that in order to minimize all forms of pollution in the process of agricultural production, product processing and distribution, the necessity and sustainable development of green agriculture, the application of technologies that save natural resources, the diversification of energy sources, and the innovative use of eco-innovations directions are provided.

Originality and scientific novelty of research. New scientific approaches that can support the necessity and sustainable development of green agriculture in Azerbaijan are included in the article.

Key words: green agriculture, environment, natural resources, food quality, food safety, environmentally friendly product, socio-economic development, eco-innovations.

UOT 338.43

Vilayət Abbas oğlu ƏLİYEV
Azərbaycan Kooperasiya Universitetinin
"Qida mühəndisliyi və ekspertiza" kafedrasının müdiri, prof.
e-mail: ekspertiza.123@ gmail.com
https://doi.org/10.30546/4.71.73001.2025.001.0137

BALIQ KONSERVLƏRİNİN ZÜLAL VƏ LİPİD FRAKSİYALARININ TƏDQİQATI

Xülasə

Tədqiqatın məqsədi. Balıq konservləri dedikdə tənəkə və şüşə bankalara yığılaraq germetik bağlanıb 110-120°C temperaturda sterilizə olunmuş balıq məhsulu nəzərdə tutulur. Balıq ehtiyatının yaradılması, ticarətdə mal çeşidinin genişləndirilməsi, əhalinin tələbatının bütün ilboyu fasiləsiz ödənilməsi işində bankada balıq konservi istehsalının artırılması və konservlərin keyfiyyətinin saxlanması və uzaq məsafələrə daşınması çox əhəmiyyətlidir.

Tədqiqatın metodologiyası. İnsanların qida məhsulu kimi istehlak etdikləri çox qiymətli hesab edilən balıq konservlərinin tədqiqatı DÖST-55503-2013 standartına uyğun aparılmışdır. Nəticədə balıq konservlərinin keyfiyyətliliyi müəyyən edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti. Respublikada istehsal edilən balıq konservlərinin kimyəvi tərkibi haqqında məlumata 20 il əvvəllərdə rast gəlmək olar. Məhz buna görə balıq konservlərinin kimyəvi tərkibi, zülal və lipid fraksiyalarının tədqiqatını aparmaq, bu qiymətli konservin orqanizm üçün əhəmiyyətini aydınlaşdırmaqdır.

Tədqiqatın nəticələri. Balıq və balıq məhsulları ilə yanaşı balıq konservləri çox qədim zamanlardan insanların qidasında əhəmiyyətli hesab edildiyindən bu məhsullara tələbat çox yüksəkdir. Bu onunla izah edilir ki, balıq və balıq konservləri insanların orqanizminin normal inkişaf etməsinə, sağlam böyüməsinə kömək etməli və həzm olunarkən yüksək kalorilik verməlidir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi. Balıq konservlərinin keyfiyyətinin yüksəldilməsinin əsas amili konservin kimyəvi tərkibi və ilk dəfə olaraq balıq konservinin tərkibində olan zülal və lipid fraksiyalarının tədqiqatı böyük maraq doğurur. Çünki bu fraksiyalar balıq konservlərinin keyfiyyətində çox mühüm rol oynayır.

Açar sözlər: konserv, kimyəvi tərkibi, zülal və lipid fraksiyaları.

Giriş

Ədəbiyyat qaynaqları ilə tanışlıqdan aydın olur ki, balıq konservlərinin əmtəəşünaslıq xassələri, keyfiyyəti, eyni zamanda kimyəvi tərkibi də çox az öyrənilmişdir. Məhz buna görə balıq konservlərinin keyfiyyətinin və keyfiyyət göstəricilərinin tədqiqatının aparılması böyük maraq doğurur.

Məlumdur ki, balıq konservlərinin keyfiyyətinin qiymətləndirilməsi birinci növbədə konservin qidalılıq dəyəri, dad keyfiyyəti, əsasən məhsulun tərkibində olan kimyəvi maddələrin miqdarından asılıdır. Digər məhsullarda olduğu kimi balıq konservinin keyfiyyəti qiymətləndirilərkən ona ən yüksək tələbat qoyulur. Bu tələbata əsasən balıq konservi təzə olmalıdır, konserv bankası deformasiyaya uğramamalı, şifrələri aydın olmalıdır. [2, səh. 255] Konserv kənar iy və tam verməməlidir, tam reseptə uyğun istehsal edilməlidir. Qızıl balıqlardan hazırlanan konservlər çox qiymətli və insanların ən böyük tələbatı olan konservlərdəndir. Bu konservlər yüksək qiymətləndirilir. Qızıl balıq konservləri xüsusilə Keta balıq konservləridir. Öz şirəsində qızıl balıq konservi çox dadlı, şirəli və insanların xoşuna gələn konservlərdir. Öz şirəsində hazırlanan konservlərin biri də siyənəkkimilərdir. Azərbaycanda bu fəsilənin iki nümayəndəsi qidalanır. Azərbaycanın daxili sularında siyənəkkimilər çox yayılmışdır. Siyənəkkimilərin ikinci nümayəndəsi balıq konservinin əsas xammalı hesab edilir. Həm siyənək, həm də kilkələr vətəgə əhəmiyyətli balıqlar olmaqla konserv istehsalında əsas xammal kimi istifadə edilir. Kilkələr vətəgə balıqlarıdır, Xərərdə ehtiyatı çoxdur,

yağda, tomat sousunda konservlər hazırlanır. Jeledə təbii balıq konsevləri istehsalında uqor, nelma, okun, çəki, salaka balıqlarından əsas xammal kimi istifadə edilir. Qızardılmış balıq jeledə konservi əsasən treska və minoqa balıqlarından hazırlanır. Balıqlar əvvəlcə qızardılır və bankalara yığılır. Bulyonda balıq konservinin hazırlanmasında skumbriya, kefal, Qara dəniz stavridası balıqları əsas xammal hesab edilir. Bu balıqlardan bir neçə adda konservlər hazırlanır. Əvvəlcə bu balıqlar pörtülür, sonra taraya yığılır və sonra üzərinə quyruq üzgəcləri, balığın başından hazırlanan bulyon bankada balığın üzərinə tökülür. Çəki balıq konservlərinin hazırlanmasında əsas xammal çəki balığıdır. Tomat sousunda balıq konservi ən geniş çeşidə mlikdir. Bu balıq konservlərinin əsas xammalı treska balığının qaraciyərindən yüksək qidalılıq dəyərinə malik konservlər hazırlanır.

Balıq konservlərinin keyfiyyəti araşdırılarkən birinci növbədə orqanoleptiki, fiziki-kimyəvi, bakterioloji, mikrobioloji metodlardan istifadə edilir. Balıq konservlərinin keyfiyyəti qiymətləndirilərkən birinci növbədə konservlərin istehsal edildiyi xammal və köməkçi xammalın keyfiyyəti diqqətlə yoxlanılmalıdır. Çünki xammallarda olan kiçik qüsurlar hazır məhsulun keyfiyyətində çox ciddi qüsurlar əmələ gətirə bilir.

Ümumiyyətlə, keyfiyyətli balıq konservlərinə əhalinin tələbatının yüksək olması elmi-texniki tərəqqinin inkişafı ilə əlaqədardır. Eyni zamanda balıq konservlərinin saxlanması şəraiti və müddəti çox maraq doğurur.

Aparılan tədqiqat nəticəsində müəyyən edilmişdir ki, bu konservlər saxlanma zamanı xüsusi şərait tələb etmir. Lakin balıq konservlərinin nisbətən aşağı hərarətdə saxlanması məqsədəuyğun hesab edilir. Onu da qeyd etmək lazımdır ki, konservlər aşağı hərarətdə saxlandıqda konservdə olan məhsul həll olan haldan çətin həll olan hala keçir, daha doğrusu, tərkibində olan miofibrilyar zülal denaturlaşmış zülal halına keçə bilir.

Konservlərin istehsal texnologiyasının təkmilləşdirilməsi, sanitar-gigienik şəraitinin yaxşılaşdırılması, konserv istehsalında yeni növ taraların tətbiqi, yeni avadanlıqlardan istifadə edilməsi, konservin keyfiyyətinin yaxşılaşdırılması əsas prioritet istiqamətlərdir.

Aparılan elmi-tədqiqat işlərinin nəticəsində müəyyən edilmişdir ki, hazırkı dövrdə insanların qida rasionunda çox sayda müxtəlif məhsullardan, rəngarəng çeşidlərdən istifadə edilir. Bu məhsulların çeşidləri nə qədər bol olarsa orqanizm o qədər sağlam olar və normal inkişaf edər. Lakin bütün hallarda rasion qida normasında olan balıq və balıq məhsulları tam keyfiyyətli olmalı və qidalılıq dəyəri insanların tələbatını ödəməlidir.

Balıq konservlərinin zülal və lipid fraksiyalarının tədqiqatı. Nərə, keta və çəki balıq konservlərinin keyfiyyətinin araşdırılmasının elmi və təcrübi əhəmiyyəti vardır. Xüsusilə balıq konservlərinin zülal fraksiyasının araşdırılması ciddi maraq doğurur. Bu həm də balıq keyfiyyətinin qiymətləndirilməsində böyük rol oynayır. Balıq konservlərinin tərkibində ikinci əsas üzvi maddə lipidlərdir. Zülallar canlı orqanizmin tərkibinə daxil olan ən mühüm üzvi maddələrdir. Zülalın əsas tərkib hissəsi aminturşularıdır. Aminturşuları balıq konservlərində sərbəst halda zülalın parçalanması nəticəsində əmələ gəlir. Zülallar həm çox böyük, həm də qeyri-adi dərəcədə mürəkkəb molekul quruluşuna malikdir. Məlumdur ki, lipidlər kimyəvi tərkibinə görə çoxatomlu spirt və yüksək molekulalı yağ turşularının mürəkkəb efirləridir. (3, səh.113)

Məlumdur ki, balıq konservlərinin qidalılıq dəyərində lipidlər çox mühüm rol oynayır. Lipidlərin tədqiqatının elmi və təcrübi əhəmiyyəti vardır. Məlumdur ki, balıqların tərkibindəki zülallar və lipidlər onların tamının formalaşmasında çox mühüm ol oynayır. Eyni zamanda balıqların tərkibində olan lipidlər yüksək enerji dəyərinə malikdir.

Məlumdur ki, balıqlar qidalanma yerindən asılı olaraq dəniz, şirin sularda və keçici balıqlara ayrılır. Dənizdə qidalanan balıqlar adətən dənizə kürü tökürlər və dənizdə yaşayırlar. Şirin sularda olan balıqlar əsasən dənizdə qidalanırlar, kürü tökmək üçün çaya keçirlər və əksinə, çaydan dənizə keçirlər. Dəniz balıqları ümumi balıq ovunun 85,0%-ni təşkil edir. Balıq və balıq məhsulu istehsalında əsas xammal bazası müxtəlif balıqçılıq regionlarından və Azərbaycanın məhəlli sularından ovlanan vətəgə balıqlarıdır. Bu xammalın əsasını təşkil edən bəzi balıq fəsilələrinin və balıqların məhsul istehsalında olan əhəmiyyətini nəzərdən keçirmək maraq doğurur. Balıq konservlərinin

istehsalında xammal kimi istifadə edilən balıq fəsilələridir. Məhz buna görə də balıqların hər üç növünün lipid fraksiyalarının tədqiqatı maraq doğurur. Buna görə də balıqların tərkibində lipid fraksiyalarının tədqiqatı aparılmış və tədqiqatın nəticəsi aşğıda qeyd edilir. Balıq konservlərində zülal fraksiyası qel-filtrləşmə metodu ilə sefadeks F-100 aparatında miofibrilyar və sarkoplazma üsulları ilə ilk dəfə tədqiqat edilmişdir.

Tədqiqat nəticəsində zülal fraksiyaları-miofibrilyar, sarkoplazma, denaturlaşmış zülal, zülalsız azot və aminli azotun miqdarı müəyyənləşdirilmişdir. Alınan fraksiyalar, hər balıq konservində tədqiqatın nəticəsi aşağıdakı 1 saylı cədvəldə verilir.

Cədvəl 1

Balıq konservlərinin tərkibindəki zülal fraksiyaları

Zülal fraksiyaları	Nərə balıq konservi	Keta balıq konservi	Çəki balıq konservi
Yaş maddəyə görə hesablanmış faizə görə ümumi azotun miqdarı:	2,9	3,3	1,8
O cümlədən zülal, cəmi:	99,66	99,58	99,82
Miofibrilyar	42,2	41,9	44.5
Sarkoplazma	31,1	32,0	30,2
Denaturlaşmış	16,2	15,9	15,4
Zülalsız azot	9,2	9,4	9,3
Aminli azot	0,96	0,34	0,42

1 saylı cədvəlin rəqəmlərindn görünür ki, keta balıq konservində yaş maddəyə görə hesablanmış faizə görə ümumi azotun miqdarı digər balıq konservləri ilə müqayisədə bir qədər üstündür. Keta balıq konservinin tərkibindəki ümumi azotun miqdarı, nərə balıq konservinin tərkibindəki ümumi azotun miqdarı ilə müqayisədə bir qədər – 0,4 və 13,8% artıqdır. Keta balıq konservinin tərkibindəki ümumi azotun miqdarı, çəki balıq konservindəki ümumi azotun miqdarı ilə müqayisədə 1,5 və ya 83,3% çoxdur.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, zülal fraksiyaları müxtəlif konservlərdə müxtəlifdir. Nərə balıq konservlərində miofibrilyar zülal fraksiyası, keta balıq konservlərinin tərkibindəki miofibrilyar zülal ilə müqayisədə, çəki balıq konservində miofibrilyar zülal 2,6 və ya 0,97% çoxdur. Çəki balıq konservinin tərkibindəki miofibrilyar zülalının miqdarı nərə balıq konservinin tərkibindəki miofibrilyar zülalın miqdarı ilə müqayisədə 0,23 və ya 9,4% çoxdur. Balıq konservlərinin qidalılıq dəyəri onların kimyəvi tərkibindən, bioloji və fiziki-kimyəvi xassələrindən çox asılıdır. Həmçinin, balıq konservlərinin qidalılıq dəyəri balıq konservlərinin tərkibindəki üzvi maddələrdən, onların orqanizmdə yaxşı həzmə getməsindən, həzm olunarkən yüksək kalorilik verməsindən asılıdır.

Məlumdur ki, balıq konservlərində əlverişli şərait olduğunda konservə zərərli maddələr tez düşə bilir. Eyni zamanda məlumdur ki, balıq konservlərində zərərli maddələrin olmasına standarta əsasən icazə verilmir və onların realizə edilməsi qəti qadağandır. Balıq konservlərində tənəkə bankada olan məhsulun tərkibindəki maddələrin suda həll olmasından, mədə-bağırsaq fermentlərinin onları parçalamasından asılıdır.

Sarkoplazma zülalının keta balıq konservində digər balıq konservləri ilə müqayisədə bir qədər artıq olduğu hiss edilir. Belə ki, balıq konservində sarkoplazma zülalının miqdarı 1,8 və ya 5.9% azdır. Nərə balıq konservinin tərkibindəki denaturlaşmış zülalı keta balıq konservinin tərkibindəki denaturlaşmış zülalla müqayisə etdikdə aydın olur ki, nərə balıq konservində olan denaturlaşmış zülalın miqdarı 0,3 və ya 0.1% artıqdır. Həmçinin, nərə balıq konservində denaturlaşmış zülalın çəki balıq konservinin tərkibindəki denaturlaşmış zülalla müqayisəsində nərə balıq konservlərinin tərkibindəki denaturlaşmış zülalın 0,8 və ya 0,5% çox olduğu görünür. (4, səh. 233)

Balıq konservlərinin tərkibində olan zülalsız azotun miqdarı hər üç balıq konservlərində çox

cüzi miqdarda fərqləndiyi üçün onların təhlili aparılmır. Aminli azot nərə balıq konservinin tərkibində digər konservlərə nisbətən üstünlük təşkil edir. Belə ki, nərə balıq konservinin tərkibində aminli azotun miqdarı bir qədər, 0,62 və ya üç dəfəyə yaxın artıqdır. Həmçinin, nərə balıq konservinin tərkibindəki aminli azotun miqdarı ilə müqayisə etsək, nərə balıq konservinin tərkibində olan ümumi azotun miqdarı 2,29 dəfə çoxdur.

Balıq konservlərinin tərkibindəki ikinci əsas üzvi maddə lipidlərdir. Məlumdur ki, lipidlər kimyəvi tərkibinə görə çoxatomlu spirt və yüksək molekullu yağ turşularının mürəkkəb efirləridir. Məlumdur ki, balıq konservlərinin qidalılıq dəyərində lipidlər çox mühüm rol oynayır. Lipidlərin tədqiqatının elmi-təcrübi əhəmiyyəti vardır.

Məlumdur ki, balıq konservlərində olan zülallar və lipidlər balıqların tamının formalaşmasında çox mühüm rol oynayır. Eyni zamanda balıqların tərkibində olan lipidlər yüksək enerjiliyə malikdir. Balıq konservlərinin tərkibində olan fosfolipidlər+qlikolipidlər fraksiyası miqdarca fərqlidir. Belə ki, çəki balıq konservlərinin tərkibindəki fosfolipid+qlikolipid fraksiyası miqdarı digər balıq konservlərindən fərqlənir. Çəki balıq konservinin tərkibində olan fosfolipid+qlikolipid fraksiyalarının miqdarının nərə balıq konservinin tərkibində olan fosfolipid+qlikolipid fraksiyası ilə müqayisədə bir qədər 10,1 və ya 71,0% artıq olduğu cədvəlin rəqəmlərindən aydın görünür. Çəki balıq konservinin tərkibində olan fosfolipid+qlikolipid fraksiyasının miqdarını keta balıq konservinin tərkibindəki fosfolipid+qlikolipid fraksiyası ilə müqayisə etdikdə, çəki balıq konservində bu fraksiyanın 3.98 və ya 19,5% artıq olduğu müşahidə edilir.

Məhz buna görə də balıqların hər üç konserv növünün lipid fraksiyalarının tədqiqatı maraq doğurur. Buna görə də balıq konservlərinin tərkibindəki lipidlərin miqdarı tədqiq edilmişdir və tədqiqatın nəticəsi aşağıdakı cədvəldə verilir.

Cədvəl 2.

Balıq konservlərinin lipid fraksiyaları

Lipid fraksiyaları	Nərə balıq konservi	Keta balıq konservi	Çəki balıq konservi
Lipidin miqdarı:	14,2	15,1	16,2
Karbohidrogen, mum və stearin efiri	8,81	7,83	6,20
Triqliseridlər	48,2	44,3	41,1
Sərbəst yağ turşuları	3,59	3,01	2.79
Diqliseridlər	4,61	3,30	3,51
Xolosterin	3,63	3,31	3,0
Monoqliserid	2,71	2,76	2,83
Fosfolipidlər+qlikolipidlər	14,25	20,39	24,37

2 saylı cədvəlin rəqəmlərindən aydın görünür ki, balıq konservlərinin tərkibində olan lipidin miqdarı müxtəlifdir. Eyni zamanda balıq konservlərində lipid fraksiyaları eyni deyildir. Balıq konservlərində lipidin miqdarını müqayisə etsək çəki balıq konservində bir qədər üstündür. Bu konservin tərkibində olan lipidin miqdarı nərə balıq konservinin tərkibindəki lipidlə müqayisə aydın olur ki, çəki balığında lipidin miqdarı 2,0 və ya 14% çoxdur. Çəki balıq konservinin tərkibində olan lipidin miqdarını keta balıq konservinin tərkibindəki lipidin miqdarı ilə müqayisə etsək aydın olur ki, çəki balıq konservində lipidin miqdarı 1,1 və ya 7,0% üstündür.

Lipid fraksiyası olan karbohidrogen, mum, stearin efirinin miqdarı nərə balıq konservində digər konservlərlə müqayisədə bir qədər fərqlənir. Belə ki, nərə balıq konservinin tərkibindəki karbohidrogen, mum, stearin efirinin miqdarı, keta balıq konservinin tərkibindəki karbohidrogen, mum və sterin efiri ilə müqayisədə, 0,98 və ya 0,9% çoxdur. Nərə balıq konservindəki karbohidrogen, mum və stearin efiri çəki balıq konservinin tərkibindəki karbohidrogen, mum və stearin efiri ilə müqayisədə bir qədər - 2,61 və ya 30,0% çoxdur. Triqliseridin miqdarı nərə balıq konservində, digər balıq konservlərinə nisbətən bir qədər artıqdır. Belə ki, nərə balıq konservinin tərkibindəki

triqliseridin miqdarını keta balıq konservində olan triqliseridlə müqayisə etsək, nərə balıq konservində olan triqliseridin miqdarının 3,9 və ya 9,0% artıq olduğu görünür. Nərə balıq konservinin tərkibində olan triqliseridin miqdarını çəki balıq konservinin tərkibində olan triqliseridlə müqayisə etsək 7,1 və ya 15,0 çox olduğu görünür. (5, səh. 73)

Nərə balıq konservinin tərkibindəki sərbəst yağ turşularının miqdarı keta balıq konservinin tərkibindəki sərbəst yağ turşuları ilə müqayisədə 0,58 və ya 19,3% çoxdur. Eyni zamanda nərə balıq konservinin tərkibindəki sərbəst yağ turşuları ilə müqayisə etsək bir qədər - 0,71 və ya 28,0% çoxdur. Nərə balıq konservinin tərkibində olan qliseridlərin miqdarının digər balıq konservləri ilə müqayisədə bir qədər üstün olduğu görünür. Belə ki, nərə balıq konservinin tərkibində olan diqliseridlərin miqdarının keta balıq konservinin tərkibində olan diqliseriddən bir qədər - 1, 31 və ya 39,7% çox olduğu aydın görünür. Balıq konservlərinin tərkibində olan xolosterinin miqdarının müqayisəsindən aydın görünür ki, 0,32 və ya 1,2 dəfə artıqdır. Nərə balığının tərkibindəki xolosterinin miqdarının keta balıq konservinin tərkibindəki xolosterinlə müqayisəsindən aydın görünür ki, nərə balıq konservində xolosterinin miqdarı bir qədər 0,63 və ya 17,4 % çoxdur. 2 saylı cədvəlin rəqəmlərindən aydın görünür ki, monoqliseridin miqdarı müxtəlif balıq konservlərində fərqlidir.

Çəki balıq konservinin tərkibində olan monoqliseridin miqdarını nərə balıq konservinin tərkibindəki monoqliseridlə müqayisə etsək aydın görünür ki, çəki balıq konservində monoqliseridin miqdarı bir qədər 0,12 və ya 0,6% çoxdur. Fosfolipid+qlikolipid fraksiyası çəki balıq konservində bir qədər aydın görünür. Çəki balıq konservinin tərkibindəki fosfolipid+ qlikoplipidin miqdarını keta balıq konservinin tərkibindəki fosfolipid+qlikolipid fraksiyası ilə müqayisə etsək aydın görmək olar ki, çəki balıq konservində bu fraksiya 3,98 və ya 19,5% çoxdur.Tədqiqatdan əldə edilən məlumatları ümumiləşdirərək aşağıdakı nəticəyə gəlmək olar.

Nəticə

Hələ çox qədim zamanlardan balıq konservlərinin qidalılıq dəyəri yüksək olduğundan bu qiymətli məhsul əhalinin iaşəsində möhkəm yer tutmuşdur. Məhz buna görə də insanların balıq konservlərinə tələbatı yüksəkdir. Onu da qeyd etmək lazımdır ki, balığın emal məhsulları, xüsusilə balıq konservləri haqqında ədəbiyyat məlumatı çox məhduddir. Balıq konservlərinin tərkibindəki zülal və lipid fraksiyaları haqqında məlumatlar yox dərəcəsindədir. Balıq konservlərinin kimyəvi tərkibini daha dəqiq araşdırmaq üçün zülal fraksiyalarının tədqiqatı çox böyük maraq doğurur. Tədqiqat nəticəsində zülal fraksiyaları-miofibrilyar, sarkoplazma, denaturlaşmış, zülalsız azot, aminli azot fraksiyaları müəyyənləşdirilmişdir. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, hər üç növ balıq konservində zülal fraksiyaları keyfiyyətcə dəyişmir, lakin miqdarca fərqlidir.

Balıq konservlərinin tərkibində ikinci əsas üzvi maddə lipidlərdir. Məlumdur ki. Lipidlər kimyəvi tərkibinə görə çoxazotlu spirt və yüksək molekulalı yağ turşularının mürəkkəb efirləridir. Balıq konservlərinin qidalılıq dəyərində lipidlər çox mühüm rol oynayır. Lipidlərin tədqiqatının elmi və təcrübi əhəmiyyəti vardır. Balıq konservlərinin tərkibində olan lipidlər zülallarla birlikdə balıq konservlərinin tamının formalaşmasında mühüm rol oynayır. Eyni zamanda balıq konservlərinin tərkibində olan lipidlər yüksək enerji dəyərinə malikdir. Məhz buna görə də balıq konservlərinin tərkibində olan lipid fraksiyalarının tədqiqatı maraq doğurur. Buna görə də balıq konservlərinin tərkibində olan lipid fraksiyalarının tədqiqatı aparılmış və maraqlı nəticələr əldə edilmişdir. Lipid fraksiyalarının tədqiqatı nəticəsində 7 fraksiya- karbohidrogen, mum, stearin efiri, triqliserid, sərbəst yağ turşuları, diqliseridlər, xolosterin, monoqliseridlər və fosfolipidlər + qlikolipid fraksiyaları müəyyən edilmişdir. Məlum olmuşdur ki, balıq konservlərində lipidin miqdarı konservin növündən asılı olaraq müxtəlifdir. Zülal fraksiyalarında olduğu kimi lipid fraksiyaları da müxtəlif balıq konservlərində keyfiyyətcə dəyişmir, miqdarca müxtəlifdir. Yuxarıda aparılan tədqiqatları, müşahidələri və araşdırmaları ümumiləşdirərək aşağıdakılar təklif edilir.

1. Balıq konservlərinin keyfiyyətini düzgün qiymətləndirmək üçün onların kimyəvi tərkibinin tədqiqatı vacibdir.
2. Nərə, keta və çəki balıq konservlərinin iyi, dadı və ətri yüksək olduğu üçün əhalinin tələbatı

bu konservlərə yüksəkdir.

3. Balıq konservlərinin tərkibində olan zülal fraksiyaları konservin qidalılıq dəyərini yüksəldir.
4. Balıq konservlərində tədqiqat nəticəsində züalın beş fraksiyası müəyyənləşmişdir.
5. Tədqiqat nəticəsində balıq konservlərində lipidin yeddi fraksiyası müəyyənləşmişdir.
6. Balıq konservlərinin keyfiyyətinin qiymətləndirilməsində lipid fraksiyalarının əhəmiyyəti böyükdür.

ƏDƏBİYYAT

1. “Yeyinti məhsullarının keyfiyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu, Bakı,1999.
2. XXII çağırış Azərittifaq Şurasının üçüncü yığıncağının sənədləri. Bakı-2015-ci il
3. V.A.Əliyev. “Ərzaq mallarının əmtəəşünaslığı, ekspertizasının sertifikatlaşdırılmasının nəzəri əsasları”, Bakı-1999.
4. V.A.Əliyev və Ş.A.Yusufova. “İstehlak mallarının ekspert qiymətləndirilməsi” Bakı-2017-ci il
5. V.A.Əliyev. “Ət və balıq məhsullarının əmtəəşünaslığı praktikumu” Bakı-Maarif nəşriyyatı, 1991.
6. V.A.Əliyev. “Ət və ət məhsullarının texnologiyası”. Bakı-2016.
7. V.A.Əliyev. “Balığın emal üsullarının onun lipid fraksiyalarına təsiri “Moskva X\T İnstitutunun elmi əsəsrləri №6, Moskva 1947.
8. V.A.Əliyev. “Sefadeksdə gel-xromotoqrafiyanın köməkliyi ilə balığın zülal fraksiyasının tərkibinin öyrənilməsi. Azərb. SSR. E.A.Xəbərlər jurnalı. Biologiya elmlər seriyası. Bakı 1976

Вилаят Аббас оглы Алиев
директор, профессор, Азербайджанский Университет Кооперации
кафедра “Пищевая инженерия и экспертиза”

Исследование белковых и липидных фракций рыбных консервов

Резюме

Цель исследования. К рыбным консервам относится рыбная продукция, расфасованная в жестяные и стеклянные банки, герметично укупоренная и стерилизованная при температуре 110-120°C. Очень важно создать запас рыбы, расширить ассортимент товаров в торговле, увеличить выпуск рыбных консервов в банке, сохранить качество консервов и транспортировать их на большие расстояния.

Методика исследования. Исследование рыбных консервов, считающихся очень ценными и потребляемых людьми в качестве пищевого продукта, проводилось по стандарту DÖST-55503-2013. В результате определяли качество рыбных консервов.

Прикладное значение исследования. Информацию о химическом составе рыбных консервов, производимых в республике, можно найти еще 20 лет назад. Именно поэтому впервые был изучен химический состав, белковая и липидная фракции рыбных шишек. Цель – прояснить значение этого ценного консерванта для организма.

Результаты исследования. Наряду с рыбой и рыбными продуктами рыбные консервы издревле считались важными в рационе человека, поэтому спрос на эти продукты очень высок. Это объясняется тем, что рыба и рыбные консервы должны обеспечивать высокую калорийность для нормального развития организма человека, здорового роста и пищеварения.

Оригинальность и научная новизна исследований. Основным фактором улучшения качества рыбных консервов является химический состав консервов, и впервые изучение белковых и липидных фракций, содержащихся в рыбных консервах, представляет большой интерес. Потому что эти фракции играют очень важную роль в качестве рыбных консервов.

Ключевые слова: консервация, химический состав, белковые и липидные фракции.

Vilayat Abbas Aliyev
director, prof. Azerbaijan Cooperation University
"Food engineering and expertise" department

Research of protein and lipid fractions of canned fish

Summary

The purpose of the study. Canned fish refers to fish products packed in tins and glass jars, hermetically sealed and sterilized at a temperature of 110-120℃. It is very important to create a stock of fish, expand the range of goods in trade, increase the production of canned fish in a jar, and maintain the quality of canned goods and transport them over long distances.

Research methodology. The study of canned fish, which is considered very valuable and consumed by people as a food product, was conducted according to the DÖST-55503-2013 standard. As a result, the quality of canned fish was determined.

Applied significance of the research. Information about the chemical composition of canned fish produced in the Republic can be found 20 years ago. That is why, for the first time, the chemical composition, protein and lipid fractions of fish cones were studied. It is to clarify the importance of this valuable preserve for the body.

Results of the study. Along with fish and fish products, fish preserves have been considered important in people's diet since ancient times, so the demand for these products is very high. This is explained by the fact that fish and canned fish should provide high calories for the normal development of the human body, healthy growth and digestion.

Originality and scientific innovation of research. The main factor in improving the quality of canned fish is the chemical composition of the canned food, and for the first time, the study of the protein and lipid fractions contained in canned fish is of great interest. Because these fractions play a very important role in the quality of canned fish.

Keywords: preservation, chemical composition, protein and lipid fractions.

UOT 338.43

Gülər Telman qızı MƏMMƏDOVA
Azərbaycan Kooperasiya Universiteti, magistrant
e-poçt:gulermemmedova@mail.ru
Elmi rəhbər: Fərzəliyev Elsevər,
elmlər doktoru
e-poçt: elsevar.unec@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2025.001.0144

NARIN İNSAN ORQANİZMİNƏ SONSUZ FAYDALARI, QİDALILIQ DƏYƏRİ

Xülasə

Tədqiqatın məqsədi - ölkə əhalisini uzun müddət keyfiyyətli, ekoloji baxımdan təmiz nar sortları ilə təmin etmək, ənənəvi və yeni nar sortlarının müxtəlif üsullarla saxlanmasının **o**ptimal variantını müəyyənləşdirməkdir.

Tədqiqatın metodologiyası - müxtəlif mənbələrdən müəlliflər tərəfindən toplanmış faktlara əsasən narın müxtəlif sortları müəyyənləşdirilmiş və hər sortun konkret təhlili aparılmışdır.

Tədqiqatın əhəmiyyəti - müxtəlif nar sortlarının ayrı-ayrı hissələrindən düzgün istifadə xalq təbabətində gəlirin artmasına və elmin inkişafına yol aça bilər.

Tədqiqatın nəticələri - əhalini bütün il ərzində yüksək qidalılıq dəyərinə malik müxtəlif nar sortları ilə təmin etmək üçün Azərbaycanda nar məhsullarının istehsalı və ixracı ilə məşğul olan sahibkarlıq subyeklərinin sayını artırmaqdır.

Tədqiqatın orijinallığı və elmi yeniliyi - bu tədqiqatda narın insan orqanizminə faydaları və digər təsirləri, yetişdirilməsi müəyyən edilmiş və mövcud problemlər araşdırılaraq konkret töhfələr verilmişdir. Elmi yenilik nəticəsində müəyyən olunmuşdur ki, nar insan orqanizminə lazım olan vitaminlərlə doludur, eyni zamanda nardan istifadə büdcə xərclərinin az istifadəsinə yol açır.

Açar sözlər: nar qabığı, nar şirəsi, nar dənəsi, tanin maddəsi, nar yağı, nar sortu, nar bağı, nardan istifadə, narın saxlanılması, nar çiçəkləri, nar şirəsi istehsalının tullantıları.

Giriş

Yüksək qidalılıq dəyərinə,müalicəvi-profilaktik əhəmiyyətinə görə respublikamızda yetişdirilən meyvələr içərisində nar meyvəsi xüsusi əhəmiyyət kəsb edir.Əhalimizi ilboyu ekoloji cəhətdən təmiz narla və ondan istehsal olunmuş məhsullarla təmin etmək dövrümüzün ən aktual problemlərindəndir. Nar meyvəsinin şirəsi üzvi və qeyri-üzvi maddələrlə çox zəngindir. Belə ki,onun tərkibi təxminən 12-17% həll olan quru maddələrdən ibarətdir. Narın quru maddəsinin əsas tərkibi sadə şəkərlərdən, üzvi turşulardan, fenol birləşmələrindən, əsasən də katexinlərdən və antosianlardan təşkil olunmuşdur. Nar şirəsinin əsas şəkərləri qlükoza və fruktozadan ibarətdir. Onun tərkibində saxaroza az miqdarda olur. Narın əsas keyfiyyət göstəricisi onun turşuluğu ilə xarakterizə olunur. Nar şirəsinin tərkibində 1,72-2,60% ümumi turşuluq olur. Təxmini 90% limon turşusundan ibarətdir. Yabanı nar şirəsinin tərkibində isə 5-9 % -ə qədər ümumi turşuluq olur.

Nar bitkisinin kök,gövdə,budaq və habelə meyvə qabığında bizim eradan 230 il əvvəl xalq təbabətində bağırsaq və qarın qurdlarına qarşı mübarizədə istifadə edirdilər. Bağırsaq və qarın qurdlarına qarşı mübarizədə nar şirəsinin içilməsini də tövsiyə edərdilər. Narın meyvə qabığında alkoloidin olması kəşf edildikdən sonra ondan təbabətdə geniş istifadə etməyə başladılar. Beləliklə, nar qabığının müalicə vəsaiti olmasına səbəb onun tərkibinə daxil olan alkoloid olmuşdur.

Qeyd edək ki, narın özü qədər narın qabığı,narın şirəsi,narın yağı çox faydılıdır. Dünyanın inkişaf etməkdə olan ölkələrində müxtəlif nar sortları yetişdirilməkdədir.

Nar və nar məhsulları müxtəlif formalarda istehlak olunur:

1) təzə halda
2) şirə

3) narşərab
4) nardança
5) digər istifadə sahələri:nar yağı,kosmetik və dərman sənayesi

Narın qədim tarixi. Nar elmə 1807-ci ildə daxil olmuşdur.Elmi adı 2 sözün birləşməsindən düzəldilmişdir: 1) “PUNİKA” 2) “GRANATUS”

Punika-tünd qırmızı, parlaq qırmızı, Granatus-dənə deməkdir.

Adi nar (Punica granatum L.) Lythraceae J.St.-Hil. fəsiləsinin Punica L.cinsinə aid olub,çoxillik subtropik kol və ya kiçik ağac bitkisidir. Bu bitkinin meyvəsi iqtisadi dəyəri qədər insanların mədəni həyatında da mühüm yer tutur. Punica granatum L. orta əsrlərdə “Çəyirdəkli alma” mənasını verən “Pomum granatum” adını daşımışdır. K.Linney onu müasir elmi botaniki adla-Punica granatumla əvəz etmişdir. Qədim yazılı mənbələrdə Aralıq dənizi hövzəsində Karfagenlilər nar ticarəti ilə məşğul olduqları üçün nar meyvəsini “Karfagen (Finikiya) alması” kimi adlandırmışdılar. Halhazırda ABŞ-da nar bitkisi “tumlu alma” adlandırılır.Qurani -Kərimdə xalq arasında narı “Cənnət meyvəsi” adlandırmışdılar.

Nar qədim tarixə malik meyvə bitkisidir. Qazıntılar nəticəsində bu bitkinin daşlaşmış budaq, yarpaq və habelə toxumları tapılmışdır. Qədim insanların şüurlu həyatının ilk dövrlərində narın meyvələri özünün yüksək qida keyfiyyətinə görə onların qidalanmasında əsas yer tutan taxıl və bal ilə bir bərabərdə qiymətləndirilirdi. Müxtəlif iqlim və torpaq şəraitinə uyğunlaşan nar bitkisi Cənubi Amerikada, Avstraliyada, Cənubi Afrikada, Aralıq dənizi hövzəsi ölkələrində, Əfqanıstanda, Hindistanda, Çində, Azərbaycanda geniş yayılmışdır. Bir vaxtlar belə fərziyyə edilirdi ki, nar ilk dəfə Çində yaranıb, lakin narın Çinə yalnız bizim eradan əvvəl 100-cü ildə gətirilməsi faktı alimlər tərəfindən müəyyənləşdikdən sonra bu fərziyyəyə son qoyulmuşdur.Ehtimal olunur ki, “tac” formasını xatırladan bu bitkinin ecazkar meyvəsi məhz öz orijinal formasına görə hələ qədim zamanlardan Şərqdə bütün meyvələrin şahı hesab olunurdu. Nar özünün çoxsaylı dənələrinə görə uzun müddət bərəkət, bolluq və əbədi həyat simvolu hesab edilirdi. Hal-hazırda narı Cənubi Afrikanın, Orta Şərqin, Kanar adalarının, Aralıq dənizi ölkələrinin, İranın və Azərbaycanın mülayim iqlim bölgələrində yetişdirirlər. Nar bitkisinin becərilməsilə Azərbaycanla yanaşı Türkiyədə, Amerikada, İranda, Çində, Yunanıstanda, Əfqanıstanda, İtaliyada və dünyanın bir sıra başqa dövlətlərində lap çoxdan məşğul olurdular.

12-ci əsrin ərəb alimlərindən Əbu-əl-Əvam ona məlum olan on bir nar sortu haqda məlumat verir. Nar bitkisi İspaniyada orta əsrlərdən inkişaf tapmağa başlayır.İspaniyada narın inkişaf tapmasında ərəblərin xidməti böyük olmuşdur.Cənubi İspaniyanın şəhərlərindən olan Qrenada öz adını orada geniş yayılmış olan nar (qranat) bitkisinin adından götürmüşdür. İspanlar 1521-ci ildə Meksikaya tamamilə yerləşəndən sonra Avropadan nar bitkisini aparıb oraya yaymışlar.

Narın təbabətdə geniş istifadə edilməsinin mümkün olmasını müəyyən etmək məqsədilə 19-cu əsrdə nar meyvələrinin kimyəvi tərkibini öyrənirlər.

19-cu əsrin ortalarında Aralıq dənizi sahilindəki ölkələrdən,habelə Çindən və Floridadan müxtəlif nar sortlarını gətirib, Kaliforniyada bağ salırlar. Bu qiymətli nar sortlarını tədricən dünyanın başqa ölkələrinə yayırlar.

Narın vətəni. Narın vətəni Azərbaycandır. Nar Azərbaycanın zəngin meyvə sərvəti içərisində geniş yayılmış qiymətli meyvə bitkisidir. Bu gözəl bitki xalq təsərrüfatında böyük əhəmiyyətə malikdir. Respublikamızın meyvə bağlarında, eyni zamanda zəhmətkeşlərin həyətyanı sahələrində başqa meyvə bitkiləri ilə yanaşı yüksək keyfiyyətli, məhsuldar yerli nar sortları yetişdirilir. Bir sıra meyvə bitkilərindən fərqli olaraq nar bitkisinin ayrı-ayrı hissələrindən müxtəlif məqsədlər üçün daha geniş istifadə edirlər.

Respublikamızın Göyçay, Ucar, Kürdəmir, Ağsu, Ağdaş, Ağdam və Abşeron yarımadasında nar bitkisinin yüksək keyfiyyətli sortlarını becərirlər.Bu rayonlarda çox yaşlı olan nar kolları az deyildir.

Nar istiliyə olduqca tələbkar bitkidir. Ona görə də onun becərilməsi ilə dünyanın isti ölkələrində geniş miqyasda məşğuldurlar. Əfqanıstanın nar sortları özlərinin məhsuldarlığı və yüksək keyfiy-

yətliliyinə görə dünya miqyasında böyük şöhrət qazanmışdır. Nar İranda əsl xurma və üzümlə birlikdə becərilən qiymətli meyvə bitkisidir. İranda nar bitkisinin becərilməsi ilə başlıca olaraq Xorasanda, Tehranda, Şirazda, Savədə geniş sahələrdə məşğuldurlar.

Nar ölkəmizdə böyük şöhrət qazanmış meyvə bitkisi olub,onun becərilməsi ilə isti rayonlarda məşğuldurlar. Respublikamızda Lənkəran və Astara rayonlarında yabanı bitən nar kolluqları da geniş sahələr tutur. Lənkəran və Astara rayonlarında yabanı bitən nar kolluqlarının mabədi İranda davam edir. Yabanı nar kolluqları Orta Asiya respublikalarında, Krımda, Gürcüstanda, Dağıstanda mövcuddur.

Azad olunmuş ərazilərdə iqtisadiyyatın bərpası yolları

2020-ci ilin sentyabr ayının 27-də başlayan 44 günlük Vətən Müharibəsi və Ermənistan üzərində əldə edilmiş qələbə Azərbaycan ərazilərinin işğaldan azad edilməsi ilə nəticələnmişdir.Ölkə Prezidentinin sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın milli prioritetləri”ndə işğaldan azad edilmiş ərazilərin ölkə iqtisadiyyatı üçün əhəmiyyəti,bərpası və yenidən qurulmasına dair məqsəd və hədəflər öz əksini tapıb. Sənəddə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ölkənin vahid iqtisadi sisteminə yenidən inteqrasiyası, habelə qurulacaq beynəlxalq əhəmiyyətli nəqliyyat dəhlizlərinin Azərbaycan iqtisadiyyatının inkişafına böyük töhfələr verəcəyi xüsusi olaraq vurğulanır.Bölgədə iqtisadiyyatın bərpası istiqamətində həyata keçiriləcək dövlət tədbirləri üçün çərçivə təşkil edən sənədlərdən biri də 2021-ci ilin 10 dekabr tarixində dövlət başçısı tərəfindən imzalanmış “İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Sərəncamdır. Sərəncam azad edilmiş ərazilərin yenidən qurulması və bərpası, iqtisadi inkişafın sürətləndirilməsi, həmin ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara müəyyən güzəştlərin edilməsi haqqındadır.

Nar sortları. Nar meyvələrinin tərkibinə daxil olan maddələrin miqdarı onun sortundan, yetişdirildiyi iqlimin şəraitindən və bağlarda tətbiq olunan aqrotexniki tədbirlərin keyfiyyətindən asılıdır. Nar bitkisinin 400-dən artıq sortu vardır.Bu sortlar meyvələrinin forması, rəngi, böyüklüyü, dadı və sairə xüsusiyyətləri ilə bir-birindən fərqlənir.

Meyvələrin tərkibində olan turşunun miqdarına görə nar sortlarını şirin, turşaşirin və turş narlar adlandırıb,3 qrupa bölürlər. Meyvələrin şirəsində 0,9 faizədək turşu olan nar sortlarını şirin, 0,9 faizdən 1,8 faizə qədər turşu olan nar sortlarını turşaşirin, 1,8 faizdən artıq turşusu olan nar sortlarını turş narlar qrupuna daxil edirlər. Şirəsinin tərkibində 0,9-dan 1,8 faizədək limon turşusu,12 faizdən az olmayaraq şirinliyi olan nar sortları yüksək qiymətli nar sortları adlanır.

Nar bağının ömrü və onun məhsuldarlığı hər şeydən əvvəl sortun xüsusiyyətindən asılıdır. İ.V.Micurin sortun əhəmiyyətini əsas tutaraq yazır: “Sort bütün işin müvəffəqiyyətini həll edir”. Alimin bu göstərişini əsas tutaraq nar bağlarında yalnız yüksək keyfiyyətli bol məhsul verən, xəstəliklərə və zərərvericilərə davamlı nar sortlarını becərmək lazımdır.

Azərbaycanın yüksək qiymətli yerli nar sortları çoxdur. Biz respublikamızda geniş inkişaf tapmış nar sortlarından çoxaldılması tövsiyə edilən bir neçə sortu burada təsvir edirik: Bala Mürsəl, Gülöyşə nar, Şah nar, Şirin nar, Qırmızıqabıq, Zibeydə və s.

Bala Mürsəl. Kolu 3-4 metr hündürlükdə olub,az tikanlıdır.Yarpaqları lanset formalı,iri tünd yaşıldır. Çiçəkləri tünd qırmızı,meyvələri tünd moruğu rəngdədir. Bu meyvənin çəkisi 400-500 qram olub, qabığı qalındır. Meyvənin dənələri iri,albalı rənglidir. Meyvələr çox şirəli, turşaşirin xoşagələn olub, tərkibində 14-16 % şəkər,1,3-1,5 % limon turşusu vardır. Meyvələr oktyabr ayında dərilir. Yığılmış meyvələr yanvar ayınadək saxlanılır.Bala Mürsəl məhsuldar sortdur. Normal böyümüş bir kol 40-50 kq-dək məhsul verir.

Gülöyşə nar. Kolu 3-4 metr hündürlükdə olub, çətiri dikinə qalxandır.Yarpaqları iri, tünd yaşıldır. Çiçəkləri iri, açıq qırmızıdır. Meyvələri açıq qırmızı və ya tünd çəhrayı rəngli, yumru, qabığı nazikdir. Bir meyvənin çəkisi 400 qramadək olur. Meyvənin dənələri iri, tünd çəhrayı rənglidir. Meyvələrin dadı meyxoşdur. Tərkibində 20%-dək şəkər, 0,94-1,8 % limon turşusu vardır. Meyvələri oktyabr ayında dərilir, dekabr ayınadək saxlanılır. Bir koldan 30-40 kq məhsul yığılır.

Şah nar. Şah nar Ağdam rayonunda geniş yayılmış sortdur. Ağdam bağbanlarının deməsinə

görə bu sort yüksək keyfiyyətli, bol məhsul verdiyindən narların şahı adlandırılmışdır. Kolu 5 metrədək hündürlükdə olub, çətiri kürə formasındadır. Meyvələri tünd qırmızı rəngli olub, qabığı çox qalındır. Meyvənin saplaq tərəfi uzunsov olduğundan meyvələri armud formasında olur. Meyvənin şirəsi tünd qırmızı rəngli, turşaşirin olub, tərkibində 12,1-13,4 % şəkər, 1,9-2,1 % limon turşusu vardır. Bir meyvənin çəkisi 300-400 qram olur. Meyvələr oktyabr ayında dərilir, aprel-may ayına qədər saxlanılır.

Qırmızıqabıq nar. Kolu 3-4 metr hündürlükdə olub,çətiri yastıdır. Meyvələri iri,kürə formalı, tünd qırmızı rəngli, qalınqabıqdır. Bir meyvənin çəkisi 300-400, bəzən 500 qram ağırlıqda olur. Meyvənin şirəsi qırmızı rəngli, turşaşirin olub, tərkibində 12,9-14,5% şəkər, 2,1%-dək limon turşusu vardır. Meyvələr oktyabr ayında yığılır, aprel, may aylarınadək saxlanılır. Bir kol 60-70 kq məhsul verir.

Zibeydə nar. Bu sort respublikamızın Göyçay rayonunda becərilir. Kolu 3-4 metr hündürlükdə olub,çətiri enlidir. Yarpaqları tünd yaşıl rəngli, lanset formalı olub, nisbətən xırdadır. Meyvələri orta böyüklükdə, açıq çəhrayı rəngli,qabığı nazikdir. Bir meyvənin çəkisi 150-200 qram olur. Meyvənin şirəsi açıq çəhrayı rəngli, şirin olub, tərkibində 14,83 % şəkər, 0,54 % limon turşusu vardır. Meyvələr oktyabr ayında dərilir, aprel ayınadək saxlanılır. Bir kol 40 kq-a qədər məhsul verir.

Narın çiçəklənməsi. Nar bitkisinin çiçək açması isə yaz şaxtalarından çox sonra başlayır.Bizim şəraitdə narın çiçəklənməsi may ayının əvvəllərindən başlayıb, avqust ayının axırınadək davam edir. Eyni bir bitkinin üzərində eyni vaxtda həm qönçələrə, həm açılmış çiçəklərə və həm də əmələ gəlmiş meyvələrə təsadüf olunur. Nar bitkisinin bu xüsusiyyətinə remontantlıq deyilir.

Nar bitkisində vegetasiya mart-aprel aylarından başlayıb, 230-240 gün davam edir. Bitkinin çiçəklənmə dövrü isə 110-120 gün davam edir. Narın çiçəklənməsindən meyvələrin tam yetişməsinədək 150-180 gün vaxt sərf olunur. Narın meyvələri sentyabr-oktyabr aylarında dərilir.

Nar kolunun çoxlu miqdarda xoşa gələn çiçəklərlə örtülü olmasını hamınız görmüşsünüz. Açılmış bu çiçəklərin hamısı meyvə əmələ gətirmir. Ağacdakı çiçəklərdən 12-22%-i məhsul verir. Özlərinin quruluşlarına görə narın çiçəkləri müxtəlif keyfiyyətdə olur. Narın çiçəkləri iki cür olur.

1. Dişiciyi gödək olan çiçəklər. Belə çiçəklərdə dişicik normal inkişaf etmədiyindən o, mayalana bilmir, bu səbəbdən də onlar ağacdan kütləvi surətdə tökülür.Narın belə çiçəklərinə steril (barsız) çiçəklər deyilir.

2. Dişiciyi uzun olan çiçəklər. Belə çiçəklərdə dişicik normal inkişaf etdiyindən o, mayalanıb yüksək keyfiyyətli meyvələr əmələ gətirir. Narın belə çiçəklərinə fertil (barlı) çiçəklər deyilir.

Nar bitkisinin arıçılıqda da müəyyən dərəcədə əhəmiyyəti var. Şəftəli, gilas, albalı, alma, armud və s. meyvə bitkilərindən fərqli olaraq nar gec çiçəkləyir və onun çiçəkləməsi uzun müddət davam edir. Başqa meyvə bitkiləri çiçəkləmələrini qurtardıqlarından, nar bitkisinin çiçəkləri arılar üçün yem mənbəyi olaraq istifadə edilə bilər.

Narın becərilməsi. Nar bitkisini cavanlaşdırmaq üçün qoca budaqları torpaq səthi ilə bir bərabərdə olmaq şərtilə iti mişarla dibindən kəsib atırlar. Bundan sonra həmin bitkidə olan sağlam və düzünə bitən pöhrələri seçib, bitkiyə yuxarıda göstərilən qayda ilə kol və ya gödək ştamblı ağac forması verilir.

Bəzi hallarda yaşlı nar bitkisinin budaqları sağlam olur. Lakin belə bitki az çiçəkləyir və az da məhsul verir. Belə bitkini cavanlaşdırmaq üçün onun iri budaqlarını təxminən uzunluqlarının yarısınadək kəsib gödəldirlər. Bu qayda ilə hər iki halda cavanlaşdırılmış nar bitkisi 3-4 ildən sonra məhsul verməyə başlayır.

Nar bitkisinin tikanlı olmasını hamımız bilirik.Bitkinin bu xüsusiyyətinin olması çox faydalıdır. Belə ki, sahəni mal-qaradan qorumaq məqsədilə canlı çəpər çəkmək üçün bu bitkini sahənin ətrafına sıx əkirlər.

Nar bitkisinə mənənə böyük ziyan verir. Cavan zoğların və yarpaqların üzərində əmələ gəlmiş mənənə bitkinin şirəsini sorur, onun zəifləməsinə, yarpaqların tökülməsinə və hətta bitkinin qurumasına belə səbəb olur.

Nar mənənəsi çox tez artır, bir mövsümdə 15 nəsil verir. Nar mənənəsinin ifraz etdiyi şirədə

göbələklər əmələ gəlib, bitkini hislə örtür. Nar bitkisində müşahidə edilən mənənəyə qarşı dərhal mübarizə aparmaq lazımdır. Bunun üçün bir litr təmiz suya 4 qram paltar sabunu və 2-3 qram anabazin sulfat töküb, bunu bir neçə dəfə qarışdırdıqdan sonra bu qarışığı nar bitkisinə çiləyirlər. Nar mənənəsinə qarşı bitkinin DDT (dixlordifeniltrixloretan) preparatı ilə tozlanması daha əlverişlidir. Hər hektar nar bağını hər dəfə tozlamaq üçün 40-60 kiloqram DDT lazım gəlir. Mənənənin əmələ gəlmə vaxtından asılı olaraq bitkiləri vegetasiya dövründə bir neçə dəfə çiləmək və ya tozlamaq lazım gəlir.

İ.V.Miçurin tarlaları küləkdən mühafizə etmək məqsədilə qoruyucu meşə zolaqlarının təşkilində meyvə ağaclarının da meşə ağacları ilə birlikdə əkilməsini öz əsərlərində tövsiyə edir. Böyük alimin bu tövsiyəsi həyata keçirilir. Respublikamızda tarlaları küləkdən mühafizə etmək üçün yaradılmış qoruyucu meşə zolaqlarında əkilmələri tövsiyə edilən ağac və kol bitkiləri sırasına nar bitkisi də daxildir. Bundan əlavə dərələri, yamacları möhkəmləndirmək və habelə dəmir yollarının küləklərin gətirdiyi qumla örtülməsinin qarşısını almaq üçün quraqlığa davamlı olan nar bitkisinin də əkilməsi məsləhətdir.

Nar bağı salmaq üçün sahənin seçilməsi, onun şumlanması,çalaların qazılması və tinglərin əkilməsi ilə iş bitmir. Gənc bağbanlar bu işləri layiqincə yerinə yetirdikdən sonra,nar bağına qulluq etməyi də bacarmalıdırlar.Əkilmiş tingin normal böyüməsi, inkişafı,bol məhsul verməsi və uzun ömürlü olması üçün il müddətində bağa müntəzəm qulluq edib, aqrotexniki tədbirləri yüksək keyfiyyətlə və vaxtında tətbiq etmək lazımdır. Nar bağında görüləsi aqrotexniki qulluq işləri iki hissədən ibarətdir. Onlardan biri bitkiyə qulluq etmək, ikincisi isə torpağın becərilməsidir. Nar kollarının normal böyüməsi və bol məhsul verməsi üçün aqrotexniki qulluq işlərini ardıcıl tətbiq etmək lazımdır.

Narın becərilməsində və yetişməsində normadan artıq istifadə olunan mineral gübrələr,dərman preparatları nar şirəsinin keyfiyyətinə,onun qida maddələri ilə zənginləşməsinə mənfi təsir göstərir. Çox qədim dövrlərdə Əbu ibn Sina zəifləmiş,arıqlamış, əldən düşmüş insanların orqanizmlərini möhkəmləndirmək məqsədilə onlara nardan uzun müddət istifadəni məsləhət görmüşdür. Ölkəmizdə geniş yayılmış nar meyvəsindən, demək olar ki, əhalimiz ilboyu o qədər də yaxşı istifadə etmir. Məlumdur ki, qış və yaz aylarında satışda nar meyvəsinə təzə halda az rast gəlinir. Bu məqsədlə ölkə ərazisində mövcud ənənəvi və yeni nar sortlarının uzun müddət keyfiyyətli saxlanması üçün tədbirlər görülməlidir. Ona görə də tədqiqat işimizin əsas məqsədi insanların uzun müddət keyfiyyətli, ekoloji baxımdan təmiz, yerli şəraitdə becərilən nar sortları ilə təmin olunmasına həsr edilmişdir.

Nar meyvəsinin saxlanılması

Nar meyvələrinin möhkəm qabıqlı olması onların uzaq yerlərə göndərilməsi ilə yanaşı olaraq, normal şəraitdə uzun müddət saxlanılmasına da imkan verir. Müxtəlif nar sortlarının saxlanılma müddətləri eyni deyildir. Uzun müddət saxlanılmaq qabiliyyətinə malik olan meyvələr üçün əlverişli şəraitin yaradılması nəticəsində onları yazadək saxlamaq olur. Meyvələrin saxlanılması üçün xüsusi otaqlar ayrılmalıdır. Meyvə saxlamaq üçün ayrılmış otaqlarda zərərvericilərin tələf olması, eyni zamanda çoxalmasının qarşısını almaq üçün divarları əhənglə ağartmaq,otaqları kükürd tüstüsü ilə dezinfeksiya etmək lazımdır.

Meyvə saxlanılan otaqlar quru olmalıdır. Bu məqsədlə də otaqların qapı və pəncərələrini meyvələr saxlanılmazdan bir neçə vaxt əvvəl açıq qoyub,onları havalandırmaq lazımdır. Meyvə saxlanılan otaqlarda bir neçə mərtəbədən ibarət tərəcələr olmalıdır. Belə tərəcələrin üzərinə təmiz taxta yonqarı döşəyib, onun üzərinə,kasaları yuxarı olmaq şərtilə sağlam meyvələri bir-birindən aralı bir lay düzürlər. Meyvələrin uzun müddət saxlanılması üçün normal şərait yaradılmalıdır. Otaqlarda temperaturun tez-tez dəyişməsi meyvələrə pis təsir edir. Odur ki, temperaturun bir bərabərdə qalmasına çalışmaq lazımdır.

Aparılan təcrübələr nəticəsində nar meyvələrinin yaxşı saxlanılması üçün otaqda havanın temperaturu +1+2 C,havanın nisbi rütubətinin isə 80-85 % olması müəyyən edilmişdir. Otaqların havalanması üçün ventilyatorlar olmalıdır. Bu ventilyatorlar vasitəsilə otaqları lazım gəldikdə

havalandırırlar. Saxlanılan meyvələri ayda iki dəfə olmaq şərtilə yoxlamaq lazımdır.Yoxlanılma zamanı aşkara çıxarılmış zədəli və çürük meyvələri sağlam meyvələrdən ayırıb meyvə saxlanılan yerdən çıxartmaq lazımdır.

Nar şirəsinin tərkibi müxtəlif faydalı maddələrlə olduqca zəngindir.Nar şirəsi ürək-damar sistemi üçün çox faydalıdır.

Nar şirəsi qədim zamanlardan qan azlığına qarşı istifadə olunur.

Nar şirəsinin tərkibindəki pektin maddələri bağırsaqlarda toplanmış zəhərli maddələrin xaric olunmasına müsbət təsir göstərir.

Tanin maddəsi ilə zəngin olan nar şirəsi bağırsaqlara büzücü təsir göstərir.

Nar şirəsi polifenol maddələrlə zəngindir.Bu maddələr orqanizmin erkən qocalmasının qarşısını alır və orqanizmi cavanlaşdırır.

Araşdırmalar nəticəsində məlum olmuşdur ki,nar şirəsi xərçəng xəstəliyinə qarşı müalicədə çox faydalıdır.

Nar şirəsi sidikqovucu təsirə malikdir,xüsusilə,böyrək və qaraciyər xəstəliklərinin müalicəsi üçün əhəmiyyəti böyükdür.

Nar şirəsi immun sisteminin fəaliyyətini artırır,orqanizmi möhkəmləndirir.Bir fincan nar suyu 10 fincan yaşıl çaya bərabərdir.

Həkimlər nar şirəsini su və ya digər şirələrlə (xüsusilə, kök şirəsi ilə) durulaşdırılmış şəkildə qəbul etməyi tövsiyə edirlər. Çünki, təmiz nar şirəsi bağırsaqları “yığır” ki,bu da qəbizliyə səbəb ola bilər. Həmçinin, təmiz nar şirəsinin qəbulu bəzi mədə və onikibarmaq bağırsaq xəstəlikləri, pankreatit zamanı mənfi təsir göstərə bilər. Təmiz nar şirəsi diş emalına da mənfi təsir edir.

Təbii nar şirəsini saxlamaq olmaz (hətta soyuducuda), şirəni hazırladıqdan dərhal sonra qəbul etmək lazımdır.

Şəkər xəstəliyi olanlara yabanı nar şirəsi içmək məsləhətdir.

Respublikamızın bəzi rayonlarında nardan iştah artırmaq məqsədilə “nardaşa” adlanan şərbət hazırlanır.

Nar toxumu yağı. Nar toxumunun yağı ellagik (təbii antioksidant) və omega-5 yağ turşuları ilə zəngindir. Hər iki turşu dərinin qocalmasının ilkin əlamətlərinə səbəb olan sərbəst radikalları azaldır. Aparılmış tədqiqatlar nəticəsində bu yağın dəriyə müsbət təsiri müəyyən edilmişdir. Nar toxumu yağı qan təzyiqinə qarşı müsbət təsir göstərir, xüsusilə gündəlik olaraq bu yağdan istifadə iflic riskini azaldır. Və yüksək qan təzyiqi riskini 60 % aşağı salır.

Nar toxumu yağının arterial damarların təmizlənməsində müsbət təsirə malik olduğu müəyyən edilmişdir. Suya və ya meyvə suyuna bir neçə damcı nar toxumu yağı əlavə edib gündəlik içilsə, bu, damarların təmizlənməsinə yardımçı ola bilər.

Nar yağının hazırlanması. 3 ədəd nar meyvəsinin dənələri təmizlənərək qurudulur. Qurudulması üçün təxminən 5 gün kifayət edir. Quruyan nar dənələri üyüdülür. Şüşə qabın içinə yarım litr zeytun yağı tökülür və üzərinə üyüdülən nar dənələri əlavə olunur. Qabın ağzı möhkəm bağlanır və qarışdırılır. Hazırlanan qarışıq 15 gün ərzində hər gün qarışdırılır.15 gündən sonra təmiz tənzif ilə süzülür.

Nar qabığı. Nar şirəsinin istehsalının tullantılarından biri də nar qabığıdır. Nar qabığının da insan orqanizminə bir çox faydası var. Nar qabığının tərkibində tanin maddəsi var. Nar qabığı başda döş xərçəngi olmaqla, demək olar ki, bütün xərçəng növlərinə qarşı müalicəvi əhəmiyyət kəsb edir. Xalq təbabətində nar meyvəsinin, eləcə də nar ağacının gövdə və budaqlarının qurudulmuş qabığından toz və maye halda qurd əleyhinə dərman kimi istifadə edilir.

Narın formalarından bəzək bağçılığında geniş istifadə olunur. Respublikamızda görkəmli akademik İ.M.Axundzadənin rəhbərliyi altında Amerikadan gətirilmiş “Çiko” adlanan nar formasına qamma şüaları ilə təsir edərək meyvə verən kiçik boylu nar forması alınmış və ona “Xırdanar” adı verilmişdir. “Xırdanar” formasından alçaq boylu nar formalarının alınmasında geniş istifadə edilir. Narın meyvələri çərəz olaraq yeyilməkdən əlavə narşərab və s. konserv məmulatlarının emalında da istifadə edilir.

Nəticə

1. Azərbaycanda nar məhsullarının istehsalı və ixracı ilə məşğul olan sahibkarlıq subyektlərinin sayı artmaqdadır.
2. Nar şirəsinin istehsalı zamanı əsas göstəricilər sanitar-gigiyena normalarına ciddi riayət olunmalıdır.
3. Yeni bağların salınması məhsuldarlıq üçün çox xeyirlidir.
4. Nar bağına düzgün qulluq etməyi bacarmaq lazımdır.
5. Narın emalı zamanı əldə olunan məhsullardan biri də nar şirəsidir.
6. Nar şirəsi istehsalı tullantılarından olan nar qabığından istifadə olunur.
7. Əhalinin bütün il ərzində yüksək qidalılıq dəyərinə malik müxtəlif nar sortları ilə təmin edilməsi lazımdır.
8. Nar meyvəsinin tərkibi insan orqanizminin normal inkişafı üçün lazım olan qida komponentləri ilə zəngindir.

Təkliflər

1. Əhalini uzun müddət keyfiyyətli narla təmin etmək üçün Nazik Qabıq, Qəşəng sortlarının ölkəmizin mövcud narçılıq təsərrüfatlarında genişləndirilməsi məqsədəuyğun hesab olunur.

ƏDƏBİYYAT

1. Qurbanov İ.S., Əliyev V.M., Sadıqova N.M., Xankişiyeva E.M., Süleymanova S.C. NAR (Punica granatum L.) Bakı, “Elm və təhsil”, 2019,164 səh. (s. 6-18) ISBN 978-9952-435-63-4
2. M.S.Aslanova, Ə.Ə.Nəbiyev. “Nar sortlarının müxtəlif üsullarla saxlanmasının tədqiqi. Monoqrafiya. -Bakı: “Ecoprint”, 2023,186 s. (s. 9-20) ISBN:978-9952-29-096-1
3. Cəbrayıl Əliyev. “Nar” Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı. (S. 18-21) ISBN: 634-7562-22-
4. Карашарлы А.С.Гранат и его использование-Баку:-1981,с.119
5. Магеррамов М.А.Свойства плодов граната и их хранение в модифицированной атмосфее.БАКУ 2002 С 185
6. Elyudem S.M.Kader A.A.Post-narvest physidge and storage behavioup of pomegranate fruits scientic//Hortie;-1984,-V.24,-p.

Гюлер Тельман кызы МАМЕДОВА
Азербайджанский Университет Кооперации, магистр
E-mail:gulermemmedova@mail.ru
Научный руководитель: Фарзалиев Эльсевер,доктор наук
E-mail:elsevar.unec@gmail.com

Бесконечная польза граната для организма человека, пищевая ценность граната

Резюме

Цель исследования - обеспечить население страны качественными,экологически чистыми сортами граната на длительный срок,определить оптимальный вариант хранения традиционных и новых сортов граната различными способами.

Методология исследования - на основе фактов,собранных авторами из различных источников, были выявлены разные сорта граната и проведен конкретный анализ каждого сорта.

Прикладное значение исследования - правильное использование разных частей разных сортов гранатаможет привести к увеличению доходов и развитию науки в народной медицине.

Результаты исследования - увеличить количество хозяйствующих субьектов, занимающихся производством и экспортом гранатовой продукции в Азербайджане,с целью обеспечения населения различными сортами гранатов с высокой пищевой ценностью в течение всего года.

Оригинальность и научная новизна исследований-в этом исследовании были определены польза и другие ефекты граната на организм человека,его выращивание, а также исследованы существующие проблемы и внесен конкретный вклад. В результате научных инноваций было установлено,что полноценное использование граната возможно. Насыщен необходимыми организму целовека витаминами, и в то же время эт

Ключевые слова: кожура граната, гранатовый сок, зерно граната, дубильное вещество, гранатовое масло, сорт граната, гранатовый сад, использование граната, хранение граната, цветки граната, отходы производства гранатового сока.

Gular Telman Mammadova
Azerbaijan Cooperation University,master
e-mail:gularmammadova@mail.ru
Scientific leader: Farzaliyev Elsever,doctor of sciences
E-mail:elsevar.unec@gmail.com

Endless benefits of pomegranate for the human body, nutritional value of pomegranate

Summary

The purpose of the research - to provide the countrys population with highquality,ecologically clean pomegranate varieties for a long time, and to determine the optimal option for storing traditional and new pomegranate varieties in different ways.

Research methodology - based on the facts collected by the authors from various sources, different varieties of pomegranate were identified and a specific analysis of each variety was carried out.

The applied importance of the research - the correct use of different parts of different varieties of pomegranate can lead to the increase of income and the development of science in folk medicine.

The results of the study - to increase the number of business entities engaged in the production and export of pomegranate products in Azerbaijan in order to provide the population with different varieties of pomegranates with high nutritional value throughout the year.

Originality and scientific innovation of research - in this study,the benefits and other effects of pomegranate on the human body, its cultivation were determined,and the existing problems were investigated and concrete contributions were made.As a result of scientific innovation,it was determined that the full use of pomegranate is full of vitamins necessary for the human body,and at the same time, it leads to less use of budget expenses

Key words: pomegranate peel, pomegranate juice, pomegranate seed, tannin substance, pomegranate oil, pomegranate variety, pomegranate garden, pomegranate use, pomegranate storage, pomegranate flowers, pomegranate juice production waste.

VI BÖLMƏ.
RƏQƏMSALLAŞMA, İQTİSADİ İNKİŞAF, SAHİBKARLIQ FƏALİYYƏTİ

UOT 338

Teyyub Qəni oğlu ƏLİYEV
Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin dosenti,
Şəms Teyyub qızı ƏLİYEVA
Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin dosenti
https://doi.org/10.30546/4.71.73001.2025.001.0152

RƏQƏMSAL İQTİSADİYYAT: ÜSTÜNLÜKLƏR, TƏHLÜKƏLƏR, RİSKLƏR VƏ TƏSİR AMİLLƏRİ

Xülasə

Tədqiqatın məqsədi - rəqəmsal iqtisadiyyatın üstünlüklərinin, ona təsir edən amillərin qiymətləndirilməsi, onun tətbiqi zamanı meydana çıxan təhlükələrin, risklərin araşdırılması və onların təsirinin azaldılması üçün təklifl və tövsiyələrin hazırlanmasıqdır.

Tədqiqatın metodologiyası - sistemli yanaşma, ekspert metodu, kompleks təhlil metodları.

Tədqiqatın nəticələri - rəqəmsal iqtisadiyyatın üstünlükləri, onun iqtisadi inkişafın sürətləndirilməsində rolu, bu zaman meydana çıxa biləcək təhlükələr və risklər araşdırılmış, onların təsirinin azaldılması üçün müvafiq təklif və tövsiyələr verilmişdir.

Tədqiqatın praktiki əhəmiyyəti - tədqiqatın nəticələri və irəli sürülən təklif və tövsiyələr rəqəmsal iqtisadiyyatın tətbiqinin keyfiyyətcə qiymətləndirilməsinə və ondan daha səmərəli istifadə etməyə imkan verə bilər.

Tədqiqatın orijinallığı və elmi yeniliyi - müasir iqtisadiyyat şəraitində rəqəmsal iqtisadiyyatın tətbiqinin zəruriliyi əsaslandırılır, ondan istifadənin yaxşılaşdırılmasının konkret yolları göstərilir.

Açar sözlər: rəqəmsal iqtisadiyyat, üstünlüklər, təhlükələr, risklər, təklf, istifadə.

Giriş

İqtisadiyyatın və cəmiyyətin rəqəmsal transformasiyası mürəkkəb və əməktutumlu prosesdir və ona informasiya-kommunikasiya texnologiyaları (İKT) bazarının inkişafı, cəmiyyətin gələcək dəyişiklikləri qəbul etməyə hazır olması və dövlətin maliyyə xərcləri kimi amillər təsir göstərir. Bunlarla yanaşı, biznes mühitinin müasir qabaqcıl texnologiyaların tətbiqinə tab gətirməyə hazır olub-olmaması da vacibdir. Azərbaycan iqtisadiyyatı rəqəmsal transformasiya yoluna inkişaf etmiş ölkələrin iqtisadiyyatlarından gec başlayıb, ona görə də rəqəmsal məkanda kök salmaq və öz layiqli yerini tutmaq üçün böyük səylər göstərmək lazımdır. Bu baxımdan biznes ictimaiyyətinin özəl nümayəndələrini, o cümlədən dövlət-özəl tərəfdaşlıq şərtləri ilə, aktivləşdirmək məqsədəuyğun olardı.

Rəqəmsal iqtisadiyyat rəqəmsal texnologiya vasitəsilə fərdləri, müəssisələri, cihazları, məlumatları və əməliyyatları birləşdirən iqtisadi fəaliyyətlərə aiddir. O, internet, mobil texnologiya, informasiya və kommunikasiya texnologiyaları kimi bir çox sektor və texnologiyalar arasında baş verən onlayn əlaqələri və əməliyyatları əhatə edir. Rəqəmsal iqtisadiyyat fərdlər və təşkilatlar arasında əlaqələrin genişlənməsinə, real rejim vaxtında daha sürətli ünsiyyətin yaradılmasına, beləliklə də, vaxta qənaət edilməsinə, uzaqdan işləmə də daxil olmaqla iş yerində daha çox çevikliyin yaradılmasına, coğrafi maneələrin aradan qaldırılmasna kömək edir. Məhz buna görə də, rəqəmsal texnologiyaların biznesin və əhalinin maraqları naminə istifadəsi, mal və xidmətlərə rəqəmsal

çıxışın təşkili müasir inkişaf etmiş dövlətlər üçün prioritet istiqamət hesab edilir.

COVID-19 pandemiyası rəqəmsal iqtisadi artımı daha da sürətləndirdi, çünki uzaqdan iş, onlayn alış-veriş, teletibb və rəqəmsal əyləncə kilidləmə və sosial uzaqlaşma zamanı vacib oldu. Rəqəmsal iqtisadiyyat sürətlə inkişaf etməyə və genişlənməyə davam edir, yeni texnologiyalar və innovasiyalar onun trayektoriyasını formalaşdırır. Bunlarla yanaşı, rəqəmsal iqtisadiyyatın tətbiqi bəzi təhlükələr və risklər də yaradır. Ona görə də, rəqəmsal iqtisadiyyatın yaratdığı üstünlüklərlə yanaşı, meydana çıxa biləcək təhlükələrin, risklərin və onlara təsir edən amillərin araşdırılmasına, çətinliklərin aradan qaldırılması üçün təklif və tövsiyələrin, tədbirlərin hazırlanıb həyata keçirilməsinə ehtiyac vardır.

Rəqəmsal iqtisadiyyatın üstünlükləri

OECD - nin (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı) məruzəsində qeyd edilir ki: “Rəqəmsal iqtisadiyyat texnologiya, smart proqramlar və digər yeniliklər göstərilən xidmətlərin keyfiyyətini artıra və səhiyyə, kənd təsərrüfatı, hökumət, vergilər, nəqliyyat, təhsil, ekologiya və digər sahələr daxil olmaqla geniş spektrdə problemlərin həllinə kömək edə bilər” [6].

R.Bukht və R.Heeksin hesablamalarına görə, rəqəmsal iqtisadiyyatın dünya iqtisadiyyatındakı payının təxmini qiymətləndirilməsi belədir: o, dünya ÜDM-nin təxminən 5%-ni təşkil edir və dünya əmək bazarının 3%-ni əhatə edir [3, səh 163].

Rəqəmsal iqtisadiyyat ölkə iqtisadiyyatının strukturunun dəyişməsinə təsir göstərir. Bu özünü turizm, telekommunikasiya, poliqrafiya, sərnişindaşıma (ilk növbədə taksi xidmətləri), eləcə də, digər sahələrin xarici görünüşünün dəyişməsində büruzə verir. Əhali tərəfindən rəqəmsal alətlərdən istifadə onların alıcılıq qabiliyyətini artırmağa imkan verir, çünki fəaliyyət göstərən rəqəmsal platformalar qiymət rəqabətinin inkişafını təmin edir. İstehlakçılar evdən çıxmadan müəyyən məhsulun xüsusiyyətlərini öyrənmək, öz seçimini təklif olunan digər variantlarla müqayisə etmək və real istifadəçilərin rəylərini oxumaq imkanı əldə edirlər. Bu, istehsalçıları qiymətləri aşağı salmağa və yüksək keyfiyyətli məhsulların və ya yüksək keyfiyyətli xidmətlərin buraxılmasını təmin etməyə məcbur edir.

Dövlət xidmətlərinin göstərilməsinin əlçatanlığı və səmərəliliyi artdığından xidmətlərə rəqəmsal giriş investisiya və biznes fəallığının artmasına kömək edir. Məsələn, müvafiq orqanlara getmədən hüquqi şəxsi qeydiyyata almaq, icazə almaq, sertifikatlaşdırma üçün müraciət etmək, vergi ödəmək, kredit təşkilatlarına getmədən kredit almaq mümkündür.

Rəqəmsallaşma kontekstində tender və satınalmalar üçün elektron platformalar, əks əlaqə portalları vasitəsilə biznes şəraitinin şəffaflığı artır.

Maliyyə sektorunda rəqəmsal texnologiyalar ən dinamik şəkildə inkişaf edir, onların aktiv təşviqinin təşəbbüskarları kredit təşkilatlarıdır. Rəqəmsal maliyyə texnologiyalarından istifadə maliyyə bazarlarının inkişafı üçün əsas sahələrdən biri hesab edilir [3, səh. 165].

Rəqəmsal iqtisadiyyat əhalinin davranışına, o cümlədən maliyyə davranışına təsir göstərir. İnsan üçün yeni biliklər əldə etmək, təhsil almaq, təkmilləşdirmə və mənimsəmə ilə bağlı imkanlar, peşə fəaliyyətinin yeni növləri açılır. Yaşayış üçün daha rahat şəhərlər, sosial institutlar və dövlət orqanlarının xidmətlərinin əlçatanlığı sayəsində imkanların coğrafi üfüqləri genişlənir. İnnovasiyaları və tədqiqatları dəstəkləmək üçün fəal siyasət yürüdən dövlətlər rəqəmsal iqtisadiyyatın inkişafı üçün əsas resurs olan yüksək ixtisaslı mütəxəssisləri cəlb edir.

Rəqəmsal texnologiyalar sosial liftlər mexanizmi hesab oluna bilər, çünki onlar sosial xidmətlərin əlçatanlığını artırır və vətəndaşların idarəetmə və maliyyə proseslərinə cəlb olunmasını təşviq edir. Rəqəmsal xidmətlərdən istifadə etməklə uşaqları məktəbə və ya məktəbəqədər təhsil müəssisəsinə yazdırmaq, istənilən büdcənin göstəriciləri haqqında məlumat əldə etmək, tibb müəssisəsinə getmək üçün əlverişli vaxt seçmək, istənilən vaxt təhsil almaq imkanı vardır.

Rəqəmsal iqtisadiyyatın əmək bazarına müsbət təsiri rəqəmsal xidmətlərin yeni məşğulluq imkanlarının yaradılmasına töhfə verməsi ilə əldə edilir, çünki onlar əlavə bacarıqların inkişafına və sosial və ya məkan məhdudiyyətlərinə görə əvvəllər bunu edə bilməyən insanların ixtisaslarının artırılmasına kömək edir.

Rəqəmsal xidmətlərdən istifadənin müsbət tərəflərinə insan həyatı üçün təhlükəsiz və rahat şəraitin yaradılması və saxlanması daxildir. Bu, ərazi infrastrukturunun vəziyyətinin monitorinqi üçün mərkəzləşdirilmiş sistemlərin, enerji istehlakının optimallaşdırılması texnologiyalarının, videomüşahidə sistemlərinin yaradılması və naviqasiya xidmətlərinin fəaliyyəti ilə təmin edilir.

Rəqəmsal texnologiyalardan istifadə əsasında müxtəlif səviyyələrdə təhlükəsizlik problemləri uğurla həll olunur. Yanğınların və təbii fəlakətlərin qarşısının alınması və aradan qaldırılması, terrorizmlə mübarizə, strateji əhəmiyyətli obyektlərin mühafizəsi, şəxsi həyatın toxunulmazlığı - bu və digər təhlükəsizlik komponentləri -bu gün müxtəlif rəqəmsal alətlər sayəsində dəstəklənir.

Rəqəmsal iqtisadiyyat sosial inkişafa təsir göstərir, əlaqənin bütün iştirakçıları üçün əməliyyatların rahatlığını artırır, məsələn:

• kiçik biznes;
• insanlar;
• orta və iri müəssisələr;
• dövlət orqanları üçün.

Bir çox xidmətlər, mallar və ya işləri İnternetdə tapmaq, onlayn ödəniş etmək və lazımi yerdə almaq olar. Bu, resurslara və vaxta qənaət edir. Digər üstünlüklər arasında aşağıdakıları qeyd etmək olar:

- müştəri ehtiyaclarına diqqət yetirmək - aşağı qiymətlərlə düzgün xidmət seçməkdən tutmuş sosial əhəmiyyətli problemlərin həllinə qədər;

- fiziki və hüquqi şəxslər tərəfindən hər hansı xidmətlərin əldə edilməsi prosesinin sadələşdirilməsi. Elektron və informasiya texnologiyalarının inkişafı sayəsində təchizatçı birbaşa alıcı ilə qarşılıqlı əlaqə qura bilir. Vasitəçiləri cəlb etməyə ehtiyac yoxdur. Demək olar ki, hər şeyi internet vasitəsilə əldə etmək olar;

- yeni startap ideyalarının, trendlərin, sənaye sahələrinin meydana çıxması. Rəqəmsal xidmətlər, proqram təminatı və texnoloji tədqiqatlarla bağlı bütün layihələrə investisiya qoyuluşunda kəskin artım baş verir. Bu, yeni iş yerlərinin açılmasına şərait yaradır və bununla da əmək məhsuldarlığının artmasına imkan verir;

- onlayn biznes xərclərinin azaldılması. Dəyişikliyi qəbul edən və rəqəmsallaşan şirkətlər inkişaf edir. Birbaşa satışlar artır, satış, marketinq, nəqliyyat və logistika xərcləri azalır;

- biznes fəaliyyətlərinin şəffaflığı. Rəqəmsal iqtisadiyyatda əksər əməliyyatlar onlayn şəkildə həyata keçirilir və alışlar haqqında məlumatlar vergi orqanlarına ötürülür. Bu, “qara” gəlirlərin həcmini azaltmağa və korrupsiya və saxtakarlıq sxemlərinə qarşı mübarizə aparmağa kömək edir;

- yerli istehsalın rəqabət qabiliyyətinin artırılması, biznesin coğrafiyasının genişləndirilməsi.

Rəqəmsal iqtisadiyyata təsir edən amillər

Rəqəmsal iqtisadiyyatın inkişafı və texnoloji həllərin yaradılması sürəti bir-biri ilə əlaqəli bir sıra amillərdən asılıdır ki, bunların əsasları aşağıdakılardır:

- rəqəmsal texnologiyalara tələbat;
- innovativ texnologiyaların yaranması;
- insan resursları potensialı;
- dövlət tənzimlənməsi;
- rəqəmsal texnologiyaların inkişafını və tətbiqini təmin edən maliyyə resurslarının olması.

Rəqəmsal texnologiyalara tələbat rəqəmsal xidmətlərin istehlakçıları tərəfindən yaradılır. Rəqəmsal xidmətlərin potensial istehlakçılarının bir neçə qrupu var:

a) rəqəmsal xidmətlərə kütləvi tələbat yaradan şəxslər. İstehlakçıların bu kateqoriyası arasında yüksək potensial tələbi yaradanları, o cümlədən gəncləri, habelə müxtəlif xidmətlərin əldə edilməsinin ənənəvi formasına çıxışı məhdud olanları xüsusi qeyd etmək lazımdır;

b) iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən təşkilatlar;

c) göstərdikləri xidmətlərin optimallaşdırılmasında və əməliyyat səmərəliliyinin artırılmasında maraqlı olan maliyyə-kredit təşkilatları (banklar, birjalar, broker təşkilatları və başqaları);

ç) dövlət və bələdiyyə xidmətlərinin əlçatanlığını artırmaq və onların şəffaflığını təmin etmək

istəyən müxtəlif səviyyəli orqanlar.

Dəyişən istehlakçı seçimləri innovativ texnologiyaların tətbiqinə təsir göstərir ki, bu da ənənəvi formada göstərilən xidmətlərin transformasiyasına kömək edir. Belə texnologiyalara aşağıdakılar daxildir:

- insan müdaxiləsi olmadan işi yerinə yetirməyə imkan verən və dəqiq təlimatlardan istifadə etməklə təsvir edilə bilməyən avtomatlaşdırmaya yönəlmiş koqnitiv texnologiyalar. Onlardan istifadəyə misal olaraq süni intellekti, böyük məlumat analitikasını göstərmək olar;
- rəqəmsal dünyada eksponensial artım problemlərinin həllinə yönəlmiş məlumatların emalı və saxlanması ilə əlaqəli paylanmış hesablamalar. Bura bulud hesablamaları və paylanmış reyestr texnologiyaları daxildir;
- uzaqdan idarəetmə/biometrik identifikasiya vasitəsilə təhlükəsizliyin artırılmasına yönəlmiş kibertəhlükəsizlik sahəsində texnologiyalar.

Rəqəmsal iqtisadiyyatın insan resursları potensialına rəqəmsal texnologiyaların istehsalının aparıldığı sahələrdə çalışan, eləcə də rəqəmsal bacarıqlara malik potensialı olan mütəxəssislər daxildir.

İşəgötürənlərin aşağıdakı üç istiqamətdə bacarıqlara malik olan və onları inkişaf etdirən işçilərə tələbatı var:

- gündəlik işdə və həyatda rəqəmsal texnologiyalardan istifadə etməyə imkan verən bacarıqlar, məsələn, internet resurslarından istifadə etməklə məlumat axtarmaq, cari problemləri həll etmək üçün proqram təminatından istifadə etmək bacarıqları;
- mal və xidmətlərin istehsalında zəruri olan yəni, iş alətləri- proqram təminatı, veb-saytlar, e-ticarət alətləri, bulud məlumatları- yaratmağa imkan verən peşəkar bacarıqlar. Peşəkar bacarıqların formalaşması uyğun təhsilin alınması yolu ilə təmin edilir;
- iş yerində rəqəmsal texnologiyaların istifadəsi ilə bağlı yeni vəzifələrin həyata keçirilməsinə kömək edən tamamlayıcı bacarıqlar, məsələn, həmkarları və müştəriləri ilə ünsiyyət üçün sosial şəbəkələrdən istifadə etmək, e-ticarət platformalarında məhsul markalarını tanıtmaq, böyük məlumatları təhlil etmək, biznes planları tərtib etmək və s. bacarıqlar.

Dövlət tənzimlənməsi yeni məhsul və xidmətlərin kütləvi bazarlara çıxmağa hazır olub-olmadığını müəyyən edir. Dövlət tənzimlənməsi innovasiyaların inkişafı üçün əlverişli mühitin yaradılmasına və dəstəklənməsinə, həmçinin rəqəmsal texnologiyalarla bağlı risklərin monitorinqinə və minimuma endirilməsinə yönəldilməlidir.

Çoxtərəfli dövlət tənzimlənməsi rəqəmsal iqtisadiyyatın inkişafına, rəqəmsal texnologiyalar inkişaf etdirən şirkətlərə və rəqəmsal iqtisadiyyat üçün kadr hazırlayan təhsil təşkilatlarına dəstək verir və kömək edir.

Maliyyə resurslarına əlçatanlıq rəqəmsal həllər hazırlayan və həyata keçirən təşkilatların uğurlu inkişafı və böyüməsi üçün ilkin şərtdir. Rəqəmsal texnologiyalara maliyyə dəstəyi mənbələrinə vençur fondlarından maliyyələşməni, büdcə maliyyələşdirməsini, biznes inkubatorların yaradılmasını misal göstərmək olar.

Yuxarıda qeyd edilən amillərin nəzərə alınması və onlardan səmərəli istifadə edilməsi rəqəmsal iqtisadiyyatın formalaşmasına və inkişafına müsbət təsir edə bilər.

Rəqəmsal iqtisadiyyatın təhlükələri və riskləri

Nəzərə almaq lazımdır ki, rəqəmsal iqtisadiyyatın tətbiqi üstünlüklərlə yanaşı, müəyyən təhlükələr və risklər də yaradır. McKinsey & Company ekspertləri tərəfindən aparılan araşdırmada qeyd edilir ki, 2036-cı ilə qədər dünyada iş proseslərinin 50%-ə qədəri avtomatlaşdırılacaq. İstehsalın və fəaliyyətin texniki təchizat səviyyəsinin yüksəldilməsi kadrların buraxılması hesabına orta ixtisaslı iş yerlərinin azalmasına, əməkhaqqı səviyyələrində diferensiallığın artmasına səbəb olur [4, səh. 301]. Bu sosial problemlərin həlli üçün işsiz vətəndaşlara müavinətlərin ödənilməsi və işsiz statusu almış şəxslərin yenidən hazırlanması ilə bağlı büdcə xərclərinin artırılmasını tələb edə bilər. Bundan əlavə, rəqəmsal iqtisadiyyat maliyyə sektorunun zəifliyini artırır ki, bu da pul vəsaitlərinin bank hesablarından icazəsiz çıxarılması riskləri ilə bağlıdır. Bəzi tədqiqatçıların fikrincə,

korrupsiya və digər qanunsuz məqsədlər üçün blokçeyn texnologiyasından istifadə etməklə edilən ödənişlərin artması bununla bağlı ola bilər [5].


Rəqəmsal iqtisadiyyat üçün təhlükələr eləcə də, yeni texnoloji imkanlardan istifadədəki çətinliklərlə, rəqəmsal savadlılığın aşağı səviyyəsi və yeni texnologiyaların həm daxildə, həm də ölkələr arasında kifayət qədər nüfuz etməməsindən irəli gəlir.

Rəqəmsal iqtisadiyyatın əsas problemi informasiya sızması və qanunvericiliyin bəzi sahələrində hüquqi məhdudiyyətlərlə bağlıdır. İqtisadiyyatın qlobal rəqəmsallaşması aşağıdakı təhlükələri artırır:

- fırıldaqçılıq səviyyəsinin artması. Bunun aradan qaldırılması, heç olmasa minimuma endirilməsi üçün informasiya təhlükəsizliyi məlumatların hüquqi, texniki, fiziki və kriptoqrafik mühafizəsi baxımından təmin edilməlidir;
- işsizliyin artması. Yeni peşə və iş yerlərinin yaranması fonunda digər ixtisaslar və bütöv sənaye sahələri, əksinə, öz aktuallığını itirərək keçmişə çevrilir. Bu qəbildən olan təhlükələrin minimuma endirilməsi və informasiya texnologiyalarından səmərəli istifadə edilməsi üçün yeni ixtisaslı işçilərin hazırlanması prosesini sürətləndirmək, sənaye istehsalını yeni, dəyişən şəraitə və tələbata uyğunlaşdırmaq üçün tədbirlər həyata keçirmək lazımdır;
- rəqəmsal bölünmə. Universal rəqəmsallaşma hər kəs üçün mümkün deyil. Məsələn, dövlət xidmətlərini almaq üçün şəxsin internetə çıxışı olmalı və təsdiqlənmiş hesab yaratmalıdır. Hər kəsin bunu etmək imkanı yoxdur, bu da onların rifah səviyyəsinə birbaşa təsir göstərir. İnsanların alıcılıq qabiliyyətinin artırılması üçün dövlət səviyyəsində tədbirlər həyata keçirməklə (əməkhaqlarının, pensiyaların, müavinətlərin artırılması, süni qiymət artımlarının qarşısını almaq üçün haqsız rəqabətə qarşı mübarizənin gücləndirilməsi və s.) bu sahədə müsbət irəliləyişlərə nail olmaq olar;
- rəqəmsal asılılıq. Hər bir istifadəçi İnternetdə aktiv şəkildə qarşılıqlı əlaqə qurmağa başlayanda, o, daha az sərbəst olur. Onun hər addımı izlənilə və maraqlarından sui-istifadə edilə bilər. Bunun qarşısının alınması üçün daim şəxsi məlumatları yeniləmək lazımdır;
- rəqəmsal məhsulların istifadəsinin səmərəliliyindən asılı olaraq ölkələr və iqtisadi birliklər arasında texnoloji inkişafda uçurumların kəskinləşməsi. Bu təhlükənin minimuma endirilməsi üçün yeni texnologiyaların, xüsusilə informasiya texnologiyaları sahələrində, tətbiqinə xüsusi diqqət yetirilməlidir;
- informasiyaların məxfiliyinin (xüsusilə konfedensial informasiyaların) qorunması ilə bağlı təhlükələr. Bu qəbildən olan təhlükələrin aradan qaldırılması üçün müvafiq məxfilik tədbirləri həyata keçirilməli və vaxtaşırı yenilənməlidir.

Onu da qeyd etmək lazımdır ki, iqtisadiyyatın rəqəmsallaşması və bununla bağlı iqtisadi meyillər onun strukturunda mənfi dəyişikliklər riskini yaradır. Bu, həm də istehsalın avtomatlaşdırılması və robotlaşdırma ilə əlaqədar çoxlu sayda real iş yerlərinin itiriləcəyi ilə ifadə edilir.

Rəqəmsal iqtisadiyyatın risk təsnifatını formalaşdırarkən ənənəvi iqtisadiyyatın risklərinin aşağıdakı təsnifatını nəzərə almaq lazımdır (şəkil 1).




Şəkil 1. Ənənəvi iqtisadiyyat riskləri

Rəqəmsal iqtisadiyyat prinsiplərinin həyata keçirilməsi ilə bağlı risklər də müxtəlif kateqoriyalar üzrə təsnif edilməlidir. Qeyd etmək lazımdır ki, ilk növbədə əməliyyat riskləri, o cümlədən internetdən həddindən artıq asılılıq və şəbəkə müdaxiləsi, bütün həyat proseslərini ləngidə bilir. Həmçinin qeyd etmək lazımdır ki, robototexnikanın inkişafı baxımından rəqəmsal iqtisadiyyatın inkişafı iş yerlərinin ixtisarını nəzərdə tutur və müxtəlif mənbələrdə çoxlu sayda iş yerlərinin (20%-dən 40%-ə qədər) məhv olmaq təhlükəsi altında olduğunu təsdiqləyən tədqiqatlar var.

Bununla bağlı cəmiyyətin rəqəmsallaşması kontekstində informasiya təhlükəsizliyi məsələlərinə də diqqət yetirilməlidir. Müasir cəmiyyətin rəqəmsallaşması informasiya sistemlərinin işləməsi ilə bağlı əlavə risklər və təhlükələr yaradır. Hazırkı şəraitdə fırıldaqçı hücumların və kiber təhdidlərin intensivləşməsi ilə əlaqədar təşkilatlar üçün məxfilik və məlumatların qorunması məsələləri ön plana çıxır.

Qeyd etmək lazımdır ki, insan həyatının bütün sfera və sektorlarının rəqəmsallaşması ilə bağlı təhlükə və risklər, rəqəmsal transformasiya prosesinin maddi aktivlərdən qeyri-maddi (rəqəmsal) aktivlərə keçidi ilə bağlıdır. Beləliklə, iqtisadiyyatın rəqəmsal transformasiyası ilə bağlı risklərin və təhlükələrin aşağıdakı təsnifatını göstərmək olar (şəkil 2).



Şəkil 2. İqtisadiyyatın rəqəmsal transformasiyası ilə bağlı risklər və təhlükələr

İnformasiya riskləri və təhlükələri ilk növbədə məlumatın istifadəsi və yayılması ilə bağlıdır. İnformasiya ən mühüm idarəetmə resurslarından biri olduğundan onun saxlanmasının və istifadəsinin bütövlüyünün, etibarlılığının qorunması ilə bağlı məsələlər hər bir təşkilatın fəaliyyətində əsas məsələlərdən biri olmalıdır. İnformasiya riskləri və təhlükələri gizli və açıq bölünən amillərin təsiri altında olan mürəkkəb informasiya sistemlərindən asılıdır. İnformasiya sistemlərinə təsir edən gizli amillərə məlumatın həddən artıq yüklənməsi, müştərilərin, təchizatçıların və ya işçilərin hərəkətləri nəticəsində bilmədən yaranan insan amilləri, informasiya sisteminin işində problemlər daxildir.

İnformasiya sistemlərinə təsir edən aşkar amillər idarəetmə mexanizminin yetkinlik səviyyəsi, təşkilatın özünün avtomatlaşdırma dərəcəsi və məlumatlılığı səviyyəsidir və s. Bu halda informasiya risklərinin əsas mənbəyi rəqəmsal formada məlumatları və göstəriciləri özündə əks etdirən informasiya aktivləridir (biznes-proseslərinin rəqəmsal modelləri, rəqəmsal xidmətlər, rəqəmsal məzmun, verilənlər bazası, veb resurslar, proqram təminatı və s.).

Risklərin ikinci qrupu kiberməkanda informasiya təhlükəsizliyi ilə bağlı risklər və təhlükələrdir. İnformasiyanın ən mühüm xüsusiyyətlərindən biri ondan ibarətdir ki, ondan istifadə zamanı yox olmur və bu mənbə yaranma yeri, vaxtı və predmeti ilə bağlı deyildir. İnformasiyadan icazəsiz

istifadə gələcəkdə təşkilatı birbaşa maliyyə itkilərinə məruz qoya, onun işgüzar nüfuzunu azalda bilər. İnformasiya təhlükələri və riskləri ilə müqayisədə kiberrisklər informasiyaya, rəqəmsal məlumatlara, rəqəmsal məkanda informasiya resurslarının və sistemlərinin işinə məqsədyönlü təsirin nəticəsidir. Kiber risklər xarakterinə görə aşağıdakı kimi təsnif edilə bilər:

- proqramlar;
- texniki;
- fiziki;
- məlumat;
- təşkilati.

Kiber riskin hər bir növünə daha çox toxunsaq, birinci qrup, xüsusən də proqram təminatı riskləri məlumat sistemlərinə məlumatları məhv edən və təhrif edən zərərli proqramların nüfuzu ilə bağlıdır və bu, həm qəsdən, həm də istəmədən baş verə bilər.

Kiberməkanda texniki risklər məlumatın təhrif edilməsi ilə bağlı təsir göstərmək üçün məlumat ötürmə kanallarına xarici təsirlə bağlı risklərdir.

Kiberməkanda fiziki risklər məlumatın işlənməsi və saxlanması, eləcə də elektron giriş açarları və autentifikasiyanın məhv edilməsi və zədələnməsi ilə bağlı risklərdir.

İnformasiya kiberriskləri məlumat mübadiləsi və yayılması qaydalarının pozulması, rəqəmsal məlumatlara icazəsiz daxilolma, məlumatın qanunsuz surətinin çıxarılması və yayılması və s. ilə bağlı olanlardır.

Təşkilati risklər rəqəmsal hüquqların və rəqəmsal məlumatların qorunması üçün təşkilatın fəaliyyətinin qeyri-effektivliyi, məlumatın icazəsiz giriş və oğurluqdan qorunması üsul və vasitələrinin qeyri-kafi effektivliyi ilə əlaqəli risklərdir.

Rəqəmsal texnologiyaların iqtisadi inkişafa artan təsirini nəzərə alaraq, bir çox ölkələr müvafiq sürətləndirmə strategiyaları və proqramları, onların həyata keçirilməsi üçün prosedur və alətlər hazırlamaq üçün öz fəaliyyətlərini gücləndirirlər. Belə proqramlar həm İKT sektorunun özünün, həm də bütün sektorlarda tətbiq olunan rəqəmsal texnologiyaların inkişafını əhatə edir OECD-nin (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı) məlumatına görə, təşkilata üzv olan 36 ölkədən 32-nin milli rəqəmsal strategiyaları vardır.

Hazırlanmış strategiya və proqramların məqsəd və vəzifələri əhəmiyyətli dərəcədə fərqlənir, çünki ölkələr iqtisadiyyatın rəqəmsallaşmasına hazırlığın müxtəlif mərhələlərindədir. Bəzi ölkələr əsas diqqəti rəqəmsal bərabərsizliyin aradan qaldırılması problemlərinin həllinə və infrastrukturun, İKT-nin inkişafına və şəbəkənin genişləndirilməsinə, digərləri iqtisadiyyatın bütün sektorlarının rəqəmsallaşdırılmasının dərinləşdirilməsinə yetirir, bu prosesin faydalarını daha ədalətli şəkildə bölüşmək yollarını axtarır. Üstəlik, iqtisadiyyatda və cəmiyyətdə rəqəmsal transformasiyanın dinamizmi bu sahədə mövcud strategiya və proqramların daim uyğunlaşdırılmasını və çox vaxt qeyri-standart həllərin axtarışını tələb edir.

Qeyd etmək lazımdır ki, hazırda iqtisadiyyatın texnoloji modernləşdirilməsi nümunələri və bununla bağlı iqtisadi meyillər onun strukturunda mənfi dəyişikliklər riski yaradır. Əsasən istehsalın avtomatlaşdırılması nəticəsində çoxlu sayda real iş yerlərinin, xüsusi ilə əhalinin məskunlaşdığı iri ərazilərdə, itirilməsi ilə ifadə olunur.

Nəticə

İqtisadiyyatın rəqəmsal transformasiyasının aşkar üstünlükləri odur ki, rəqəmsal texnologiya sayəsində nəinki mövcud biznes proseslər dəyişdirilir və təkmilləşdirilir, eyni zamanda işsizliyi azaldan və məhsulun keyfiyyətini yaxşılaşdıran yeni biznes proseslər yaradılır. Şübhəsiz ki, rəqəmsal texnologiyaların tətbiqi rəqabət səviyyəsinə təsir edərək, sahibkarları istehsal və satışda müasir rəqəmsal texnologiyaların tətbiqinə kütləvi şəkildə həvəsləndirir.

Rəqəmsal texnologiyanın tətbiqi həmçinin sənaye sahələri və biznesin müxtəlif sektorları arasında əlaqəni gücləndirir ki, bu da yaradılan məhsulların keyfiyyətinə təsir göstərir. Məhsul istehsalçılarının və tədarükçülərinin xərclərini azaltmağa imkan verən "e-ticarətin" tətbiqi son nəticədə

bu məhsullara olan tələbata təsir göstərir, başqa sözlə, e-ticarət” rəqəmsal texnologiyanın tətbiqində əsas müsbət amil rolunu oynayır.

Rəqəmsal texnologiyalar işçi qüvvəsinin məhsuldarlığını sürətləndirir, çünki çoxsaylı araşdırmalara görə süni intellekt texnologiyasının tətbiqi işçi qüvvəsinin məhsuldarlığının və gəlirliliyinin artmasına səbəb olub. Rəqəmsal iqtisadiyyat da, ənənəvi iqtisadiyyatda olduğu kimi, iqtisadi artımı təşviq etmək üçün proqnozlaşdırıla bilən və idarə edilə bilən olmalıdır. Buna görə də, rəqəmsal texnologiyanın səmərəli tətbiqi üçün bütün hüquqi, iqtisadi və siyasi şərtlərin mərhələli şəkildə tətbiqi (yalnız maliyyə sahəsində deyil) əsas idarəetmə məsələsi olaraq qalır. Və görünən odur ki, rəqəmsal texnologiyalar dövlət həyatının bütün sahələrinə daxil olub.

Şübhə yoxdur ki, iqtisadiyyatın rəqəmsal transformasiyası iqtisadi inkişafın hərəkətverici qüvvəsi olmaqla yanaşı, həm dövlətlə, həm də bizneslə vətəndaşlar arasında ünsiyyəti xeyli asanlaşdırır, eyni zamanda, həm makro, həm də mikroiqtisadi səviyyədə təhlükələr və risklər yaradır. Fikrimizcə, bu məqalədə irəli sürülən təklif və tövsiyələrin həyata keçirilməsi meydana çıxan təhlükələri və riskləri minimuma endirməyə imkan yarada bilər.

ƏDƏBİYYAT

1. Куприяновский В. П., Сухомлин В. А. и др. Навыки в цифровой экономике и вызовы системы образования // International Journal of Open Information Technologies. 2017, vol. 5, no. 1, pp. 19–25.
2. 2 Основные направления развития финансовых технологий на период 2018–2020 гг. URL: http:// www.cbr.ru/content/document/fi le/71220/main_directions.pdf дата обращения 08.10.2024).
3. Bukht R., Heeks R. Defi ning, Conceptualising and Measuring the Digital Economy // International Organisations Research Journal, 2018, vol. 13, no 2, pp. 143–172. DOI: 10.17323/19967845-2018- 02-07. (In English).
4. Kling R., Lamb R. IT and Organizational Change in Digital Economies. Understanding the Digital Economy / E. Brynjolfsson, B. Kahin (eds). Cambridge: MIT Press. 2000, pp. 295–324.
5. Margherio L. et al. The Emerging Digital Economy. Washington, DC: Department of Commerce. 1999. URL: http://www.esa.doc.gov/sites/default/ fi les/emergingdig_0.pdf (дата обращения: 12.10.2024).
6. OECD (2017a) OECD Digital Economy Outlook 2017. URL: http://dx.doi.org/10.1787/9789264276284en (accessed 18 April 2018).

Тейюб Гани оглы Алиев
доцент АГУНП,
Шамс Тейюб кызы Алиева
доцент АГУНП

Цифровая экономика: преимущества, угрозы, риски и факторы воздействия

Резюме

Цель исследования – оценить преимущества цифровой экономики, факторов влияющие на нее, изучить опасности и риски, возникающие при ее применении, а также подготовить предложения и рекомендации по снижению их воздействия.

Методология исследования – системный подход, экспертный метод, методы комплексного анализа.

Результаты исследования - исследованы преимущества цифровой экономики, ее роль в ускорении экономического развития, опасности и риски, которые могут появиться при ее применении, а также даны соответствующие предложения и рекомендации по снижению

их воздействия.

Практическая значимость исследования - результаты исследования и предложенные предложения и рекомендации.может позволить провести качественную оценку применения цифровой экономики и ее более эффективное использование.

Оригинальность и научная новизна исследования - обоснована необходимость применения цифровой экономики в условиях современной экономики, указаны конкретные пути совершенствования ее использования.

Ключевые слова: цифровая экономика, преимущества, угрозы, риски, предложение, использование.

Teyyub Gani Aliyev
ass. prof., ASOIU
Shams Teyyub Aliyeva
ass. prof., ASOIU

Digital economy: advantages, threats, risks and impact factors

Summary

The purpose of the study- is to assess the advantages of the digital economy, the factors influencing it, to study the dangers and risks arising from its application, and to prepare proposals and recommendations for reducing their impact.

Research methodology - a systematic approach, an expert method, and methods of complex analysis.

Research results - the advantages of the digital economy, its role in accelerating economic development, the dangers and risks that may arise from its application were studied, and corresponding proposals and recommendations for reducing their impact were given.

Practical significance of the study - the results of the study and the proposed proposals and recommendations can allow for a qualitative assessment of the application of the digital economy and its more efficient use.

Originality and scientific novelty of the study - the need to apply the digital economy in the conditions of the modern economy is substantiated, specific ways to improve its use are indicated.

Keywords: digital economy, advantages, threats, risks, proposal, use.

UOT 331

Ramil Teyyub oğlu ƏLİYEV
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
İqtisadiyyat İnstitutunun aparıcı elmi işçisi, dosent,

Sevda Faiq qızı MAHMUDOVA
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
İqtisadiyyat İnstitutunun böyük elmi işçisi
https://doi.org/10.30546/4.71.73001.2025.001.0161

EMAL SƏNAYESİNDƏ FƏRDİ SAHİBKARLIQ FƏALİYYƏTİNİN MÖVCUD VƏZİYYƏTİ

Xülasə

Tədqiqatın məqsədi emal sənayesinin əhəmiyyətinin və əsas xüsusiyyətlərinin araşdırılması, emal sənayesində fərdi sahibkarlığın inkişafının mövcud vəziyyətinin qiymətləndirilməsi və onun yaxşılaşdırılması üçün təkliflərin hazırlanmasıdır.

Tədqiqatın metodologiyası - sistemli yanaşma, ekspert metodu, kompleks təhlil metodları.

Tədqiqatın nəticələri - emal sənayesində fərdi sahibkarlığın inkişafının mövcud vəziyyəti araşdırılmış, onun yaxşılaşdırılması üçün müvafiq təklif və tövsiyələr verilmişdir.

Tədqiqatın praktiki əhəmiyyəti - tədqiqatın nəticələri və irəli sürülən təklif və tövsiyələr fərdi sahibkarlığın formalaşması və inkişafı üçün tədbirlərin hazırlanmasında istifadə edilə və fərdi sahibkarlığın potensialından daha səmərəli istifadə etməyə imkan verə bilər.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – müasir iqtisadiyyat şəraitində fərdi sahibkarlığın inkişafının zəruriliyi əsaslandırılır, onun yaxşılaşdırlmasının konkret yolları göstərilir.

Açar sözlər: emal sənayesi, fərdi sahibkarlıq, mövcud vəziyyət, yaxşılaşdırmaq, inkişaf.

Giriş

Fərdi sahibkarların iqtisadi sistemdə rolu yeni rəqabətli bazarların formalaşdırılmasından, rəqabət şəraitində məhsulun keyfiyyətinin yüksəldilməsinə çalışmaqdan, yerli xammal mənbələrindən daha səmərəli istifadə etməkdən, milli iqtisadiyyatın müxtəlif sahələrində innovasiya proseslərinin sürətləndirilməsindən ibarətdir. Məhz buna görə hər bir ölkədə, o cümlədən Azərbaycanda fərdi sahibkarlığın inkişafına mühüm əhəmiyyət verilir.

Azərbaycanda fərdi sahibkarlıq, ənənəvi olaraq mikro biznesə aiddir və ölkənin iqtisadi inkişafının mühüm göstəricisidir. Son illər ölkəmizdə, xüsusilə də emal sənayesində, fərdi sahibkarlığın formalaşmasında müəyyən nəticələr əldə edilsə də, onun inkişaf perspektivləri ilə bağlı ekspert qiymətləndirmələri çox qeyri-müəyyəndir. Ancaq araşdırmalar göstərir ki, Azərbaycanda, o cümlədən onun emal sənayesində fərdi sahibkarlığın inkişafı üçün kifayət qədər potensial imkanlar mövcuddur. Fərdi sahibkarların iqtisadiyyatın hansı sahəsində fəaliyyət göstərmələrindən asılı olmayaraq onun nəticələri ölkə iqtisadiyyatının inkişafına əhəmiyyətli təkan verə bilər. Ona görə də, fərdi sahibkarlığın formalaşmasına ciddi və sistemli yanaşmaq, onu daim inkişaf etdirmək lazımdır.

Emal sənayesinin əhəmiyyəti və əsas xüsusiyyətləri

Emal sənayesi həm istehsal vasitələri, həm də istehlak malları istehsal edən sənaye sahəsidir. Emal sənayesi, adətən, əmək bölgüsü ilə müşayiət olunan istehsalın sistematik təşkili ilə xarakterizə olunur.

Müxtəlif ölkələr və siyasi sistemlər arasında emal sənayesi əhəmiyyətli və çox vaxt unikal iqtisadi güc kimi qəbul edilir. Eyni zamanda, emal sənayesi dövlətin texnoloji gücünün mənbəyi hesab edilir. Emal sənayesi ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynayır, iş yerləri və malların ixracı mənbəyidir. Bu seqmentin azalması və ya daralması ölkənin iqtisadi tənəzzülünə işarədir.

Emal sənayesinin əsas xarakterik xüsusiyyəti ondan ibarətdir ki, o, xammaldan hazır məhsul istehsalı ilə məşğul olur. Bu onu iqtisadiyyatın digər sahələrindən, məsələn, xammal istehsal edən kənd təsərrüfatından və ya məhsul istehsalını nəzərdə tutmayan xidmətlərdən fərqləndirir. Emal sənayesi həm də xammalı hazır məhsula çevirən müxtəlif texnologiya və proseslərin istifadəsi ilə xarakterizə olunur.

Beləliklə, emal sənayesi xammaldan hazır məhsul istehsal edən iqtisadiyyatın mühüm sahəsidir. Onun xüsusiyyətlərinə müxtəlif texnologiya və proseslərin, eləcə də müxtəlif istehsal növlərinin istifadəsi daxildir.

Emal sənayesini xalq təsərrüfatının digər sahələrindən fərqləndirən bir sıra xüsusiyyətləri vardır ki, onların da əsasları aşağıdakılardır:

a) xammal emalı əməliyyatları: emal sənayesi fiziki emal, kimyəvi emal, mexaniki emal və s. kimi xammal emalı əməliyyatlarının geniş spektrini əhatə edir. Bütün bu əməliyyatlar xammalın son məhsula çevrilməsinə yönəlib;

b) seriyalı və kütləvi məhsulların istehsalı: emal sənayesi məhsulların seriyalı və kütləvi istehsalına yönəlmişdir. Standartlaşdırılmış proseslər və avadanlıqlardan istifadə etməklə istehsalın səmərəliliyini artırmağa çalışır;

c) istehsal zəncirlərinin mövcudluğu: emal sənayeləri çox vaxt məhsulun emalı və yığılmasının müxtəlif mərhələlərini əhatə edən mürəkkəb istehsal zəncirlərini əhatə edir. Bu, istehsalın optimal təşkilinə imkan verir;

ç) xüsusi avadanlıqdan istifadə: emal sənayesi xammalın emalı və çevrilməsi əməliyyatlarını həyata keçirmək üçün xüsusi avadanlıq və maşınlardan istifadə edir. Onlar prosesləri avtomatlaşdırmağa və məhsuldarlığı artırmağa imkan verir;

d) qabaqcıl texnologiyaların tətbiqi: emal sənayesi istehsalın keyfiyyətini və səmərəliliyini artırmaq üçün qabaqcıl texnologiyalardan fəal şəkildə istifadə edir. Bura kompüter idarəetmə sistemlərinin istifadəsi, istehsalın avtomatlaşdırılması və robotlaşdırılması daxildir.

Bu xüsusiyyətlərinə görə emal sənayesi iş yerləri yaratmaq, istehsalı dəstəkləmək, istehlakçılara müxtəlif məhsullar təqdim etməklə iqtisadiyyatda mühüm rol oynayır.

Bunlarla yanaşı, emal sənayesinin aşağıdakı üstünlükləri vardır:

- iqtisadi artıma dəstək verir. Emal sənayesi iqtisadiyyatın əsas sahələrindən biridir və ÜDM-in artmasına və investisiyaların cəlb edilməsinə töhfə verir. Malların istehsalı ölkədə yeni iş yerləri yaratmağa, infrastrukturu inkişaf etdirməyə imkan verir;

- texnoloji tərəqqini sürətləndirir. Emal sənayesi müasir avadanlıqların, avtomatlaşdırmanın və yeni texnologiyaların tətbiqini tələb edir. Bu, innovasiyanın inkişafına və istehsalın keyfiyyətinin yüksəldilməsinə kömək edir;

- iqtisadi diversifikasiyaya şərait yaradır. Sənaye istehsalı ölkələrə müxtəlif sənaye sahələrini inkişaf etdirməyə, xarici bazarlardan və təchizatçılardan asılılığı azaltmağa imkan verir. Bu, sabit iqtisadi artıma və milli təhlükəsizliyin möhkəmlənməsinə töhfə verir;

- yeni iş yerlərinin yaradılmasına imkan yaradır. Emal sənayesi müxtəlif əhalini çoxlu iş yerləri ilə təmin edən əsas işəgötürən sahədir. Bu, işsizliyin azaldılmasına və vətəndaşların sosial vəziyyətinin yaxşılaşmasına kömək edir;

- ixracda artıma şərait yaradır. Emal sənayesində mal istehsalı ölkələrə ixracı artırmağa və xarici ticarəti inkişaf etdirməyə imkan verir. Bu, ticarət balansının yaxşılaşdırılmasına və xarici investisiyaların cəlb edilməsinə kömək edir;

- infrastrukturun inkişafı. Emal müəssisələrinin fəaliyyəti inkişaf etmiş infrastruktur, o cümlədən yollar, enerji sistemləri, logistik mərkəzlər və digər obyektlər tələb edir. Bu, əhalinin həyat səviyyəsinin yaxşılaşmasına və ərazilərin inkişafına kömək edir.

Qeyd etmək lazımdır ki, emal sənayesinin təkmilləşdirilməsi əhəmiyyətli maliyyə, informasiya və əmək resursları tələb edir. Müasir reallıqların göstərdiyi kimi, texnoloji müstəqilliyin təmin edilməsi dövlətlərin inkişafının ilkin şərtidir. Azərbaycanda emal sənayesinin innovativ inkişafı üçün əhəmiyyətli kapital xərclərinə baxmayaraq hələlik yüksək nəticələr əldə edilməsə də, bu

fəaliyyətlərin iqtisadi məqsədəuyğunluğu haqqında qənaətə gəlmək olar. Bu, texnoloji cəhətdən inkişaf etmiş emal sənayesinin daha rəqabətli məhsullar istehsal etməyə imkan verməsi ilə əlaqədardır.

Emal sənayesinin inkişafı zəruri texnoloji bazanın modernləşdirilməsi və inkişafı ilə müşayət olunmalıdır. Milli iqtisadiyyatın transformasiyası yüksək texnologiyalı məhsulların payının artırılmasına yönəldilməlidir ki, bu da prinsipial olaraq yeni qabaqcıl texnologiyalardan istifadəni tələb edir. Qeyd etmək lazımdır ki, emal sənayesində innovativ məhsullarla işləmək üçün yüksək ixtisaslı əmək ehtiyatlarına ehtiyac vardır. Bəzi müəlliflərin qeyd etdiyi kimi, emal sənayesinin inkişafı bu sahənin müəssisələr səviyyəsində səmərəli inkişafı hesabına həyata keçirilir. Dövlətin uzunmüddətli inkişaf perspektivlərini əvvəlcədən müəyyən edən iqtisadi fəaliyyət sahələrinin inkişafı üçün əsas olan innovativ komponentdir [11, səh.57].

M.A.Sidorov, N.M.Rumyancev və E.V.Lukin qeyd edirlər ki, dəfələrlə sübut edilmişdir ki, istehsalın iqtisadi artımının əsas hərəkətverici sahəsi emal sənayesidir [12, səh.146].

M.N.Nəcəfova, V.V.Duplin dövlətin maliyyə müstəqilliyinin və müdafiə qabiliyyətinin təmin edilməsində emal sənayesinin xüsusi rolunu qeyd edirlər. Müəlliflərin fikrincə, bu istiqamət dövlət həyatının digər sahələrinin hərtərəfli inkişafı üçün əsasdır [13, səh.39].

Həm də nəzərə almaq lazımdır ki, ölkənin emal sənayesinin fəal inkişafı üçün təkcə əhəmiyyətli resurs potensialı deyil, həm də kadr, texniki, informasiya və texnoloji dəstək tələb olunur. Məhz onların varlığı aparıcı sahələrdən biri kimi emal sənayesinin səmərəli inkişafına imkan yaradır.

Emal sənayesində fərdi sahibkarlığın inkişaf dinamikası

Azərbaycan Respublikasının qanunvericiliyinə görə *fərdi sahibkar hüquqi şəxs yaratmadan biznes fəaliyyəti ilə məşğul olan və müəyyən edilmiş miqdarda vergiyə cəlb olunan şəxsdir.* Fərdi sahibkarlar mülkiyyəti və ya sahib olduğu biznesi idarə etmək üçün hüquqi olaraq yeganə məsuliyyətli şəxs hesab olunurlar. Onlar ortaya çıxan mənfəətə tamamilə sahib olurlar, yəni mənfəəti bölüşdürməyə məsul deyillər.

Fərdi sahibkarlar biznesin mənfəəti ilə bərabər, onun idarə edilməsində də birbaşa qərar sahibləri olduğu üçün idarəetmədə müəyyən rahatlıqlar yarada bilərlər.

Fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün Asan Xidmətdə VÖEN açmaq və müvafiq sənədləri almaq lazımdır. Bankda multi hesab açılmalıdır.

Fərdi sahibkarlıq fəaliyyətinin bir sıra üstün və mənfi cəhətləri vardır.

Üstünlüklər əsasən aşağıdakılardır:

- asan qeydiyyat;
- bank hesabından pulun tez və asan çıxarılması;
- cari hesab açmaq öhdəliyi yoxdur;
- mühasibat uçotu aparmaq öhdəliyi yoxdur;
- sadə hesabat;
- asan ləğvetmə;
- daha az cərimələr;
- işçiləri olmayan sahibkarlar vergi hesabatlarından başqa heç nə təqdim etmirlər.

Fərdi sahibkarlığın mənfi cəhətləri aşağıdakılardır:

- həmişə sığorta haqqı ödənilməlidir;
- borclar üçün tam məsuliyyət;
- fəaliyyət növləri üzrə məhdudiyyətlər;
- biznesin bölünməzliyi;
- DSMF-yə ödənişlərin edilməsi (DSMF üçün isə hər ay 62.5 manat sosial fonda + 10 manat icbari sığortaya), sahibkar vergilərinin ödənilməsi;
- statistika hesabatının verilməsi.

Nəzərə almaq lazımdır ki, fərdi sahibkarlıq formasının riskləri böyükdür, bu halda biznes sahibi bütün əmlakını və kapitalını itirə bilər. Ona görə də, yekun qərar qəbul etməzdən əvvəl fərdi sahibkarlığı bir daha qiymətləndirmək və bütün müsbət və mənfi cəhətləri nəzərə almaq lazımdır.

Azərbaycan Respublikasının emal sənayesində fəaliyət göstərən fərdi sahibkarların sayı cədvəl 1-də göstərilmişdir.

Cədvəl 1.

Emal sənayesində fəaliyyət göstərən fərdi sahibkarların sayı (nəfər)

Emal sənayesinin sahələri	İllər						
	2010	2015	2019	2020	2021	2022	2023
Emal sənayesi üzrə, cəmi	9644	15092	19842	22957	24898	25663	27123
1. Qida məhsulları istehsalı	2431	4079	5252	6042	6623	6924	7456
2. İçki istehsalı	189	224	235	260	255	241	239
3. Tütün məhsulları istehsalı	2	1	3	3	5	6	5
4 Toxuculuq sənayesi	115	135	182	215	247	286	299
5. Geyim istehsalı	733	947	1442	1436	1666	1824	2080
6. Dəri, dəridən məmulatların və ayaqqabıların istehsalı	184	177	177	172	186	188	191
7. Mebeldən başqa ağacın emalı və ağacdan məmulatlar istehsalı	671	716	727	778	824	790	772
8. Kağız və karton istehsalı	32	62	75	102	119	118	126
9. Poliqrafiya məhsullarının istehsalı	294	592	804	1055	1130	1184	1244
10. Neft məhsullarının istehsalı	-	-	-	-	-	-	-
11. Kimya sənayesi	90	105	157	220	247	257	279
12. Əczaçılıq məhsullarının istehsalı	6	5	6	10	10	10	13
13. Rezin və plastik kütlə məmulatları istehsalı	1218	2659	2993	3186	3287	3310	3414
14. Tikinti materialları istehsalı	847	1795	2114	2305	2405	2388	2402
15. Metallurgiya sənayesi	28	46	71	92	105	108	114
16. Maşın və avadanlıqlardan başqa hazır metal məmulatları istehsalı	513	1292	1638	1964	2081	2097	2119
17. Kompyuter və digər elektron avadanlıqların istehsalı	12	4	10	30	27	28	25
18. Elektrik avadanlıqları istehsalı	40	65	99	143	163	169	190
19. Maşın və avadanlıqlar istehsalı	71	71	90	128	267	243	251
20. Avtomobil və qoşquların istehsalı	16	13	9	14	15	16	25
21. Sair nəqliyyat vasitələri istehsalı	3	5	5	7	10	14	18
22. Mebellərin istehsalı	749	920	1060	1490	1609	1695	1788
23. Sair sənaye məhsullarının (zərgərlik, musiqi, idman, tibb avadanlıqlarının və s.) istehsalı	1218	1179	1559	1436	1494	1473	1527

Cədvəl 1-dən göründüyü kimi, 2010-2023-cü illər ərzində Azərbaycanın emal sənayesi sahələrində fəaliyyət göstərən fərdi sahibkarların sayı (FSS) artmağa doğru meyil etmişdir. Bu artım aşağıdakı kimi olmuşdur:

- 2015-ci ildə 2010-cu ilə nisbətən - 56,5%;
- 2019-cu ildə 2015-ci ilə nisbətən - 31,5%;
- 2020-ci ildə 2019-cu illə müqayisədə - 15,5%;
- 2021-ci ildə 2020-ci ilə nisbətən - 8,5%;
- 2022-ci ildə 2021-ci ilə nisbətən - 3,1%;

- 2023-cü ildə 2022-ci illə müqayisədə - 5,7%.

Göründüyü kimi, 2023-cü il istisna olmaqla, son illər emal sənayesi sahələrində fəaliyyət göstərən FSS-nin, əvvəlki illərlə müayisədə artım tempi, ümumilikdə, azalmağa doğru meyil etmiş və bu göstərici 2022-ci ildə ən aşağı səviyyədə olmuşdur. Ancaq 2023-cü ildə qeyd edilən sənaye sahəsində bu katqoriya üzrə fəaliyyət göstərən sahibkarların sayı 2010-cu illə müqayisədə 2,8 dəfə artmışdır.

Ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində qida məhsullarının istehsalı sahəsinin inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Nəzərdən keçirilən illərdə bu sənaye sahəsində faəliyyət göstərən FSS artmağa doğru meyil etmişdir. Belə ki:

- 2015-ci ildə qeyd edilən göstərici 2010-cu illə müqyisədə 67,8%;
- 2019-cu ildə 2015-ci illə müqayisədə - 28,8%;
- 2020-ci ildə 2019-cu ilə nisbətən- 15,1%;
- 2021-ci ildə 2020-ci illə müqayisədə - 9,6%;
- 2022-ci ildə 2021-ci illə müqayisədə - 4,5%;
- 2023-cü ildə 2022-ci ilə nisbətən - 7,7% artmışdır.

Beləliklə, bu sənaye sahəsində də fəaliyyət göstərən fərdi sahibkarların sayının artım tempi 2023-cü il istisna olmaqla, əvvəlki ilə nisbətən azalmağa doğru meyil etmişdir və 2022-ci ildə bu göstərici ən aşağı səviyyədə olmuşdur.

Hesablamalar göstərir ki, qida məhsulları istehsalı sahəsində fəaliyyət göstərən FSS 2023-cü ildə 2010-cu ilə nisbətən 3,1 dəfə çox olmuşdur.

Araşdırmalar göstərir ki, nəzərdən keçirilən illər ərzində içki istehsalı sahəsində fəaliyyət göstərən FSS-də artıb-azalmalar müşahidə edilir. Belə ki, bu sənaye sahəsində məşğul olan FSS 2015-ci ildə 2010-cu ilə nisbətən 18,5%; 2019-cu ildə 2015-ci illə müqayisədə 4,9%; 2020-ci ildə 2019-cu iilə nisbətən 1,1% çox olduğu halda, 2021- ci ildə əvvəllki ilə nisbətətn 1,9%; 2022-ci ildə 2021-ci illə müqayisədə 5,5% və 2023-cü ildə 2022-ci ilə nisbətən 0,8% az olmuşdur. Buna baxmayaraq bu sahədə fəaliyyət göstərən FSS 2023-cü ildə 2010-cu ilə nisbətən 26,5% çoxalmışdır.

Nəzərdən keçirilən illər ərzində fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayı tütün məhsulları istehsalı sahəsində, başqa sahələrə nisbət, ən az olmuşdur. Belə ki, 2010-cu ildə tütün istehsalı sahəsində cəmi 2 nəfər, 2015-ci ildə bir nəfər, 2019 və 2020-ci illərdə 3 nəfər, 2021 və 2023-cü illərdə 5 nəfər, 2022-ci ildə 6 nəfər fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olmuşdur.

Araşdırmalar göstərir ki, toxuculuq sənayesində fəaliyyət göstərən FSS illər üzrə artmağa doğru meyil etmiş və aşağı səviyyədə olmuşdur. Belə ki:

- 2015-ci ildə qeyd edilən göstərici 2010-cu illə müqyisədə 17,4%;
- 2019-cu ildə 2015-ci illə müqayisədə - 34,8%;
- 2020-ci ildə 2019-cu ilə nisbətən- 18,1%;
- 2021-ci ildə 2020-ci illə müqayisədə - 14,9%;
- 2022-ci ildə 2021-ci illə müqayisədə - 15,8%;
- 2023-cü ildə 2022-ci ilə nisbətən - 4,5% çox olmuşdur.

Nəticədə bu sənaye sahəsində fəaliyyət göstərən FFS 2023-cü ildə 2010-cu illə müqayisədə 2,6 dəfə çox olmuşdur.

Araşdırmalar göstərir ki, geyim istehsalı sahəsində milli istehsalın həcmi, xüsusuilə keyfiyyətli geyimlər üzrə, daxili tələbatı ödəmək səviyyəsində deyil və ölkəmiz bu sahədə idxaldan asılı vəziyyətdədir. Geyim istehsalı ilə məşğul olan fərdi sahibkarların sayı bu asılılığı aradan qaldırmaq üçün yetərli deyil, baxmayaraq ki, təhlillə əhatə olunan illər ərzində onların sayı, 2020-ci ildə cüzi azalma istisna olmaqla, əvvəlki ilə nisbətən artmağa doğru meyil etmişdir. 2010-cu ildə geyim istehsalı ilə məşğul olan sahibkarların sayı 733 nəfər təşkil etmiş, 2015-ci ildə onların sayı 29,2% artaraq 947 nəfərə, 2019-cu ildə 52,3% artaraq 1442 nəfərə çatsa da, 2020-ci ildə 0,4% azalaraq 1436 nəfərə enmişdir. Sonrakı illərdə bu göstəricinin sayı yenidən artmağa doğru meyil etmiş, 2021-ci ildə 1666 nəfəfə (əvvəlki illə müayisədə 16,0% çox), 2022-ci ildə-1824 nəfərə

(2021-ci illə müayisədə 9,5% çox) və 2023-cü ildə-2080 nəfərə (əvvəlki illə müayisədə 14,0% çox) çatmışdır. Beləliklə, 2023-cü ildə geyim istehsalı ilə məşğul olan FSS 2010-cu illə müqayisədə 2,8 dədə çox olmuşdur.

Azərbaycanda dəri, dəridən məmulatların və ayaqqabıların istehsalı ilə məşğul olan fərdi sahibkarların sayı 2010-2020-ci illər ərzində azalmağa, sonrakı illərdə cüzi də olsa artmağa doğru meyil etmişdir: 2010-cu ildə bu sahədə məşğul olan FSS 184 nəfər təşkil etmiş, 2020-ci ildə azalaraq 172 nəfərə enmişdir (azalma 6,5%), 2021-ci ildə onların sayı əvvəlki illə müqayisədə 8,1% artaraq 186 nəfərə, 2022-ci ildə cəmi iki nəfər artaraq 188-ə, 2023-cü ildə üç nəfər artaraq 191 nəfərə çatmışdır. Nəticədə son 14 il ərzində qeyd edilən sənaye sahəsində məşğul olan FSS 3,8% artmışdır.

2010-2021-ci illərdə mebeldən başqa ağacın emalı və ağacdan məmulatların istehsalı ilə məşğul olan fərdi sahibkarların sayı artmağa, sonrakı illərdə-azalmağa doğru meyil etmiş və aşağıdakı kimi olmuşdur:

- 2015-ci ildə 2010-cu ilə nisbətən – 6,7% çox;
- 2019-cu ildə 2015-ci ilə nisbətən - 1,5 % çox;
- 2020-ci ildə 2019-cu illə müqayisədə - 7,0% çox;
- 2021-ci ildə 2020-ci ilə nisbətən - 5,9% çox;
- 2022-ci ildə 2021-ci ilə nisbətən – 4,1% az;
- 2023-cü ildə 2022-ci illə müqayisədə - 2,3% az.

Beləliklə, 2023-cü ildə mebeldən başqa ağacın emalı və ağacdan məmulatların istehsalı ilə məşğul olan FSS 2010-cu illə müqayisədə 15,1% çox olmuşdur.

Tədqiqatla əhatə olunan illər ərzində kağız və karton istehsalı ilə məşğul olan fərdi sahibkarların sayı, 2022-ci il istisna olmaqla, ilbəil az da olsa, artmağa doğru meyil etmişdir. Nəticədə, 2023-cü ildə bu sahədə məşğul olan FSS 2010-cu illə müqayisədə 3,9 dəfə çox olmuşdur.

Son illərdə poliqrafiya məhsullarının istehsalı sahəsində fəaliyyət göstərən FSS-də ilbəil artım baş vermiş və 2010-cu ildəki 294 nəfərdən 2023-cü ildəki 1244 nəfərə çatmışdır (artım - 4,2 dəfə).

2010-2023-cü illər ərzində Azərbaycan üçün ənənəvi sahə olan kimya sənayesində fəaliyyət göstərən fərdi sahibkarların sayında illər üzrə, fərqli meyillə artım baş vermişdir. Belə ki, 2015-ci ildə bu sənaye sahəsində fəaliyyət göstərən FSS 2010-cu illə müqayisədə 16,7%, 2019-cu ildə 2015-ci illə müqayisədə 49,5%, 2020-ci ildə əvvəlki illə müqayisədə 40,1% artdığı halda, 2021-ci ildə 2020-ci illə müqayisədə 12,3%, 2022-ci ildə 2021-ci illə müqayisədə 4,0% və 2023-cü ildə 2022-ci illə müqayisədə 8,6% artmışdır. Nəticə, 2023-cü ildə kimya sənayesində məşğul olan fərdi sahibkarların sayı 2010-cu illə müqayisədə 3,1 dəfə çox olmuşdur.

Qida məhsulları istehsalı sahəsindən sonra fərdi sahibkarların ən çox məşğul olduğu sahə rezin və plastik kütlə məmulatları istehsalı sahəsidir. Cədvəl 1-dən göründüyü kimi, bu sənaye sahəsində məşğul olan FSS ilbəil artmağa doğru meyil etmişdir və 2010-cu ildəki 1218 nəfərdən artaraq 2023-cü ildə 3414 nəfərə çatmışdır (artım-2,8 dəfə).

Tikinti materiallarının istehsalı sahəsi Azərbaycanda fərdi sahibkarların ən çox məşğul olduğu sahələrdən biridir. Təhlil göstərir ki, bu sahədə fəaliyyət göstərən FSS, 2022-ci ildəki cüzi azalma istisna olmaqla, ilbəil artmağa doğru meyil etmiş və aşağıdakı kimi olmuşdur:

- 2015-ci ildə 2010-cu ilə nisbətən – 2,1 dəfə çox;
- 2019-cu ildə 2015-ci ilə nisbətən – 17,8 % çox;
- 2020-ci ildə 2019-cu illə müqayisədə - 9,0% çox;
- 2021-ci ildə 2020-ci ilə nisbətən - 4,3% çox;
Tədqiqatın məqsədi - Azərbaycan Respublikasında son hədəfi əhalinin sosial rifahının, ümumi nəticə etibarilə isə dövlət idarəetməsi müstəvisində sosial inkişafın sürətləndirilməsi olan - sosial müdafiə sisteminin mövcud münasibətlər çərçivəsində təkmilləşdirilməsi istiqamətində konseptual olaraq sosial inkişafda sosial müdafiənin mahiyyəti və rolunun nəzərə alınması vəziyyətinin qiymətləndirilməsi, strateji qərar qəbulu zamanı faydalanılması məqsədilə sosial inkişafa təsiri baxımından sosial müdafiə islahatlarının baza təzahür aspektlərinin, eləcə də ən mühüm məsələ kimi, sosial inkişafın nəticələrinin qiymətləndirilməsi üçün təsiri imkanlarına görə sosial müdafiə mexanizmlərinin təsnifatlaşdırılmaqla prioritet istiqamətlərinin müəyyən edilməsidir.

Tədqiqatın metodologiyası – empirik-nəzəri dərketmə və araşdırma, analiz və sintez, induktiv və deduktiv yanaşma, müqayisə, nəzəri modelləşdirmə, abstraktlaşdırma metodlarından istifadə edilməklə, beynəlxalq və yerli səviyyədə mövcud olan əlaqədar nəzəri baza üzərində milli (lokal) nümunədə sahə üzrə praktikanın ümumiləşdirilməsinə əsaslanır.

Tədqiqatın tətbiqi əhəmiyyəti – məqalə Azərbaycanda sosial müdafiə proqramlarının işlənilməsi zamanı dövlətin başlıca sosial məqsədləri sırasında dayanan problem kimi, sosial inkişafın gücləndirilməsinə şərait yaradan prioritet sosial müdafiə istiqamətlərinin müəyyən edilməsi və onların sosial inkişafa təsirinin qiymətləndirilməsi üçün nəzəri bazanın təkmilləşdirilməsinə və perspektivə hesablanmış rasional qərarların verilməsi üçün konseptual baxışın formalaşdırılmasına istiqamətlənmişdir.

Tədqiqatın nəticələri - Azərbaycanda formalaşmış sosial müdafiə sisteminin infrastrukturunun nəzəri əsaslarına, əlaqədar normativ baza və idarəetmə təcrübəsinə əsaslanmaqla, sosial inkişafa nail olunması istiqamətində sosial müdafiə sisteminin prioritet istiqamətlərdə tənzimlənilməsi baxımından islahatların işlənilməsində strateji istiqamətləri ehtiva edir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – tədqiqat işi Azərbaycanın milli sosial müdafiə modeli bazasında sosial inkişafın sosial müdafiə ilə əlaqədə nəzəri əsaslarının tədqiqinə həsr olunmuş araşdırma olmaqla, sosial müdafiə mexanizmlərinin tətbiqinin sosial inkişafa təsirinin effektivliyinin qiymətləndirilməsi üçün idarəetmə yanaşmasında sistemləşdirilmiş baxış formalaşdırılmasına xidmət edir.

Açar sözlər: sosial inkişaf, sosial rifah, sosial müdafiə, sosial təminat, insan inkişafı, insan inkişafı indeksi, dayanıqlı inkişaf hədəfləri.

Giriş

Müasir şəraitdə ictimai stereotiplərdə baş verən dəyişmələr, sosial və iqtisadi inkişafın sosial münasibətlərə təsiri yeni sosial tələblər formalaşdırmaqdadır. Sərbəst surətdə baş verən sosial mahiyyətli həmin dəyişmələr və bu dəyişmələrə dövlət idarəetməsi səviyyəsində verilən reaksiyalar özlüyündə sosial inkişaf prosesinin də yerli nümunədə xüsusiyyətlərini əmələ gətirir. Ortaya çıxan yeni tələblərə uyğun formalaşan sosial münasibətlərin tənzimlənilməsi zərurəti baxımından hər bir dövlətin idarəetmə dairəsinin tərkib hissəsi kimi, davamlı olaraq sosial müdafiəyə münasibətdə də müasir və yeni (əlavə) idarəetmə yanaşmalarının müəyyən edilməsi zəruri mahiyyət kəsb edir.

Bu isə milli səviyyədə həyata keçirilən sosial müdafiə siyasətinin də əslində nəhayət hədəfi olan - sosial inkişaf fenomenası baxımından sosial müdafiənin təşkili ilə bağlı idarəetmə səviyyəsində növbəti dövr üçün aktual istiqamətlərin və sosial inkişafa təkan verəcək prioritet sosial müdafiə mexanizmlərinin də müəyyən edilməsini şərtləndirir.

İqtisadi münasibətlər çərçivəsində sosial inkişafı kəsilməz tarixi inkişaf prosesində insan (fərd) və ya cəmiyyət səviyyəsində formalaşan dəyişkən çoxaspektli sosial və maddi ehtiyacların ödənilməsi səviyyəsinin müəyyən qanununauyğunluqla və ya davamlı yüksəlməsi ilə xarakterizə olunan sosial vəziyyətin formalaşması prosesi kimi başa düşmək olar. Bu prosesin ilkin əlamətləri özünü – iqtisadi artım şəraitində həyat səviyyəsinin və keyfiyyətinin yüksəlməsi ilə göstərir.

Bu məqsədlərlə milli səviyyələrdə, o cümlədən qlobal sosial-iqtisadi məkanın tərkib hissəsi olaraq Azərbaycan Respublikası nümunəsində retrospektiv yanaşmadan çıxış edərək aparılmış sosial müdafiə islahatlarının effektivliyinin iqtisadi nöqteyi-nəzərdən qiymətləndirilməsinə imkan verəcək nəzəri-konseptual bazanın möhkəmləndirilməsi praktiki və elmi tədqiqat əhəmiyyəti kəsb etməkdədir.

Sosial inkişafa sosial müdafiə ilə əlaqədə beynəlxalq mövqedən nəzəri-konseptual baxış

Sosial inkişaf” anlayışı ayrıca fenomen olaraq sosial münasibətlərin təkamülündə daha çox yeni formalaşan elmi kateqoriya olaraq qəbul edilə bilər.

Sosial ehtiyacların maddi tələbatların ödənilməsini təmin edən iqtisadi aspektlərinin əsas faktor olmasının qəbul edilməsinin şərtsiz hesab edilməsinə baxmayaraq, qəbulediləndir ki, insanın həyat fəaliyyətini əhatə edən digər əhatəedici amillər kimi – mədəni, hüquqi, ictimai-siyasi və sosial-psixoloji ehtiyaclarının da ödənilməsi sosial inkişafın tərkib elementlərindəndir.

Sosial inkişaf kateqoriyasının tarixin müxtəlif dövrlərində “iqtisadi inkişaf”, “demokratik inkişaf” və s. kimi kateqoriyalarla yanaşı işlədildiyini və müəyyən mənada onların qarşılıqlı surətdə məna çərçivələrinin də aydın olmadığını, lakin XX əsrin sonlarında bu kateqoriyanın əhatə sferasına iqtisadi nəticələrlə bərabər, texnoloji, ekoloji, sosial-mənəvi əhəmiyyətli ehtiyacların və s. istiqamətlər üzrə komponentlərin də aid edilməsinin zəruri olduğu düşünülməklə, tədricən sözügedən problemə “insan inkişafı” kateqoriyasına keçid müstəvisində baxılmasına başlanıldığını söyləmək mümkündür. 1990-cı ildə Birləşmiş Millətlər Təşkilatında (BMT) hazırlanmış insan inkişafı haqqında ilk hesabatın da təşəbbüskarı olmuş pakistanlı iqtisadçı-alim Məhbub ul Haq tərəfindən yazılmış “İnsan inkişafı haqqında düşüncələr” kitabı insan inkişafı haqqında təsəvvürlərin əsasını qoymuşdur. (sonralar bu konsepsiyanın Nobel mükafatı laureatı Amartya Sen tərəfindən aparılan tədqiqatlarla nəzəri əsaslarının dərinləşdirilməsi baş vermişdir). Məhbub ul Haqın fikrincə, insan inkişafı paradiqması hər bir inkişaf problemini – iqtisadi artımı, sosial sərmayələri, insanların səlahiyyətlənməsini, baza ehtiyacların təminatını və sosial müdafiəni, siyasi və mədəni azadlıqları və insanların həyatının bütün başqa aspektlərini əhatə edir [1, s. 29-30].

Beynəlxalq səviyyədə sosial inkişafla bağlı iqtisadi tədqiqatların daha çox sosial rifah konsepsiyasını mənimsəmiş və müəyyən dərəcədə artıq tətbiq etmiş ölkələrdə, xüsusən Amerika Birləşmiş Ştatlarında (ABŞ) aparıldığını qeyd etmək lazımdır.

Həmin sıradan misal olaraq qeyd etmək olar ki, öz tədqiqatlarında sosial inkişafla əlaqədə sosial müdafiə problemlərinə daha çox toxunmuş ABŞ-ın Luizina Dövlət Universitetinin professoru Con Midqley tərəfindən “sosial inkişaf” anlayışının psixologiya, sosiologiya, sosial iş və inkişaf tədqiqatlarının özülüyündə hər birinin predmeti olmaqla, onların hər biri tərəfindən bu anlayışa müxtəlif şəkildə yanaşılmasının bu anlayışın özünün formalaşmasına rəvac verdiyi və bu anlayışın

mahiyyətinin təməlində sosial rifahla əlaqələrin dayandığı, mahiyyətcə anlayışın özünün dinamik dəyişmə-inkişaf prosesini ifadə etdiyi, sosial rifahın özünün də konkret olaraq ölçülməsinin mürəkkəb olması və bu məqsədlə elmi tədqiqatçılar təfərindən müxtəlif yanaşmalarda kəmiyyət metodlarına əl atıldığı, problemin özünün isə ayrılmaz şəkildə iqtisadi inkişafla əlaqəli olduğu hesab edilir [2, s. 12-26].

Hazırda "sosial inkişaf" kateqoriyası davamlı formasiya prosesinin təsiri altında yeni yanaşma xüsusiyyətləri kəsb etməkdədir.

Sosial inkişafa iqtisadi yanaşmanı şaxələndirmək mümkün olsa da, yaxud bu, zəruri hesab edilsə belə, müasir dövrdə bütün hallarda sosial inkişafı insan tələbat və ehtiyacları, onların ödənilməsi dərəcəsi ilə vəhdətdə qavramaq lazım gəlir ki, bu da sərbəst iqtisadiyyatın inkişafını, o cümlədən gəlir artımına imkan verən və dövlət tənzimlənilməsi mexanizmləri ilə müşayiət edilən rəqabətli iqtisadi mühitin formalaşması nəticələri ilə bağlıdır. Bütün hallarda sosial inkişaf prosesi ümumən maddi nemətlər və xidmətlərin istehlakının fiziki və dəyər genişlənməsi şəraitində baş verir və ya inkişaf nəticəsini gəlir və xərclərin həcminin balanslı artımında inikasında tapır ki, bu zaman gəlirlərin alıcılıq qabiliyyətliyinin saxlanılması ayrılıqda nəzərəçarpan sosial-iqtisadi problem olaraq sosial inkişafa təsirini göstərir.

İqtisadi artım prosesinin effekti olaraq təbii gəlir paylanması nəticədə regional, sosial, gender əsaslı gəlir bərabərsizliyini və resurslara əlçatanlığın da aşağı düşməsini özü ilə gətirir. Bu da fərdlərə və ya qruplara münasibətdə ümumən sosial rifah vəziyyətinin yaxşılaşmasına mənfi təsir göstərir ki, nəticədə cəmiyyətdə sosial təbəqələşmənin tarazlaşdırılması məqsədilə sosial müdafiə mexanizmləri vasitəsilə tənzimlənmənin həyata keçirilməsi davamlı aktual əhəmiyyətlilik qazanır.

1990-cı ildən etibarən hər il Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMT İP) tərəfindən nəşr edilən hesabatlarda tətbiq olunmağa başlanılmaqla uzun və sağlam ömür, təhsil səviyyəsi və layiqli yaşayış standartları (alıcılıq qabiliyyəti pariteti əsas götürülməklə) kimi komponentlər üzərində üçölçülü kəmiyyət qiymətləndirilməsi üzrə metodologiyaya əsaslanan - insan inkişafı indeksinin (ing. HDI) ölkələr üzrə göstəriciləri beynəlxalq səviyyədə regional sosial inkişaf səviyyəsi fərqləri barədə ümumi təsəvvür yaratmağa imkan verir [3, s. 3-7].

Bu hesabat eyni zamanda qlobal səviyyədə inkişafın ölçülməsi ilə bağlı müzakirələrin ilk dəfə açılmasına rəvac verən hadisə hesab edilir. Eyni zamanda həmin vaxt tərtib olunmuş hesablama metodologiyasına bəzi hallarda reallığı tam əks etdirməməsi baxımından (misal olaraq ÜDM-in real uyğunlaşdırılmış adambaşına göstəricisinə münasibətdə hesablama ilə əlaqədar və s.) yenidən baxılması ilə bağlı fikirlər də mövcuddur [4, s. 249-253].

Hazırda insan inkişafı indeksi əmsalı üzrə Azərbaycanın göstəricisi dünya ölkələri arasında 2000-ci ildə 0,635, 2010-cu ildə isə 0,733 təşkil etdiyi halda, ölkəmiz 2022-ci ildə 0,760 təşkil etməklə 190-dan çox ölkə arasında 89-cu sırada yer almışdır [5, s. 280] (Belə görünür ki, Azərbaycanın "yüksək insan inkişafı" indeksli ölkələr sırasına daxil olmasını şərtləndirən bu göstəricinin 0,800-dən yuxarı yüksəldilməsinə nail olunması onun ilk 70-liyə yaxın sırada dayanan "çox yüksək insan inkişafı" indeksli ölkələr sırasına yüksəlməsini təmin edə bilər).

Qeyd etmək lazımdır ki, insan inkişafı indeksi məhdud sayda komponent əsasında kəmiyyət metodu ilə qiymətləndirilmə olduğundan və özündə mənəvi-emosional rifah, sosial münasibətlər, siyasi azadlıqlar, siyasi stabillik, gəlir bərabərliyi (Gini əmsalı) və gəlirlərin regional paylanması, sağlamlıq vəziyyətinin regional fərqlənməsi, əmək şəraiti, iqtisadi stabillik, mədəni inkişaf, ekologiya və təbii sərvətlər və s. kimi amilləri nəzərə almamaqla, bütün hallarda insanın həyat keyfiyyətini bilavasitə və real əks etdirməyə bilər. Bununla belə, məqsədi - beynəlxalq müqayisələrin aparılması olmamaqla, bu metodologiyanın tətbiqi və hesabatlılığın davamlılığı ölkələrin milli strategiyalarının tənzimlənilməsi üçün vacib siqnallar əhəmiyyətində qəbul edilə bilməklə, beynəlxalq inteqrasiya şəraitində ölkə əhalisinin sosial inkişaf standartlarının yüksəldilməsinə töhfə verməsi baxımından BMT-nin özü tərəfindən əhəmiyyətli hesab olunmaqdadır. Bu zaman insan inkişafı indeksinin hesablanmasında gözlənilən ömür uzunluğu indeksinin səviyyəsini formalaşdıran elementlərdən biri kimi – səhiyyə sistemi ilə yanaşı, ikinci əhəmiyyətli faktor olaraq ölkədə

sosial müdafiənin vəziyyəti nəzərə alınmaqdadır [6, s. 63-69].

Sosial müdafiə bazasında sosial inkişafa milli səviyyədə konseptual yanaşma

Qəbul edilməlidir ki, milli səviyyələrdə sosial inkişafla bağlı müxtəlif istiqamətli problemləri onların təfərrüatlı motivlərinin milli (lokal) xüsusiyyətlər nəzərə alınmaqla yerli hökumətlər səviyyəsində müəyyən olunmaqla həllər bazasında təmin oluna bilər.

Azərbaycan Respublikasında da sosial-iqtisadi inkişaf mühüm doktrinasında dayanan - sosial dövlət quruculuğunun mövcudluq prerekvizitləri arasında iqtisadi gəlirlərin sosial ədalət prinsipləri çərçivəsində tarazlı bölgüsünə istiqamətləndirilməsi, iqtisadi strukturun sosialyönümlülüyü, sosial proqramların həyata keçirilməsinə üstünlük verilməsi, ümumi rifahın təmin edilməsinin, cəmiyyətdə sosial ədalətin bərqərar olması, hər bir vətəndaşın layiqli həyat şəraitinin, sosial müdafiəsinin, özünü reallaşdırması kimi məsələlərin dövlətin əsas məqsədi kimi məmimsənilməsi, bu məqsədləri həyata keçirmək üçün adekvat və təkmil sosial normativ bazanın formalaşdırılması kimi istiqamətlərin nəzərə alınması sosial inkişafın sosial müdafiə müstəvisində dövlət tənzimlənilməsinin əhəmiyyəti barədə mülahizələri möhkəmləndirməyə imkan verir. Azərbaycanda formalaşan sosial dövlət modeli dövlət idarəçiliyində əhalinin sosial əhəmiyyətli və milli maraqları rəhbər tutulmaqla özündə xüsusi mülkiyyətin və azad sahibkarlığın inkişafının əsas tutulduğu liberal, eləcə də cəmiyyətin sosial, iqtisadi, mədəni, siyasi həyatında zəruri dövlət tənzimlənməsi elementlərinin nəzərə alındığı demokratik sosial dövlət modelləri ilə bağlı xüsusiyyətlər kəsb etməklə, sosial dövlət modelinin milli prioritetlərinin formalaşmasına rəvac vermişdir [7, s. 193-196].

Sosial dövlət modelinə uyğun olaraq Azərbaycan Respublikası Konstitusiyasının 16-cı və 38-ci maddələrinə əsasən sosial inkişaf Azərbaycan dövlətinin əsas təməllərindən hesab edilməklə, onun əhatə dairəsinin müəyyən olaraq göstərilməsi sosial inkişafın strateji tərəflərini ortaya çıxarır ki, burada əsas tənzimləyici rıçaq rolunda sosial müdafiə mexanizmlərinin rolunu aydın görmək mümkündür.

Qeyd etmək lazımdır ki, sosial müdafiəyə əslində sosial inkişafın aparıcı həlqələrindən biri kimi yanaşılmasına, sosial müdafiə ilə sosial inkişafın birbaşa qarşılıqlı əlaqədə təhlili mövzusuna dair yerli səviyyədə aparılmış tədqiqatlara, demək olar ki, çox az rast gəlinə bilər (daha çox sosial sfera və sosial siyasətlə bağlı digər mövzularda sosial inkişaf məsələsinin əhəmiyyətinə toxunulma halları ilə rastlaşılır).

Bu məqsədlərlə mövzu ilə bağlı Azərbaycandilli ədəbiyyatlarda indiyədək aparılmış araşdırmaların vəziyyəti ilə bağlı apardığımız tədqiqatın əsas istiqamətlərinə toxunaq:

Prof. H.Rəcəbli tərəfindən sosial siyasətin məqsədlərindən biri kimi, cəmiyyətin sosial inkişafının təmin olunması üçün iqtisadiyyat bazis hesab edilməklə, sosial müdafiə siyasətinin həyata keçirilməsi imkanları iqtisadi imkanlarla əlaqələndirilir. Onun fikrincə, insanın dinamik xüsusiyyət kəsb edən gizli tələbatlarının aşkara çıxarılması və sosial siyasət proqnozlarının hədəfləri çərçivəsində nəzərə alınması cəmiyyətin iqtisadi inkişafını artırmaqla, sosial inkişafın sürətləndirilməsinə nail olmaq üçün mühüm bir vəzifə olaraq da çıxış edir [8, s. 28-42].

R.S.Abdullayevaya görə (həmmüəllif - A.N.Muradov olmaqla) sosial inkişafın əsaslarından biri kimi insan ehtiyaclarının qarşılanmasını təmin edən sosial infrastrukrurun formalaşması çıxış edir və insanın sosial ehtiyaclarının qarşılanması dərəcəsi onun maddi-mənəvi məmnunluğunu təmin edir ki, bu mənada həyat səviyyəsinin artması böyük ölçüdə sosial infrastruktur sisteminin inkişafından asılıdır [9, s. 13-14].

Araşdırma nəticələri əsasında belə bir nəticəyə gəlmək olur ki, sosial müdafiənin sosial inkişafla əlaqədə iqtisadi-nəzəri əsaslarına dair daha çox prof. Ə.Q.Əlirzayev tərəfindən toxunulmuşdur. Belə ki, onun tərəfindən sosial sferanın iqtisadi əsasları və idarə edilməsinə dair yazılmış kitabda (dərs vəsaiti) sosial inkişafın iqtisadiyyatda rolu və qarşılıqlı əlaqələrinə toxunulmaqla, sosial inkişaf iqtisadiyyatın nəticəsi, eyni zamanda ona təsir edən amil olaraq qiymətləndirilir, sosial inkişaf öyrənilmə və planlaşdırılma predmeti hesab edilməklə, ona dövlət tənzimlənilməsi obyekti kimi baxılır, sosial inkişafın əsas göstəricilərindən biri olaraq əhalinin tələbatlarının, maddi və mənəvi ehtiyaclarının ödənilməsində və istehlakında özünü ifadə edən, iqtisadi inkişaf və əsas səmərəlilik

göstəricisi kimi - əhalinin həyat səviyyəsi hesab edilir, həyat səviyyəsinin yüksəldilməsi isə özü dövlət tənzimlənilməsi problemi olaraq qəbul edilir ki, bu da ölkədə milli gəlirin yenidən bölgüsünə münasibətdə xarakterizə olunan sosial müdafiə mexanizmləri ilə əlaqələndirilir [10, s. 27-30].

R.S.Abdullayeva tərəfindən də (həmmüəllif - A.N.Muradov olmaqla) sosial inkişafa nail olunması üçün etibarlı sosial müdafiə sisteminin yaradılması əhəmiyyəti vurğulanır [9, s. 66].

Prof. F.Qurbanova görə də sosial inkişafın uzunmüddətli hədəflərinin müəyyənləşdirilməsi və həyata keçirilməsi dövlət idarəetmə orqanlarının fəaliyyəti çərçivəsində sosial müdafiə və sosial təminatın tənzimlənməsi yolu ilə dövlətin əsas sosial funksiyası kimi özünü göstərir [11, s. 338].


Fikrimizcə, iqtisadi nöqteyi-nəzərdən yanaşmada əsas məzmunu və mahiyyəti etibarilə ortaq əhatə dairəsinə malik olmasından irəli gələməklə bir çox hallarda sosial rifahla eyni məna kəsb edə bilən “sosial rifah” kateqoriyasından fərqli olaraq, “sosial inkişaf” kateqoriyasına yanaşmada ilk növbədə onun fərdə və cəmiyyətə münasibətdə diversifikasiyası xarakterikdir.

Fərdə münasibətdə sosial inkişafı eyni zamanda onun daxili və ətraf mühitə münasibətdə sosial əlaqələrinin, o cümlədən iqtisadi maraqlarının qurulmasında məmnunluq hissinin əldə olunması, eyni zamanda ətraf mühitə münasibətdə daha təkmil davranışlar, xüsusiyyətlər və bacarıqlar qazanması kimi də qavramaq lazımdır.

Bu diversifikasiya sosial inkişafa nail olunması üçün islahatların bütün bu aspektlərdən olan ehtiyacların kompleks təmin olunmasına xidmət şəraitində baş verə biləcəyini göstərməklə, həmçinin sosial müdafiə islahatlarının da istiqamətlər üzrə məqsəd və hədəflərini, təyinatının, mahiyyətinin və tərkibinin formalaşdırılmasını müəyyən edir. Məsələn, konkret halda pensiya islahatının həyata keçirilməsi nəticəsində məqsədin benefisiarlara ödənilən pensiya ödənişlərinin həcminin artması və ya pensiyaların orta məbləğinin yüksəlməsinə nail olmaq, yaxud minimum əmək pensiyası həddində və ya ona yaxın məbləğdə pensiya alan şəxslərin sayının azalmasına nail olmasına imkan verməsi və s. digər hallar istiqamətində hədəflər müəyyən edilə bilir, və ya digər bir nümunədə - ünvanlı dövlət sosial yardımı ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsində əsas hədəfin bu istiqamətdə ayrılan büdcə vəsaitlərinin konkret xüsusiyyətlərə malik əhali qruplarına şamil edilməsi, yaxud islahat nəticəsində yardımla əhatə olunacaq əhali kontingentinin sayının ekstensiv olaraq artımına nail olunması hədəflənə bilər. Bu qəbildən hallar praktiki olaraq bütün sosial müdafiə istiqamətləri üzrə müxtəlif variantlarda müşahidə olunur.

Sosial əsaslara söykənən spesifik sosial və (və ya) iqtisadi idarəetmə və elmi-tədqiqat sahəsi kimi sosial müdafiənin əslində eyni zamanda ümumi inkişaf hədəfi olan - sosial inkişaf ilə əlaqədə nəzərdən keçirilməsi innovativ xüsusiyyətlər kəsb edir.

Mövzu istiqamətində Azərbaycan Respublikası prizmasından formalaşmış infrastruktur münasibətlər də nəzərə alınmaqla, fikrimizcə, çoxaspektlilik xüsusiyyətindən irəli gələrək sosial inkişafın komponent istiqamətlərinin tipoloji mənzərəsini aşağıdakı sxematik təsvirlə vermək olar (şəkil 1.):



Şəkil 1. Müsair şəraitdə sosial inkişafın sosial müdafiə ilə əlaqədə mahiyyəti.
Müəllif tərəfindən hazırlanmışdır

Milli səviyyədə sosial müdafiə islahatlarının sosial inkişaf baxımından qiymətləndirilməsi ilk növbədə sosial müdafiə islahatlarının əhalinin sosial və maddi ehtiyaclarının ödənilməsindəki rolunun müəyyənləşdirilməsi ilə bağlı strateji yanaşmanı formalaşdırır. Bu məqsədlə uzunmüddətli rakursdan istiqamətlər üzrə islahatlılığın əsas nəticələrinin müəyyən edilməsi təhlili əhəmiyyət kəsb edir.

Bu baxımdan Azərbaycan Respublikasında sosial inkişafa əhəmiyyətli təsir göstərən islahatlılıq istiqamətlərinin səciyyələndirilməsi eyni zamanda növbəti perspektivə idarəetmə yanaşmalarının müəyyənləşdirilməsi üçün strateji baxış bazası formalaşdırır.

Milli sosial müdafiə modelləri timsalında sosial müdafiənin sosial inkişafa təsirinin ölçülməsi sosial müdafiə və sosial inkişaf arasındakı əlaqənin təzahür formalarının təhlili və qiymətləndirilməsi kontekstində aparıla bilər.

Lokal şəraitdə sosial müdafiə islahatlarının sosial inkişafa təsiri daha çox aşağıdakı baza aspektlərində təzahür edir:

- *inkişafa institusional təsir;*
- *müxtəlif sosial qrupların maddi rifahına təsir (gəlir tarazlaşdırılması, yoxsulluqla mübarizə və s.);*
- *müxtəlif sosial qrupların maddi-məişət şəraitinin yaxşılaşmasına təsir;*
- *müxtəlif sosial qrupların sosial-mənəvi ehtiyaclarının qarşılanmasına təsir;*
- *müxtəlif sosial qrupların sosial inteqrasiyasının təmin olunmasına təsir;*
- *müxtəlif sosial qrupların tibbi və sosial-reabilitasiyasının təmin olunmasına təsir.*

Qlobal sosial-iqtisadi məkanın tərkib hissəsi kimi, Azərbaycan Respublikasında formalaşmış sosial müdafiə modeli nümunəsində də sosial müdafiə fəaliyyətinin nəticələrinin qiymətləndirilməsi üçün yuxarıdakı istiqamətlərdə təzahür aspektləri üzrə elmi təhlillərin aparılması, hesab edirik ki, sosial müdafiənin təkmilləşdirilməsi ilə bağlı aktual strateji hədəflərin müəyyən olunması üçün baza əhəmiyyətlidir.

Azərbaycanda müasir sosial müdafiə sisteminin qurulması istiqamətində önə çıxan nəticələrdən başlıcası - dövlət sosial sığorta münasibətləri çərçivəsində məcburi sığortalanma prinsiplərinə əsaslanan sosial müavinətlər və əmək pensiyaları mexanizmlərini əhatə edən sığorta-pensiya sisteminin Azərbaycanda sığorta münasibətlərinin təşəkkülündən sonrakı kifayət qədər qısa müddətdə və təkmil əsaslarda formalaşdırıla bilinməsidir. Davamlı olaraq həyata keçirilmiş müvafiq dövlət proqramlarının tərkib hissəsi olaraq pensiya islahatları ölkədə həssas sosial qrupların müxtəlif iqtisadi resessiya dövrlərində maddi rifah halının saxlanılmasında və yaxşılaşdırılmasında özünü göstərmiş ən vacib sosial müdafiə mexanizmi kimi səciyyələndirilə bilər. Eyni zamanda digər sosial müdafiə istiqamətlərində də təkamülün baş verməsi ilə bağlı siyasi qərarlılığın olması, xüsusən sosial müdafiə xidmətlərinin təklifi müstəvisində elektronlaşma, maarifləndirmə, təbliğat metodlarının intensivləşdirilməsi kimi sosial müdafiə ilə əhatə olunma və əlçatanlığı daha da gücləndirməyə imkan verən innovativ yanaşmaların daha sürətlə tətbiqi təşəbbüslərinin aydın görünməsi effektiv icra mühitində növbəti pespektiv üçün potensial təkmilləşmələr vəd edir. Bununla belə, sosial müdafiənin mahiyyəti və məqsədləri nöqteyi-nəzərdən sığorta-pensiya sistemi ilə yanaşı, hazırkı şəraitdə digər istiqamətli sosial müdafiə mexanizmlərinin, ilk növbədə isə büdcə-maliyyə imkanlarının genişləndirilməsi məsələlərinin prioritet olaraq nəzərə alınması idarəetmənin təkmilləşməsi və nəticəliliyin artırılması üçün baza əhəmiyyətli hesab edilir.

Qlobal səviyyədə xüsusən son yaxın onilliklərdə ətraf mühitin deqradasiyası, sosial gərginlik, əhalinin sayının artması, adambaşına istehlakın artması kimi amillərin də təsirilə çoxalan sosial-iqtisadi təzyiq 2015-ci ilin sentyabrında 193 ölkə tərəfindən BMT-nin 2030-cu il üçün Dayanıqlı İnkişaf Məqsədlərini (ing. SDGs) müəyyən edən “Qlobal Məqsədlər” adlanan tarixi qlobal siyasi razılaşmanın qəbul edilməsi ilə nəticələnmişdir [12]. BMT-yə üzv ölkələr, o cümlədən Azərbaycan Respublikası hökuməti tərəfindən dövlət səviyyəsində növbəti dövr üçün strateji inkişaf istiqamətləri və hədəfləri qismində qəbul edilən, eləcə də milli səviyyələrdə iqtisadi fəallığın və biznesin də inkişafı üçün təsirli hesab edilən və 17 qlobal hədəfi əhatə edən bu qlobal razılaşma da özlüyündə

eyni zamanda sosial inkişafın əsas infrastruktur istiqamətlərini müəyyən etməklə, sosial müdafiə sistemləri qarşısında da konkret vəzifələr və hədəflər formalaşdırmışdır. İmzalandığı dövrdən bəri sözügedən ölkələr tərəfindən milli səviyyədə öz planlarının hazırlanılmasına başlanılmış, 2016-cı ilin iyul ayında ilk 22 ölkə könüllü olaraq öz planlarını təqdim edikdən sonra, 2017-ci ilin iyul ayında bu təşəbbüsə qoşulan daha 44 ölkə arasında Azərbaycan da yer almışdır. Qeyd olunmalıdır ki, BMT-də tərəqqi haqqında hesabat və milli planların nəzərdən keçirilməsi 5 illik tsiklliklə nəzərdə tutulmaqdadır [13].

Sözügedən 17 qlobal inkişaf hədəflərinin - yoxsulluğa son, aclığa son, yaxşı səhiyyə və rifah, keyfiyyətli təhsil, gender bərabərliyi, təmiz su və sanitariya, sərfəli və təmiz enerji, layiqli əmək və iqtisadi artım, sənaye, innovasiya və infrastruktur, bərabərsizliyin azaldılması, dayanıqlı şəhərlər və icmalar, məsuliyyətli istehsal və istehlak, iqlim dəyişikliyinə qarşı mübarizə, dəniz ekosisteminin mühafizəsi, torpaq ekosisteminin mühafizəsi, sülh, ədalət və səmərəli institutlar, məqsədlər üçün tərəfdaşlıq kimi istiqamətləri əhatə etməsini nəzərə alaraq da məzmun etibarilə, hesab etmək lazımdır ki, qlobal inkişaf hədəfləri də nəticədə sosial inkişafa xidmət etməkdədir [14].

Beləliklə, müasir şəraitdə sosial inkişafın əsas parametr istiqamətləri əslində müəyyənləşdirilmiş hesab edilə bilər, lakin həmin istiqamətlərin inkişaf hədəfləri olaraq milli səviyyələrdə nəzərə alınması idarəetmə sahələri üzrə adekvat islahatların aparılması və yerli mühitdə hadisələrin və xüsusiyyətlərin öyrənilməsilə prioritet qərarların verilməsi kimi mühüm bir problemi də doğurur ki, bu məqsədlə sahəvi sosial müdafiə sahəsinin üzərinə də böyük yük düşməkdədir. Sosial müdafiədə getdikcə dərinləşən bu problemin növbəti həlli isə sosial müdafiənin təşkili və tətbiqi təcrübəsinin nəticələrinin elmi-nəzəri qiymətləndirilmə bazasında aparılması hesabına mümkün ola bilər.

Bu mənada Azərbaycanda sosial müdafiənin sosial inkişafa təsirinin əsas istiqamətlərini mexanizmlər üzrə eyni zamanda təsir imkanlarına görə sıralanmada aşağıdakı şəkildə təsnifatlaşdıra bilərik (bu kontekstdə sosial təminat xarakterli tədbirlərin də sosial müdafiə kateqoriyası altında nəzərə alınması məqsədəmüvafiq hesab edilir):

1. bilavasitə **sığorta xarakterli** sosial müdafiə mexanizmləri – *dövlət sosial sığortası (sığorta-pensiya) sistemi, icbari tibbi sığorta, işsizlikdən sığorta;*

2. bilavasitə **maddi dəstək xarakterli** sosial müdafiə mexanizmləri - *ünvanlı dövlət sosial yardımı, sosial müavinətlər, prezident təqaüdləri, kompensasiyalar;*

3. **sosial dəstək xarakterli** sosial müdafiə mexanizmləri – *məşğulluq proqramları (o cümlədən haqqı ödənilən ictimai işlər, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların kateqoriyasına istiqamətlənmiş - kvota üzrə iş yerləri, sosial iş yerləri, özünüməşğulluq və s.) üzrə yönləndirilmə və məsləhət, peşə hazırlığı və ixtisasa yiyələnmə, əlilliyi olan şəxslərin reabilitasiyası, əməyin mühafizəsi, sosial xidmət, sosial-psixoloji dəstək.*

4. **maddi xarakterli sosial təminat** mexanizmləri – *sosial həssas əhali qruplarının mənzillə, avtomobillə təminatı.*

Nəticə

Beləliklə, müzakirə nəticələrinə əsasən Azərbaycanda sosial müdafiənin təkmilləşdirilməsi prizmasından sosial inkişafa töhfə verilməsi baxımından perspektivə istiqamətlənmiş aşağıdakı islahat mahiyyətli məsələləri məqsədəmüvafiq hesab edirik: Müasir şəraitdə çoxaspektli problem olmaqla sosial inkişafa nail olunması üçün yalnız əhali ehtiyacları, istəkləri və baxışları, eyni zamanda qloballaşma şəraitində yeni formalaşan stereotiplərə istiqamətlənmə rəhbər tutulmaqla daim təkmilləşdirilən adekvat sosial müdafiə formalaşdırılması məsələlərinin prioritet idarəetmə elementi olaraq daha çox diqqətdə saxlanılması əhalinin (benefisiar) tam ehtiyaclarının müəyyən zaman və məkan mühitində qarşılanmasına imkan verə bilər. Sosial inkişaf prosesinin özünün formasiyası onun qiymətləndirilməsi ilə bağlı yanaşmalara da yenidən baxılmasını zərurətə çevirir ki, bu da sosial müdafiə mexanizmlərinin də dəyişən şəraitə və şərtlərə uyğunlaşdırılmasını tələb edir. Sosial inkişafa təsiri miqyası baxımından ilk növbədə bilavasitə iqtisadi əsası

olan - sığorta xarakterli sosial müdafiə mexanizmlərinin inkişafına nail olunması sosial müdafiənin optimal tənzimlənilməsi və təkmilləşdirilməsi baxımından labüd əhəmiyyətlidir. Sosial inkişaf prosesi sosial müdafiə sistemindən kənar sferalarda cərəyan edən münasibətlərdən xeyli dərəcədə asılı olduğundan sosial inkişafın reallaşdırılması üçün özlüyündə effektiv sosial müdafiə islahatlarının həyat keçirilməsi şərtləndirilməklə yanaşı, digər sfrealarda (əhəmiyyətlilik ardıcıllığı ilə) - iqtisadi, hüquqi, inzibati-idarəetmə, sosial, mədəni, mənəvi münasibətlərin paralel və uyğun inkişafı tələb olunur ki, mövcud reallıqda bu məqsədlə effektiv mexanizmlərdən biri kimi - dövlət proqramlarının rasional tərtibi və səmərəli icrası məsələləri çıxış etməkdədir. Sosial müdafiə mexanizmləri vasitəsilə həyat səviyyəsinə tənzimləyici təsir göstərilməsi təxirəsalınmaz olmasına baxmayaraq, iqtisadi artımın sürətləndirilməsinin sosial inkişafın yenə də əsas təkanvericisi rolunda çıxış etməsi qanunauyğunluğu dövlət idarəetməsi səviyyəsində nəzərdə saxlanılmalıdır.

ƏDƏBİYYAT

1. İNSAN İNKİŞAFI. Tədris vəsaiti: [Elektron resurs] / Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı. – Bakı, 2014. (Müraciət tarixi: 01.10.2024) URL: https://www.undp.org/sites/g/files/zskgke326/files/migration/az/1.pdf
2. Midgley, J. Social development. The Developmental Persepective in Social Welfare.- SAGE Publications Ltd. 1th Edition, -1995. - 208 p.;
3. Human Development Index: Methodology and Measurement: [Electronic recourse] / edited by S.Anand, S.Amartya; Human Development Report Office Occasional Papers – 1994. URL: https://hdr.undp.org/system/files/documents/oc12.pdf (Müraciət tarixi: 05.10.2024)
4. Sagar, A.D, Najam, A. The human development index: a critical review // 9th Annual Conference of the Academic Council of the United Nations System (ACUNS) held in Turin, Italy in June 1996., Ecological Economics, Volume 25, Issue 3, - June, -1998, - p. 249-264. URL: https://www.sciencedirect.com/science/article/pii/S0921800997001687 **(Elsevier)**
5. Human Development Report 2023/2024: [Electronic recourse] / UNDP. – New York, USA, 2024. URL: https://hdr.undp.org/system/files/documents/global-report-document/hdr2023-24reporten.pdf (Müraciət tarixi: 06.10.2024)
6. [Electronic recourse] / https://www.undp.org/sites/g/files/zskgke326/files/migration/az/2.pdf (Müraciət tarixi: 07.10.2024)
7. Məmmədova, S.D. Sosial dövlət modelləri (inkişaf etmiş ölkələrin nümunəsində). / S.D.Məmmədova – Bakı: “AVROPA”, - 2019. - 208 s.
8. Rəcəbli, H. Azərbaycan Respublikasının sosial müdafiə sistemi. Ali məktəblər üçün dərs vəsaiti. /H.Rəcəbli. – Bakı: “MBM”, -2012. -408 s.
9. Abdullayeva, R.S. Sosial sferanin iqtisadiyyatı (dərs vəsaiti). / R.S. Abdullayeva, A.N.Muradov - Bakı – 2009., - 230 s.
10. Əlirzayev, Ə.Q. Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi (dərs vəsaiti). / Ə.Q. Əlirzayev - Bakı: İqtisad Universiteti Nəşriyyatı, - 2010. – 326 s.
11. Rəhmanov, F.P. Sosial sfera və sosial siyasət. Dərs vəsaiti. / F.P. Rəhmanov – Bakı, - 2021, 438 s.
12. [Electronic recourse] / United Nations. The UN Sustainable Development Goals.
13. URL: http://www.un.org/sustainabledevelopment/summit/. (Müraciət tarixi: 20.10.2024)
14. Pedersen, C.S. The UN Sustainable Development Goals (SDGs) are a Great Gift to Business! // Procedia CIRP, - 2018, 69, -p. 21-24 URL: https://doi.org/10.1016/j.procir.2018.01.003 **(Elsevier)**
15. [Elektron resurs] / Birləşmiş Millətlər Təşkilatı Azərbaycan URL: https://azerbaijan.un.org/az/sdgs (Müraciət tarixi: 21.10.2024):

Эмин Али оглы Алирзаев
доктор философии по экономике
Азербайджанский Государственный
Экономический Университет (UNEC),
Государственный Фонд Социальной Защиты при
Министерстве Труда и Социальной Защиты
Азербайджанской Республики, заместитель
директора Департамента финансов
г. Баку, ул. Г. Зардаби 80, AZ1122
alirzayev@gmail.com
ORCID No: https://orcid.org/0000-0001-8622-6905

Взгляд на теоретико-концептуальные вопросы социального развития в аспекте социальной защиты под призмой Азербайджанской Республики

Резюме

Цель исследования - Целью исследования является концептуальная оценка состояния рассмотрения сущности и роли социальной защиты в социальном развитии в направлении совершенствования системы социальной защиты в рамках существующих отношений, конечной целью на уровне государственного управления которой является ускорение социального благосостояния населения и, как общий результат, социального развития в Азербайджанской Республике. Кроме того, целью исследования является выявление основных аспектов проявления реформ социальной защиты с точки зрения их влияния на социальное развитие для целей принятия стратегических решений, а также, как и важнейшим вопросом, определение приоритетных направлений механизмов социальной защиты путем их классификации по эффективности для оценки результатов социального развития.

Методика исследования основана на обобщении полевой практики на национальной (локальной) выборке на соответствующей теоретической базе, имеющейся на международном и местном уровне, с использованием методов эмпирико-теоретического осмысления и исследования, анализа и синтеза, индуктивного и дедуктивный подход, сравнение, теоретическое моделирование, абстракция.

Прикладное значение исследования - статья направлена на совершенствование теоретической основы для определения приоритетных направлений социальной защиты, создающих условия для усиления социального развития, как проблема, стоящая среди основных социальных целей государства, и оценки их влияния на социальное развитие в ходе разработки программ социальной защиты и на формирование концептуального видения для принятия рациональных решений, рассчитанных в перспективе в Азербайджане.

Результаты исследования - на основе предложенных теоретических основ системы инфраструктуры социальной защиты, сформированной в Азербайджане, соответствующей нормативной базы и опыта управления, результаты исследования содержат стратегические направления развития реформ в части регулирования системы социальной защиты по приоритетным направлениям в целях достижения социального развития.

Оригинальность и научная новизна исследования - исследование посвящено изучению теоретических основ социального развития применительно к социальной защите на основе национальной модели социальной защиты Азербайджана, и служит формированию системного взгляда в управленческом подходе к оценке эффективности применения механизмов социальной защиты на социальное развитие.

Ключевые слова: социальное развитие, социальное благосостояние, социальная защита, социальное обеспечение, человеческое развитие, индекс человеческого развития, цели устойчивого развития

Alirzayev Emin Ali oglu
PhD. in Economics
Azerbaijan State University of Economics (UNEC),
State Social Protection Fund under the Ministry of Labor and Social Protection of the Republic of Azerbaijan, deputy director of the Finance Department
Baku city, H. Zardabi 80, AZ1122
alirzayev@gmail.com
ORCID No: https://orcid.org/0000-0001-8622-6905

A view at theoretical-conceptual issues of social development in the aspect of social protection under the prism of the Republic of Azerbaijan

Summary

The purpose of the study - The purpose of the study is a conceptual assessment of the state of consideration of the essence and role of social protection in social development in the direction of improving the social protection system within the framework of existing relations, the ultimate goal at the level of public administration of which is to accelerate the social welfare of the population and, as a general result, social development in the Republic of Azerbaijan.

In addition, the purpose of the study is to identify the main aspects of the manifestation of social protection reforms in terms of their impact on social development for the purpose of making strategic decisions, as well as, as the most important issue, determining the priority areas of social protection mechanisms by classifying them by effectiveness to assess the results of social development.

The research methodology is based on the generalization of field practice on a national (local) sample on the relevant theoretical basis available at the international and local levels, using the methods of empirical and theoretical understanding and research, analysis and synthesis, inductive and deductive approach, comparison, theoretical modeling, abstraction. Applied significance of the study - the article is aimed at improving the theoretical basis for determining the priority areas of social protection that create conditions for strengthening social development, as a problem among the main social goals of the state, and assessing their impact on social development in the course of developing social protection programs and forming a conceptual vision for making rational decisions calculated in the long term in Azerbaijan.

Research results - based on the proposed theoretical foundations of the infrastructure of the social protection system formed in Azerbaijan, the relevant regulatory framework and management experience, the results of the research contain strategic directions for the development of reforms in terms of regulating the social protection system in priority areas in order to achieve social development.

Originality and scientific novelty of the study - the study is devoted to the study of the theoretical foundations of social development in relation to social protection based on the national model of social protection of Azerbaijan, and serves to form a systemic view in the management approach to assessing the effectiveness of the application of social protection mechanisms on social development.

Key words: social development, social welfare, social protection, social security, human development, human development index, sustainable development goals

UOT 159.9

Elmar Afis oğlu HÜSEYNOV
Azərbaycan Kooperasiya Universiteti
"Sosial elmlər və təhsil" kafedrasının professoru
elmar-boks@rambler.ru
https://doi.org/10.30546/4.71.73001.2025.001.0219

SOSİAL PSİXOLOGİYADA PSİXOTERAPİYANIN MÜXTƏLİF İSTİQAMƏT VƏ TEXNİKALARININ MÖVCUDLUĞU

Xülasə

Tədqiqatın məqsədi – Digər ölkələrdə olduğu kimi Azərbaycanda da son illər sosial psixologiyada psixoterapiya və psixokorreksiyanın yeni texniki istiqamətlərinin mənimsənilməsi, təcrübədə istifadə olunması və sürətli inkişafını müşahidə edə bilərik. Mütəxəssislər və potensial müştərilər üçün böyük maraq kəsb edən oyun və art-psixoterapiya, ailə psixoterapiyası və s. fərdin və qrupun inkişaf potensialının üzə çıxarılması, onun gizli enerji ehtiyatlarının sərbəst buraxılması və nəticədə onun davranış və ünsiyyət problemlərini həll etməyin ən yaxşı yollarının tapılması ilə əlaqəli metodlardır.

Tədqiqatın metodologiyası – tədqiqat işində müxtəlif yanaşmalardan, məntiqi olaraq ümumiləşdirmədən, müqayisəli analizlərdən və digər üsullardan istifadə edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti – İnsan fəaliyyətinin elə bir sahəsi yoxdur ki, psixologiya elmi ora nüfuz etməsin. Psixologiyadan düzgün və yerində istifadə edildikdə yüksək nəticələrə nail olmaq olur. Müsair dünya standartına görə praktiki psixologiyada psixoterapiya istiqamətlərinin və texnikalarının öyrənilməsi aktual araşdırma mövzusu sayılır.

Tədqiqatın nəticəsi – Bu sahənin mütəxəssislərinin psixoterapiyanın sosial-psixoloji qanunauyğunluqlarını öyrənməsi, praktik psixoloqların psixoloji-metodoloji problemləri, hər şeydən əvvəl psixoterapiyanın nəzəri-psixoloji problemləri, sistemləşdirici funksiyaları və s. məlumatlara dərindən yiyələnməsi və praktik fəaliyyətlərində bu bilikləri dəyərləndirməsidir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – Gənc psixoloqların qeyd etdiyi kimi: "Psixoterapiya üçün ilk dəfə müştəri müraciət etdikdə təkcə bizə öyrədilənləri xatırladım. Həmin anlayışları yaddaşımda axtarmalı oldum və məlum oldu ki, hər şeyi bilirəm". Biz də inanırıq ki, apardığımız araşdırma işi praktiki məlumatları yaddaşlarda daha möhkəm bərpa etməyə kömək edə bilər.

Açar sözlər: sosial, psixologiya, təcrübə, psixoterapiya, istiqamət, texnika, inkişaf, korreksiya, problem, araşdırma, metod, fərdi, şəxsi, qrup.

Giriş

Sosial psixoloq müxtəlif üsullardan istifadə edərək eyni müştəri sorğuları üzərində işləyə bilər. Bu üsullar onun işlədiyi psixoterapiya istiqamətindən asılıdır. Effektivliyini sübut edən psixoterapiyanın əsas sahələrinə daha yaxından nəzər salaq. Bu mövzuda aparılan elmi iş həm bu problemin nəzəri aspektlərini, həm də praktiki cəhətlərini təhlil etməyə imkan yaradacaq. İnsanların həyatının digər sahələrində olduğu kimi, psixologiyada da elm və təcrübə arasındakı əlaqə heç vaxt bir istiqamətli olmamışdır. Elm həmişə yeni biliklər verir, sonda da bütün bu yeni istiqamətlər psixoloji təcrübədə istifadə edilir. Geştalt psixoterapiya, koqnitiv psixoterapiya və s. öyrənilməsi praktiki psixoloqların peşə fəaliyyətini zənginləşdirmək deməkdir.

İlkin olaraq öz işimizdə art-psixoterapiya istiqamətini və onun bəzi texnikalarını araşdırıb təhlil etdik. Art-psixoterapiya fənlərarası inkişaf edən bir fenomendir. İncəsənət, təsviri sənət və elmin kəsişməsində yaranaraq, tibb, pedaqogika, mədəniyyətşünaslıq, sosiologiya və digər elmlərin nailiyyətlərini özündə cəmləşdirə bilmişdi. Onun praktiki texnikaları universaldır və həllindən tutmuş müxtəlif vəzifələrə uyğunlaşdırılmışdır: sosial-psixoloji uyğunsuzluq və insan potensialının inkişafı, psixi və mənəvi sağlamlıq səviyyəsinin yüksəldilməsi ilə başa çatan problemlər; onlar

həmçinin müştərinin psixi vəziyyətini ifadə etmək üçün vizual fəaliyyətin müxtəlif formalarından istifadəsini nəzərdə tutur. Hazırda art-psixoterapiya daha çox sağlam yaradıcı şəxsiyyətin formalaşmasına, onun sosiallaşmasına və bir sıra sosial funksiyaların praktikada həyata keçirilməsinə töhfə verən mütərəqqi psixoloji yardım vasitəsi kimi qəbul edilir. Art-psixoterapiya prosesi müştəri ilə art-psixoterapist arasındakı münasibətin müştərinin yaradıcı ifadə prosesini (rəsm, hekayə, musiqi parçası, rəqs və s.) əks etdirir. Yaradıcı potensiallar hər bir insana şüuraltının müxtəlif dərinliklərində xasdır və onları yalnız şəxsi fərdiliyə arxalanmaqla şüura “çəkmək” mümkündür [2]. Yaradıcılıq anlayışı incəsənətdə yaradıcılığın bütün formalarını və mövcud, standart olanların fonunda yeniliyi əhatə edir. Yaradıcılıq prosesi üç mərhələdən ibarətdir: 1) yeni, əvvəllər mövcud olmayan maddə formalarının yaradılması; 2) mövcud olanların dəyişdirilməsi, yenilənməsi və təkmilləşdirilməsi; 3) “köhnə dünya”nın dağıdılması və onun yerində yenisinin qurulması. Yaradıcı insan, hər kəs üçün mövcud olan hisslər və məlumatlar tərəfindən adi qəbul edilən məlumatı yeni üsulla emal edə bilən şəxsdir [1;3;6].

Art-psixoterapiya

Yaradıcı insan intuitiv olaraq adi məlumatları orijinal köhnədən əhəmiyyətli dərəcədə üstün olan yeni bir yaradılışa çevirmək imkanlarını görür. Psixoloqların fikrincə, yaradıcılığın sərbəst buraxılması yalnız art-psixoterapiyanın köməyi ilə mümkündür. Art-psixoterapevtlər şəkillərdə simvollar axtarmağa çalışaraq müştərilərə “Mən”liklərini yenidən kəşf etməyə, daxili “Mən” obrazlarını xarici reallıqlarına inteqrasiya etməyə kömək etməklə yanaşı, onların özlərini təkrarən daha yaxşı tanımasına köməklik edirlər. Beləliklə, art-psixoterapiya özünüifadə və anlama proseslərinin gücləndirilməsi ilə ayrılmaz şəkildə bağlıdır. İnkişafının ilkin mərhələlərində art-psixoterapiya psixoanalizdən təsirlənmişdi, onun nəzəriyyəsinə görə, xəstənin yaradıcılığının son məhsulu, istər qələmlə çəkilmiş, nə rənglənmiş, nə qəliblənmiş, istərsə də qurulmuş bir şey olsun, insan psixikasında baş verən şüursuz proseslərin əksi kimi qəbul edilir. Məsələn, Karl Yunq üçün yaradıcılıq terapiyası şüursuzluğu araşdırmağın bir yolu idi. Yunqun fikirləri şəxsi və universal simvollar və xəstələrin aktiv təxəyyülü art-terapistlərə böyük təsir göstərmişdir.

İncəsənəti ilk dəfə art-psixoterapevtik bir texnika kimi tətbiq edən və psixoanalitik dinamik yönümlü yanaşmadan istifadə edənlərdən biri Amerikalı psixoloq, pedaqoq, rəssam, yazıçı Marqaret Naumburq olmuşdu. Burada əsas art-psixoterapevtik istiqamət psixodiaqnostikada yardımçı texnika kimi şərh edilmişdi. M.Naumburq köməkçi texnika kimi kortəbii rəsmdən istifadə etməyi təklif etmişdi. Bu yanaşmada ortaya çıxan metod, sənət sayəsində, psixoloqların müştərilərin konflikt vəziyyətlərini şərh etməyi üçün yeni bir texnikaya təməl qoymuşdu. Naumburq öz işində Ziqmund Freydin şüuraltında yaranan ilkin düşüncə və təcrübələrin ən çox obrazlar və simvollar şəklində ifadə olunduğu fikirlərə arxalanırdı. Təsviri sənət yaradıcılığın təsvirləri-bütün növ şüuraltı prosesləri, o cümlədən qorxuları, münaqişələri, uşaqlıq xatirələrini, xəyalları, yəni psixoterapevtlərin psixoanaliz zamanı tədqiq etdikləri hadisələri əks etdirir [1;4;6].

Amerikalı art-psixoterapevt Şon MakNiff “şəfaverici yaradıcılığı” təsvirin yaradılması və sonrakı refleksiyanın bir sıra mərhələlərini (zehnin, ruhun, təfəkkürün, şüurun, şəxsin çevrilməsi ilə bağlı hadisələr və anlayışlar) özündə birləşdirən proses hesab edir. Ş.MakNiff öz elmi işlərində art-psixoterapiyada müxtəlif iş üsullarını, o cümlədən, qrup üzvlərinin obrazları və emosional reaksiyaları ilə işləməyi, dialoq şəklində obrazlarla söhbətləri, onların bədii təsvirini, vizuallaşdırılmasını və icrasını təsvir edir. Britaniyalı art-psixoterapevt və rəssam Andrian Kit Qrem Xill öz əsərlərində qeyd edir ki, yaradıcı fəaliyyət müştərinin fikrini ağrılı həyəcanlarından yayındırmaq qabiliyyətinə malikdir və onun diqqətini bərpa prosesinə yönəltməyə köməklik göstərir. Psixologiyanın humanist istiqamətində art-psixoterapiyanın müstəqil psixoterapevtik texnikaya çevrilməsinə imkan yaradılmışdı, burada yaradıcılıq prosesinə xüsusi diqqət yetirildi və 1960-cı illərdə Avropa və Amerikada art-psixoterapiya artıq ayrıca bir peşə sayılırdı. Bu, art- psixoterapevtlərə yeni peşəkar fərdliliyin yaranmasına şərait yaratmışdı və onlar tezliklə elmin müxtəlif sahələrində fəaliyyətə başlamışdılar. Müasir art-psixoterapevtləri poliklinikalarda, sosial yardım mərkəzlərində, məktəblərdə, xəstəxanalarda, insanlarda, qocalar evlərində, narkoloji reabilitasiya

mərkəzlərində, psixoloji mərkəzlərdə çalışırlar, fərdi və qrup psixokorreksiya, xüsusi təhsil proqramlarında iştirak edirlər, əlilliyi olan uşaqlarla çalışırlar. Çünki art-psixoterapiya yaradıcılıq prosesinə (məhsuldan fərqli olaraq) xüsusi diqqət yetirir, art-psixoterapiyada iştirak etmək üçün heç bir xüsusi bacarıq və yaxud istedad tələb olunmur. Art-psixoterapiya prosesi insana şüursuzluğunu görməyə (yaradıcılıq məhsulunun yaradılmasına) imkan verir və yaradıcılıq məhsulunun şifahi şəkildə ifadə edilməsi yolu ilə insana keçmiş təcrübəsini yeni səviyyədə həyata keçirməyə və təhlil etməyə kömək edir. Art-psixoterapiyada daha şox istifadə olunan texnikalardan biri də rəqs psixoterapiyasıdır [4;6;7] Rəqs şəxsiyyətin emosional və fiziki vəziyyətinin inteqrasiyasını təşviq edən bir proses kimi rəqs və hərəkətin psixoterapevtik istifadəsidir. Rəqs psixoterapiyası emosional, ünsiyyət pozğunluğu və şəxsiyyətlərarası qarşılıqlı əlaqə prosesində pozğunluğu olan insanlarla işləyərkən istifadə olunur [5]. Rəqs psixoterapiyasının məqsədi öz bədənini dərk etmək, onun haqqında müsbət təsəvvür yaratmaq, ünsiyyət bacarıqlarını inkişaf etdirmək, hissləri araşdırmaq və qrup təcrübəsi qazanmaqdır. Rəqs psixoterapiyası hərəkətin sərbəstliyini və ifadəliliyini qazanmağa və hərəkətliliyi inkişaf etdirməyə kömək edir. Növbəti texnika qum psixoterapiyasıdır. Burada uşağa sərbəstlik, açılmaq, böhran vəziyyətlərinin öhdəsindən gəlmək, təxəyyül və əllərin kiçik motor bacarıqlarını inkişaf etdirmək imkanı yaradır. Qumla oynamaq eyni zamanda həm yaradıcılıq, intellekt, həm də fiziki inkişafa təkan verir. Qum qutusu oyun otağında fəaliyyət mərkəzlərindən biridir. Kiçik yaşlı uşaqlar üçün əlçatan olması üçün onu masaya deyil, yerə qoymaq lazımdır. Qum qutusunun ətrafında həm uşaqlar üçün oturacaqlar, həm də oyuncaqlar üçün rəflər quraşdırmaq lazımdır. Qum qutusunda bel, vedrə, süzgəc və huni olmalıdır.

Psixoterapevtik müdaxilə müştərinin qum qutusunda yaratdığı dünyanın müəyyən aspektlərinin öyrənilməsi ilə başlayır. Obyektlər haqqında suallar verməklə, psixoloq bütün dünyaya diqqət yetirərək müştərinin dediklərini əks etdirir. Məsələn: “Qadın o kişidən üz döndərdi?” Heç bir halda obyektlərə müştərinin faktiki təcrübəsindən mənalar verilməməlidir: “Siz ərinizdən üz çevirirsinizmi?”, hətta müştəri qadını özü, kişini isə əri kimi tanısa belə. Bu, müştərinin özünü təhlükəsiz hiss etməsinə imkan verəcək neytrallığı təmin edir.

Müştərinin dünyanı necə təsvir etdiyini təhlil edərək, psixoloq nimçədə hansı problemlərin əks olunduğu barədə fərziyyə irəli sürür. Tikinti və dünya turu zamanı əsas şey kimi görünən heç bir şey nəzərə çarpmırsa, müştərinin əhəmiyyətli hesab etdiyi hər hansı bir konfiqurasiya ilə dialoqa başlaya bilərsiniz. Narahat bir müştəri ilə ünsiyyət qurarkən ən yaxşısı ən sakit yerdən başlamaqdır. Çox vaxt maraqlı bir hekayənin inkişafını gecikdirmək müştəriyə daha intensiv işə hazırlaşmaq və özünü təhlükəsiz hiss etmək imkanı verir.

Misal üşün, gəlincik psixoterapiyası emosiyaları tənzimləməyə, özünü ifadə etməyi öyrənməyə, valideynlər, qardaş və bacılarla münasibətləri yaxşılaşdırmağa köməklik edə bilər. Gəlincik teatrında oynamaq uşaq psixoterapiyasında özünü ifadə etməyin ən əsas vasitələrindən biridir. O, uşaqların ünsiyyət qurması üçün təhlükəsiz kanalların yaradılmasını və inkişafını təmin edir. Gəlinciklərin anonimliyi uşaqlara öz fikirlərini və hisslərini sərbəst ifadə etməyə imkan verir. Oyun zamanı gəlincik “deyilənlərə” görə məsuliyyət daşıyır, uşaq icə yox. Danışan identifikasiyaların köməyi ilə uşaqlar valideynlərə, qardaş və yaxud bacılarına qarşı bütün düşmənçilik və incəliklərini ifşa edirlər. Gəlincik ailəsinə əlavə olaraq, oyunda təcavüzə səbəb olmaq üçün timsah və yaxud canavar gəlinciyin, istəkləri yerinə yetirmək üçün bir sehrbaz gəlinciyin olması da məsləhətdir. Çox vaxt uşaqlar gəlinciliklərlə özlərini və ətrafında olan digər insanları identifikasiya edirlər [5, səh. 42-43].

Gil psixoterapiyası. Gilin üç əsas üstünlüyü-həcm, plastiklik və çoxyönlülük. Oyun psixoterapiyası zamanı bədii alətin seçimi çox vaxt müştərinin təbiətindən asılıdırsa, gil tamamilə hər kəs üçün uyğundur. İnadkar, güzəştə getməyi bilməsi nə gözəl şeylərin baş verə biləcəyini göstərir. Aqressiv - sakitləşdirir, həddindən artıq emosiyaları idarə etməyi öyrədir. Əmin deyiləm – qorxuları reallaşdırmaq və onlardan qurtulmaq. Bəzən, gil psixoterapiyası seansları zamanı müştəridən gözlərini bağlaması xahiş olunur: bu, arxetipik səviyyəyə çatmağa kömək edir və əllərinə güvənərək, çox xəstələri kor edir. Gil kiçik yaşlı uşaqlar üçün xüsusi əhəmiyyət kəsb edən bir

materialdır. O, həm yaradıcı, həm də dağıdıcı impulslar üçün çıxışlar təmin edir. Gil kortəbii manipulyasiya və təsadüfi obyektlərin yaradılması imkanlarını açır ki, bu da çox vaxt uşağın sistemli yaradıcı fəaliyyətinə səbəb olur. Beş yaşlı Vaqif gil topunu yuvarladı və parçaladı. O, birini götürüb dedi: “Bu ilana oxşayır. Çınqıllı ilan düzəldirəm”. Sonrakı on dəqiqə ərzində o, bu tapşırığın üzərində böyük konsentrasiya ilə çalışdı, detalları işlədi və zəhərli ilanlar haqqında fantaziyalarını söylədi. Gil, hər hansı digər materiallardan daha çox, uşaqlara bədənin quruluşu, nəcis və cinsiyyət orqanlarına dair gizli maraqlarını əyani şəkildə ifadə etməyə imkan verir. Gil uşaqlarda vizual valideynlər, qardaşlar/bacılar və həyat haqqında doğru və yalan fikirlərini, cinslər arasındakı fərqlərin sirrini formalaşdırır.

Ailə psixoterapiyası

Psixoloqları ən çox narahat edən ailə problemlərinin həlli ilə bağlı istiqamətlərdir. Ailə psixoterapiyasında, sistemli yanaşma çərçivəsində, Palo Alto məktəbindən çıxan ailənin kommunikativ psixoterapiyası seçilir. Bu sahənin aparıcı simaları Q.Beytson, C.Heyli, D.Cekson və P.Vatslavikdir. M.Nikolsa (Nickols, 1984) görə kommunikativ psixoterapiya ümumiyyətlə ailənin psixoterapiyasının inkişafına böyük təsir göstərmişdir. Ailənin kommunikativ psixoterapiyasının məqsədi P.Vatslavik tərəfindən formalaşdırılmışdır: “Zəif işləyən qarşılıqlı təsir modellərini dəyişdirmək üçün şüurlu hərəkətlər” (Watzlawick, 1967). Qarşılıqlı əlaqələr (interaksiyalar) - kommunikasiya ilə sinonim olduğu üçün bu, psixoterapiya prosesində ünsiyyət formalarının da dəyişməsi lazım olduğunu göstərir. Ailənin kommunikativ psixoterapiyasının başlanğıcında, xüsusilə V.Satirin əsərlərində ilk növbədə ümumi məqsəd - ailədə ünsiyyəti yaxşılaşdırmaq irəli sürülmüşdür. Sonrakı inkişaf ailənin psixoterapiyasının məqsədlərinin daralmasına gətirib çıxarmışdı, yəni diqqət simptomu dəstəkləyən ünsiyyət vasitələrinə yönəldilmişdi (Watzlawick, 1974). Aktual təcrübələrin keyfiyyəti həm psixoloji sağlamlıq üçün bir meyar, həm də psixoterapevtik müdaxilənin mərkəzidir. Eksperiensial psixoterapevtlər hesab edirlər ki, emosional ifadə ailədə həm təcrübənin ötürülməsi, həm də şəxsiyyətin reallaşması üçün bir vasitədir. Alman ilahiyyatçısı, filosof, psixoterapevt, ruhani müəllim Bert Hellingerin (Bert Hellinger) banisi olduğu “ailənin sistemli tənzimlənmə” metodu ailə psixoterapiyasının müstəqil məktəbi deyil, lakin o, ailənin sistemli psixoterapiya sahələrindən birinə aid edilsə də (növbəti fəsillərdə sistemli ailənin psixoterapiyası geniş şəkildə veriləcək) sistemli psixopterapiyanın texnikalarından tamamilə fərqlidir və mütəxəssislərin fikrinə görə, ailənin problemlərinin həlli üçün təsirli psixoterapiya metodudur.

Avropa və ABŞ-da hal-hazırda daha şox istifadə olunan foto-psixoterapiya texnikasıdır. Foto psixoterapiyada psixoloji problemləri həll etmək, həmçinin şəxsiyyəti inkişaf etdirmək və uyğunlaşdırmaq üçün fotoqrafiya və ya slaydlardan istifadəyə əsaslanan psixoterapiyadır. Foto-psixoterapiyanın əsas məzmunu müzakirə və müxtəlif yaradıcı fəaliyyətlərlə, o cümlədən təsviri incəsənət, hərəkət, rəqs, hekayə və şeirlər yazmaqla tamamlanan foto şəkillərin yaradılması və ya qavranılmasıdır. Fotoqrafiyanın şəxsiyyətə müsbət təsiri və onun xarici dünya ilə əlaqəsi həm psixoloqla birlikdə fotoşəkillərə (slaydlara) baxarkən və müzakirə edərkən, həm də qrup dərsləri zamanı qrup üzvləri ilə özünü müsbət təsiredici göstərə bilər.

Oyun psixoterapiyası

Uşaq və yetkinlərin davranış pozuntularını aradan qaldırmaq yollarından biri də oyun psixoterapiyasıdır. Oyun – sözsüz ki, uşaqlarla aparılan psixoterapevtik iş zamanı daha çox yayılmış və psixoterapiya məktəbinin istiqamətindən asılı olmayaraq istifadə olunan metoddur. Oyunun bir necə metaforik tərifləri vardır. Bu, həm “uşaq aləmi”, həm də “uşağın fəaliyyəti” və s. sayıla bilər. “Uşaq” və “uşaqlıq” sözləri ilk növbədə oyunla assosiativdir. D.B.Elkoninin sözlərinə görə, oyun problemlərinə və oyunun uşağın həyatında rolu və mənası mövzusuna toxunmayan uşaq psixologiyasında çalışan mütəxəssis tapmaq çətindir. “Uşağın və hətta yetkin insanın həyatında oyunun əhəmiyyəti və mənası nədir və onun təməlində nə durur” suallarına praktiki psixologiyada çalışan mütəxəssislər hər zaman cavab verməyə və bu mövzunu öyrənib - araşdırmağa çalışıblar. İlk növbədə bu, spontan, yəni təbii bir fəaliyyətdir, insanın həyatında oyunun xüsusi bir məqsədi yoxdur – uşaq və ya yetkin insan ona görə oynayır ki, bundan ilk növbədə emosional həzz alır, bütün

problemlərdən fikrini yayındırır və sonda motorikasını hərəki-dinamik inkişaf etdirir. Oyunun motivi onun nəticəsində yox, onun prosesində saxlanılır. Bir qayda olaraq, oyun zamanı maddi dəyərlər yaradılmır, lakin oyunçu hərəkətin özündən müsbət emosiyalar yaşayır. Oyun insanın yeni şeylər öyrənmək və ətrafındakı dünyanı mənimsəmək istəyi ilə ayrılmaz şəkildə bağlıdır. Böyüklərin həyatında da oyun mühüm rol oynayır. O, asudə vaxtı doldurur, istirahət ehtiyacını ödəyir, emosiyalar və yeni təəssüratlar bəxş edir, gündəlik həyatdan kənara çıxmağa və öz qaydalarınızın və nizamınızın hökm sürdüyü fərqli oyun dünyasına qərq olmağa imkan verir. Oynadıqdan sonra yaddaşda bir növ yaradılış və ya dəyər kimi qalır, ənənə kimi ötürülür, eyni zamanda oyun həmişə unikaldır, eyni oyunu iki dəfə dəqiq təkrarlamaq mümkün deyil. Oyun bizə hadisələri simulyasiya etməyə, təhlükəsiz, rahat mühitdə özümüzü ifadə etməyə çalışmaq imkanı verir. Oyun psixoterapiyasında əsasən istifadə olunan avadanlıq və şərait oyun üçün xüsusi otaq, oyun materialları və oyun dəstləridir. Uşaq psixoterapiyasında oyun otağının ölçüsü və mebeli çox vacibdir.

Müsbət psixoterapiya münaqişələrin idarə edilməsinin psixodinamik modelindən istifadə edən və transkultural xüsusiyyətlərə həssas olan qısamüddətli humanist metoddur. Metodun adı latın "pozitum" sözündən gəlir - reallıqda verilən, faktiki vəziyyət. Metod 1968-ci ildə Almaniyada (Visbaden) N. Pezeşkian tərəfindən hazırlanmışdır. Yanaşmanın əsas prinsipləri bunlardır: 1) ümid prinsipi - insan qabiliyyətlərinə və resurslarına vurğu; 2) balans prinsipi - 4 həyat sahəsinin (bədən, fəaliyyət, əlaqələr, mənalar) tarazlığı modeli əsasında müştərinin vəziyyətinin təhlili; 3) konsultasiya prinsipi strukturlaşdırılmış 5 addımlı məsləhət modelinin istifadəsidir. Bu gün ən çox tənqid edilən üsullardan biri, əsas şikayəti insanın reallıqdan qaçaraq müsbət illüziyalara qapılmasıdır ki, bu da böyüməyə, özünü əks etdirməyə, özünü reallaşdırmağa və daha çox şeyə ciddi təsir göstərə bilər.

Nəticə

Öz elmi işimizdə, sözsüz ki, hal-hazırda praktiki psixologiyada tətbiq oluna bilən müxtəlif psixoterapiya istiqamətləri və texnikaları göstərə bilmərik, lakin bir neçəsini təhlil etməyə çalışdıq. Geniş mənada davranışçılıq psixologiyada insan davranışını və insan davranışına təsir yollarını öyrənən bir istiqamətdir. Klassik davranışçılığın əsas metodu riyazi olaraq təsvir edilə bilən bu dəyişənlər arasında korrelyasiyaları müəyyən etmək üçün ətraf mühitin təsirlərinə cavab olaraq orqanizmin reaksiyalarının müşahidəsi və eksperimental öyrənilməsidir. Geştalt terapiyası – Metodun adı alman gestaltından gəlir – “forma”, “struktur”. “Geştalt” termini psixikanın təhlili vahidi kimi başa düşülür və şüurun hissələrinin cəminə endirilə bilməyən inteqral formalaşmalarını ifadə edir. Geştalt terapiyası sizə özünüzü hərtərəfli başa düşməyə kömək edir və keçmiş dünya və gələcək haqqında fantaziyalar deyil, burada və indi yaşamağa başlayır. Metod psixoanalitik yanaşmanın (şüursuz hisslərin şüura çevrilməsi) və humanist yanaşmanın (“özü ilə razılaşmaya” vurğu) elementlərini birləşdirir. Humanist psixologiyada ilk dəfə olaraq əxlaqa müraciət var, çünki insan həm də etik mövqedən baxılır. İnteqrativ transpersonal psixoterapiya - bir-birini tamamlayan və gücləndirən tənəffüs texnikası, bədən yönümlü terapiya, art-terapiya, psixosintez elementlərinin birləşməsinə əsaslanır, bu da müştərinin psixikasının dərin səviyyəsində işləməyə imkan verir, “yandan keçmək”. psixoloji müdafiə mexanizmləri və repressiya edilmiş duyğulara və təcrübələrə (katarsis) emosional və fiziki reaksiyaya nail olmaq. Bu psixoterapiya prosesində müştərinin konkret travmatik təcrübə və vəziyyətlərlə bağlı həyat mövqeyi dəyişə bilər. Bütün bu nəticələr müştərinin dəyişdirilmiş şüur vəziyyətlərinə nail olması sayəsində inteqrativ transpersonal psixoterapiya ilə əldə edilir.

ƏDƏBİYYAT

1. Hüseynov E.A., Yaş Psixologiyası, Bakı, 2015, 86 s.
2. Hüseynov E.A., Psixoloji korreksiya işi, Bakı, 2003, 102 s.
3. Hüseynov E.A., Ailənin psixoterapiyası, Bakı, 2021, 386 s.
4. Бурно М.Е., Терапия творческим самовыражением, М., 1999, 364 с.

5. Браун Дж., Кристенсон Д., Теория и практика семейной психотерапии. С/Питерб, 2001, 352 с.
6. Киселева М.В., Арт-терапия в практической психологии и социальной работе, С/Петерб., 2007, 336 с.
7. Практикум по арт-терапии // под ред. А.И.Копытина, М., 2000, 381 с.
8. Спиваковская А.С., Психотерапия: игра, детство, семья. М., 2002, 254 с.

Эльмар Афис оглы Гусейнов
Азербайджанский Университет Кооперации
профессор кафедры «Социальные науки и образование»
elmar-boks@rambler.ru

Различные направления психотерапии и техники в практической социальной психологии

Резюме

Цель исследования - В Азербайджане, как и в других странах, в последние годы мы можем наблюдать бурное развитие и внедрение новых технических направлений психотерапии и психокоррекции в социальной психологии, их использование на практике. Игровая и художественная психотерапия, семейная психотерапия и др. представляют большой интерес для специалистов и потенциальных клиентов. — это методы, связанные с раскрытием потенциала развития личности и группы, высвобождением ее скрытых энергетических резервов и, в конечном итоге, поиском лучших способов решения ее поведенческих и коммуникативных проблем.

Методика исследования – в исследовательской работе использовались различные подходы, логическое обобщение, сравнительный анализ и другие методы.

Прикладное значение исследований – Нет такой области человеческой деятельности, в которую не проникла бы наука психология. Высоких результатов можно достичь, если правильно и по месту использовать психо-гуй. По современному мировому стандарту изучение направлений и методик практической психологической психотерапии считается актуальной темой исследования.

Результат исследования – изучение социально-психологических закономерностей психотерапии специалистами в этой области помогло практическим психологам решить психолого-методологические проблемы, прежде всего теоретико-психологические проблемы психотерапии, систематизирующие функции и т.д. углубленно усваивать информацию и оценивать эти знания в практической деятельности.

Оригинальность и научная новизна исследования. Как отмечали молодые психологи: «Когда клиент впервые обратился за психотерапией, я помнил только то, чему нас учили. Мне пришлось поискать в памяти эти понятия, и оказалось, что я знаю все». Мы считаем, что наши исследования помогут более прочно восстановить в памяти практическую информацию.

Elmar Afis Huseynov
Azerbaijan Cooperation University professor of the "Social Sciences and Education" department
elmar-boks@rambler.ru

Various areas of psychotherapy in social psychology availability of equipment

Summary

The purpose of the study - In Azerbaijan, as in other countries, in recent years, we can observe the rapid development and adoption of new technical directions of psychotherapy and psychocorrection in social psychology, their use in practice. Play and art psychotherapy, family psychotherapy, etc. are of great interest to professionals and potential clients. are methods related to revealing the development potential of the individual and the group, releasing its hidden energy reserves, and ultimately finding the best ways to solve its behavioral and communication problems.

Research methodology - various approaches, logical summarization, comparative analysis and other methods were used in the research work.

The applied importance of research - There is no field of human activity that the science of psychology does not penetrate. High results can be achieved if psycho-gui is used correctly and in place. According to the modern world standard, the study of the directions and techniques of practical psychology psychotherapy is considered an actual research topic.

The result of the research – the study of the socio-psychological regularities of psychotherapy by experts in this field helped practical psychologists to solve psychological-methodological problems, first of all, theoretical-psychological problems of psychotherapy, systematizing functions, etc. to acquire information in depth and evaluate this knowledge in practical activities.

Originality and scientific novelty of research – As young psychologists noted: "When a client first applied for psychotherapy, I remembered only what we were taught. I had to look for those concepts in my memory and it turned out that I know everything." We believe that our research can help restore practical information more firmly in memory.

UOT: 070

Vəfa Zahid qızı İSGƏNDƏROVA
Bakı Dövlət Universitetinin müəllimi,
Filologiya üzrə fəlsəfə doktoru
Vafa1.aslan@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2025.001.0226

DATA JURNALİSTİKA KONTENTİNİN HAZIRLANMASINDA KREATİV YANAŞMALAR

Xülasə

Yeni texnologiyanın, mobil qurğuların inkişafı ilə əlaqədar olaraq multimediada yeni trendlər yaranır, konvergent məhsullar geniş yayılır. Tətbiq olunan yeni formatlarda çoxlu sayda datalardan (verilənlərdən) istifadə olunur. Həmin dataların yeni media araşdırmalarına inteqrasiyası araşdırma jurnalistikası, xüsusilə də data jurnalistika sahəsi üçün yeni imkanlar açır. Jurnalistlər həm ənənəvi jurnalistikada, həm də yeni mediada hazırladıqları media məhsullarında hər zaman verilənlərdən istifadə etsələr də, data jurnalistika daha böyük datalardan (verilənlərdən) ibarət olan bir sahədir. Onun kifayət qədər yüksək səviyyədə inkişafı isə hər bir mərhələsinin diqqətlə tərtibatı, eyni zamanda kontentinin bütün prosesə uyğun olaraq yazılması ilə şərtlənir.

Bu tədqiqatın **məqsədi** data məhsulun məhz sonuncu mərhələsi olan kontent-hekayə bölümünə kreativ yanaşmaların mahiyyətini araşdırmaq və onun Azərbaycan mediasında necə tətbiq edilməsini göstərməkdir.

Metodologiya - Burada müxtəlif media subyektlərinin monitorinqi və mövzu ilə bağlı elmi əsərlərin təsvir analizindən istifadə olunmuşdur.

Tədqiqatın nəticələri - araşdırmaya cəlb edilən media subyektlərinin data məhsullarının hekayə hissəsinə nə dərəcədə kreativ yanaşmalarını müşahidə edərək beynəlxalq təcrübəyə nə dərəcədə əməl olunmasını görmək və müəyyən nəticələr əldə etməkdir.

Tədqiqatın elmi yeniliyi və orijinallığı – məqalədə ilk dəfə olaraq data jurnalistika məhsulunun hazırlanmasının sonuncu mərhələsi olan hekayə yazmaya kreativ yanşmalar araşdırılmış və onun Azərbaycan internet mediasında implementasiyası analiz edilmişdir.

Açar sözlər: media, verilənlər, data baza, kontent, hekayə, statistika.

Giriş

Əslində data jurnalistikanın tarixi çox qədimlərə gedib çıxır. Çünki verilənlərin statistik göstəriciləri primitiv olaraq xəritə, cədvəl kimi müxtəlif formalarda əsrin əvvəllərində xəbərin tərkibində təqdim edilirdi. Bu tip təsvirlər çap maşınının icadından əvvəl divar və taxta lövhələr üzərində, iplik məmulatlarda da həkk oluna bilirdi. Ancaq texnologiya inkişaf etdikcə jurnalistikanın da xarakteristikası dəyişmiş və yeni trendlər meydana gəlmişdir.

Jurnalistikada inkişaf bir çox istiqamətlər üzrə gedir. Uzun müddət araşdırılan tipik televiziya şəbəkə sənədli filmləri, adətən irəliləyişlərlə izah olunan, yaradılması gərgin əmək tələb edən böyükhəcmli jurnalistikadır. Bəzən isə radio xəbərləri qısaldılaraq, bir neçə sətir uzunluğunda parçalardan ibarət olur. Televiziyada 24/7 xəbərlər formatının tətbiqi və internet bir çox xəbər xidmətlərinin kadr məsələsini qəlizləşdirdi. Məhdud sayda olan müxbirlərin eyni materialı yenidən paketləşdirib çoxsaylı qurumlara təqdimetmə ehtiyacından tezbazar süjetlərin xəbərlənməsi doğuldu. Yekun budur: xəbər xidmətlərindən çox vaxt və resurslar tələb edən mühüm məzmunlu xəbərlərin azalması [3, s. 118]. İstənilən halda müasir dövrdə medianın inkişafı kontekstində yeni trendlərin meydana gəlməsi daha çox texnoloji proqresdən irəli gəlir.

John Pavlik qeyd edir ki, yeni texnologiyalar jurnalistlərə rəqəmsal materialların hazırlanması yönündə bir neçə cür kömək edir:

1. Şəkil və video əldə etdikdə və redaktə etdikdə;

2. Əl yazılarının və səsin köçürülməsində;
3. Mobil texnologiyalardan jurnalist aləti kimi istifadə etdikdə [1, səh. 27].

Bəzi tədqiqatçıların yeni trendlərdən biri kimi hesab etmədikləri data jurnalistika özünün yavaş inkişaf dövrünü yaşayır. Tədricən rəqəmsal platformaların geniş vüsət alması ilə data jurnalistlərin də işi asanlaşmış, fəaliyyət spektrləri genişlənməyə başlamışdır.

Hazırda dünyanın hər yerindən jurnalistlər getdikcə daha çox şəbəkələşən həyatlarımızın, cihazların, bizneslərin və hökumətlərin hər gün istehsal etdiyi çoxlu sayda datalardan (verilənlərdən) istifadə edərək maraqlı hekayələr danışmağın həyəcanı və çətinliyi ilə mübarizə aparırlar. Data jurnalistikasının potensialı böyük olsa da, onun bütün mediada tətbiqi ilə bağlı tələblər və çətinliklər rəqəmsal savadlılıqdan tutmuş xəbər otaqlarında məhdud resurslar uğrunda rəqabətə qədər eyni dərəcədə əhəmiyyətlidir [5]. Odur ki, əslində elmi və praktik ədəbiyyatlarda dörd deyil, daha çox mərhələdən keçən data jurnalistika məhsulunun hazırlanması böyük məsuliyyət tələb edir. Çünki böyük data, çoxlu sayda statistik məlumatlar hələ böyük xəbər, dərin araşdırma demək deyil. Mövzu seçimindən sonra vacib verilənlərin toplanması, filtrasiyadan keçərək təhlil edilməsi, vizuallaşdırılması və ona adekvat hekayənin əlavə edilməsi auditoriyanın zamanına və marağına uyğun olmalıdır. Çox uzun prosesdən keçən məqsədəuyğun vizual kontent hazırlandıqdan sonra auditoriyanın diqqətini cəlb edəcək və onun asan qəbul edə biləcəyi sözlü məzmunun çox böyük rolu vardır. Həmçinin mətnlə vizual hissə bir-birini tamamlamalıdır.

Sadə dillə desək, data jurnalistikanın izahı rəqəmlərə əsaslanan, faktlarla hazırlanan xəbərləmə forması deməkdir. Lakin bu, data jurnalistika cədvəllərdə verilən rəqəmlərin kolleksiyasıdır. Bəli, 20 il əvvəl belə idi, jurnalistlər cədvəldə verilən informasiya əsasında izahedici yazılar yazırdılar. Lakin rəqəmsal dünyada rəqəmlə ifadə edilən hər şey data jurnalistika üçün mənbə ola bilər [1, səh 49].

Hekayələrin data jurnalistika məhsulunda rolu

Data hekayələr data jurnalistika məhsulunda vizual elementləri izah edən verbal (sözlü) hissədir. Belə ki, “Data (verilənlər) hekayələri” termini bizim təhkiyə ilə məşğul olduğumuzu göstərir. Təhkiyə, Alan Bell (1991) tərəfindən müvəqqəti olaraq qurulmuş və bir-biri ilə (güclü və ya zəif) səbəb əlaqəsi ilə bağlı olan hadisələrin ardıcıllığı kimi müəyyən edilir. Jahn (2017) hekayəni oxşar şəkildə, “personajların iştirak etdiyi hadisələrin ardıcıllığı” kimi müəyyən edir; daha sonra hadisələri “təbii və qeyri-təbii hadisələr” kimi təsvir edir [4].

Hazır data məhsullarda təqdim edilən təhkiyə hissəsinə hekayə, mətn və ya kontent də demək mümkündür. Əsas məsələ ondan ibarətdir ki, hekayə mütləq şəkildə mövzunu əhatə etməli və seçilən vizual görüntüyə uyğun olmalıdır. Ümumən, araşdırıcı Dykesın fikrincə, data hekayə məlumatın mahiyyətini çatdırmaq üçün strukturlaşdırılmış bir yanaşmadır və o, üç əsas elementin birləşməsini əhatə edir: data, vizuallıq və təhkiyə. Burada gördüyümüz təhkiyə termini mətn linqvistikasında hekayə üsulunda olan təsvir, izahat və arqumentasiya mətn üsullarından bir qədər fərqlənir [2, səh. 296]. Fərq ondan ibarətdir ki, digər jurnalistik yazılarda əsasən publisistik yanaşmalar sərgilənir, bədii təxəyyül işə düşür. Data jurnalistika məhsulunda isə konkret detalların, qrafik materialların qısa təsviri və ya izahatı təqdim edilir. Bu zaman jurnalistdən operativlik, araşdırma materialının əsas mahiyyətini duyma qabiliyyəti və kreativ yanaşma tələb edilir. Burada yazılan qısa mətnin hər bir cümləsinin özünəməxsus yeri və rolu vardır. Təqdim edilən mətn həm lakonik, həm də əhatəli olmalıdır.

Bir çox media şirkətlərdə data jurnalistika məhsullarının hazırlanmasında böyük bir komanda çalışır. İnformasiya texnologiyaları biliklərinə və analitik təhlil bacarıqlarına sahib olan mütəxəssislərlə yanaşı, öz yaradıcı qabiliyyətləri ilə seçilən jurnalistlər yaxşı hekayə qurmaqla mükəmməl nəticə əldə edə bilirlər. Jurnalistlər hekayə haqqında danışarkən, onlar təkcə “rəvayət etmək” deyil, həm də təsvir etmək, izah etmək və mübahisə etmək kimi digər mətn-linqvistik təcrübələri nəzərdə tuturlar. Bu mətn-linqvistik təcrübələri Brinker bir mövzunun təqdim oluna biləcəyi dörd əsas yolu fərqləndirmişdir: təsviri, təhkiyəvi, izahedici və arqumentativ. Beləliklə, tədqiqatçılar nəzəri olaraq təsvir etmək, nəql etmək, izah etmək və mübahisə etməyi bir-birindən fərqləndirirlər [5].

Araşdırıcıların fikrincə, məlumat hekayələrinin hazırlanması üçün üç əsas nümunə var: (I) mərhələli dramaturgiya ilə xətti, yəni müəllifə əsaslanan yanaşma; (II) qeyri-xətti, yəni tədqiqatçı və oxucuya əsaslanan yanaşma; (III) Martini şüşə strukturu kimi tanınan, həm müəllifə, həm də oxucuya əsaslanan qarışıq hibrid xətti-qeyri-xətti model. Segel və Heerin fikrincə, “Martini şüşə strukturu”nda istifadəçilər addım-addım vizuallaşdırmaya rəhbərlik edir və onlar axırda məlumatları özləri araşdıra bilərlər [5]. Bütün bunlar jurnalistin bədii-publisistik yaradıcılıq qabiliyyəti ilə sıx bağlıdır. Onu isə fitri istedadla yanaşı, tədricən inkişaf etdirmək mümkündür. Digər vacib məsələlərdən biri də odur ki, data jurnalistika məhsullarında robotik yanaşmalar vacib olsa da, mətn yazan jurnalistlər uzun zaman araşdırma apardıqları konkret sahələrdə daha peşəkar yanaşmalar sərgiləyə bilərlər. Bu da jurnalistikada ixtisaslaşma problemi ilə sıx bağlıdır.

Bir sözlə, data jurnalistika məhsulu hazırlanmasının sonuncu mərhələsi olan hekayə-kontent əlavəetməni daha uğurlu icra etmək üçün bir sıra jurnalist strategiyalarını bilmək gərəkdir.

1. Maraqlı hekayə tapın. Faktlar haqqında məlumat vermək və onlar arasında əlaqə yaratmaqla yanaşı, darıxdırıcı olmayın. Siz tamaşaçının vaxtı və diqqəti üçün yarışırsınız, buna görə də diqqətli olmaq lazımdır. Hekayə strukturunu tapmaq da vacibdir. Bu həqiqətən izah edəcəyiniz hekayənin olub-olmadığını qərara almağa kömək edəcək.

2. Auditoriyanız haqqında düşünün. Tamaşaçılar mövzu haqqında nə bilirlər? Bu, qərar qəbul edənlər, ümumiyyətlə maraqlı tərəflər və ya başqaları üçün nəzərdə tutulub? Vizualizasiya auditoriyanın artıq malik olduğu məlumat səviyyəsi ətrafında çərçivəyə salınmalıdır.

3. Obyektiv olun və balans təklif edin. Vizuallaşdırma qərəzdən uzaq olmalıdır. Təsir etmək üçün mübahisə etsə belə, məlumatların dediklərinə əsaslanmalıdır - sizin söyləmək istədiyinizə deyil.

4. Senzuraya yol verməyin. Əgər siz auditoriyanıza məlumatın “dediklərini” ən yaxşı şəkildə təqdim etdiyinizə əmin deyilsinizsə, daxil etdiyiniz və ya istisna etdiyiniz məlumatlarla bağlı seçici olmayın.

5. Nəhayət, bir neçə dəfə redaktə etmək gərəkdir. Həmçinin, məlumatları sadəcə bəzəmək üçün deyil, həqiqətən izah etməyə çalışın. Məlumatları izah etməyin ən yaxşı yolu olmaya bildiyi zaman “gözəl görünür” tələsinə düşməyin. Jurnalistlərin və yazıçıların bildiyi kimi, əgər siz vizualizasiyanı yaratmaqdansa, redaktə etmək və təkmilləşdirmək üçün daha çox vaxt sərf edirsinizsə, yəqin ki, nəyisə düzgün edirsiniz [4, səh. 76-77].

Bunlarla yanaşı, jurnalistlər bilməlidirlər ki, əsas məsələ mövzu seçimi ilə başlayır, daha sonra həmin mövzuya hansı qrafik üsulun tətbiqinin qənaətbəxş olması və təbii ki, kreativ cümlələrin mətn kimi əlavə edilməsi auditoriyanın diqqətini cəlb edə bilər. Unutmaq olmaz ki, müasir oxucu olduqca tələbkar və kaprizlidir. Buna görə də peşəkar data jurnalistika məhsulu adekvat rəngli infoqrafik vizuallardan, analitik təhlildən və yaradıcı yanaşmadan ibarət balanslı şəkildə tərtib edilib auditoriyaya təqdim edilməlidir.

Azərbaycan onlayn mediasında data təqdimatlar

Azərbaycanda fəaliyyət göstərən bir sıra onlayn media subyektlərinin data məhsullarının monitorinqi onu göstərir ki, jurnalistlər bu sahədə hələ qeyri-peşəkarlıq göstərirlər. Çünki böyük komanda şəklində fəaliyyət göstərən komandalardan fərqli olaraq, bir jurnalistin bütün mərhələlərin mükəmməl şəkildə öhdəsindən gəlməsi çətindir. Bir çox yerli data jurnalistika məhsullarının müşahidəsi onu göstərir ki, müəlliflərin kreativ yanaşmaları, alətlərdən istifadə və hekayəsöyləmə bacarıqları yaxşı perspektivlər vəd etmir. Məsələn, Modern.az saytında 20 sentyabr 2022-ci ildə yayımlanan “Azərbaycanda uşaqların sayı azalıb” başlıqlı yazıda mövzu ilə bağlı çox primitiv hazırlanmış infoqrafika təqdim edilir [9]. 17 may 2024-cü ildə yayımlanan “Türkiyə əhalisinin 15 faizindən çoxu gənclərdir” başlıqlı yazıda statistik rəqəmlər göstərilir və Türkiyənin TRT Haber saytında təqdim edilən infoqrafika verilir (https://modern.az/news/470363/). Eyni saytın “Dünya əhalisinin neçə faizi oruc tutur?” adlı yazısında Oruc tutan insanların sayı ilə bağlı verilənlər təqdim edilir və İslamic Finderə aid olan infoqrafika verilir [8].

13 yanvar 2023-cü ilin “Bugünkü artımlar kimlərə şamil olunur” başlıqlı yazısında

Qafqazinfo.az saytı təqaüd və müavinətlərlə bağlı olan bir neçə izahlı infoqrafikadan mükəmməl şəkildə istifadə etmişdir. Son illərin statistik məlumatlardan ibarət yazılarında sayt ya vizual formatlardan istifadə etməmiş, ya da Pew Research Centerin və digər mənbələrin infoqrafikalarından yararlanmışdır.

Azərbaycanın çox tanınmış internet media resurslarından biri olan Oxu.az saytında data məhsulların vizual elementləri ya sosial şəbəkələrdən, əsasən də rəsmi şəxslərin X platformasındakı postlarından, ya da Sputnik, RBK kimi digər mənbələrdən götürülmüşdür. Məsələn, 27 iyun 2023-cü ildə yayımlanan "Qurban kəsilən ölkələrdə qoyunların fərqli qiyməti: Azərbaycan neçənci yerdədir?" başlıqlı yazıda Sputnik saytından götürülmüş infoqrafikadan istifadə olunmuşdur.

Aparılan monitorinq onu göstərir ki, Trend İnformasiya Agentliyinin müxtəlif mövzularda, əsasən iqtisadiyyatla bağlı xəbərlərində və Milli.az saytının araşdırmalarında heç bir infoqrafika verilməmişdir. Eyni zamanda APA informasiya portalının saytında heç bir mövzuda vizual təqdimatlara rast gəlinmir.

Azərbaycanın ən böyük informasiya agentliyi olan Azərtacın xüsusi infoqrafika bölümündə müxtəlif mövzularda rəngarəng infoqrafikalara kifayət qədər mükəmməl şəkildə yer verilir. Ancaq bir cümlədən ibarət həmin infoqrafiklərin hekayə-mətn əlavələrinə rast gəlinmir. Monitorinq nəticəsində onu da söyləmək olar ki, heç bir yerli onlayn media resursunda xəritələrdən və digər fərqli qrafik vizuallardan istifadə olunmur.

2012-ci ildə yaradılan Marja saytı biznes və maliyyə xəbərləri agentliyi hesab olunur. Burada yayımlanan əsasən iqtisadiyyat yönümlü yazılarda çoxlu sayda infoqrafik vizuallardan istifadə olunur. "Neft Fondunun 2024-cü ilin ilk 9 ayı üzrə investisiya fəaliyyətinin yekunları" adlı yazıda həm xəritədən, həm cədvəllərdən, həm də müxtəlif formada qrafikalardan istifadə olunmuşdur [12]. Ancaq burada da digər resurslardan götürülmüş infoqrafiklərə rast gəlmək mümkündür. Məsələn, dekabrın 24-də yayımlanan yazıda "Rusiyada polad istehsalı noyabr ayında 9,2 % azalıb" başlıqlı yazıda World Steel Associationun təqdim etdiyi statistik qrafikdən istifadə olunmuşdur. Eyni zamanda avqustun 21-də yayımlanan Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi göstəricilərində müşahidə olunan artımla bağlı olan yazıda NMR Nazirlər Kabinetinin təqdim etdiyi infoqrafiklərdən istifadə olunmuşdur. Ancaq onları izah edən kreativ mətnə yer verilməmişdir [12].

Əsasən biznes və iqtisadiyyat xəbərləri ilə tanınan Margin.az veb saytı da qrafik məlumatlardan istifadə edir. Ancaq orada da əsasən infoqrafika və cədvəllərə yer verilir. Sözlü təsvirdən istifadə olunmur.

Ümumən, aparılan müşahidələr onu göstərir ki, Azərbaycan onlayn media resursları data təqdimatlara az yer verir. Yayımlanan data jurnalistika məhsullarında isə kreativ yanaşmalara, kontent əlavələrinə az rast gəlinir.

Nəticə

Data jurnalistikası son illərdə yaranan və xəbər ekosistemini dəyişdirən sahələrdən biridir. Data jurnalistikası bir sıra xəbər təşkilatlarının onlayn strategiyalarının ayrılmaz hissəsinə çevrilmişdir. Onlar data jurnalistikasını onları xəbər və informasiya saytı olmaqdan daha interaktiv xəbər və informasiya platformasına aparan keçidin bir hissəsi kimi görürlər. Yeni rolunda xəbər təşkilatları oxucularına məzmunla qarşılıqlı əlaqə qurmağın və onu daha da təkmilləşdirməyin yollarını təqdim etmək istəyir və data jurnalistikası bunun üçün geniş imkanlar yaradır. Bəzi tədqiqatçılar və jurnalistlər onu tənqid etsələr də, data jurnalistikanı araşdırma jurnalistikasının gələcəyə yönəlik media sahələrindən biri hesab edirlər.

Gələcəkdə media subyektləri, əsasən də xəbər təşkilatları məlumat-jurnalistika qruplarında və ya heç olmasa məlumatların təhlili prosesinə dəstək verən köməkçi rolda riyaziyyatçılara və statistiklərə də ehtiyac görəcəklər. Çünki artıq qeyd etdiyimiz kimi, bütün bu çətin mərhələlər kreativ bacarığını göstərmək istəyən bir jurnalistin öhdəsindən gələ biləcək işlər deyil. Bunun üçün böyük bir komanda fəaliyyət göstərməlidir. Komandanın mənşəyi və tərtibatı nə olursa-olsun,

orada daim öyrənən və yeni alətlərlə təcrübə aparmağı bacaran peşəkar mütəxəssislərin toplanması zəruridir. Həmçinin onlara məlumatların təhlili, veb inkişafı və icmanın idarə edilməsi bacarıqları da lazımdır, çünki oxucular hekayələrdə yaxından iştirak etməyə dəvət olunurlar.

Bununla yanaşı, uğurlu data jurnalistikası məhsulu yaratmaq üçün ən vacib amil nəyin aktual və maraqlı olduğunu və hansı sualların verilməli olduğunu bilməkdir. Bu da peşəkar jurnalist intuisiyası ilə bağlıdır. Bütün bunlar müəyyən edildikdən sonra məlumatların (verilənlərin) faydalılığı qoyulan suallara cavab tapmaq üçün işə düşə bilər [6].

ƏDƏBİYYAT

1. Yeni media jurnalistikası. Avropa Şurası 2017-ci il
2. Martin Engebretsen, Helen Kennedy. Data visualization in Society Amsterdam University Press. Səh 296
3. Con Vivian. Kütləvi kommunikasiya mediası. Teas Press 2021
4. Vəfa İsgəndərova. Multimediada data analiz metodları. “Əcəmi” nəşriyyatı. 2024
5. https://digitalcollection.zhaw.ch/server/api/core/bitstreams/0b448123-b991-42ee-ad8e-d3f1bf60dfbd/content
6. https://academiccommons.columbia.edu/doi/10.7916/D8Q531V1
7. https://research.tuni.fi/uploads/2020/02/6bc2c8cd-d3.2.1.2.b_hyperlocal_trends_in-data_journalism.pdf
8. https://marja.az/118827/naxcivanin-sosial-iqtisadi-gostericilerinde-artim-musahide-edilib-infoqrafika
9. https://modern.az/aktual/404477/dunyada-muselmanlar-nece-saat-oruc-tutur-infoqrafika
10. https://modern.az/olke/369221/azerbaycanda-usalarin-sayi-azalib-infoqrafika/
11. https://oxu.az/iqtisadiyyat/azerbaycanin-valyuta-ehtiyatlari-artib-infoqrafika
12. https://qafqazinfo.az/news/detail/bugunku-artimlar-kimlere-samil-olunub-izahli-infoqrafika-388132
13. https://marja.az/120786/neft-fondunun-2024-cu-ilin-ilk-9-ayi-uzre-investisiya-fealiyyetinin-yekunlari-infoqrafika

Вафа Захид кызы Исгандарова
преподаватель Бакинского Государственного Университета,
Доктор философии в филологии
Vafa1.aslan@gmail.com

Креативные подходы при подготовке контента для журналистики данных

Резюме

Благодаря развитию новых технологий и мобильных устройств возникают новые тенденции в области мультимедиа, а конвергентные продукты получают широкое распространение. В новых прикладных форматах используется большой объем данных. Интеграция этих данных в исследования новых медиа открывает новые возможности для журналистских расследований, особенно журналистики данных. Хотя журналисты постоянно используют данные в своих медиа-продуктах, как в традиционной журналистике, так и в новых медиа, журналистика данных — это область, которая включает в себя большие объемы данных (данных). Его разработка на достаточно высоком уровне определяется тщательной проработкой каждого этапа, при этом содержание пишется в соответствии со всем процессом.

Цель данного исследования – изучить суть творческих подходов к разделу «контент-история», который является последним этапом производства данных, и показать, как он применяется в азербайджанских СМИ.

Методология – здесь использовался мониторинг различных медиа-тематик и описательный анализ научных работ, связанных с темой.

Результаты исследования заключаются в том, чтобы наблюдать, как субъекты СМИ, участвующие в исследовании, не творчески подходят к повествовательной части информационных продуктов, увидеть, в какой степени соблюдается международная практика, и получить определенные результаты.

Научная новизна и оригинальность исследования - впервые в статье исследованы творческие подходы к написанию рассказов, которые являются последним этапом разработки продукта журналистики данных, и проанализировано их внедрение в азербайджанских интернет-СМИ.

Ключевые слова: СМИ, данные, база данных, контент, сюжет, статистика.

Vafa Zahid Isgandarova
Instructor of Baku State University,
Doctor of Philosophy in Philology
Vafa1.aslan@gmail.com

Creative approaches to data journalism content development

Summary

In connection with the development of new technologies and mobile devices, new trends in multimedia are emerging, and convergent products are becoming widespread. A large amount of data (data) is used in the new formats applied. The integration of these data into new media research opens up new opportunities for investigative journalism, especially the field of data journalism. Although journalists always use data in the media products they prepare in both traditional journalism and new media, data journalism is a field consisting of much larger data (data). Its development at a sufficiently high level is conditioned by the careful design of each stage, as well as the writing of its content in accordance with the entire process.

The purpose of this study is to investigate the essence of creative approaches to the last stage of the data product, the content-story section, and to show how it is applied in the Azerbaijani media.

Methodology - Monitoring of various media entities and descriptive analysis of scientific works on the topic were used here.

The results of the study - to observe the extent to which the media subjects involved in the study approach the story part of the data products creatively, to see the extent to which international experience is followed, and to obtain certain results.

Scientific novelty and originality of the study - for the first time in the article, creative approaches to story writing, which is the final stage of the preparation of a data journalism product, were investigated and its implementation in Azerbaijani internet media was analyzed.

Key words: media, data, database, content, story, statistics

MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!

Azərbaycan Kooperasiya Universitetinin "Kooperasiya" elmi-praktitki jurnalında çap olunmaq üçün məqalə təqdim olunarkən aşağıdakı şərtlər nəzərə alınmalıdır.

- *Məqalələr üç dildə - Azərbaycan, rus və ingilis dillərində çap oluna bilər. Məqalənin yazıldığı dildən əlavə, digər iki dildə xülasəsi bu şəkildə verilməlidir.*
  Tədqiqatın məqsədi –
  Tədqiqatın metodologiyası –
  Tədqiqatın tətbiqi əhəmiyyəti –
  Tədqiqatın nəticələri –
  Tədqiqatın orijinallığı və elmi yeniliyi –
  Açar sözlər – ən azı 5 söz yazılmalıdır.
- *Xülasələrdə həmçinin, UOT indeksi, müəllifinin adı, soyadı, atasının adı, elmi dərəcəsi, işlədiyi təşkilatın adı, vəzifəsi, mail adresi hər üç dildə dəqiq göstərilməlidir (hər biri açıq şəkildə qeyd olunmalıdır).*
- *Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır və istifadə olunmuş ədəbiyyat xülasələrdən əvvəl kodlaşdırma üsulu ilə göstərilməlidir.*
- *Məqalədə 2 yarımbaşlığın verilməsi mütləqdir.*
- *Məqalələrin mətnləri 1 intervalla, Times New Roman - 12 ölçülü şriftlərlə, 8-10 səhifə olmalıdır.*
- *Məqalənin elektron və çap olunmuş variantı ayrıca faylda təqdim edilməlidir.*

Bu tələblərə cavab verməyən məqalələr çap edilməyəcəkdir.

QEYD: Bu şərtlər müəyyənləşdirilərkən Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının dissertasiyaların əsas elmi nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərə verdiyi tələblər əsas götürülmüşdür.

Çapa imzalanmışdır: 15.03.2025
Format: 60x84, 1/8
Fiziki çap vərəqi: 29
Tirajı: 300 nüsxə

Jurnal Azərbaycan Kooperasiya Universitetinin
nəşriyyat-mətbəə şöbəsində yığılıb səhifələnmiş
və çap edilmişdir.
Ünvan: AZ1106, Bakı şəhəri, Nərimanov rayonu,
Nəcəf Nərimanov küçəsi 93.